**BAKI DÖVLƏT UNİVERSİTETİ**

---

# Bakı Dövlət Universitetinin İnstitusional akkreditasiyası üzrə özünütəhlilin nəticələri haqqında HESABAT

Hesabat Bakı Dövlət Universitetinin Elmi Şurasının
2023-cü il 18 yanvar tarixli iclasının qərarı ilə
(protokol № 01) təsdiq edilmişdir

**Tarix** 24.01.2023

**İmza** ______________

**(müəssisənin rəhbəri)**

**M.Y.**

**Bakı - 2023**

## MÜNDƏRİCAT

**I. Giriş ... 3**
1. Təhsil müəssisəsinə dair ümumi məlumatlar ... 11
2. Təşkilat komissiyasının tərkibi və fəaliyyət qrafiki ... 12
3. Təhsil müəssisəsinin öncəki akkreditasiya qiymətləndirilməsi zamanı verilmiş tövsiyələrin icra vəziyyətinə dair ... 22

**II. Təhsil müəssisəsinin özünütəhlili ... 26**
4. Özünütəhlil qiymətləndirilməsinin icmalı ... 26
5. Təhsil müəssisəsinin özünütəhlil nəticələri ... 160
6. Təşkilat komissiyasının gəldiyi nəticələr və qeydlər ... 160

**III. Özünütəhlil Hesabatına əlavə olunan sənədlər ... 170**

# I.GİRİŞ

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin məzunu olduğu və "Azərbaycan xalqının, Azərbaycan Respublikasının milli sərvəti və milli iftixarı" adlandırdığı Bakı Dövlət Universiteti (BDU) mənəvi böyüklüyümüzün simvolu, ölkəmizin böyük bir elm, təhsil və mədəniyyət məbədi, regionun nüfuzlu elm və təhsil mərkəzlərindən biridir. 103 ildən artıqdır ki, Azərbaycan və bir sıra ölkələr üçün yüksəkixtisaslı kadrların hazırlanmasına mühüm töhfələr verən, təbiət-dəqiq və humanitar-sosial elmlərin tədrisini uğurla həyata keçirən BDU ölkəmizin elm və təhsil tarixində, ixtisaslı kadr potensialının zənginləşdirilməsində, milli şüurun formalaşmasında, eyni zamanda Azərbaycanın zəngin tarixi və mədəni irsinin tədqiqində əhəmiyyətli rol oynayır və bu gün də bu müqəddəs missiyanı uğurla davam etdirir. Ölkəmizdə milli universitet missiyasını layiqincə yerinə yetirən BDU Azərbaycanın və bütün müsəlman Şərqinin ilk Avropa tipli ali təhsil ocağıdır. Ümummilli Lider Heydər Əliyev BDU-nun yaradılması kimi mühüm bir tarixi hadisəyə obyektiv qiymət verərək qeyd edirdi ki, XX əsrin əvvəllərindən bəri Azərbaycan elminin yolunu işıqlandıran bir universitetin yaradılması xalqımızın həyatındakı ən əlamətdar hadisələrdən biridir.

BDU 1919-cu il 1 sentyabr tarixində Azərbaycan Xalq Cümhuriyyəti Parlamenti tərəfindən təsis edilmişdir. 1919-cu il noyabrın 15-də Universitetdə ilk dərslər keçirilmişdir. Azərbaycanda sovet hakimiyyətinin qurulmasından sonra – 1922-ci ildə Universitetin adı dəyişdirilmiş və Azərbaycan Dövlət Universiteti adlandırılmışdır. 2001-ci ildə yenidən Bakı Dövlət Universiteti adlandırılmışdır.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 2000-ci il 13 iyun tarixli fərmanı ilə Universitetə özünüidarə (muxtariyyət) statusu verilmişdir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Bakı Dövlət Universitetinin və Azərbaycan Dövlət İqtisad Universitetinin yenidən təşkili haqqında" 2017-ci il 21 iyun tarixli Sərəncamı ilə BDU Azərbaycan Respublikası Təhsil Nazirliyinin tabeliyində publik hüquqi şəxs statusu almışdır. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 16 aprel tarixli 172 nömrəli Qərarı ilə "Bakı Dövlət Universitetinin Nizamnaməsi" təsdiq edilmişdir.

BDU Azərbaycan Respublikası Təhsil Nazirliyinin Akkreditasiya Şurasının qərarına əsasən Nazirliyin 2017-ci il 26 may tarixli 77 nömrəli əmri ilə verilmiş akkreditasiya haqqında Sertifikat (qeydiyyat №010, 7 iyul 2017-ci il) əsasında fəaliyyət göstərir.

Yarandığı ilk illərdə BDU-nun əsas məqsədi Azərbaycanda maarifçiliyin və səhiyyənin inkişaf etdirilməsi olmuşdur. Sonralar isə bütün fəaliyyəti dövründə BDU xalqımızın milli şüurunun, milli özünüdərkinin inkişafında, Azərbaycançılıq ideologiyasının formalaşmasında müstəsna rol oynamış, elm və təhsilin inkişafına əvəzsiz töhfələr vermişdir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2019-cu ildə BDU-nun 100 illik yubileyi mərasimindəki nitqində qeyd etdiyi kimi, "Bakı Dövlət Universiteti 100 il ərzində Azərbaycanın hərtərəfli inkişafına böyük töhfələr vermişdir".

Ötən illər ərzində BDU-nun kadr potensialı və elmi bazası əsasında indiki Azərbaycan Tibb Universiteti, Azərbaycan Dövlət Pedaqoji Universiteti, Azərbaycan Dövlət İqtisad Universiteti, Lənkəran Dövlət Universiteti, Azərbaycan İlahiyyat İnstitutu və

bir sıra digər ali təhsil müəssisələri yaradılmışdır. Azərbaycan Milli Elmlər Akademiyasının yaradılmasında BDU-nun böyük elmi potensialından istifadə olunmuşdur.

1919-cu ildə 2 fakültə, 44 nəfərlik professor-müəllim heyəti və 1094 tələbə ilə fəaliyyətə başlayan və ötən əsrin 70-ci illərindən intibah dövrünə qədəm qoyan Universitetdə hazırda 16 fakültə, 120 kafedra, SABAH Mərkəzi, 2 elmi-tədqiqat institutu (ETİ), 7 elmi-tədqiqat mərkəzi (ETM), 21 elmi-tədqiqat laboratoriyası (ETL), Elmi Kitabxana, 1 tədris-təcrübə və istirahət mərkəzi, 1 tədris-təcrübə bazası, 5 muzey, 2 beynəlxalq institut, 3 beynəlxalq mərkəz, 1 filial, 1 kollec və 1 lisey fəaliyyət göstərir.




BDU-da təbiət-dəqiq və hümanitar-sosial elm sahələrində bakalavriat səviyyəsində 83 ixtisas üzrə (9 ixtisas üzrə pedaqoji kadr hazırlığı aparılır), magistratura səviyyəsində 47 istiqamət və 246 ixtisaslaşma üzrə, fəlsəfə doktoru proqramı üzrə 19 elmi istiqamət və 123 ixtisas üzrə kadr hazırlığı aparılır.

BDU-nun Qazax filialı istisna olmaqla, Universitetdə 2022/2023-cü tədris ilində ali təhsilin hər üç səviyyəsi üzrə (bakalavriat, magistratura və doktorantura) təhsilalanların sayı 24584 nəfərdir. O cümlədən, bakalavriat səviyyəsində 20780 nəfər (19019 nəfər əyani, 1761 nəfər qiyabi), magistratura səviyyəsində 2006 nəfər, doktorantura səviyyəsində 645 nəfər təhsil alır. SABAH qruplarında 822 tələbə, əlavə təhsil (təkrar ali təhsil) üzrə 283 nəfər, hazırlıq kurslarında 48 nəfər təhsil alır (qeyd olunmalıdır ki, 30 ölkədən 341 xarici tələbə bakalavriat (250), magistratura (64) və doktorantura (27) səviyyəsində təhsil alır).

Azərbaycan, rus və ingilis dillərində tədris aparılır (bakalavriat səviyyəsində: 81% – Azərbaycan dilində, 11,5% – rus dilində, 7,5% – ingilis dilində; magistratura səviyyəsində: 76 % – Azərbaycan dilində, 14% – rus dilində, 10% – ingilis dilində). Qismən alman və fransız dillərində də tədris aparılır.

BDU-nun Qazax filialının strukturuna 1 fakültə və 4 kafedra daxildir. Bakalavriat səviyyəsində 17 ixtisas üzrə təhsil alanların ümumi sayı 1716 nəfərdir, onlardan 1501 nəfər əyani, 187 nəfər qiyabi təhsil alır. Magistratura səviyyəsində 7 ixtisaslaşma üzrə təhsilalanların sayı isə 23 nəfərdir.

BDU-da 3000 nəfərdən çox əməkdaş çalışır. Professor-müəllim heyətinin sayı 1382 nəfərdir. Onlardan 264 nəfər – elmlər doktoru, 247 nəfər – professor, 9 nəfər – AMEA-nın həqiqi üzvü, 5 nəfər AMEA-nın müxbir üzvü, 810 nəfər – fəlsəfə doktoru, 594 nəfər – dosentdir. Əməkdaşlardan 5 nəfər – Dövlət mükafatı laureatı, 17 nəfər – Əməkdar elm xadimi, 48 nəfər – Əməkdar müəllim, 7 nəfər – Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü, 10 nəfər – Milli Məclisin üzvüdür.

**Fərdi təqaüdçülər, deputatlar, AMEA üzvləri, laureatlar, fəxri adı olanlar, orden və medallarla təltif olunmuş BDU əməkdaşları haqqında məlumat**

| | |
|---|---|
| Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü | 7 |
| Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu laureatı | 6 |
| Azərbaycan Respublikası Milli Məclisinin deputatı | 10 |
| AMEA-nın həqiqi üzvü | 9 |
| AMEA-nın müxbir üzvü | 5 |
| Dövlət mükafatı laureatı | 5 |
| “Şərəf” ordeni | 2 |
| “Şöhrət” ordeni | 19 |
| Əməkdar elm xadimi | 17 |
| Əməkdar müəllim | 48 |
| 2-ci dərəcəli “Əmək” ordeni | 2 |
| 3-cü dərəcəli “Əmək” ordeni | 23 |
| “Tərəqqi” medalı | 61 |
| “BDU-nun 100 illiyi (1919-2019)” Azərbaycan Respublikasının yubiley medalı | 1073 |

Hazırda Universitetdə tədris mövcud ənənələrin və qabaqcıl dünya təcrübəsinin, innovativ yeniliklərin vəhdəti şəklində həyata keçirilir. Elmi-tədqiqat işlərinin məzmunu yenilənir, beynəlxalq elmi və akademik əlaqələr, eyni zamanda ölkədaxili əməkdaşlıq genişlənir.

Universitetdə elmi fəaliyyətin səmərəli təşkili məqsədilə müəyyənləşdirilən strateji xətt sayəsində son dövrlər aparılan elmi-tədqiqat işlərinin məzmunu yenilənmiş, keyfiyyətin səviyyəsi yüksəlmiş, alınan nəticələrin bilavasitə tətbiq sahələrinə yönəldilməsi istiqamətində əvvəlki illərlə müqayisədə uğurlu nəticələr əldə edilmişdir.

BDU-da 2021-ci ildə ilk dəfə olaraq yaradılmış Tədqiqat, İnkişaf və İnnovasiyalar üzrə Mükəmməllik Mərkəzi (RDI Center of Excellence) təhsil-elm-istehsalat əlaqəsinin tətbiqi və elmi nəticələrin kommersiyalaşdırılması prinsiplərini əsas götürərək sənaye və istehsalat ilə əlaqələrini genişləndirmişdir. Mükəmməllik Mərkəzinin nəzdində Sənaye kimyası, Biomühəndislik, Mikrobiologiya və virusologiya, Astrokosmik və atmosfer tədqiqatları, Rəqəmsal araşdırmalar və Hüceyrə kulturası və genom redaktəsi kimi yeni

sənaye və tətbiq yönümlü ETL-lərin yaradılması bu qurumun fəaliyyətini daha da gücləndirmişdir. BDU Avropa və dünya elminin yeni meyillərinə uyğun qabaqcıl texnologiya və nailiyyətlər səviyyəsində mühüm ixtisas sahələrinin yaradılması və inkişafını təmin edə bilən mütəxəssislər, elmi, elmi-pedaqoji və mühəndis-texniki kadrlar hazırlayan, sənaye müəssisələri ilə olan mövcud əlaqələri inkişaf etdirməklə elmi nəticələri kommersiyalaşdıran struktura və bazaya malikdir.

"Clarivate Analytics" şirkətinin rəsmi məlumatına əsasən, BDU-nun Hirş indeksi son illərdə daha sürətlə artaraq 54-ə yüksəlmişdir. Müqayisə üçün qeyd edək ki, bu göstərici 2018-ci ildə 35-ə, 2021-ci ildə isə 47-yə bərabər olmuşdur.

Azərbaycan üzrə "Web of Science" bazasında indekslənən jurnallarda dərc olunmuş məqalələrin 15,84 %-i BDU-nun alimlərinə məxsusdur.







"2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı"na uyğun olaraq BDU dünya elminin qabaqcıl elmi və təlim-tədris nailiyyətlərindən istifadə etməklə əmək bazarının tələblərinə uyğun mütəxəssislərin hazırlanması istiqamətində ABŞ, Almaniya, Fransa, İsrail, İsveçrə, Qazaxıstan və digər ölkələrin 10 qabaqcıl universitet və institutu ilə bakalavriat, magistratura və doktorantura pilləsi üzrə beynəlxalq ikili diplom proqramlarını həyata keçirir.

Universitetin beynəlxalq əlaqələri davamlı olaraq ən müxtəlif platformalarda genişləndirilir və inkişaf etdirilir. BDU ilə Türkiyənin Bilkent, Ankara, İstanbul, Kafkas və digər universitetləri, İzmir Yüksək Texnologiya İnstitutu, Fransanın Lumiere Lyon-2 Universiteti, Almaniyanın Martin Lüter adına Halle-Vittenberq Universiteti, Berlin Texniki Universiteti, Çinin Anhui Universiteti, Çex Respublikasının Cənubi Bohemia Universiteti, Özbəkistanın Daşkənd Dövlət Hüquq Universiteti, Daşkənd Dövlət Şərqşünaslıq Universiteti, Q.V.Plexanov adına Rusiya İqtisad Universiteti, Cənubi Koreyanın Kyunqwoon Universiteti, Qazaxıstanın Əl-Fərabi adına Qazax Milli Universiteti, Atırau Dövlət Universiteti, Pakistanın Lahore Universiteti, İsrailin Holon Texnologiya İnstitutu və Hebrew Universiteti, ABŞ-nın Linkoln Universiteti, Portuqaliyanın Tomar Politexnik İnstitutu, İsveçrənin Biznes və Beynəlxalq Tədqiqatlar Universiteti və digər nüfuzlu universitetlər arasında əməkdaşlıq müqavilə, saziş və memorandumları, bakalavriat, magistratura və doktorantura səviyyələri üzrə ikili diplom proqramına dair müqavilələr imzalanmışdır. 2022-ci ildə BDU Almaniyanın Berlin Humboldt, Çex Respublikasının Karlova, Rumıniyanın Babes-Bolyai Universitetləri ilə Erasmus+ mübadilə protokolu

imzalamışdır.

| İkili diplom proqramları |
|---|

- Almaniyanın Martin-Lüther adına Halle-Vittenberq Universiteti, Doktorantura səviyyəsində, «Hüquqşünaslıq» ixtisası
- Qazaxıstanın Əl Fərabi adına Qazax Milli Universiteti, Magistratura səviyyəsində, «Dəniz və enerji hüququ» ixtisaslaşması
- İsrailin Holon Texnologiya İnstitutu, Bakalavriat səviyyəsində, «Kompüter elmləri» ixtisası
- Fransanın Lumiere Lyon 2 Universiteti, Magistratura səviyyəsində, «Əqli mülkiyyət hüququ» ixtisaslaşması
- İsveçrənin Biznes və Beynəlxalq Tədqiqatlar Universiteti (UBİS), Magistratura səviyyəsində, «Beynəlxalq münasibətlər» ixtisaslaşması
- ABŞ-ın Linkoln Universiteti, Magistratura səviyyəsində, «Biznesin təşkili və idarə edilməsi (maliyyə üzrə) (MBA)» ixtisaslaşması
- Qazaxıstanın Satbayev adına Qazax Milli Tədqiqat Texniki Universiteti, Magistratura səviyyəsində, «Neft kimyası və kimya texnologiyası» ixtisaslaşması
- Qazaxıstanın L.N.Qumilyov adına Avrasiya Milli Universiteti, Magistratura səviyyəsində, «Tətbiqi biotexnologiya» ixtisaslaşması
- Qazaxıstanın Ş.Yessenov adına Xəzər Dövlət Texnologiyalar və Mühəndislik Universiteti, Bakalavriat səviyyəsində, «Beynəlxalq münasibətlər» ixtisası
- İsveçrənin Biznes və Beynəlxalq Tədqiqatlar Universiteti (UBİS), Magistratura səviyyəsində, «Biznesin təşkili və idarə edilməsi (maliyyə üzrə) (MBA)» ixtisaslaşması

2011-ci ildən başlayaraq BDU "QS World University Rankings", "U-Multirank", Round University Ranking (RUR), URAP, SIR, Webometrics və digər məşhur beynəlxalq agentliklərin reytinqlərində yer alır.

Hazırda BDU "THE - Times Higher Education" beynəlxalq reytinqinə Azərbaycan üzrə daxil olan yeganə universitetdir. BDU "QS World University Rankings" beynəlxalq reytinqində Azərbaycanı təmsil edən iki universitetdən biridir.

Aşağıda 2021-ci il üzrə reytinq göstəriciləri verilmişdir:

| | | | |
|---|---|---|---|
| 1201+ | THE<br>Times Higher Education | BDU Azərbaycan üzrə yeganə ATM-dir<br>https://www.timeshighereducation.com | THE WORLD UNIVERSITY RANKINGS |
| 1001+ | QS<br>World University Rankings | https://www.topuniversities.com | QS WORLD UNIVERSITY RANKINGS |
| 211-220 | QS: EECA<br>Eastern Europe and Central Asia | https://www.topuniversities.com/university-rankings/eeca-rankings | QS WORLD UNIVERSITY RANKINGS EECA |
| 650 | RUR<br>Round University Ranking | https://roundranking.com | RUR ROUND UNIVERSITY RANKING |
| 2650 | URAP<br>University Ranking by Academic Performance | https://urapcenter.org | University Ranking by Academic Performance |
| 852 | SIR<br>Scimago İnstitutions Ranking | https://www.scimagoir.com | SCIMAGO INSTITUTIONS RANKINGS |

Qeyd olunan nailiyyətlər BDU-nun dünya elm və təhsil məkanına inteqrasiyasını şərtləndirir və bu prosesi daha da sürətləndirir.

2020-ci ildə magistratura səviyyəsində bir neçə ixtisaslaşma Beynəlxalq akkreditasiyadan (İQAA) müvəffəqiyyətlə keçərək müvafiq sertifikat almışdır və yekun hesabatlar Ali təhsildə keyfiyyətin Təminatı üzrə Avropa Reyestrinə (EQAR) daxil edilmişdir:




BDU ölkədaxili əməkdaşlığa da xüsusi önəm verir. Bu əlaqələr dövlət qurumları və özəl şirkətlərlə yaradılır, bilavasitə tədris prosesinin, elmi-tədqiqat fəaliyyətinin səmərəli təşkilinə, eləcə də məzunların işlə təmin olunmasına xidmət edir. Son dövrlər Qarabağ Dirçəliş Fondu, Baş Prokurorluq, Əqli Mülkiyyət Agentliyi, Təhsildə Keyfiyyət Təminatı Agentliyi, Vəkillər Kollegiyası, Əmlak Məsələləri Dövlət Xidməti, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi (ASAN), Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA), Medianın İnkişafı Agentliyi, Audiovizual Şura, DOST Agentliyi, AzerGold, “PAŞA Bank”, “PAŞA sığorta”, “PAŞA Həyat Sığorta”, Mediasiya Şurası, Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu, “Xəzər TV” MMC, “ARB 24” telekanalı və s. qurumlarla müvafiq əməkdaşlıq müqavilələri və memorandumlar imzalanmışdır. Təsadüfi deyildir ki, BDU-nun əlaqələrinin inkişafı nəticəsində son iki ildə 30-a yaxın yerli və beynəlxalq qrant layihələri və müqavilə əsasında tədqiqat layihələri yerinə yetirilmiş, 80-dən çox tələbə, doktorant və gənc tədqiqatçılar layihələrdə iştirak etmişdir.

BDU nüfuzlu beynəlxalq təşkilatlarla da əməkdaşlığı proritet istiqamətlərdən hesab edir və bu istiqamətdə fəaliyyətini gücləndirir. BDU 1989-cu ildən Avrasiya Universitetlər Assosiasiyasının (EAU), 1997-ci ildən Xəzəryanı Ölkələrin Universitetləri Assosiasiyasının, 1998-ci ildən Qara Dəniz Universitetlər Assosiasiyasının (BSUN), 2015-ci ildən Azərbaycan-Rusiya Ali Təhsil Müəssisələri Assosiasiyasının, 2009-cu ildən MDB ölkələrinin Nanotexnologiya Beynəlxalq İnnovasiya Mərkəzinin, 2015-ci ildən Nüvə Texnologiyası Sahəsində Təhsilin və Kadr Hazırlığının Təşkili Regional Şəbəkəsinin

(STAR-Net), 2018-ci ildən Sosial İş Məktəblərinin Beynəlxalq Assosiasiyasının, 2022-ci ildən Avropa Universitetlər Assosiasiyasının (EUA), o cümlədən bu qurumun nəzdində fəaliyyət göstərən Tədqiqat və İnnovasiya Strategiyası Qrupunun (RISG), 2022-ci ildən İslam Dünyası Universitetləri Federasiyasının (FUIW) üzvüdür. BDU, həmçinin 2004-cü ildən Kitabxanalar üçün Elektron İnformasiya Beynəlxalq Konsorsiumunda (EİFL.net) təmsil olunan Azərbaycan Kitabxana İnformasiya Konsorsiumunun (Az.KİK) Respublika üzrə koordinatorudur.

Beynəlxalq təşkilat və qurumlara üzvlük BDU-nun akademik və inzibati imkanlarının genişlənməsinə, elmi tədqiqatların inkişafına və təcrübə mübadiləsinin reallaşmasına şərait yaradır. Bu sahəyə yönəlmiş proqram və layihələrin həyata keçirilməsi isə beynəlxalq əməkdaşlığın gücləndirilməsi və təşviq edilməsi istiqamətində mühüm rol oynayır. Bu baxımdan, 2022-ci ildən Universitetdə ICESCO-nun Biotibbi materiallar kafedrasının fəaliyyətə başlaması xüsusi əhəmiyyət kəsb edir. Kafedra ICESCO-nun Azərbaycanda ilk ixtisaslaşdırılmış kafedrasıdır və onun yaradılmasında məqsəd sənaye və akademik ictimaiyyət arasında əlaqələri, təhsil-elm-istehsalat üçlüyünün qarşılıqlı inteqrasiyasını inkişaf etdirmək, tələbə və gənc alimləri biotibbi materialların tətbiqi ilə bağlı tədqiqatlara cəlb etmək, həmçinin bu sahədə beynəlxalq əməkdaşlığı genişləndirməkdir.

Son illər ərzində Universitetin fəaliyyəti "Bakı Dövlət Universitetinin 2014-2020-ci illər üzrə İnkişaf Proqramı"na, 2021-ci ildən isə "Bakı Dövlət Universitetinin 2021-2030-cu illər üzrə Strateji İnkişaf Planı"na uyğun olaraq həyata keçirilir. Sonuncu sənədə müvafiq olaraq qarşıdakı illərdə Universitetin **missiyası** "Azərbaycan xalqına və beynəlxalq cəmiyyətə elmi əsaslarla, milli və mədəni dəyərlərə söykənən və müasir dövrün tələblərinə cavab verən təhsil xidmətləri göstərmək", **gələcəyə baxışı** isə "Ölkədə lider universitet mövqeyini qoruyub saxlamaqla yanaşı, elm və təhsil sahəsində beynəlxalq səviyyəli platformaya çevrilməklə regionun ən aparıcı universitetləri sırasına daxil olmaq"dır. BDU "Tədqiqat Universiteti" statusunun əldə edilməsini strateji məqsəd kimi müəyyənləşdirmişdir.

Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin tabeliyində Təhsildə Keyfiyyət Təminatı Agentliyi (TKTA) tərəfindən təsdiq edilmiş "Təhsil müəssisələrinin institusional akkreditasiyası"nın təşkili qrafiki üzrə 2023-cü il 15 fevral tarixindən başlamaqla 1 (bir) ay müddətində BDU-nun institusional akkreditasiyasının keçirilməsi nəzərdə tutulmuşdur. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 14 dekabr tarixli 493 nömrəli Qərarı ilə təsdiq edilmiş "Təhsil müəssisələrinin akkreditasiyası Qaydaları"nın 2.5.2-ci yarımbəndinə uyğun olaraq akkreditasiyanın keçirilməsi məqsədilə Özünütəhlil Hesabatının və ona əlavə ediləcək sənədlərin hazırlanması üçün BDU-nun Elmi Şurasının 2022-ci il 30 noyabr tarixli iclasının qərarı (protokol № 11) əsasında və BDU üzrə verilmiş müvafiq əmrlər ilə Akkreditasiya üzrə Təşkilat Komissiyası və Özünütəhlil Hesabatında əhatə edilən 7 istiqamət üzrə məlumatın toplanılması və təhlillərin aparılmasını təmin etmək məqsədilə İşçi qruplar yaradılmışdır.

Təqdim edilən Özünütəhlil Hesabatı Universitet kollektivinin, təhsilalanların və maraqlı tərəflərin nümayəndələrinin cəlb edilməsi və yaxından iştirakı ilə Akkreditasiya üzrə Təşkilat Komissiyası tərəfindən hazırlanmışdır. Hesabat Təşkilat Komissiyasının üzvləri və İşçi qruplar tərəfindən institusional akkreditasiyanın meyarlarının əhatə etdiyi istiqamətlər üzrə zəruri materialların toplanılması, əhatə edilən tədris illəri üzrə fəaliyyət

istiqamətlərinin təhlili, struktur bölmələrinin hesabatları əsasında SWOT analiz metodu, anket, sorğu, informasiyanın statistik işlənilməsi yolu ilə hazırlanmışdır. Özünütəhlil Hesabatı analitik-informasiya materialları və təhlildən və müvafiq əlavələrdən ibarətdir.

## 1. Təhsil müəssisəsinə dair ümumi məlumatlar

| | |
|---|---|
| Təhsil müəssisəsinin adı | Bakı Dövlət Universiteti |
| Sonuncu akkreditasiyaya dair şəhadətnamənin verilmə tarixi və müddəti | Verilmə tarixi: 26.05.2017<br>Müddəti: 5 il |
| Təhsil müəssisəsinin lisenziyasına dair məlumatlar (dövlət təhsil müəssisələri istisna olmaqla) | |
| Təhsil müəssisəsinin rəhbəri | Babayev Elçin Səfəralı oğlu |
| Fakültələrin sayı | 16 |
| Kafedraların sayı | 120 |
| Bakalavriat pilləsi üzrə ixtisasların sayı | 83 |
| Magistratura pilləsi üzrə ixtisaslaşmaların sayı | 246 |
| Doktorantura səviyyəsi üzrə ixtisasların (elm sahələri üzrə) sayı | 123 |
| Təhsil müəssisəsinin təhsilalan kontingenti | **Təhsilalanların sayı: 24584**<br>Bakalavriat: 21885<br>Magistratura: 2006<br>Doktorantura: 645<br>Hazırlıq: 48 |
| Ştatdakı professor-müəllim (və ya pedaqoji) heyətin sayı | 1382 |
| Əvəzçilik və saathesabı yolu ilə işləyənlərin sayı | Əvəzçilər: 74 nəfər<br>Saathesabı yolu ilə işləyənlər: 1066 nəfər |
| Müəssisənin elektron ünvanı və əlaqə telefonu | **E-mail:** info@bsu.edu.az<br>**Tel.:** (012) 430 32 45 |
| Müəssisənin hüquqi ünvanı | **Ünvan:** Bakı şəhəri, akademik Zahid Xəlilov küçəsi, 33 |
| Müəssisənin faktiki ünvanı | **Ünvan:** Bakı şəhəri, akademik Zahid Xəlilov küçəsi, 33 |

## 2. Təşkilat komissiyasının tərkibi və fəaliyyət qrafiki

Təşkilat komissiyasının tərkibi

| № | Ad, soyad, elmi dərəcə və elmi ad | Komissiyada funksiya | Vəzifə | e-mail ünvanı |
|---|---|---|---|---|
| 1 | Fərda İmanov c.e.d., prof. | sədr | Tədrisin təşkili və təlim texnologiyaları üzrə prorektor | fardaimanov@bsu.edu.az |
| 2 | Abdulsəyid Əzizov k.e.d., prof. | sədr müavini | Kimya fakütəsinin Yüksəkmolekullu birləşmələr kafedrasının professoru | abdulsaidazizov@bsu.edu.az |
| 3 | Mirnamik Bəşirov f.r.e.n., dos. | katib | Elmi fəaliyyətin təşkili və innovasiyalar Mərkəzinin Magistratura və doktorantura şöbəsinin müdiri | bahsirovmirnamik@bsu.edu.az |
| 4 | Hüseyn Məmmədov f.e.d., dos. | üzv | Elm və innovasiyalar üzrə prorektor | mhhuseyng@bsu.edu.az |
| 5 | Əliş Ağamirzəyev f.ü.f.d., dos. | üzv | Sosial məsələlər, tələbələrlə iş və ictimaiyyətlə əlaqələr üzrə prorektor | alish.agamirzayev@bsu.edu.az |
| 6 | Şahin Pənahov c.e.n., dos. | üzv | Beynəlxalq əlaqələr üzrə prorektor | shahin.panahov@bsu.edu.az |
| 7 | Aydın Kazımzadə f.r.e.d., prof., AMEA-nın müxbir üzvü | üzv | Rektorun elm və təhsil məsələri üzrə müşaviri | aydinkazimzade@bsu.edu.az |
| 8 | Əli Nağıyev t.ü.f.d. | üzv | Rektorun strateji inkişaf və əlaqələr üzrə müşaviri | ali.naghiyev@bsu.edu.az |
| 9 | Mirzə Mirzəyev i.e.n. | üzv | Rektorun maliyyə və inzibati məsələlər üzrə müşaviri | mirzayev.mirze.r@bsu.edu.az |
| 10 | Xalid Bayramlı b.ü.f.d. | üzv | Rektorun rəqəmsallaşma və informasiya texnologiyaları üzrə müşaviri | khalidbayramli@bsu.edu.az |

| | | | | |
|---|---|---|---|---|
| 11 | Leyla Abdullayeva | üzv | Maliyyə və təminat Departamentinin direktoru | leylaabdullayeva@bsu.edu.az |
| 12 | Elçin Məmmədov s.e.ü.f.d., dos. | üzv | Tədrisin təşkili və idarə olunması Mərkəzinin direktoru | mammadov.elchin.a@bsu.edu.az |
| 13 | Mais Süleymanov f.r.e.d., prof. | üzv | Elmi fəaliyyətin təşkili və innovasiyalar Mərkəzinin direktoru | maissuleymanov@bsu.edu.az |
| 14 | Rafail Rüstəmov | üzv | İnformasiya texnologiyaları Mərkəzinin direktoru | rafailrustamov@bsu.edu.az |
| 15 | Məhluqə Əfəndiyeva | üzv | İnsan resursları və hüquq şöbəsinin müdiri | mahluga.afandiyeva@bsu.edu.az |
| 16 | Mehriban Məmmədova | üzv | Sənədlər və müraciətlərlə iş şöbəsinin müdiri vəzifəsini icra edən | mehribanmammadova@bsu.edu.az |
| 17 | Vaqif Qasımov f.r.e.n., dos. | üzv | Keyfiyyətin təminatı və monitorinq şöbəsinin müdiri | vagifgasimov@bsu.edu.az |
| 18 | Ziyatxan Əliyev r.e.d., prof. | üzv | Mexanika-riyaziyyat fakültəsinin dekanı | ziyatxanaliev@bsu.edu.az |
| 19 | Məhəmməd Mehdiyev f.r.e.d., prof., AMEA-nın həqiqi üzvü | üzv | Tətbiqi riyaziyyat və kibernetika fakültəsinin dekanı | mahammadmehdiyev@bsu.edu.az |
| 20 | Bəxtiyar Paşayev f.r.e.n., dos. | üzv | Fizika fakültəsinin dekanı | baxtiyarpashayev@bsu.edu.az |
| 21 | Fuad Kərimli k.e.n., dos. | üzv | Kimya fakültəsinin dekanı | fuadkarimli@bsu.edu.az |
| 22 | Afət Məmmədova b.e.d., prof. | üzv | Biologiya fakültəsinin dekanı | afatmammadova@bsu.edu.az |
| 23 | Ramiz Əhlimanov c.e.n., dos. | üzv | Coğrafiya fakültəsinin dekanı | ramizahlimamanov@bsu.edu.az |

| | | | | |
|---|---|---|---|---|
| | | | vəzifəsini icra edən | |
| 24 | Akif Ağbabalı<br>b.ü.f.d., dos. | üzv | Ekologiya və torpaqşünaslıq fakültəsinin dekanı | akifagbabali@bsu.edu.az |
| 25 | Mamoy Mansurov<br>g.-m.e.n., dos. | üzv | Geologiya fakültəsinin dekanı | mamoymansurov@bsu.edu.az |
| 26 | Elçin Məmmədov<br>f.ü.f.d., dos. | üzv | Filologiya fakültəsinin dekanı | elchinmammadov@bsu.edu.az |
| 27 | İbrahim Zeynalov<br>t.e.d., prof. | üzv | Tarix fakültəsinin dekanı | ibrahimzeynalov@bsu.edu.az |
| 28 | Laçın Abışlı<br>i.ü.f.d., dos. | üzv | Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsinin dekanı | abishli@bsu.edu.az |
| 29 | Zaur Əliyev<br>h.ü.f.d., dos. | üzv | Hüquq fakültəsinin dekanı | zauraliyev@bsu.edu.az |
| 30 | Vüqar Əliyev<br>f.e.d., dos. | üzv | Jurnalistika fakültəsinin dekanı | vuqaraliyev@bsu.edu.az |
| 31 | Ələmdar Bayramov<br>f.ü.f.d., dos. | üzv | Kitabxanaçılıq-informasiya fakültəsinin dekanı | alemdarbayramov@bsu.edu.az |
| 32 | Aydan Xəndan<br>f.ü.f.d., dos. | üzv | Şərqşünaslıq fakültəsinin dekanı | aydanxandan@bsu.edu.az |
| 33 | Rövşən Cavadov<br>f.ü.f.d., dos. | üzv | Sosial elmlər və psixologiya fakültəsinin dekanı | rovshancavadov@bsu.edu.az |
| 34 | İradə Süleymanova<br>b.e.n., dos. | üzv | SABAH Mərkəzinin rəhbəri | iradasuleymanova@bsu.edu.az |
| 35 | Ələkbər Əliyev<br>t.e.d., prof. | üzv | İnformasiya texnologiyaları və proqramlaşdırma kafedrasının müdiri | alakbaraliyev@bsu.edu.az |
| 36 | Ülviyyə Həsənova<br>k.e.d, prof. | üzv | Üzvi kimya kafedrasının professoru | ulviyyahasanova@bsu.edu.az |
| 37 | Əfsər Sadıqov<br>h.e.d., prof. | üzv | Beynəlxalq ümumi hüquq | afsarsadigov@bsu.edu.az |

| | | | | |
|---|---|---|---|---|
| | | | kafedrasının professoru | |
| 38 | Etibar Talıblı f.e.n., dos. | üzv | Azərbaycan şifahi xalq ədəbiyyatı kafedrasının dosenti | etibartalibli@bsu.edu.az |
| 39 | Nazim Xıdırov | üzv | Rus dilçiliyi kafedrasının baş müəllimi | nazimkhidirov@bsu.edu.az |
| 40 | Ələkbər Hüseynzadə | üzv | Sənaye kimyası elmi-tədqiqat laboratoriyasının müdiri | alakbarhusenzade@bsu.edu.az |
| 41 | Nigar İsmayılova t.ü.f.d., dos. | üzv | Elmi Kitabxananın direktoru | nigarismailova@bsu.edu.az |
| 42 | Natiq Əsgərov h.ü.f.d. | üzv | İnsan resursları və hüquq şöbəsinin Hüquq sektorunun baş hüquqşünası | natiqasgarov@bsu.edu.az |
| 43 | Könül Sadıqova | üzv | Maliyyə və təminat Departamentinin Əməliyyat sektorunun aparıcı mühasibi | konulsadiqova@bsu.edu.az |
| 44 | Ehtiram Əmrahov | üzv | Təsərrüfatın idarə olunması Departamentinin Təmir-tikinti işləri sektorunun mühəndisi | ehtiramemrahov95@gmail.com |
| 45 | Rəşad Cabarov | üzv | BDU Həmkarlar İttifaqı Komitəsinin sədri | rashadcabarov@bsu.edu.az |
| 46 | Hacıbaba Mustafayev | üzv | BDU Tələbə Həmkarlar İttifaqı Komitəsinin sədri | hacibaba.mustafayev@mail.ru |
| 47 | Ələkbər Həsənov | üzv | BDU Tələbə Gənclər Təşkilatının sədri | alakbar.hasanov01@mail.ru |
| 48 | Eldar Cəfərov | üzv | Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsinin Gənc Alimlər Şurasının sədri | eldarjafarov@bsu.edu.az |
| 49 | İsa İsayev | üzv | Kimya fakültəsinin Tələbə Elmi | isa.isayev-2@bsu.edu.az |

| | | | | |
|---|---|---|---|---|
| | | | Cəmiyyətinin sədri | |
| 50 | Fərid Əliyev | üzv | Azərbaycan Qida Təhlükəsizliyi İnstitutu Publik Hüquqi Şəxsin İdarə Heyəti sədrinin müavini | info@afsi.gov.az |
| 51 | Şəhriyar Fətəlibəyli | üzv | Kapital bank ASC-nin Korporativ satış Departamentinin qrup rəhbəri | shehriyar.fatalibeyli@kapitalbank.az |
| 52 | Fuad Babayev | üzv | Bakı şəhəri üzrə Təhsil idarəsinin Ümumitəhsil sektorunun müdiri | info@baku.edu.gov.az |
| 53 | Abasət İsayev f.r.e.d., prof. | üzv | Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin tabeliyində Fizika İnstitutunun Qeyri-kristallik yarımkeçiricilərin fizika və elektronikası laboratoriyasının baş elmi işçisi | isayevabaset@yahoo.com |
| 54 | Qubad Süleymanov | üzv | Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin İnsan resursları Departamentinin Testləşdirmənin təşkili şöbəsinin böyük metodisti | info@socar.az |
| 55 | Qara Kərimov | üzv | Tarix fakültəsinin magistratura təhsil səviyyəsi üzrə 1-ci kurs tələbəsi, fakültə Tələbə Gənclər Təşkilatının üzvü | qara.kerimovv@gmail.com |
| 56 | Xəyalə Sadıqzadə | üzv | Jurnalistika fakültəsinin bakalavriat təhsil səviyyəsi üzrə 4-cü kurs tələbəsi, | sadiqzada.xayala.vuqar@bsu.edu.az |

| | | | | |
|---|---|---|---|---|
| | | | fakültə Tələbə Həmkarlar Təşkilatının üzvü | |
| 57 | Nərmin Heydərova | üzv | Sosial elmlər və psixologiya fakültəsinin magistratura təhsil səviyyəsi üzrə 1-ci kurs tələbəsi, BDU Könüllüləri qrupunun rəhbəri | narmin.heydarova@bsu.edu.az |

## Təşkilat Komissiyasının fəaliyyət qrafiki

| № | Ad, soyad | Fəaliyyət istiqaməti | Fəaliyyət qrafiki |
|---|---|---|---|
| 1 | Fərda İmanov | Ümumi rəhbərlik | 24.10.2022-24.01.2023 |
| 2 | Abdulsəyid Əzizov | Hesabatın hazırlanmasında koordinasiya işləri | 24.10.2022-24.01.2023 |
| 3 | Mirnamik Bəşirov | Komissiyanın katibi | 24.10.2022-24.01.2023 |
| 4 | Hüseyn Məmmədov | Elmi-tədqiqat istiqaməti üzrə koordinasiya işləri | 24.10.2022-24.01.2023 |
| 5 | Əliş Ağamirzəyev | İdarəetmə sistemi üzrə koordinasiya işləri | 24.10.2022-24.01.2023 |
| 6 | Şahin Pənahov | Beynəlmiləlləşmə istiqaməti üzrə işçi qrupun rəhbəri | 24.10.2022-24.01.2023 |
| 7 | Aydın Kazımzadə | Təlim, tədris və elmi-tədqiqat istiqamətləri | 24.10.2022-24.01.2023 |
| 8 | Əli Nağıyev | Strateji inkişaf istiqaməti üzrə işçi qrupun rəhbəri | 24.10.2022-21.12.2022 |
| 9 | Mirzə Mirzəyev | İdarəetmə istiqaməti üzrə işçi qrupun rəhbəri | 24.10.2022-24.01.2023 |
| 10 | Xalid Bayramlı | Strateji inkişaf proqramının icrası və monitorinqi | 24.10.2022-21.12.2022 |
| 11 | Leyla Abdullayeva | Maliyyə resurslarının idarə edilməsi | 14.11.2022-16.12.2022 |
| 12 | Elçin Məmmədov | Təlim və tədris istiqaməti üzrə işçi qrupun rəhbəri | 24.10.2022-24.01.2023 |
| 13 | Mais Süleymanov | Elmi-tədqiqat istiqaməti üzrə işçi qrupun rəhbəri | 24.10.2022-06.01.2023 |
| 14 | Rafail Rüstəmov | İnfrastruktur istiqaməti üzrə işçi qrupun rəhbəri | 24.10.2022-25.11.2022 |
| 15 | Məhluqə Əfəndiyeva | İnsan resurslarının idarə edilməsi | 31.10.2022-08.12.2022 |
| 16 | Mehriban Məmmədova | Müvafiq sənədlərin toplanması | 02.11.2022-24.01.2023 |
| 17 | Vaqif Qasımov | Keyfiyyətin təminatı istiqaməti üzrə işçi qrupun rəhbəri | 24.10.2022-24.01.2023 |
| 18 | Ziyatxan Əliyev | Təhsil müəssisəsində tədris olunan təhsil proqramlarının əmək bazarının və cəmiyyətin tələblərinə uyğun yenilənməsi vəziyyəti | 24.10.2022-24.01.2023 |
| 19 | Məhəmməd Mehdiyev | Qiymətləndirmədə ədalətliliyin, obyektivliyin, şəffaflığın təmin olunması və qiymətin əsaslandırılması vəziyyəti | 24.10.2022-24.01.2023 |

| | | | |
|---|---|---|---|
| 20 | Bəxtiyar Paşayev | Təlim və tədris resursları | 24.10.2022-24.01.2023 |
| 21 | Fuad Kərimli | Qiymətləndirmənin müxtəlif formalarından (üz-üzə, məsafədən, qarışıq, açıq və s.), metod və vasitələrdən istifadə olunması vəziyyəti | 24.10.2022-24.01.2023 |
| 22 | Afət Məmmədova | Təhsil proqramlarının monitorinqi | 24.10.2022-24.01.2023 |
| 23 | Ramiz Əhlimanov | Təlim və tədris resurslarının davamlı olaraq təkmilləşdirilməsinin vəziyyəti | 24.10.2022-24.01.2023 |
| 24 | Akif Ağbabalı | Köçürmə hallarının (tədqiqat və tədris prosesində) qarşısının alınması ilə bağlı effektiv alətlərin və təsdiq olunmuş yazılı prosedurların mövculuğunun vəziyyəti | 24.10.2022-24.01.2023 |
| 25 | Mamoy Mansurov | Təcrübə (tədris, pedaqoji, arxeoloji, çöl, istehsalat, diplomqabağı və s.) işinin təşkili vəziyyəti | 24.10.2022-24.01.2023 |
| 26 | Elçin Məmmədov | Tələbəyönümlü tədris | 24.10.2022-24.01.2023 |
| 27 | İbrahim Zeynalov | Təhsilalanların bilik və bacarıqlarının qiymətləndirilməsi | 24.10.2022-24.01.2023 |
| 28 | Laçın Abışlı | Tədqiqat resursları | 24.10.2022-24.01.2023 |
| 29 | Zaur Əliyev | Daxili keyfiyyət təminatı mexanizmləri | 24.10.2022-24.01.2023 |
| 30 | Vüqar Əliyev | Təhsil proqramlarının monitorinqi | 24.10.2022-24.01.2023 |
| 31 | Ələmdar Bayramov | Elmi-tədqiqat fəaliyyətində və təhsildə akademik dürüstlük | 24.10.2022-24.01.2023 |
| 32 | Aydan Xəndan | Tədris metodları və üsulları | 24.10.2022-24.01.2023 |
| 33 | Rövşən Cavadov | Psixoloji məsləhət xidmətlərinin mövcudluğunun vəziyyəti | 24.10.2022-24.01.2023 |
| 34 | İradə Süleymanova | Keyfiyyətin təminatı siyasəti | 31.10.2022-23.12.2022 |
| 35 | Ələkbər Əliyev | Keyfiyyət təminatı mədəniyyəti | 11.11.2022-16.12.2022 |
| 36 | Ülviyyə Həsənova | Elmi-tədqiqat strategiyası | 14.11.2022-23.12.2022 |
| 37 | Əfsər Sadıqov | Beynəlmiləlləşmə proseslərinin idarə edilməsi və təşkilati strukturu | 03.11.2022-07.12.2022 |
| 38 | Etibar Talıblı | Təhsil proqramlarının monitorinqi və yenilənməsi | 07.11.2022-09.01.2023 |
| 39 | Nazim Xıdırov | İctimaiyyətlə əlaqələr | 01.11.2022-13.12.2022 |
| 40 | Ələkbər Hüseynzadə | Tədqiqat resursları | 08.11.2022-22.12.2022 |

| | | | |
|---|---|---|---|
| 41 | Nigar İsmayılova | Tədris dillərinə uyğun kitab fondunun mövcudluğu və artım dinamikası | 24.10.2022-27.12.2022 |
| 42 | Natiq Əsgərov | Əmək münasibətlərinin və mülki münasibətlərin bağlanması və xitam verilməsi zamanı qanunvericiliyin tələblərinin nəzərə alınması vəziyyəti | 24.10.2022-24.01.2023 |
| 43 | Könül Sadıqova | Maliyyə resurslarının qısa və ortamüddətli dövr üçün planlaşdırılma səviyyəsi | 14.11.2022-16.12.2022 |
| 44 | Ehtiram Əmrahov | Tədris binalarının və tədris otaqlarının dövlət standartlarına uyğunluğu vəziyyəti | 02.11.2022-08.12.2022 |
| 45 | Rəşad Cabarov | ATM-də işçilərə münasibətdə sosial və mədəni tədbirlərin keçirilməsi vəziyyəti | 24.10.2022-24.01.2023 |
| 46 | Hacıbaba Mustafayev | ATM-də tələbələrə münasibətdə sosial və mədəni tədbirlərin keçirilməsi vəziyyəti | 01.11.2022-07.12.2022 |
| 47 | Ələkbər Həsənov | Tələbə və məzunlara karyera məsləhət xidmətlərinin göstərilməsi vəziyyəti | 02.11.2022-10.01.2023 |
| 48 | Eldar Cəfərov | Tədqiqatçıların beynəlxalq elmi-tədqiqat şəbəkələrində iştirak vəziyyəti | 03.11.2022-06.12.2022 |
| 49 | İsa İsayev | Elmi-tədqiqat xarakterli konfranslarda, seminarlarda, görüşlərdə və s. tədbirlərdə gənc tələbə-tədqiqatçıların iştirak vəziyyəti | 07.11.2022-23.12.2022 |
| 50 | Fərid Əliyev | Tələbə və məzunlara karyera məsləhət xidmətlərinin göstərilməsi vəziyyəti | 02.11.2022-10.01.2023 |
| 51 | Şəhriyar Fətəlibəyli | Məzunlarla davamlı əlaqə sisteminin mövcudluğu vəziyyəti | 05.12.2022-19.12.2022 |
| 52 | Fuad Babayev | Təhsil proqramlarının hazırlanmasında və qiymətləndirilməsində işəgötürənlərin iştirakı vəziyyəti | 05.12.2022-19.12.2022 |
| 53 | Abasət İsayev | Elmi-tədqiqat strategiyasının hazırlanmasında maraqlı tərəflərin iştirakı vəziyyəti | 05.12.2022-19.12.2022 |

| | | | |
|---|---|---|---|
| 54 | Qubad Süleymanov | ATM-də işçilərin ixtisasartırma və peşəkarlıq səviyyəsinin artırılmasına yönələn təlimlərə cəlb edilməsi vəziyyəti | 05.12.2022-19.12.2022 |
| 55 | Qara Kərimov | Tələbə klublarının, tələbələrin sosial, mədəni və idman fəaliyyətləri üçün resursların (inzibati və büdcə resursları) dəstək planlarının mövcudluğunun vəziyyəti | 08.11.2022-14.12.2022 |
| 56 | Xəyalə Sadıqzadə | Respublika elmi-tədqiqat xarakterli konfranslarda, seminarlarda, görüşlərdə və s. tədbirlərdə gənc tələbə-tədqiqatçıların iştirak vəziyyəti | 02.11.2022-28.12.2022 |
| 57 | Nərmin Heydərova | Tələbələrin təlim prosesində iştirakını-aktivliyini qeydə alan tam funksional elektron tədris platformasının və jurnalın mövcudluğunun vəziyyəti | 03.11.2022-07.12.2022 |

## 3. Təhsil müəssisəsinin öncəki akkreditasiya qiymətləndirilməsi zamanı verilmiş tövsiyələrin icra vəziyyəti

**Nöqsan və iradların aradan qaldırılması istiqamətində görülən işlər:**

**İrad 2.1.** BDU-nun bəzi fakültələrində ikili vəzifə tutma halları (dekan – kafedra müdiri, kənar müəssisələrdə, nazirlik və komitələrdə, Milli Məclisdə vəzifə tutanlar – kafedra müdirləri və s.) müşahidə edilir (bu barədə kadr təminatına aid hissədə geniş məlumat verilir).

**Cavab:** BDU-da ikili vəzifə tutma halları mərhələli şəkildə həll olunur – BDU-da dekan – kafedra müdiri ikili vəzifə tutma halları tam aradan qaldırılmışdır, bir çox kafedralarda kənar müəssisələrdə, nazirlik və komitələrdə, Milli Məclisdə vəzifə tutanlar – kafedra müdirləri ikili vəzifə tutma halları (məsələn, Psixologiya kafedrasında) aradan qaldırılmış və digər kafedralar üzrə bu məsələ mərhələli formada həll olunur.

**İrad 2.2.** Universitetin bütün fakültələri üçün xarakterik olan nöqsan ümumi dərs yükündə əmək haqqı saat hesabı qaydada ödənilən dərs yükünün miqdarının nisbətən çox olması (normaya görə əsas yükün 10%-ni aşmamalıdır), bəzi kafedralarda hətta 50% təşkil etməsidir (kafedralar haqqında məlumatlarda əksini tapmışdır). Dərs yüklərinin hesablanmasında məsləhət saatları bəzi hallarda qruplar üçün deyil, birləşmələr üçün hesablanır, lakin müəllim məsləhəti qruplar üçün ayrıca apardığından bu mütləq nəzərə alınmalıdır.

**Cavab:** Son 3 il ərzində tədris və elmi fəaliyyətin təşkilində səmərəliliyin artırılması, idarəetmənin optimallaşdırılması və təkmilləşdirilməsi məqsədilə BDU-nun bir sıra fakültələrində (məsələn, Jurnalistika, Biologiya və s.) struktur islahatları aparılaraq kafedra adları müasir dövrün tələblərinə uyğunlaşdırılmış, birləşdirilmiş, 200-dən çox gənc mütəxəssis kafedralarda elmi-pedaqoji fəaliyyətə cəlb olunmuş, ixtisas və ixtisaslaşmalar üzrə tədris yükləri optimallaşdırılmışdır. Tədrisə saathesabı qaydada kənar müəssisələrdən cəlb olunan mütəxəssislərin sayı minimuma endirilmişdir. “Dərs yüklərinin hesablanmasında məsləhət saatları bəzi hallarda qruplar üçün deyil, birləşmələr üçün hesablanır, lakin müəllim məsləhəti qruplar üçün ayrıca apardığından bu mütləq nəzərə alınmalıdır” iradı üzrə məsələlər həll olunmuşdur.

**İrad 2.3.** İmtahanlarda cavabların yoxlanılması bəzi ixtisaslar (məsələn, ingilisdilli qruplar) istisna olmaqla, əsasən fənni tədris edən müəllim tərəfindən deyil, kafedranın digər müəllimləri tərəfindən aparılır ki, bu da obyektivliyi təmin etməklə yanaşı bəzən müəllim tərəfindən tədris olunun faktiki materialın nəzərə alınması baxımından müəyyən çətinliklər yaradır. Məsələn, yoxlama zamanı aydınlaşdırıldı ki, tələbələrin apelyasiyalarının bəziləri yoxlayanların proqramı bilməsinə baxmayaraq tədris olunan faktiki material haqqında tam məlumata malik olmaması səbəbindən (bu, praktiki baxımdan mümkün də deyil) irəli gəlir.

**Cavab:** Hazırda obyektivliyi təmin etmək məqsədilə onlayn və ənənəvi qaydada şifahi formada keçirilən imtahanlarda tələbələrin bilikləri yalnız həmin fənni tədris edən müəllimlər tərəfindən qiymətləndirilir, yazılı formada keçirilən imtahanlarda yoxlamalara əsasən fənni tədris edən müəllimlər cəlb olunur.

**İrad 2.4.** Bakalavriat səviyyəsində təhsil alan tələbələrin yekun buraxılış attestasiyası BDU Elmi Şurasının qərarı ilə bütün fakültələr üçün buraxılış işi (buraxılış qruplarının tələbələrinin 20%-i üçün) və Dövlət imtahanı (digər 80%-i əhatə edir)

formasında aparılır. Əslində bu məsələ muxtariyyət hüququ olan universitetin səlahiyyətindədir, lakin komissiya hesab edir ki, ixtisaslaşmanın xüsusiyyətindən asılı olaraq buraxılış işi yerinə yetirən və dövlət imtahanı verən tələbələrin say nisbətinin ayrı-ayrı ixtisaslar üzrə fərqli müəyyən edilməsi daha məqsədəuyğun olardı.

**Cavab:** BDU-nun Elmi-Şurasının 2019-cu il 08 iyul tarixli iclasının qərarı ilə (protokol № 06) yaradıcılıq fəaliyyətini, elmi-tədqiqat işlərinə marağını və tədqiqatçılıq qabiliyyətini müəyyənləşdirərək qiymətləndirmək məqsədi ilə bakalavriat səviyyəsi üzrə təhsil alan tələbələrin 30%-i üçün attestasiyanın Dövlət Attestasiyası Komissiyasında buraxılış işinin müdafiəsi və 70%-i üçün isə imtahan formasında keçirilməsi qərara alınmışdır. 2020-ci ildə bakalavriat səviyyəsinin bütün ixtisasları üzrə təhsil proqramları yenilənmişdir – Təbiət elmləri sahəsi üzrə ixtisasların təhsil proqramlarında Yekun Dövlət Attestasiyasının buraxılış işinin müdafiəsi formasında keçirilməsi, digər bütün ixtisasların təhsil proqramlarında isə attestasiyanın tələbənin normativ təhsil müddətində topladığı kreditlər əsasında müəyyən edilməsi (Yekun Dövlət Attestasiyası üzrə imtahan və ya buraxılış işinin müdafiəsi nəzərdə tutulmamışdır) nəzərdə tutulmuşdur.

**İrad 2.5.** Bəzi fakültələrdə buraxılış işlərinin yazılması, tərtibi və müdafiəsi ilə bağlı müəyyən iradlar vardır, belə ki, buraxılış işlərində tapşırıq səhifəsi olmadığından onun verilməsi tarixi, planı və müdafiəyə təqdim edilməsi müddəti aydın olmur. Həmçinin yaxşı olar ki, buraxılış işlərinin müdafiəyə qədər qiyməti kafedralarda aparılan ilkin müzakirələr zamanı müəyyən edilsin.

**Cavab:** Aşkar edilmiş çatışmazlıqlar tam aradan qaldırılmışdır. Belə ki, buraxılış işlərinin mövzusu və bakalavrın elmi rəhbəri kafedra iclaslarında və fakültə elmi şuralarında müzakirə edilərək təsdiq edilir. Buraxılış işinin mövzusu üzrə iş planı elmi rəhbər və bakalavr tərəfindən imzalanır. Tələb olunan sənədlər yoxlanıldıqdan sonra buraxılış işinin müdafiəsi təşkil olunur.

**İrad 2.6.** Bir çox kafedralarda buraxılış işlərinin hələ də tələbələr tərəfindən əl ilə yazılmasına (bunun səbəbi kimi plagiat halların yol verilməməsi əsas göstərilir) rast gəlindi, çox az kafedralarda kompüter texnologiyası ilə işlənmiş buraxılış işlərinə rast gəlinir. Əksər kafedralarda müdafiə üçün prezentasiya (təqdimat) materiallarına rast gəlinmədi. Yaxşı olar ki, prezentasiya materialları müəyyən müddət ərzində kafedralarda saxlanılsın.

**Cavab:** Buraxılış işləri xüsusi təlimata əsasən qəbul edilmiş formatda kompüterdə yığılaraq çap olunur. Bir qayda olaraq büraxılış işlərinin təqdimatı smart lövhələr və ya proyektorlardan istifadə olunmaqla həyata keçirilir. Buraxılış işlərinin bir nüsxəsi arxivləşdirilir.

**İrad 2.7.** Buraxılış işinin Yekun Dövlət Attestasiya Komissiyası (YDAK) tərəfindən qiymətləndirilməsində də meyarlar məlum deyil, bəzi hallarda YDAK-ın protokolları (iclas nəzərdə tutulur) və hesabatları lazımı qaydada tərtib edilməmişdir. Yaxşı olar ki, hesabatlarda buraxılış işlərinə YDAK tərəfindən edilən iradlar və tövsiyələr də öz əksini tapsın.

**Cavab:** BDU-da buraxılış işlərinin qiymətləndirilmə meyarları hazırlanmışdır və BDU-nun Elmi Şurası tərəfindən təsdiq edilmişdir.

**İrad 2.8.** Magistr dissertasiyalarının mövzuları və tərtibi tələblərə uyğun olsa da, sənədləşdirilməsində müəyyən çatışmazlıqlar aşkarlandı, məsələn, bir çox dissertasiya sənədlərində tələbəyə verilmiş və təsdiq edilmiş plana rast gəlinmədi, müdafiə üçün

ərizələr uyğun fakültənin dekanının adına deyil, İxtisaslaşdırılmış Elmi Şuraların sədrlərinə ünvanlanmalıdır. Yaxşı olar ki, kafedralarda dissertasiya işinin ilkin müzakirəsi kafedra iclasının protokolundan çıxarış formasında deyil, əsaslandırılmış rəy şəkilində təqdim edilsin.

**Cavab:** Magistr dissertasiyalarının sənədləşdirilməsində aşkar edilmiş çatışmazlıqlar aradan qaldırılmışdır. Belə ki, dissertasiyaların mövzusu və magistrantın elmi rəhbəri kafedra iclaslarında və fakültə elmi şuralarında müzakirə edilərək təsdiq olunur. Magistrantın dissertasiya mövzusu üzrə iş planı elmi rəhbər və magistrant tərəfindən imzalanır. Müdafiə üçün magistrant tərəfindən uyğun İxtisaslaşdırılmış Elmi Şuranın sədrinin adına yazılan ərizə fakültə dekanının müvafiq dərkənarı ilə Şura sədrinə yönəldilir.Tələb olunan sənədlər yoxlanıldıqdan sonra dissertasiya işinin müdafiəsi uyğun Şurada təşkil olunur.

**İrad 2.9.** Bəzi kafedralarda (Hidrogeologiya və mühəndis geologiyası, Seysmologiya və Yer təkinin fizikası və s.) mövcud dərs yükünə uyğun olaraq ştatda olan müəllimlərin sayının artırılmasına ehtiyac hiss edilir.

**Cavab:** Əksər kafedralarda ştatda olan müəllimlərin sayı optimallaşdırılmış və qalan digər kafedralarda isə məsələ mərhələli şəkildə həll edilir.

**İrad 2.10.** Hidrogeologiya və mühəndis geologiyası, Seysmologiya və Yer təkinin fizikası, Kristalloqrafiya, mineralogiya və geokimya və Ümumi və tarixi geologiya kafedralarında tədrisin təminatı üçün nəzərdə tutulmuş dərsliklərin sayı nisbətən aşağıdır. Geologiya fakültəsinin kafedralarının maddi-texniki təminatının yenilənməsinə ehtiyac vardır, fakültədə magistratura səviyyəsində tədris olunan fənlərin dərsliklərlə təminatı nisbətən aşağıdır.

**Cavab:** 2015-2021-ci illərdə bir sıra yeni dərslik və dərs vəsaitləri nəşr olunmuş, tədris olunan bütün fənlərin elektron mühazirələri hazırlanmışdır.

Son iki ildə BDU-nun fakültə və kafedraları smart lövhə, proyektor, kompüter və printer ilə təchiz edilmişdir.

**İrad 2.11.** Bəzi tədris planlarında nəzərdə tutulmuş fənlər və onların adları məqsədəuyğun deyildir (məsələn, magistratura təhsil səviyyəsində “Tətbiqi riyaziyyat” ixtisaslaşması üzrə tədris planında nəzərdə tutulmuş “Koşi-Riman tənliyi üçün məsələlərin həlli və onların kompüter realizasiyası” fənni, “Mürəkkəb sistemlərin ehtimal və statistik metodlarla təhlili” ixtisaslaşmasında “Kompüter statistikası” fənni və s), bəzi fənlər (məsələn, “Stoxastik analiz və mürəkkəb sistemlərin staxostik analizi”, “Sistem nəzəriyyəsi”, “Sonlu avtomatlar və xətti ardıcıl maşınlar nəzəriyyəsi”, “Universal cəbr və avtomatlar nəzəriyyəsi” fənləri) mahiyyətcə bir-birinə çox yaxındır.

**Cavab:** Bu məsələlər Tətbiqi riyaziyyat və kibernetika fakültəsinin Elmi Şurasında müzakirə olunmuşdur. “Koşi-Riman tənliyi üçün məsələlərin həlli və onların kompüter realizasiyası” və “Kompüter statistikası” fənlərinin əmək bazarının tələblərinə uyğun olduğu məqsədəuyğun hesab edilmişdir. “Stoxastik analiz” və “Mürəkkəb sistemlərin staxostik analizi”, “Sistem nəzəriyyəsi”, “Sonlu avtomatlar və xətti ardıcıl maşınlar nəzəriyyəsi” və “Universal cəbr və avtomatlar nəzəriyyəsi” fənlərinin adlarının oxşar olmasına baxmayaraq, mahiyyətcə fərqli və ixtisaslaşma üzrə təhsil proqramının təlim nəticələrinə uyğun olduğu müəyyən edilmişdir.

**İrad 2.12.** Bəzi fənlər bakalavriat və magistratura səviyyələrində mahiyyətcə təkrarlanır və təhsil pillələri arasında səviyyə fərqi açıq hiss olunmur (məsələn, Beynəlxalq

münasibətlər və iqtisadiyyat fakültəsində bakalavriat və magistratura səviyyələrində və s.).

**Cavab:** 2020-ci ildə bakalavriat səviyyəsinin bütün ixtisasları üzrə təhsil proqramları yenilənmişdir – müvafiq ixtisas üzrə tədris proqramlarının və fənlərin təlim nəticələri nəzərə alınmaqla iradda göstərilən məsələ həll olunmuşdur.

**İrad 2.13.** Tarix və Şərqşünaslıq fakültələrində mövcud olan "Regionşünaslıq" ixtisasları xüsusiyyətindən asılı olaraq eyni bir fakültədə birləşdirilə bilər. Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsində Riyazi iqtisadiyyat kafedrasının olduğunu nəzərə alsaq, "Riyazi iqtisadiyyat" üzrə ixtisasların və Coğrafiya fakültəsindəki "Turizm və otelçilik" ixtisasının bu fakültədə cəmləşməsi daha məqsədəuyğun olardı.

**Cavab:** Tarix və Şərqşünaslıq fakültələrində mövcud olan "Regionşünaslıq" ixtisaslarının eyni bir fakültədə birləşdirilməsi planlaşdırılır.

Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsində 6 ixtisasın iqtisadiyyat yönümlü olduğu nəzərə alınaraq Riyazi iqtisadiyyat kafedrasının bu fakültədə saxlanılması məqsədəuyğundur.

"Turizm və otelçilik", "Turizm işinin təşkili" ixtisaslarının təhsil proqramlarının təlim nəticələrinə uyğun olaraq, bu ixtisaslar üzrə təhsilalanlara əsasən təbiət, iqtisadi-sosial coğrafiya və xidmət sahələrinə aid fənlər tədris olunduğundan, ixtisasların Coğrafiya fakültəsində saxlanılması daha məqsədəuyğun hesab edilmişdir.

**İrad 2.14.** Sosial elmlər və psixologiya fakültəsində "Sosiologiya" və "Psixologiya" ixtisasları üzrə tədris Azərbaycan dili ilə yanaşı, həm də ingilis dilində aparılır. İxtisaslar üzrə təhsil alan tələbələrdə bilik, bacarıq və vərdişləri tədris planında nəzərdə tutulmuş fənlərin təlim nəticələrinə və əmək bazarının tələblərinə uyğun şəkildə aşılaya bilən kadrlara, tədris vəsaitlərinə və elmi ədəbiyyata ehtiyac olduğu müəyyən edilmişdir.

**Cavab:** Hazırda "Sosiologiya" və "Psixologiya" ixtisasları üzrə ingilis bölmələrində bütün fənlər ingilis dilində tədris olunur, tədrisə həmçinin, istehsalatdan olan və konvergens biliklərə malik ingilisdilli mütəxəssislər cəlb olunmuş və tədris-metodik vəsaitlər yenilənmişdir.

**İrad 2.15.** Müxtəlif fakültələrdəki, məsələn, Sosial elmlər və psixologiya fakültəsində, kafedralar arasında dərs yükünün mübadilə olunduğu hallarına rast gəlinmişdir. Belə ki, kafedranın tədris yükünə daxil olan bəzi rus və ingilis bölmələri üzrə fənlərin tədrisi digər kafedranın müvafiq sahə üzrə ştatda olan ixtisaslaşmış müəllimlər tərəfindən aparılır.

**Cavab:** 2019-cu ildən başlayaraq BDU-nun əksər kafedralarında, o cümlədən Sosial elmlər və psixologiya fakültəsinin kafedralarında tədris yükləri optimallaşdırılmış, kafedralara ingilis və rus dillərini bilən mütəxəssislər cəlb olunmuş, eləcə də mövcud ixtisaslar üzrə problem və prioritetlər nəzərə alınmaqla doktorantura səviyyəsində kadr hazırlığı həyata keçirilmiş və problem həll olunmuşdur.

## II. TƏHSİL MÜƏSSİSƏSİNİN ÖZÜNÜTƏHLİLİ

### 4. Özünütəhlil qiymətləndirməsinin icmalı

BDU Təhsildə Keyfiyyət Təminatı Agentliyinin (bundan sonra – Agentlik) 2022-ci il 14 noyabr tarixli F-181 nömrəli əmri ilə təsdiqlənmiş metodologiyaya əsaslanaraq qiymətləndirilmişdir. Özünütəhlilin məqsədi təhsil müəssisələrinin davamlı olaraq təkmilləşdirilməsini, daxili keyfiyyət təminatının qiymətləndirilməsini təmin etmək və ictimaiyyəti təhsilin keyfiyyəti barədə məlumatlandırmaqdır. Təhsil müəssisəsinin özünütəhlili BDU-nun Elmi Şurasının 2022-ci il 30 noyabr tarixli iclasının qərarı (protokol № 11) ilə təsdiqlənmiş Təşkilat Komissiyası tərəfindən aparılmış və Elmi Şuranın 2023-cü il 18 yanvar tarixli iclasının qərarı ilə təsdiq edilmişdir (protokol № 01).

Təşkilat Komissiyasının istiqamətlər üzrə yekun qiymətləndirmə nəticələri aşağıdakı kimidir.

### 1. STRATEJİ İNKİŞAF

#### 1.1. Ali təhsil müəssisəsinin missiyası, strategiyası, strateji istiqamətləri və hədəfləri

BDU-nun Elmi Şurasının 2014-cü il 21 may tarixli iclasında (protokol № 4) “Bakı Dövlət Universitetinin 2014-2020-ci illər üzrə Missiya və Strateji İnkişaf Planı” (http://bsu.edu.az/az/content/baki_dvlt_unversrtetnn_mssya_v_stratej_nkaf_plani) və “Bakı Dövlət Universitetinin 2014-2020-ci illər üzrə İnkişaf Proqramı” müzakirə olunaraq qəbul edilmişdir (http://bsu.edu.az/az/content/bdunun_nkiaf_proqram).

BDU-nun 2021-2030-cu illəri əhatə edən “Strateji İnkişaf Planı” (SİP) BDU-nun Elmi Şurasının 2021-ci il 28 sentyabr tarixli iclasında (protokol № 9) müzakirə edilmiş və BDU-nun Himayəçilər Şurasının 2021-ci il 30 oktyabr tarixli iclasının (protokol № 4) qərarı ilə təsdiq edilmişdir. SİP “Təhsil haqqında” Azərbaycan Respublikasının Qanunu və “Elm haqqında” Azərbaycan Respublikasının Qanununa, Azərbaycan Respublikası Prezidentinin 2013-cu il 24 oktyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası”na, “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyasının həyata keçirilməsi ilə bağlı Fəaliyyət Planı”na, “2019-2023-cü illər üçün Azərbaycan Respublikası ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı”na, Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”ə, “Azərbaycan Respublikasında biznes mühitinin əlverişliliyinin artırılması və beynəlxalq reytinqlərdə ölkəmizin mövqeyinin daha da yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 13 iyul tarixli 2199 nömrəli Sərəncamının həyata keçirilməsinə dair Tədbirlər Planı”na, ölkə başçısının digər müvafiq fərman və sərəncamlarına, hökumətin müvafiq qərarlarına, Elm və Təhsil Nazirliyinin normativ sənədlərinə və digər müvafiq hüquqi-normativ sənədlərə uyğun olaraq hazırlanmışdır.

SİP-də müəyyən edilən missiya – “Azərbaycan xalqına və beynəlxalq ictimaiyyətə elmi əsaslara, milli və mədəni dəyərlərə söykənən və müasir dövrün tələblərinə cavab verən təhsil xidmətləri göstərmək” missiyası BDU-nun fəaliyyətinin əsas məqsədini və hədəflərini müəyyənləşdirir.

Universitetin qısa, orta və uzun müddətli fəaliyyət planı 2021-2030-cu illər üçün SİP əsasında elm və təhsil üzrə əsas prioritetlər nəzərə alınmaqla hazırlanmışdır. Plan bütövlükdə Universitet, həmçinin onun struktur bölmələri üçün inkişaf prioritetlərinin çərçivəsini müəyyənləşdirir, tələbələr və akademik heyət arasında qarşılıqlı əlaqələrin dərinləşməsini və müvafiq proseslərin stimullaşdırılmasını ehtiva edən müasir yanaşma və vasitələri təqdim edir. SİP, həmçinin, Universitetdə tədrisin və elmi fəaliyyətin keyfiyyətinin davamlı olaraq yüksəldilməsi, qlobal elm-təhsil məkanına daha sıx inteqrasiya, yüksəkixtisaslı insan kapitalına olan tələbatın ödənilməsi, habelə, ali təhsilin müasir dövrün tələblərinə uyğunlaşdırılması mexanizmlərini özündə əks etdirir.

SİP-də müəyyən edilən strateji baxış – "Ölkədə lider universitet mövqeyini qoruyub saxlamaqla yanaşı, elm və təhsil sahəsində beynəlxalq səviyyəli platformaya çevrilməklə regionun ən aparıcı universitetləri sırasına daxil olmaq" – ölkənin əmək bazarının, cəmiyyətin və iqtisadiyyatın inkişaf istiqamətlərinə uyğundur.

Ölkənin davamlı inkişafı naminə elmi yenilikləri və innovasiyaları tədris prosesinə tətbiq etməklə "təhsil - elm - istehsalat" formatında fəaliyyətin qurulması, insan kapitalının inkişafında aparıcı mövqenin qorunması, tələbələrdə tədqiqatçılıq və peşə fəaliyyəti üçün zəruri olan praktik bilik, bacarıq və vərdişlərin formalaşdırılması üçün ölkədaxili və beynəlxalq əməkdaşlığın yeni müstəviyə yüksəldilməsi, habelə, dünyanın tanınmış ali təhsil müəssisələri ilə tələbə-müəllim mübadiləsi əsasında professor-müəllim heyətinin tərcrübəsinin artırılması, yeni biliklərin tələbələrə ötürülməsi və elmi nəticələrin istehsalatda tətbiq olunması, ölkənin və cəmiyyətin sosial-iqtisadi problemlərinin həllində iştirak edən "Tədqiqat Universiteti"nə çevrilmək – gələcəyə baxışın əsas tərkib hissəsini təşkil edir.

Bu baxışın həyata keçirilməsi Universitetin məzunlarına konvergens bilik və bacarıqlara malik mütəxəssis kimi yetişmək, yerli və beynəlxalq əmək bazarında və cəmiyyətdə öz layiqli yerlərini tutmaq, eyni zamanda BDU-ya ölkənin ən nüfuzlu, regionun isə ən tanınmış təhsil və elm müəssisəsinə çevrilmək imkanı yaradacaqdır.

SİP-də "Universitet-5.0" inkişaf strategiyasına uyğun olaraq müəyyən edilən prioritet istiqamətlər – "Təhsil, Elmi tədqiqatlar, İnnovasiyalar, Beynəlmiləlləşmə və Sosiallıq" Universitet qarşısında qoyulan məqsəd və hədəflərə uyğundur. Plan davamlı akademik inkişafı, təhsil, elm və innovasiyalar sahəsində gələcəyə baxış və mütəmadi olaraq yenilənməsi nəzərdə tutulan hədəfləri, daim təkmilləşdirilən, sosiallıq və beynəlmiləlləşmə üzrə qısa, orta və uzun müddətli fəaliyyət istiqamətlərini əhatə edir.

BDU-nun SİP-ində uğura, rasionallığa köklənmiş məqsəd və hədəflər açıqlanır, eyni zamanda bir sıra problemlər təhlil olunur. SİP-də BDU-nun professor-müəllim və inzibati heyəti üçün Universitetin məqsəd və hədəflərinin, habelə onların reallaşdırılması üçün tətbiq olunacaq idarəetmə, tənzimlənmə və nəzarət üsullarının aydın mənzərəsi yaradılmışdır.

Strateji baxışda əks olunan Təhsil-Elm-İnnovasiyalar-Beynəlmiləlləşmə-Sosiallıq beşliyinin qarşılıqlı inteqrasiyası əsasında BDU-nun əsas məqsəd və hədəfləri müəyyən edilmişdir.

BDU-da fundamental bilik və bacarıqları özündə cəmləşdirən innovativ düşüncəli akademik heyət və alimlərin təcrübəsinin artırılması, tələbə, magistrant və doktorantların əmək bazarının tələblərinə cavab verən mütəxəssis kimi formalaşmasına, prioritet istiqamətlərdə elmi tədqiqatların aparılmasına, elmi nəticələrin kommersiyalaşdırılmasına

imkan verən, habelə, ölkənin sosial-iqtisadi inkişafına töhfə verə biləcək elmi mühitin yaradılması, mövcud elmi-tədqiqat institutları, mərkəz və laboratoriyaların dövrün tələblərinə uyğun olaraq yenidən formalaşdırılması, innovativ və sənaye yönümlü yeni elmi-tədqiqat mərkəz və laboratoriyalarının yaradılması, təhsilalanlarda dərsdənkənar elmi-texniki və mühəndis fəaliyyətinin inkişaf etdirilməsi, elmi ideyalarının reallaşdırılması üçün inkubasiya-akselerasiya mərkəzlərinin yaradılması, dünyanın aparıcı universitet, institut və mərkəzləri ilə müxtəlif proqramları (ikili diplom, müəllim-tələbə mübadiləsi və s.) özündə ehtiva edən beynəlxalq əməkdaşlığın və təcrübə mübadiləsinin inkişaf etdirilməsi fəaliyyət planının əsasını təşkil edir:

- innovativ düşüncəli akademik heyətin sayının artırılması və rəqabətqabiliyyətli kadrların hazırlanmasını təmin edə biləcək təhsil-elm mühitinin formalaşdırılması;
- tədqiqat və sahibkarlıq ekosisteminin yaradılması;
- təhsilin və tədqiqatın beynəlmiləlləşdirilməsi;
- ölkənin sosial-iqtisadi inkişafına töhfə verilməsi;
- təhsil və sosial fəaliyyətin təkmilləşdirilməsi, gənclərin ölkənin sosial-iqtisadi və mədəni inkişafına daha fəal şəkildə cəlb edilməsi;
- effektiv korporativ idarəetmənin, resursların və infrastrukturun inkişafı

kimi prioritet istiqamətlər SİP-də müəyyən edilmiş əsas strateji məqsəd və hədəflər üzrə qısa və orta müddətli dövr ərzində görüləcək tədbirlərdir.

SİP üzrə fəaliyyətin nəticələrini qiymətləndirməyə imkan verən kəmiyyət və keyfiyyət göstəriciləri hər bir istiqamət və hər bir hədəf üçün ayrılıqda müəyyən olunmuş və aydın şəkildə göstərilmişdir. Kəmiyyət və keyfiyyət göstəricilərinə tətbiq olunan bu yanaşma SİP üzrə fəaliyyətin icrasına nəzarət edən maraqlı tərəflərlə yanaşı, universitetdaxili monitorinqi aparmağa və özünütəhlil nəticəsində həmin göstəricilərin ildən-ilə yaxşılaşdırılmasına zəmin yaradır.

Təhsil istiqaməti üzrə kəmiyyət və keyfiyyət meyarı kimi, elmi-pedaqoji və digər göstəriciləri ilə yeni stimullaşdırma proqramına uyğun gələn akademik heyətin sayı, dəyişən dünyanın çağırışlarına cavab verən və müasir əmək bazarının tələblərini ödəyən yeni ixtisaslara yiyələnən tələbələrin sayı, yerli və əcnəbi abituriyentlərin məzun olma göstəricisi, Universitetdə tədris-təlim, elmi tədqiqatlar və idarəçilik prosesinin təkmilləşdirilməsi baxımından innovativ və rəqəmsal həll formalarından istifadə edən aktiv istifadəçilərin sayı, müəllim-tələbə nisbəti və s. qəbul edilir.

BDU-da akademik heyət və alimlərin, habelə tələbə, magistrant və doktorantların inkişafına təkan verən keyfiyyətli elmi mühitin formalaşdırılmasına və tədqiqatların aparılmasına şərait yaratmaq məqsədi ilə elmi-tədqiqat istiqamətində əsas göstəricilər, tədqiqata cəlb olunan gənclərin say göstəricisi, akademik heyətin bir nəfərinə düşən elmi nəşrlərin və hər bir elmi nəşrə düşən istinadların sayı, tədqiqatların nəticələrinin tətbiqindən və kommersiyalaşdırılmasından daxil olan maliyyə vəsaitinin həcmidir.

İnnovasiyalar sahəsində tədqiqat və inkişaf fəaliyyətinə sənaye və biznes mühitindən cəlb olunan mütəxəssislərin sayı və həmin fəaliyyəti maliyyələşdirən tərəflərin sayı əsas hədəflərin ölçü meyarı kimi göstərilmişdir. Dövriyyədən asılı olaraq illik gəlirin əməkdaş sayına düşən nisbətinin də nəzərə alınması nəzərdə tutulur.

Müasir qloballaşma dövründə beynəlmiləlləşmə universitetlərin mühüm strateji hədəflərindən hesab olunur. Beynəlmiləlləşmədə qiymətləndirilmə meyarları – beynəlxalq proqramlara cəlb olunan tələbə və müəllimlərin, əcnəbi tələbələrin sayı, xarici

universitetlər və beynəlxalq təşkilatlarla təhsil və elm sahəsində mövcud əlaqələrin möhkəmləndirilməsinə və yeni faydalı tərəfdaşlıq əlaqələrinin qurulmasında imzalanmış əməkdaşlıq müqavilələrinin effektivliyi və əsas meyarlardan biri kimi beynəlxalq reytinqlər üzrə əldə olunan nəticələrdir.

Sosial məsuliyyət, ictimaiyyətlə əlaqə və təkmilləşmə BDU-nun idarəçilik siyasətində xüsusi önəm daşayır. Məhz bu səbəbdən təhsilalanlar və əməkdaşlar arasında illik sorğuların aparılması sosiallaşmanın ayrılmaz bir hissədir, həmçinin iki və daha çox tərəfdaşların iştirakı ilə keçirilən tədbirlərin sayı, xidmət göstərilən kənar şəxslərin və təşkilatların sayı və əldə edilən gəlir, müasirləşdirilmiş auditoriya və laboratoriyaların nisbəti sosiallaşma istiqamətində hədəflərin əsas qiymətləndirilmə meyarları kimi seçilmişdir.

SİP-də nəzərdə tutulmuş fəaliyyətləri icra etmək üçün yetərincə insan, maliyyə və infrastruktur resursları ayrılır. Universitetdə tədqiqat, inkişaf və innovasiyaların mülkiyyət formasından asılı olmayaraq sənaye şirkətləri tərəfindən də maliyyələşdirilməsinə nail olmaq üçün uyğun biznes portfelinin yaradılması vacib elementlərdən hesab edilir. Universitet-sənaye-biznes tərəfdaşlığı portfelinin mövcudluğu bu istiqamətdə etibarlılığın möhkəmlənməsinə töhfə verə bilər.

Yeni innovativ məhsulların və həll variantlarının hazırlanması, işlənilməsi, tapılması və maliyyələşdirilməsinin daha çevik şəkildə aparılması üçün texnologiyaların transferi mexanizmi olaraq BDU tərəfindən elmi-tədqiqat mərkəzinin və məhdud məsuliyyətli cəmiyyətin yaradılması nəzərdə tutulmuşdur.

Davamlı olaraq qeyri-dövlət sektoru tərəfindən maliyyələşdirilən tədqiqatların həcmini və dəyərini artırmaq üçün biznes, sənaye, QHT-lər və digər qurumlarla qarşılıqlı əlaqələrin inkişaf etdirilməsi, axtarışa, inkişafa meyilli tələbələri və yüksəkixtisaslı kadrları cəlb etmək məqsədilə BDU-nun maddi-texniki bazasının, rəqəmsal infrastrukturunun və köməkçi resurslarının müasirləşdirilməsinə əlavə investisiya qoyuluşunu təmin etmək, kampusun ərazisində idman və sosial əhəmiyyətli infrastrukturların partnyorların cəlb olunması yolu ilə (“dövlət-özəl tərəfdaşlığı” (“public-private partnership” - PPP) də daxil olmaqla) təkmilləşdirilməsi imkanları da qarşıda duran hədəflərdəndir. BDU-da ən müasir elmi-tədqiqat mühitinin formalaşdırılması üçün insan kapitalının inkişafına və maddi-texniki bazanın təkmilləşdirilməsinə davamlı olaraq kapital qoyuluşunun təmin edilməsi əsas məqsədlərdəndir.

Universitetin büdcə planlaşmasında təhsil, elm, innovasiyalar, beynəlmiləlləşmə və sosiallıq istiqamətlərində fəaliyyət üçün müvafiq maliyyə vəsaitləri nəzərə alınır. Bu haqda müvafiq məlumatlar Özünütəhlil Hesabatının uyğun bölmələrində öz əksini tapmışdır.

SİP-də Təhsil, Elm, İnnovasiyalar, Beynəlmiləlləşmə və Sosiallıq beşliyinin hər biri üzrə hədəflər müəyyən olunmuş, sosial məsuliyyət, elmi yeniliklərin cəmiyyətə transferi, əqli mülkiyyətin qorunması və s. kimi məqamlar da əks olunmuşdur.

Təhsil, Elm, İnnovasiyalar, Beynəlmiləlləşmə və Sosiallıq beşliyinin paralel olaraq inkişaf etdirilməsi üçün BDU-da əvvəlki illərdə menecment fəaliyyətinin zəif olması, akademik heyətin yaşlanması, Universitetdə təhsil, elm və idarəetmədə rəqəmsallaşmanın, demək olar ki, mövcud olmaması, elmi nəticələrin kommersiyalaşdırılmaması, zəif marketinq, təbliğat və təşviqat strategiyası, BDU məzunları ilə əlaqələrin zəif olması, ianə fondunun olmaması, mümkün “beyin axını”nın

qarşısının alınması üçün fəaliyyət planının olmaması və s. məsələlər SİP hazırlanan zaman nəzərə alınmşdır.

Ölkədə lider universitet mövqeyini qoruyub saxlamaqla yanaşı, elm və təhsil sahəsində beynəlxalq səviyyəli platformaya çevrilməklə regionun ən aparıcı universitetləri sırasına daxil olmaq üçün SİP-də Universitetin güclü və zəif tərəfləri, təhdidlər və imkanlar nəzərə alınmışdır (SWOT analiz aparılmaqla). Bu baxımdan, SİP-də elm və təhsilin davamlı inkişafı üçün dövlət tərəfindən yaradılan şərait və yeni layihələr, xarici tərəfdaş universitetlərlə birgə kadr hazırlığı və elmi tədqiqatların aparılması, beynəlxalq proqramlar və qrant müsabiqələrində iştirak imkanları və kampusun ərazisində idman və sosial əhəmiyyətli infrastrukturların BDU-nun hesabına və ya partnyorların cəlb olunması yolu ilə təkmilləşdirilməsi kimi imkanlar xüsusi vurğulanmışdır.

Gənc ixtisaslı kadrların akademik və elmi sahələrdə fəaliyyətə nisbətən az maraq göstərməsi, ölkədaxili və regional səviyyədə ali təhsil müəssisələri arasında rəqabətin daha da güclənməsi, uzun illər boyu formalaşmış mövcud kafedraların optimal sayda olmaması, istedadlı kadrların xarici ölkələrə axını da qeyd olunur.

Müasir tədris-təlim texnologiyaları ilə təchiz olunmuş auditoriyalara olan tələbat, kafedraların, tədris otaqlarının və laboratoriyaların maddi-texniki cəhətdən yenilənməsinə olan ehtiyac, akademik heyətin tərkibində təqaüd yaşlı əməkdaşların sayının üstünlük təşkil etməsi, xarici dillərdə qəbul aparılan tədris proqramlarının sayının artırılması zərurəti, humanitar və sosial elm sahələrində nüfuzlu nəşrlərin az sayda olması, tələbə yataqxanası sayının azlığı, elmi nəticələrin sənayedə və biznesdə tətbiqinin azlığı və digər bu kimi məsələlər zəif tərəflər olaraq son 5 ildə bəzi nüfuzlu beynəlxalq reytinqlərdə geriləməyə səbəb olsa da, Universitetin güclü tərəfləri də günü-gündən artır. Ölkənin zəngin təcrübəyə və ənənələrə malik, ən qədim, ən böyük və nüfuzlu təhsil və elm ocağı kimi, professor-müəllim heyəti arasında tanınmış və aparıcı alimlərin mövcudluğu ilə, dünya miqyasında tanınmış və uğur qazanmış məzunlarla birlikdə ölkə üzrə ali təhsil müəssisələri arasında xülasələnmiş və indekslənmiş elmi nəşrlərin sayına, geniş ixtisas (ixtisaslaşma) seçimi imkanına və təhsilin və elmi tədqiqatların keyfiyyətinin yüksək səviyyəsinə görə lider mövqeyini saxlayır. Digər üstün cəhətlər kimi təbiət-dəqiq və humanitar-sosial elm sahələri üzrə geniş spektrli akademik proqramları, Universitetin Bakı şəhərində əlverişli coğrafi ərazidə və "yaşıl" universitet şəhərciyində yerləşməsi, regionlarda filial və tədris-təcrübə bazalarının mövcudluğunu da qeyd etmək olar.

SİP BDU-nun kafedralarında, elmi-tədqiqat institut, mərkəz və laboratoriyalarında, inzibati idarəetmə struktur bölmələrində, gənclər təşkilatlarında, BDU-nun digər qurumlardakı baza kafedralarında, Universitetin əməkdaşlıq etdiyi və təcrübə bazaları olan müəssisələrdə əməkdaşların iştirakı ilə müzakirə olunmuş, irad və təkliflər ümumiləşdirilmişdir (kafedra, şöbə iclaslarında və fakültə, institut elmi şuralarında, görüş və müzakirələrdə). BDU-nun Elmi Şurasında bütün irad və təkliflər müzakirə olunmuş, BDU-nun Himayəçilər Şurasının iclasında "Strateji İnkişaf Planı 2021-2030" təsdiq edilmişdir (http://bsu.edu.az/az/news/bduda_himayilr_urasnn_nvbti_iclas_keirilib).

SİP-in həyata keçirilməsində uğurun açarı onun yerinə yetirilməsində iştirak edəcək hər bir kəsin öz fərqli yanaşmasını və verəcəyi töhfənin əhəmiyyətini başa düşməsinə əmin olmasıdır. Bu, Planda göstərilən vəzifələri yerinə yetirməyə və onun uğur qazanmasına töhfə verməyə imkan yaradır. SİP-in 5 istiqamətdən hər biri üzrə BDU-da

həyata keçirilən islahatlar nəticəsində yeni struktur bölmələri də yaradılmışdır. Hər bir struktur bölməsi uyğun istiqamətlərin (Təhsil, Elm, İnnovasiyalar, Beynəlmiləlləşmə və Sosiallıq) hədəflərini əsas tutaraq fəaliyyət göstərir.

## 1.2. Strateji inkişaf proqramının icrası və monitorinqi

BDU-nun "Bakı Dövlət Universitetinin 2014-2020-ci illər üzrə Missiya və Strateji İnkişaf Planı", "Bakı Dövlət Universitetinin 2014-2020-ci illər üzrə İnkişaf Proqramı", 2021-2030-cu illər üzrə "Strateji İnkişaf Planı" əsasında 2017-2019 və 2019-2022-ci illər üçün fəaliyyət planları hazırlanmış, müəyyən nəticələr əldə edilmişdir:

- Universitetdə beynəlxalq təsnifata uyğun istiqamət və ixtisaslar üzrə beynəlxalq standartlar səviyyəsində kadr hazırlığının həyata keçirilməsinə başlanılmışdır;
- kadr hazırlığı fəaliyyətinin strukturu Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafının perspektiv tələblərinə və regionların inkişafına dair Dövlət Proqramına uyğunlaşdırılmışdır;
- tədrisin maddi-texniki və tədris-metodiki təminatının müasirləşdirilməsi üzrə işlər sürətləndirilmişdir;
- Quba Tədris-Təcrübə və İstirahət Mərkəzində təcrübələrin keçirilməsi üçün şərait yaradılmışdır;
- "Blackboard" elektron təhsil sistemi və elektron tələbə sisteminin tətbiqinə başlanılmış, elektron sənəd dövriyyəsi, elektron insan resursları sistemi və elektron mühasibatlıq sisteminin tətbiqi üzrə işlər yekunlaşdırılmışdır;
- bu elektron sistemlərin inteqrasiyasına imkan verə biləcək "e-BDU"-ya keçidlə təmin olunmuş BDU-nun yeni saytı müasir texnologiyalar əsasında hazırlanmışdır;
- elmi tədqiqatların dünya elminə uyğunlaşdırılması üçün təbiət-dəqiq elmlər sahəsində 5 elmi prioritet – Fizika və kosmos elmləri, Riyaziyyat və kompüter elmləri, Kimya və materialşünaslıq, Biologiya və həyat elmləri, Yer elmləri və ətraf mühit kimi müəyyən edilərək qəbul edilmişdir;
- ölkənin ali təhsil müəssisələri üçün müxtəlif sahələri əhatə edən cihaz və avadanlıqlardan kollektiv istifadənin təmin edilməsi, prioritet elmi istiqamətlər üzrə birgə elmi tədqiqatların aparılması, elmi tədqiqatların nəticələrinin patentləşdirilməsi, kommersiyalaşdırılması və tətbiqi, təhsil-elm-istehsalat əlaqələrini genişləndirməklə əmək bazarının tələblərinə uyğun kreativ düşüncəli mütəxəssis hazırılığının həyata keçirilməsi məqsədilə müasir dövrün tələblərinə cavab verən sənaye yönümlü – Nanoaraşdırmalar, Sənaye kimyası, Rəqəmsal araşdırmalar, Mikrobiologiya və virusologiya, Biomühəndislik, Ekoloji kimya və ətraf mühitin mühafizəsi, Astrokosmik və atmosfer tədqiqatları, Hüceyrə kulturası və genom redaktəsi kimi ETL-ləri özündə birləşdirən Tədqiqat, İnkişaf və İnnovasiyalar üzrə Mükəmməllik Mərkəzi yaradılmışdır;
- ölkə universitetləri arasında ilk dəfə olaraq elmi nəticələrin kommersiyalaşdırılması yolu ilə Universitetin sənayedən gələn gəlirlərinin artımına nail olunmuşdur;
- BDU-da tələbələrin və gənc tədqiqatçıların elmi araşdırmalara cəlb olunması, onlarda elmi ideyaların reallaşdırılması, tanıdılması və tətbiqinə şərait yaradılması məqsədilə Tələbə Elmi-Texniki Yaradıcılıq Mərkəzi yaradılmışdır; bu Mərkəzdə BDU

ilə yanaşı, ölkənin digər ali təhsil müəssisələrinin tələbələrinin də müxtəlif sahələr üzrə təhsil-elm-innovasiya istiqamətində yerinə yetirilən layihə və proqramlarda iştirakına imkan yaradılmışdır; Mərkəzin inzibati binası istifadəyə verilmiş, Mərkəzdə tələbələrin elmin müxtəlif sahələri üzrə təcrübə və tədqiqatlar aparması, tədris prosesində əldə etdikləri biliklərin daha da gücləndirilməsi üçün elektronika, materialşünaslıq, kimya mühəndisliyi, proqramlaşdırma, süni intellekt, mexanika, mexatronika, robototexnika mühəndisliyi, ekologiya mühəndisliyi, astrofizika və kosmos elmləri istiqamətləri üzrə fəaliyyətin təşkili məqsədilə dörd dərnək formalaşdırılmış və lazımi avadanlıq və cihazlarla təmin edilmişdir;

- təhsilin bütün səviyyələri (bakalavriat, magistratura və doktorantura) üzrə əksər təhsil proqramları sənaye və biznes müəssisələrinin mütəxəssislərinin iştirakı ilə hazırlanmış və yenilənmiş, istehsalat müəssisələrindən olan mütəxəssislər tədrisə və elmi fəaliyyətə cəlb olunmuşdur (məsələn, hal-hazırda “CodeAcademy” və “DevEducation” kimi tanınmış qurumlar Elm və Təhsil Nazirliyinin dəstəyi ilə BDU-da tədris fəaliyyəti göstərir və SABAH.Lab layihəsi üzrə işlər aparılır);
- BDU tərəfindən əmək bazarının ehtiyac və tələbləri öyrənilmiş, yeni ixtisaslara (ixtisaslaşmalara) olan ehtiyac nəzərə alınaraq “Aktuar riyaziyyat”, "Ekologiya hüququ”, “Vergi hüququ”, “Mədəniyyət hüququ”, “Tətbiqi biotexnologiya”, “Mobil tətbiqlərin hazırlanması və oyun dizaynı” və s. kimi ixtisaslar müvafiq qaydada BDU-da açılmışdır və “Aqrar hüquq”, “Qida məhsullarının kimyəvi ekspertizası”, “Təbii ehtiyatlar hüququ” və s. ixtisasların açılması üzrə işlər aparılmaqdadır;
- tələbə-müəllim mobilliyi gücləndirilmişdır;
- magistratura səviyyəsində 6 ixtisaslaşma təhsildə keyfiyyətin təminatı üzrə müstəqil beynəlxalq Agentlik tərəfindən 5 il müddətinə beynəlxalq akkreditasiyadan keçirilmişdir;
- müasir dövrün tələbləri nəzərə alınmaqla Elmi Kitabxananın strukturu yenidən formalaşdırılmışdır;
- beynəlxalq elmi informasiya bazalarına (Web of Science, SCOPUS) daxil olan jurnallarda Respublika üzrə nəşr olunan nüfuzlu məqalə sayının ən azı 10%-nin BDU-nun əməkdaşları tərəfindən nəşr etdirillməsinə nail olunmuşdur (hal-hazırda bu rəqəm 15,6% təşkil edir);
- BDU-da anti-plagiat sistemindən istifadə işi təşkil olunmuşdur; 2017-ci ildə BDU ilə Polşanın Plagiat.pl şirkəti arasında antiplagiat sisteminin tətbiqi ilə bağlı müqavilə imzalanmış və 2018-ci ildən başlayaraq Universitetin www.plagiat.pl saytına əlçatanlığı təmin edilmişdir; Hal-hazırda BDU-da Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən də qəbul edilən və beynəlxalq səviyyədə tanınan StrikePlagiarism anti-plagiat sistemi tətbiq edilir;
- yerli və beynəlxalq donorlardan son 5 il ərzində elm sahəsində ən azı 20 qrantın alınmasına nail olunmuşdur (son 5 il ərzində BDU-nun əməkdaşları tərəfindən yerli və beynəlxalq donorlardan elm sahəsində 100-ə yaxın qrant alınmışdır; təkcə 2021-ci ildə Universitetin əməkdaşları 22 (9 beynəlxalq və 13 respublikadaxili) elmi layihə yerinə yetirmişdir);

- “Tədqiqat Universiteti” statusunun əldə edilməsi üçün lazımi sənədlər toplusu hazırlanaraq Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinə təqdim olunmuşdur;
- xarici tələbə və doktorant kontingentinin sayının artırılması üçün mübadilə və ikili diplom proqramları üzrə dünyanın bir çox universitet və institutları ilə müqavilələr imzalanmışdır;
- bakalavriat, magistratura və doktorantura səviyyələrində ikili diplom proqramlarının sayı 10-a çatdırılmışdır;
- universitetlərin beynəlxalq reytinqlərə daxil edilməsi və mövqeyinin davamlı olaraq yaxşılaşdırılması üçün meyarlar üzrə tələblərin həlli istiqamətində işlər intensivləşdirilmişdir; BDU-da aparılan islahatlar, elmə, təhsilə, beynəlmiləlləşməyə və tələbələrin sosial həyatına xüsusi diqqətin artırılmasının nəticəsi olaraq 2022-ci ildə BDU dünya universitetlərinin ““THE - Times Higher Education” (by Subject Ranking)” reytinq cədvəlində Fizika elmləri üzrə 1001+ və Mühəndislik elmləri (Kimya mühəndisliyi, Geologiya mühəndisliyi, Hidrogeologiya mühəndisliyi, Geofizika mühəndisliyi və s.) üzrə 1001+ mövqeyini qazanmış, Beynəlmiləlləşmə üzrə isə 864-cü yeri tutmuş və Azərbaycandan bu nüfuzlu reytinq cədvəlində yer alan yeganə universitet olmuşdur; QS beynəlxalq reytinqində isə BDU ölkə üzrə təmsil olunan iki universitetdən biridir;
- bilik və təcrübə mübadiləsi məqsədilə onlarla yüksək səviyyəli konfranslar, vorkşoplar, forumlar keçirilmişdir;
- mütəmadi olaraq sosial yönümlü tədbirlər keçirilmişdir;
- əməkdaş və təhsilalanlar üçün şəffaflığı və inkişafı təmin edən idarəçilik sistemi formalaşdırılmışdır;
- əməkdaş və təhsilalanların fərdi inkişafına yardım və onların psixoloji müdafiəsinə dəstək işi təşkil olunmuş, bu məqsədlə Azərbaycanın ali təhsil müəssisələri arasında ilk dəfə olaraq BDU-da Psixoloji yardım sektoru yaradılmışdır;
- əməkdaş və təhsilalanların sosial-məişət şəraiti yaxşılaşdırılmış və müntəzəm olaraq əməkhaqları artırılmış, iaşə xidməti yenidən qurulmuşdur;
- ictimaiyyətlə, ictimai birlik və təşkilatlarla əlaqələr yeni müstəvidə qurulmuş, bu istiqamətdə fəaliyyəti genişləndirmək məqsədilə İctimaiyyətlə əlaqələr və informasiya şöbəsi yaradılmışdır;
- ölkədaxili əməkdaşlıq əlaqələri genişləndirilmiş, beynəlxalq təşkilatlarla, iri şirkətlərlə əməkdaşlıq müqavilələri imzalanmış, birgə layihələr həyata keçirilmişdir (məsələn, “BP-Azərbaycan” şirkəti ilə bağlanılmış əməkdaşlıq müqaviləsi əsasında şirkətin maliyyə dəstəyi ilə BDU-nun mətbəəsi yenidən qurulmuş, ən müasir rəqəmsal avadanlıqlarla təchiz edilmiş, BDU Elmi Kitabxanasının ən yeni texnologiyalarla elektronlaşdırılmasına başlanılmışdır);
- təhsilalanların ictimai fəallığının artırılması, gənclər siyasəti sahəsində dövlət proqram və layihələrində tələbələrin iştirakını təşviq etmək məqsədilə Azərbaycanın ali təhsil müəssisələri arasında ilk dəfə olaraq BDU-da Humanitar məsələlər və gənclər siyasəti şöbəsi yaradılmışdır;

– əməkdaş və təhsilalanların fərdi yaradıcılıqlarının inkişaf etdirilməsi üçün müvafiq struktur bölmələr – Mədəniyyət-yaradıcılıq Mərkəzi və İdman-sağlamlıq Mərkəzi yaradılmışdır.

Strategiyada yaxın və orta dövr üçün müəyyən olunan indikatorlar üzrə BDU-da işlərin həyata keçirilməsinə başlanılmışdır. Universitetdə Avropa ali təhsil məkanında keyfiyyət təminatı üzrə standartlar və təlimatlara uyğun struktur islahatları aparılmış, gənc kadrların potensialından istifadə edilməsinə başlanılmışdır (http://www.twinning4he.edu.az/uploads/component/document/esg.pdf).

Strateji proqram əsasında fəaliyyətin monitorinqi göstərir ki, həyata keçirilmiş islahatlar, idarəetmə prosesinə gənclərin cəlb olunması sürətli inkişafa əsaslı zəmin yaradır.

SİP-də müəyyən edilən prioritet istiqamətlər üzrə uyğun struktur bölmələri tərəfindən dövri hesabatlar tərtib edilir, maraqlı tərəflər bu barədə müvafiq qaydada məlumatlandırılır.

SİP-in icrası üzrə Universitetin struktur bölmələrinin dövri (yarımillik, illik) hesabatları bu bölmələrin iclaslarında və elmi şuralarda müzakirə edilir, nəticələr təhlil olunur, gələcək fəaliyyətdə nəzərə alınır.

BDU-nun Keyfiyyətin təminatı və monitorinq şöbəsi uyğun struktur bölmələri ilə birgə təhsil, elmi-tədqiqatlar, innovasiyalar, beynəlmiləlləşmə və sosiallıq sahələrində monitorinqlər aparır. Monitorinq əsasında SİP-də müəyyən olunan prioritet istiqamətlərin hədəflərinin qiymətləndirilməsi işi yerinə yetirilir.

Keyfiyyətin təminatı və monitorinq şöbəsinin uyğun struktur bölmələri ilə birgə təhsil, elmi-tədqiqatlar, innovasiyalar, beynəlmiləlləşmə, sosiallıq sahələrində SİP-də müəyyən olunan prioritet istiqamətlərin hədəfləri üzrə əldə olunmuş nəticələrin qiymətləndirilməsinə dair monitorinqinin nəticələri müvafiq bölmələrin iclaslarında müzakirə olunur və nəticələr barədə rəhbərliyə məlumat verilir.

SİP-də müəyyən edilən prioritet istiqamətlər üzrə uyğun struktur bölmələri tərəfindən aparılan monitorinqin nəticələri ətraflı təhlil olunur və aşkar edilmiş zəif tərəflər və çatışmazlıqlar növbəti il üçün bölmələrin fəaliyyət planının hazırlanmasında nəzərə alınır. Bütün bölmələr və SİP-in istiqamətləri üzrə monitorinqin nəticələri ümumiləşdirilir və fakültələrin elmi şuralarında müzakirə olunaraq bütün maraqlı tərəflər müvafiq qaydada məlumatlandırılır.

## 2. KEYFİYYƏT TƏMİNATI

### 2.1. Keyfiyyət təminatı siyasəti

Keyfiyyətin təmin edilməsi sahəsində Universitetin siyasəti ali təhsildə keyfiyyətin təmin edilməsi üzrə beynəlxalq yanaşmalara, “Avropa ali təhsil məkanında keyfiyyət təminatı üzrə standartlar və təlimatlar”a (ESG) və Azərbaycan Respublikasının qüvvədə olan müvafiq hüquqi sənədlərində əksini tapmış elm və təhsil siyasətinə uyğundur. Bunlara əsaslanaraq Universitetin keyfiyyətin təmin edilməsi sahəsində siyasəti müəyyənləşdirilmiş və təsdiq olunmuşdur. Siyasət bu sahədə BDU-nun hədəfləri və onlara çatmaq üzrə istiqamət və yollarını müəyyən edir. Təhsil sahəsində keyfiyyətə nail olunması təhsil xidmətinin keyfiyyətinin artırılmasına müsbət təsir edir, fəaliyyətin

effektivliyinin və maliyyə ehtiyatlarının artmasını təmin edir. Bu da maraqlı tərəflərin məmnunluğuna səbəb olur.

Keyfiyyətin təmin olunması sahəsində siyasət daxili və xarici maraqlı tərəflərlə müzakirə olunduqdan sonra onların irad və təklifləri nəzərə alınaraq rəsmiləşdirilmişdir. Sənəd kafedra və fakültələrdə əməkdaşların və tələbələrin iştirakı ilə müzakirə edilmiş, irad və təkliflər ümumiləşdirilmişdir. Gənc Alimlər Şurası, Tələbə Həmkarlar İttifaqı Komitəsi və Tələbə Gənclər Təşkilatının keçirdikləri müzakirələrdə təhsilalanlar siyasətə öz münasibətlərini bildirmişlər. Universitetin müvafiq struktur bölmələri də siyasətin hazırlanmasında yaxından iştirak etmişlər. BDU-nun kafedralarının müxtəlif qurumlardakı filiallarında, BDU tələbələrinin təcrübə keçdiyi müəssisə, orta məktəb və liseylərdə də sənəd müzakirə olunmuşdur.

Keyfiyyətin təmin olunması siyasəti formalaşdırıldıqdan sonra hər il əsasən aşağıdakı komponentlər əsasında onun təhlili aparılır:

- Universitetin inkişaf strategiyası;
- təhsilalanların və digər təhsil sahəsində xidmətlərə maraqlı tərəflərin məmnunluğu nəticələrinin cari analizi;
- əvvəlki dövrlərdə keyfiyyət menecmenti sisteminin nəticələri haqqında informasiya.

Aşağıdakı hallarda keyfiyyətin təmin olunması sahəsində siyasətə yenidən baxılır:

- nəticə əldə olunmadıqda, yəni faktiki olaraq siyasət təhsilin keyfiyyətinə nəzərəçarpacaq dərəcədə təsir etmədikdə;
- Universitetin ümumi məqsədlərinə uyğun gəlmədikdə;
- müəyyən olunmuş məqsədlərin əsasını təşkil etmədikdə;
- Universitet rəhbərliyi ilə əməkdaşlar arasında əlaqə müvafiq qaydada həyata keçirilmədikdə;
- Universitetin fəaliyyət şəraitinin dəyişməsi ilə əlaqədar siyasət köhnəldikdə.

Keyfiyyətin təmin olunması üzrə siyasət sənədi əməkdaşların və təhsilalanların tanış olmaları üçün fakültə və kafedralarda, kitabxanalarda və inzibati struktur bölmələrinin məlumat lövhələrində və digər müvafiq sahələrdə yerləşdirilir.

Keyfiyyətin təmin olunması sahəsində missiya, məqsəd və vəzifələr Universitet haqqında məqalələrdə, abituriyentlər üçün buklet və reklam materiallarında, sosioloji sorğu anketlərində və s.-də öz əksini tapır.

Sənədin giriş hissəsində BDU-nun keyfiyyətin təmin olunması sahəsində daxili siyasəti, keyfiyyətin təmin olunması və bu sahədə mədəniyyətin fasiləsiz olaraq inkişaf etdirilməsinə ümumi yanaşmalar, əsas prinsipləri və mexanizmi əks olunmuşdur. Təhsilin keyfiyyəti sahəsində Universitetin siyasəti və missiyası, gələcəyə baxış, keyfiyyətin təmin olunması prinsipləri, keyfiyyətin təmin olunması sahəsində siyasətin məqsədi sadə, anlaşılan və dolğun şəkildə tərtib olunmuşdur. Keyfiyyətin təmin olunması sahəsində başlıca məqsədə hansı məsələləri həll etməklə nail olunduğu müəyyənləşdirilmişdir. Universitetdə keyfiyyətin təmin olunması sahəsində qiymətləndirmə meyarları sənəddə öz əksini tapmışdır.

Universitet rəhbərliyi, bütün struktur bölmələri, fakültə və kafedraların əməkdaşları, təhsilalanlar sənədin formalaşdırılması və müzakirəsində iştirak etmişlər. Bütün struktur bölmələrinin rəhbərləri bölmənin fəaliyyətinin müəyyən edilmiş məqsəd, vəzifə və funksiyalarına uyğunluğunu təmin etmək üçün məsuliyyət daşıyırlar. Keyfiyyətin təmin

edilməsi və artırılması yolları struktur bölmələrinin, idarəetmə orqanlarının əsasnamələrində və vəzifə təlimatlarında verilmişdir. Keyfiyyətin təmin olunması və artırılması üçün Universitet rəhbərliyi, fakültələr, kafedra və struktur bölmələri ümumi və ayrı-ayrılıqda məsuliyyət daşıyırlar.

Keyfiyyət təminatı siyasəti təhsil proqramları, idarəetmə, infrastruktur, təhsilverənlərin və təhsilalanların keyfiyyət göstəricilərini əhatə edir.

Universitetin məqsədi - təhsil fəaliyyətini və akademik ardıcıllığı özündə ehtiva edən "Avropa Kredit Transfer Sistemi"nə (AKTS) ekvivalent təhsil proqramlarını təqdim etməkdir. Təhsil proqramlarının strukturu tələbələrə çevik və mobil təhsil imkanı yaradır və bununla da proqramları başa vuran təhsilalanların sayını artırır.

Universitet tədqiqata və empirik təcrübəyə, akademik kompetensiyalara əsaslanan, tələbələrin fərdi istedadlarını tətbiq etmək imkanlarını yaradan və cəlbedici təhsil proqramları hazırlayır və inkişaf etdirir. Təhsil proqramlarının keyfiyyəti dərslərdə qarşılıqlı iştirak, açıq mühazirələrin keçirilməsi, tələbə və məzunlarla anket sorğularının və keyfiyyət monitorinqinin aparılması vasitəsilə təmin edilir.

Tələbələrin təhsil nəticələrinin keyfiyyəti aralıq və yekun qiymətləndirilmə göstəricilərinə əsasən müəyyən edilir:

- ixtisasın tədris planını mənimsəmə həcmi (toplanılan kreditlər);
- dövlət imtahanında, buraxılış işi və diplom müdafiəsində tələbələrin yekun qiymətləndirilməsi nəticələri.

Universitet təhsil prosesinin təşkilində istifadə edilən resurslar və infrastrukturun (material, informasiya, insan resursları və s.) kifayət qədər olması, adekvatlığı və həyata keçirilən təhsil proqramlarının tələblərinə uyğunluğuna zəmanət verir.

Universitetin fəaliyyəti üzrə informasiyanın toplanılması, analizi və effektiv idarə olunması sahəsində BDU zəngin təcrübəyə malikdir. Bu istiqamətdə informasiya sistemi və texnologiyalarından iki aspektdə istifadə olunur: tədris prosesində informasiya sistemi və texnologiyalar (tədrisə nəzarətin və qiymətləndirmənin keyfiyyəti, keyfiyyət göstəriciləri, qiymətləndirmənin meyarları və üsulları və s.) və Universitetin fəaliyyətində elektron idarəetmə sisteminin tətbiqi.

Universitetin fəaliyyəti üçün zəruri infrastruktur yaradılmışdır: binalar, mühafizə olunan ərazi, idman-sağlamlıq kompleksi, auditoriyalar, zallar, tədris və elmi-tədqiqat laboratoriyaları, Elmi Kitabxana, Tələbə Şəhərçiyi və yataqxana, yeməkxanalar və bufetlər, yüksək sürətli internet və s. Sadalananlar keyfiyyətin yüksəldilməsinə zəmin yaradır.

Keyfiyyət təminatı siyasəti təhsil proqramları, idarəetmə, infrastruktur, təhsilverənlərin və təhsilalanların keyfiyyət göstəricilərini əhatə edir: əmək bazarı üçün yüksəkixtisaslı kadrların hazırlanması; təqdim olunan təhsil xidmətlərinin spektrinin genişləndirilməsi; təhsil proqramlarının milli və beynəlxalq meyillərin tələblərinə uyğun olaraq modernləşdirilməsi; istehsalat yönümlü təhsilin təmin edilməsi; elm-təhsil-innovasiyanın inteqrasiyasının inkişafının təmin edilməsi; beynəlxalq əməkdaşlığın genişləndirilməsi, ölkədaxili və beynəlxalq səviyyədə strateji tərəfdaşların axtarılması, təhsilalanlar və professor-müəllim heyəti üçün müvafiq tədris və əmək şəraitinin yaradılması, özünütəhlil və özünüinkişaf mühitinin yaradılması; rəqəmsallaşdırılmış universitetin yaradılması.

### 2.2. Daxili keyfiyyət təminatı mexanizmləri

Universitet öz fəaliyyətində təhsilin keyfiyyətinin təmin olunmasını əsas prioritetlərdən biri hesab edir. Universitet fəaliyyətinin əsas prinsipləri: verilən biliyin keyfiyyəti və fundamentallığı, elmin və təhsilin fasiləsizliyi və davamlılığı, ölkəyə və cəmiyyətə faydalılığı, dünya elminə və təhsilinə inteqrasiyadır.

Ali təhsilin keyfiyyətinin təmin olunması üzrə Avropa Assosasiyasının "Avropa ali təhsil məkanında keyfiyyət təminatı üzrə standartlar və təlimatlar"ı, Təhsildə Keyfiyyət Təminatı Agentliyinin meyarları əsasında Universitetin təhsildə keyfiyyətin təmin olunması sahəsində daxili standartları və meyarları hazırlanmışdır.

Universitetin bu sahədə fəaliyyəti daxili və xarici akkreditasiya orqanları tərəfindən tanınmışdır (2017-ci ildə Təhsil Nazirliyi tərəfindən keçirilmiş akkreditasiya, 2020-ci ildə Almaniya, Portuqaliya, Türkiyə, Qazaxstan və Rusiya alimlərinin iştirakı ilə keçirilmiş proqram akkreditasiyaları
https://www.eqar.eu/qa-results/search/by institution/institution/?country=Azerbaijan&id=7115

Universitetin keyfiyyətin təminatı sistemi aşağıdakı sənədlərə əsaslanır:

– "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu, "Elm haqqında" Azərbaycan Respublikasının Qanunu, təhsil sahəsində Elm və Təhsil Nazirliyinin normativ sənədləri;
– ali təhsilin keyfiyyətinin təmin olunması üzrə Avropa Assosasiyasının (ESG) hazırladığı "Avropa ali təhsil məkanında keyfiyyət təminatı üzrə standartlar və təlimatlar";
– Universitetin təhsil proqramları üzrə ixtisaslı kadrların hazırlanması sahəsində BDU-nun keyfiyyət təminatı siyasəti və standartları;
– BDU-nun Nizamnaməsi.

Keyfiyyətin təmin olunması sistemi iki səviyyəli struktura malikdir: təhsildə keyfiyyətin təmin edilməsi milli sistemi (TKTA) və Universitetdə tətbiq olunan keyfiyyətin təmin olunması sistemi.

Universitetin təhsildə keyfiyyət təminatı sistemi funksional və təşkilati strukturdan ibarətdir.

Təhsildə daxili keyfiyyət təminatı sisteminin funksional modeli aşağıdakıları əhatə edir:

– keyfiyyət sahəsində strategiyanın, siyasətin və məqsədlərin formalaşdırılması;
– Universitetin fəaliyyətinin planlaşdırılması və mütəmadi yaxşılaşdırılması;
– tələbələrin təhsili üçün tələb olunan professor-müəllim heyəti və digər resursların idarə olunması;
– proses və prosedurların idarə olunması (əsas və yardımçı);
– monitorinq və nəzarət (analiz və qiymətləndirmə).

Universitetdə keyfiyyətin təminatı üzrə fəaliyyətin strukturu:

– struktur bölmələrinin və struktur rəhbərlərinin funksiyalarının və vəzifələrinin müəyyənləşdirilməsi, təkrarlanmanın qarşısının alınması;
– monitorinqin effektiv mexanizminin hazırlanması, fəaliyyətin müəyyən sahələrində görülən işlərin vəziyyətinin vaxtlı-vaxtında obyektiv qiymətləndirilməsi və bunun əsasında proseslərin yaxşılaşdırılması və korreksiyaedici tədbirlərin hazırlanması;

- struktur rəhbərlərinin məqsədlərə çatmaq, qarşıya qoyulmuş vəzifələri və göstərişləri yerinə yetirmək üçün icra məsuliyyətlərinin artırılması;
- Universitetin müsbət imicini möhkəmləndirmək üçün aktual məsələlərin həll edilməsinə, Universitetin inkişafı üçün məqsədlərin müəyyən edilməsinə müəllim və əməkdaşların, təhsilalanların, müxtəlif struktur bölmələrinin cəlb edilməsi.

2017-ci ildə yaradılmış Keyfiyyətin təminatı, monitorinq və qiymətləndirmə şöbəsi Universitetdə təhsilin keyfiyyətinin daxili təmin olunmasını - keyfiyyətin planlaşdırılması, keyfiyyətin idarə olunması, keyfiyyətin təmin olunması, keyfiyyətin yaxşılaşdırılması və keyfiyyətin qiymətləndirilməsini 2021-ci ilədək BDU-nun Tədris-Metodik Şurası (TMŞ) ilə birgə fəaliyyət nəticəsində həyata keçirmişdir. TMŞ-nın strukturu və əsasnaməsi hazırlanmış, iş bölgüsü aparılmışdır. TMŞ fakültə tədris-metodik şuraları ilə birgə fəaliyyət göstərmişdir. 2021-ci ildən sonra Keyfiyyət təminatı üzrə komissiya yaradılmış və təhsildə keyfiyyətin təmin olunması bu Komissiya ilə birgə həyata keçirilmişdir.

Təhsil fəaliyyətinin keyfiyyətinin təmin edilməsi sisteminin mexanizmi xarici və daxili mexanizmlərin məcmusunu əhatə edir. Daxili mexanizmin əsasında özünütəhlil durur (professor-müəllim heyəti və təhsilalanlar səviyyəsində özünənəzarət, ayrı-ayrı fəaliyyət sahələrində və Universitet səviyyəsində özünüqiymətləndirmə). Kadr hazırlığı keyfiyyətinin yüksəldilməsi Universitet rəhbərliyinin tələbə və müəllimlərlə müntəzəm görüşlərində müzakirə olunan əsas mövzulardandır. Bu görüşlərdə istənilən aktual və ciddi problem və məsələlər açıq və konstruktiv şəkildə müzakirə olunur, yaranmış problemlər operativ həll olunur. Universitet rektorunun illik hesabatı artıq ənənə şəklini almışdır. Bu hesabatlarda keyfiyyət, keyfiyyətin təmin olunması sahəsində görülmüş işlər də müzakirə olunur, gələcək fəaliyyət istiqamətləri müəyyənləşdirilir. Universitetin fəaliyyətinin qiymətləndirilməsinə tədrisin keyfiyyəti haqqında tələbələrin fikirlərinin öyrənilməsi də daxildir (hər il “Müəllim tələbənin gözü ilə” anket sorğusu da keçirilir). Sosioloji sorğuların nəticələri Universitetin gələcək inkişaf proqramları və kadr hazırlığı keyfiyyətinin artırılmasında nəzərə alınır.

Keyfiyyətin təmin olunması sisteminin əsas vəzifəsi menecment sisteminin inkişafı metodlarının işlənilib hazırlanması, tətbiq edilməsi, effektiv fəaliyyət göstərməsidir. Bütün maraqlı tərəflərin maraqlarını təmin etmək məqsədilə, Universitetin fəaliyyətinin daim təkmilləşdirilməsi, strateji məqsədlərin və missiyanın həyata keçirilməsi istiqamətində işlər aparılır. Hər il müvafiq şöbə tərəfindən keyfiyyətin təmin olunması sahəsində görülmüş işlər üzrə məlumat toplanılır, SWOT analizi aparılır, kompleks təhlil edilir və Özünütəhlil Hesabatı hazırlanaraq Elmi Şurada müzakirə olunur.

Təhsildə keyfiyyətin təmin olunması istiqamətində Keyfiyyətin təminatı və monitorinq şöbəsi ilə 2021-ci ilə kimi birgə fəaliyyət göstərən TMŞ-nin tərkibinə təhsilverənlərlə yanaçı, təhsilalanlar da daxil edilmişdir.

Universitetin təhsildə keyfiyyət təminatı sahəsində strateji məqsədi Universitetin inkişafının strateji hədəflərindən birbaşa asılıdır. Ölkənin sosial-iqtisadi inkişafının yeni mərhələsi və Universitetin müasir vəziyyəti yeni strateji hədəfləri qarşıya məqsəd kimi qoymuşdur və bunlar BDU-nun 2021-2030-cu illər üzrə SİP-də öz əksini tapmışdır. Keyfiyyətin təminatı üzrə komissiyanın fəaliyyət planı SİP-in hədəflərinə uyğun formalaşdırılmışdır və aşağıdakı fəaliyyət istiqamətlərini əhatə edir:

- yeni nəsil elm-təhsil proqramlarının sayının artırılması (yeni ixtisas və ixtisaslaşmaların yaradılması);

- təhsil proqramlarının müntəzəm olaraq yenilənməsi və aktuallaşdırılması, yeni fənlərin, o cümlədən xarici dildə tədris olunan fənlərin proqrama daxil edilməsi, təhsil prosesində tətbiq olunan texnologiyaların təkmilləşdirilməsi;
- Universitetin elmi-pedaqoji kadrlarının ixtisasartırma, şəxsi yüksəliş, öz-özünə təhsil almaq vasitələri ilə keyfiyyətinin yüksəldilməsi;
- ixtisaslı kadr hazırlığının keyfiyyətinin artırılması;
- mövcud elmi və tədris laboratoriyalarının modernləşdirilməsi, yenilərinin yaradılması, onların müasir avadanlıqlarla və proqram məhsulları ilə təmin olunması;
- təhsil prosesinin yeni nəsil dərslik, elmi və metodiki ədəbiyyatla təchiz olunması;
- iri müəssisələrdə təcrübə bazalarının formalaşdırılması, təbiət, dəqiq, texniki, iqtisadi və hümanitar ixtisaslı kafedraların tədris-elm-istehsalat əlaqəsi üzrə inkişaf etdirilməsi;
- rəqəmsal tədris resurslarının yaradılması və istifadəsi;
- müəllimlərin, doktorantların, magistrantların, tələbələrin xarici dilləri öyrənmələri üçün müvafiq şəraitin yaradılması;
- Universitetin təhsil fəaliyyətinin milli və beynəlxalq meyarlara uyğunluğunun təmin edilməsi;
- əmək bazarında Universitet məzunlarının rəqabətqabiliyyətliliyinin artırılması;
- Universitet tədqiqatçılarının elmi nəticələrinin kommersiyalaşdırılmasının təmin edilməsi;
- təhsilalanların vətənpərvər və bəşəri dəyərlər əsasında tərbiyəsinin təmin edilməsi;
- təhsilalanlarda yeni iqtisadi və idarəetmə düşüncə tərzinin formalaşdırılması;
- beynəlxalq reytinqlərdə yüksək yerlərə nail olunması.

Keyfiyyətin təmin olunması sistemi keyfiyyətin planlaşdırılması, keyfiyyətin idarə olunması, keyfiyyətin təmin olunması, keyfiyyətin yaxşılaşdırılması və keyfiyyətin dəyərləndirilməsini əhatə edir.

**Təhsilin keyfiyyətinin daxili təmin edilməsi**

| | |
|---|---|
| Keyfiyyətin planlaşdırılması | Təhsilin keyfiyyətinin tələblərinə uyğun strategiya, siyasət və onlarla əlaqəli vəzifələrin formalaşdırılması istiqamətində fəaliyyət |
| Keyfiyyətin idarə olunması | Təhsildə keyfiyyətin təmin olunması üçün tələblərin yerinə yetirilməsi fəaliyyətinin operativ xarakterli metod və növləri |
| Keyfiyyətin təmin olunması | Keyfiyyətin tələblərinin yerinə yetiriləcəyinə inamın yaradılması istiqamətində fəaliyyət |
| Keyfiyyətin yaxşılaşdırılması | Təhsildə keyfiyyətin yaxşılaşdırılması üçün tələblərin yerinə yetirilməsi sahəsində Universitetin fəaliyyəti |
| Keyfiyyətin dəyərləndirilməsi | Keyfiyyətli nəticəyə nail olunmanın monitorinqi və qiymətləndirilməsi |

Keyfiyyətin təminatı və monitorinq şöbəsi və Keyfiyyətin təmin olunması üzrə komissiyanın daxili keyfiyyət təminatı sistemi üzrə təsdiq edilmiş fəaliyyət planı əsasında icra mexanizmlərinə yuxarıdakı cədvəldə göstərilənlərlə nəzarət edilir. Anket sorğularının keçirilməsi, açıq dərslərin təşkili, cari və aralıq qiymətləndirmənin nəticələrinin təhlili və hesabatların hazırlanması, müzakirəsi, qəbul olunması keyfiyyətin təmin olunmasının icra mexnizminin vacib hissəsidir.

Universitetdə keyfiyyətin təmin olunması sisteminin idarə olunması bütün struktur rəhbərlərinin və əməkdaşların vəzifə funksiyalarının aydın şəkildə müəyyən olunmasına, onların öz vəzifələrini yerinə yetirərkən qarşılıqlı əlaqələrinə, həmçinin səlahiyyət və məsuliyyətlərinə əsaslanır. Təhsildə keyfiyyətin idarə olunması sahəsində məsuliyyət və səlahiyyətlərin bölünməsi Universitet rəhbərliyinin fəaliyyətinin əsasını təşkil edir.

Universitetin keyfiyyət təminatı sistemi modeli təhsil, elmi-tədqiqat, ictimai və digər fəaliyyət növlərini əhatə edir. Keyfiyyət sistemi modeli aşağıdakı şəkildə qarşılıqlı fəaliyyət göstərən, Universitet fəaliyyətinin müxtəlif aspektlərini əhatə edən təklif və tələblər məcmusunu əhatə edir:

- keyfiyyət sistemində rəhbərliyin fəaliyyəti (Universitetin inkişafının strategiya, missiya, siyasətinin formalaşdırılması, keyfiyyətin təmin olunması sistemi çərçivəsində təşkilati tədbirlərin cəmi və s.);
- Universitetin keyfiyyətinin təmin olunması sisteminin sənədlərlə müşayiət olunması;
- keyfiyyət sisteminin əsas proseslərinin menecmenti (tədris-metodiki, elmi, tərbiyəvi, marketinq və s.);
- əsas resursların və təminedici proseslərin menecmenti (təhsil, informasiya mühiti və personala rəhbərlik, həyat fəaliyyətinin təhlükəsizliyinin təmin edilməsi və s.);
- təhsildə keyfiyyətin yaxşılaşdırılması, analizi və dəyərləndirilməsi fəaliyyətləri (monitorinq, analiz və dəyərləndirmə, uyğun olmayanların tənzimlənməsi, proseslərin yaxşılaşdırılması);
- ictimaiyyətin məlumatlandırılması (Universitetin şəffaflığı).

Universitetin konsepsiyasına uyğun olaraq təhsilin keyfiyyətinin idarə edilməsi prosesində tələbələr aktiv iştirak edirlər. Universitet və fakültə tələbə gənclər təşkilatları tələbələrin təhsil prosesinin qiymətləndirilməsi və keyfiyyətin təmin olunması işinə cəlb edilməsində fəal rol oynayırlar.

Tədrisin təşkili və təlim texnologiyaları üzrə prorektor keyfiyyət sisteminin yaradılmasına, tətbiqinə və daim təkmilləşdirilməsinə məsuliyyət daşıyır.

Keyfiyyətin təminatı və monitorinq şöbəsinin fəaliyyəti dərslərin keyfiyyətinin artırılması, təhsil proqramlarının məzmununun monitorinqi, təhsilin forma və metodları, biliyin qiymətləndirilməsi, tədris sənədlərinin keyfiyyəti, təhsilalanların akademik mobilliyinə istiqamətlənmişdir.

Hesabat dövründə Keyfiyyətin təminatı və monitorinq şöbəsi və TMŞ tədris vəsaitlərinə nəşr hüququnun verilməsi, açıq dərslərin qiymətləndirilməsi və fakültə TMŞ-lərinin hesabatlarının dinlənilməsi üzrə birgə fəaliyyət göstərmişlər.

Təhsil proqramlarının keyfiyyəti aşağıdakı qaydada müəyyən edilmişdir:

- müəllimlərin dərslərdə qarşılıqlı iştirakı ilə;
- açıq mühazirələr keçirməklə;

- təhsil proqramlarının monitorinqini təşkil etməklə;
- “Müəllim tələbənin gözü ilə” anket sorğusunu keçirməklə;
- məzunların təhsil proqramından məmnunluğu anket sorğusunu keçirməklə.

Fəaliyyət planı fakültələr və akademik heyətlə işi nəzərdə tutur. Fakültələrdə təhsil prosesi, elmi-tədqiqat işi, sosial fəaliyyət analiz olunur və uyğun təkliflər hazırlanır. Professor-müəllim heyətinin tədris və elmi-tədqiqat fəaliyyətinin effektivliyini müəyyən etmək üçün meyarlar hazırlanır və onların topladıqları ballar əsasında reytinq cədvəli tərtib olunur. Nəticələr fakültə və Universitet elmi şuralarında müzakirə olunaraq uyğun inkişaf istiqamətləri müəyyən edilir. Bu işlərin görülməsində inzibati heyətin rolu müəyyən olunur və monitorinq aparılır. Tələbəmərkəzli təhsilin bütün prinsiplərinin həyata keçirilməsi üçün kafedralar, fakültələr və Universitet yüksək keyfiyyətli təhsil xidməti göstərir.

Daxili keyfiyyət təminatı sistemi üzrə təsdiq edilmiş fəaliyyət planı Universitet rəhbərliyinin təhsil sahəsində keyfiyyətin təmin olunması siyasətinin bütün əməkdaşlar tərəfindən effektiv həyata keçirilməsi üçün zəruri şəraiti yaratmasını nəzərdə tutur. Universitetin hər bir əməkdaşı öz kompetensiyası daxilində gördüyü işin keyfiyyətinə görə fərdi məsuliyyət daşıyır.

Keyfiyyətin təmin edilməsi və inkişaf etdirilməsi Universitet rəhbərliyi, fakültə, kafedra və struktur bölmələrinin rəhbərləri arasında ümumi məsuliyyətin olmasını müəyyən edir. Keyfiyyətin daxili təmin olunması siyasətində təhsil fəaliyyətinin bütün tərəfləri üçün məsuliyyətlər öz əksini tapmışdır.

BDU-da təhlil zamanı və qiymətləndirmədə metodiki iş, tədris və elmi fəaliyyətin nəticələri, elmi-pedaqoji və elmi kadrların hazırlanması üzrə aparılan işlər, daxili intizam qaydaları, əməkdaşların peşəkarılq səviyyəsi, tədris-material bazasının, maliyyə, təsərrüfat və iqtisadi fəaliyyətin göstəriciləri nəzərə alınır.

Universitetdə keyfiyyətə daxili nəzarətin tipləri müəyyən edilmişdir (keçirilmə formasına görə):

- Planlı (kompleks xarakterli) - Keyfiyyətin təminatı və monitorinq şöbəsi tərəfindən planlı şəkildə həyata keçirilir, struktur bölmələrinin fəaliyyətlərinin fasiləsizliyi və koordinasiyasının vəziyyəti müəyyən olunur, yoxlamaların təşkilinin qeyri-rasionallığı və təkrar olunma halları aradan qaldırılır;
- Operativ (nəzarət xarakterli) – rəhbərliyin göstərişinə əsasən, faktların müəyyən edilməsi və struktur bölmələri tərəfindən tədris prosesinin metodikasına, məzmununa aid pozulmalar haqqında məlumatın yoxlanılması məqsədilə aparılır.

Keyfiyyətə daxili nəzarətin istiqamətlər üzrə tipləri müəyyən edilmişdir:

- fakültələrin fəaliyyətinə nəzarət;
- kafedraların fəaliyyətinə nəzarət;
- şöbələrin fəaliyyətinə nəzarət;
- kafedrada metodiki dərslərin hazırlanması və keçirilməsinə nəzarət;
- dərslərin keyfiyyətinə nəzarət.

Tələbələrin biliyinə nəzarət cari, aralıq və yekun qiymətləndirmə metodlarına əsasən aparılır.

Daxili keyfiyyət təminatı sistemi üzrə təhlil və qiymətləndirmələr Universitetin fəaliyyətinin bütün sahələrini əhatə edir və daxili keyfiyyət təminatı standartları əsasında aparılır.

Daxili keyfiyyət təminatı üzrə Universitetin fəaliyyətinə dair illik Özünütəhlil Hesabatı Keyfiyyətin təminatı və monitorinq şöbəsi və Keyfiyyətin təminatı üzrə komissiya (2021-ci ilə kimi TMŞ) tərəfindən birgə hazırlanır. Bü məqsədlə bütün struktur bölmələr, fakültələr və kafedralar öz fəaliyyətlərinin SWOT analizlərini aparır, nəticələri təhlil edir və şöbəyə uyğun statistik informasiyanı təqdim edirlər.

Özünütəhlil Hesabatı şöbədə təhlil və müzakirə olunduqdan sonra Elmi Şurada məruzə edilir və müzakirə olunur. Elmi Şuranın irad və təklifləri, həmçinin qəbul etdiyi qərar əsasında şöbə qarşıdakı tədris ili üçün fəaliyyət planı hazırlayır.

## 2.3. Keyfiyyət təminatı mədəniyyəti

Universitetdə keyfiyyət təminatı mədəniyyəti hır zaman diqqətdə saxlanılan məsələlərdən biridir. Bütün əməkdaşlar təhsilin keyfiyyəti probleminə eyni prizmadan baxır, bu anlayışı eyni cür qəbul edirlər. Hər bir əməkdaş bilavasitə onun üçün keyfiyyətin nə olduğunu və yüksək keyfiyyətə nə cür nail olmağın mümkünlüyünü başa düşür. Onun çalışdığı struktur bölmənin keyfiyyətə doğru necə irəliləməsini, keyfiyyətin necə idarə olunmasını və onun mexanizmini dərk edir. Keyfiyyət təminatı mədəniyyəti məzunların hazırlıq səviyyəsini, təhsil prosesinin keyfiyyətini və idarə olunmasını əhatə edir.

Universitetin keyfiyyət təminatı sisteminin idarə edilməsi bütün rəhbər işçilərin və əməkdaşların funksiyalarının aydın şəkildə müəyyən edilməsinə və öz funksiyalarını yerinə yetirərkən qarşılıqlı əlaqələrinin xarakterinə, səlahiyyətlərinə və məsuliyyətlərinə əsaslanır.

Universitetin rəhbərliyi və daxili keyfiyyət təminatı sisteminin idarə olunmasını həyata keçirən əməkdaşlar, eləcə də akademik və inzibati heyət qəbul edir ki, keyfiyyət təminatı mədəniyyəti bütün təhsil prosesi iştirakçılarının ümumi qayğısıdır. Ancaq bu halda keyfiyyətin yaxşılaşdırılması və təmin olunması prosesləri bütün maraqlı tərəflər üçün müvəffəqiyyətli olacaq, Universitetdə və kənarda yüksək qiymətləndirilən keyfiyyət mədəniyyətinin inkişafına töhfə vermək mümkün olacaqdır. Bu sahədə operativ aktual tədbirlər bütün maraqlı tərəflər üçün ümumidir:

- keyfiyyətin təmin olunması prosesləri Universitetin daxilində formalaşdırılmalıdır;
- əks-əlaqə mədəniyyətini onun təsirini artırmağa nail olmaq üçün təkmilləşdirmək vacibdir, bütün maraqlı tərəflər əks-əlaqənin əhəmiyyətini başa düşməli və lazımi reaksiya verməlidirlər;
- ideya və informasiyanın effektiv mübadiləsini təmin etmək üçün bütün iştirakçılar arasında, akademik və inzibati heyətlə rəhbərlik arasında keyfiyyət təminatı üzrə səmərəli kommunikasiya şəbəkəsi mövcud olmalıdır;
- təhsil proqramlarını modernləşdirmək vacibdir;
- tədris metodları tələbəmərkəzli təhsil istiqamətinə yönləndirilməlidir;
- qiymətləndirmə metodları obyektivliyi və müqayisəliliyi təmin etmək üçün şəffaf olmalıdır;
- təhsil prosesi uyğun infrastruktur və dəstək xidmətləri ilə təmin olunmalıdır.

## 3.TƏLİM VƏ TƏDRİS

### 3.1. Təhsilalanların qəbulu və əvvəlki kvalifikasiyaların tanınması

BDU-da ali təhsilin bakalavriat səviyyəsində Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 11 fevral tarixli 45 nömrəli Qərarı ilə təsdiq edilmiş "Ali təhsilin bakalavriat (əsas (baza ali) tibb təhsili) səviyyəsi üzrə ixtisasların (proqramların) Təsnifatı"na (https://e-qanun.az/framework/41438) uyğun olaraq 83 ixtisas üzrə, magistratura səviyyəsində Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 14 iyun tarixli 95 nömrəli qərarı ilə təsdiq edilmiş "Ali təhsilin magistratura səviyyəsi üzrə ixtisasların (ixtisaslaşmaların) Təsnifatı"na (https://e-qanun.az/framework/20015) uyğun olaraq 246 ixtisaslaşma üzrə və doktorantura səviyyəsində Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 15 mart tarixli 65 nömrəli qərarı ilə təsdiq edilmiş "Ali təhsilin doktorantura səviyyəsi üzrə ixtisasların Təsnifatı"na (https://e-qanun.az/ framework /23253) uyğun olaraq 123 ixtisas üzrə müvafiq olaraq tələbə, magistrant və doktorant (dissertant) qəbulu həyata keçirilir.

Tələbə qəbulu üzrə sifarişlər BDU-nun təhsil və elm üzrə prioritetləri, əmək bazarının tələbləri, ixtisas üzrə məzunun kompetensiyaları, ixtisasın çərçivəsi, fənlər üzrə təlim və öyrətmə metodları, təlim nəticələri, kadr hazırlığı aparmaq üçün infrastruktur və kadr potensialı, məzunların işədüzəlmə və təhsilini artırma imkanları əsasında müəyyənləşdirilir və formalaşdırılır.

Ali təhsil xidməti sektorunda mövcud vəziyyət, rəqabət mühiti, qəbulun strategiyasının əsas istiqamətləri (Universitetin güclü və zəif tərəflərinin təyini, abituriyentlərin cəlb olunması sisteminin təkmilləşdirilməsi və s.) müzakirə olunur və növbəti il üçün BDU üzrə qəbulun təmin edilməsi məqsədilə planlar müəyyənləşdirilir.

BDU-nun Karyera və məzunlarla əlaqə sektoru və Hümanitar məsələlər və gənclər siyasəti şöbəsi məktəblərdə və kolleclərdə BDU-dakı ixtisasların təbliğ və təşviqini aparır, məktəb-universitet inteqrasiyasını genişləndirir.

BDU-da tələbə qəbulu sifarişləri mövcud əmək bazarının tələblərinin öyrənilməsi məqsədilə mütəmadi olaraq Universitetdə təşkil olunan əmək yarmarkaları, işəgötürənlərlə və əməkdaşlıq əlaqələri olan qurumlarla müzakirələr, həmçinin Azərbaycan Respublikasının inkişaf strategiyaları əsasında gələcəkdə tələb olunan kadr bazasının formalaşmasına yönəlmiş siyasət üzrə proqnozlaşdırılır və optimallaşdırılır.

BDU-da tələbə qəbulu sifarişləri mövcud əmək bazarının tələbləri çərçivəsində işəgötürənlərlə aparılan müzakirələr və görüşlər, BDU-da istehsalat müəssisələrindən tədrisə cəlb olunmuş ixtisaslı mütəxəssislərin rəyi və BDU-nun Karyera və məzunlarla əlaqə sektorunun məzunların işlə təmin olunmaları barədə statistik məlumatları, eləcə də müvafiq dövlət qurumlarının statistik məlumatları nəzərə alınaraq optimallaşdırılır.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 18 iyul tarixli 311 nömrəli qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının ömürboyu təhsil üzrə Milli kvalifikasiyalar Çərçivəsi"nə (e-qanun.az/framework/39622) uyğun olaraq qəbul olunmuş tələbələrin əvvəlki kvalifikasiyaları uyğun təhsil sənədləri əsasında tanınır.

Digər ali təhsil müəssisələrindən köçürülən tələbələr üçün əvvəlki akademik dövrdə öyrənilmiş fənlər fakültənin işçi tədris planının fənləri ilə müqayisə edilir və akademik fərq müəyyən olunur. Əvvəlki təhsilin kreditlərinin tanınması təhsil proqramlarının, əsas

fənlərin məzmununun, həcminin, əldə edilmiş biliklərin, bacarıqların, səriştələrin və təhsilin nəticələrinin müqayisəsi əsasında aparılır.

### 3.2. Təhsil proqramları

BDU klassik universitet olaraq təbiət-dəqiq, humanitar-sosial elm sahələri üzrə 16 fakültə və 120 kafedranı özündə birləşdirir. Universitetdə bakalavriat səviyyəsinin 83 ixtisası, magistratura səviyyəsinin 246 ixtisaslaşması və doktorantura səviyyəsinin 123 ixtisası üzrə kadr hazırlaya biləcək ştatda olan 240-dan çox professor və 600-ə yaxın dosent fəaliyyət göstərir. Akademik heyətin əksər hissəsi bir və ya bir neçə ixtisas üzrə bakalavr buraxılış işlərinə, magistr və doktorluq dissertasiya işlərinə rəhbərlik edə bilir. Bu baxımdan, BDU təbiət və dəqiq elm sahələri üzrə müəyyənləşdirilmiş 5 prioritet istiqamət – Fizika və kosmos elmləri, Kimya və materialşünaslıq, Biologiya və həyat elmləri, Yer elmləri və ətraf mühit, Riyaziyyat və kompüter elmləri üzrə, humanitar və sosial elm sahələri üzrə müəyyənləşdirilmiş istiqamətlər – Sosial elmlər, Hüquq və beynəlxalq münasibətlər, Humanitar elmlər, İqtisadiyyat və digər ixtisas və ixtisaslaşmalarda kadr hazırlayan böyük potensiala malik elm və ali təhsil müəssisəsidir.

Bu mənada BDU təhsil alan tələbəyə vahid bir elm-təhsil kompleksində “ömürboyu təhsil alma” konsepsiyası üzrə – bir insanın ömürboyu keçdiyi bütün təlim fəaliyyətlərinin (şəxsi, sosial və ya peşəkar istiqamətdə bilik, bacarıq, səriştə və kvalifikasiyaların) təkmilləşdirilməsinə, başqa sözlə, bakalavriat-magistratura-doktorantura üçlüyünü tamamlamasına şərait yaradır.

BDU-da tədris olunan təhsil proqramları əmək bazarının və cəmiyyətin tələblərinə uyğundur və Universitetin missiyasını həyata keçirməyə xidmət edir. Belə ki, ölkənin sosial-iqtisadi inkişafında fəal iştirak edə bilən “Tədqiqat Universiteti” statusunu almaq ərəfəsində olan BDU-da təhsil proqramlarının hazırlanmasında ölkənin istehsalat və sənaye müəssisələrindən aparıcı mütəxəssislər də iştirak edir. Proqramlarda çeviklik və dinamikliyin təmin edilməsi, əmək bazarının tələblərinə uyğun yeni fənlərin tədrisi və ya tədris proqramlarının yenilənməsi, müəssisələrlə bağlanılmış müqavilələr əsasında təcrübələrdə innovativ metodların tətbiq olunma yolları tədris illərində mütəmadi olaraq fakültə elmi şuralarında işəgötürənlərin iştirakı ilə müzakirə olunmaqla həyata keçirilir.

Təhsil proqramının məqsədləri aşağıdakılardır:

- ixtisas üzrə məzunun kompetensiyalarının, ixtisas çərçivəsinin, fənlər üzrə təlim və öyrənmə metodlarının, qiymətləndirmə üsullarının, təlim nəticələrinin, kadr hazırlığı aparmaq üçün infrastruktur və kadr potensialına olan tələblərin, tələbənin təcrübəkeçmə, işədüzəlmə və təhsilini artırma imkanlarının müəyyən edilməsi;
- Bolonya prosesinin prinsipləri əsasında təhsil mühitinin yaradılması və təkmilləşdirilməsi yolu ilə dünya standartları səviyyəsində təhsilin təmin edilməsi;
- elm, təhsil, innovasiya və istehsalatın sıx inteqrasiyası prinsipləri əsasında yüksək ixtisaslı kadrların hazırlanması;
- cəmiyyətin inkişafı üçün innovativ texnologiyaların, proqram təminatının, metodiki və intellektual resursların təqdimatı ilə kadr hazırlığının keyfiyyətini birləşdirərək iqtisadiyyatın müxtəlif sahələri və sosial sahələr üçün mütəxəssislərin hazırlanması;
- təhsil prosesinə müasir təhsil texnologiyaları və metodlarının tətbiqi ilə səriştə əsaslı yanaşmanın həyata keçirilməsi.

2020-ci ildə Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən bakalavriat səviyyəsinin ixtisas üzrə Təhsil Proqramları təsdiq edilmişdir. Sənəddə təhsil Proqramlarının sonunda məzunun hansı ümumi və peşə kompetensiyalarına yiyələnməsi müəyyən olunmuşdur.

Magistratura səviyyəsinin ixtisas üzrə Təhsil Proqramları 2012-ci ildə Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən təsdiq edilmişdir. Sənəddə məzunun ixtisas xarakteristikası və kompetensiyaları, o cümlədən, məzunun hansı peşə kompetensiyalarına yiyələnməsinin zəruriliyi müəyyən olunmuşdur. Bu sənədlərə əsaslanaraq Universitetdə tədris olunan ixtisasların peşə və kvalifikasiya standartlarına uyğunluğu təmin olunur.

Təlim nəticələrinin və səriştələrin təhsil proqramlarında əks olunması həm bütün proqram səviyyəsində, həm də modul, ayrıca bir fənnin səviyyəsində formalaşdırılır:

- təhsil sahəsində bilik və anlayışı, o cümlədən bu sahədə ən qabaqcıl bilik elementlərini nümayiş etdirmək; bu bilik və anlayışı peşəkar səviyyədə tətbiq etmək;
- tədqiq olunan sahədə arqumentlər formalaşdırmaq və problemləri həll etmək;
- sosial, etik və elmi mülahizələri nəzərə alaraq mühakimələrin formalaşdırılması üçün məlumat toplamaq və şərh etmək;
- həm mütəxəssislərə, həm də qeyri-mütəxəssislərə məlumat, ideya, problemlər və onların həlli yollarını çatdırmaq bacarığına malik olmaq.

Universitet məzununun ümumi kompetensiyaları ümumi təhsilə, sosial-etik kompetensiyalara, xüsusi kompetensiyalara olan tələblər əsasında formalaşır.

BDU-da tədris olunan təhsil proqramları Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 18 iyul tarixli 311 nömrəli qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının ömürboyu təhsil üzrə Milli Kvalifikasiyalar Çərçivəsi"nin tələblərinə uyğundur. Azərbaycan Respublikasının ömürboyu təhsil üzrə Milli Kvalifikasiyalar Çərçivəsində səviyyə deskriptorları üzrə 6, 7, 8-ci səviyyələr üçün bilik və anlama, bacarıqlar, müstəqillik və məsuliyyət müəyyən edilmişdir. İxtisas üzrə təhsil proqramlarında və bu proqramlar əsasında formalaşdırılmış tədris planlarında bu tələblər nəzərə alınmışdır.

BDU-da təhsil proqramlarının təlim nəticələri, eləcə də hər bir fənnin təlim nəticələrinin müəyyənləşdirilməsi və hər bir fənnin sillabusunun hazırlanması kafedraların akademik heyyətlərinin ən vacib vəzifələrindəndir. Təhsil proqramlarında və hər bir fənn üzrə ən azı 6 təlim nəticələri müəyyənləşdirilmişdir. Fənlərin və təhsil proqramlarının təlim nəticələrinin matrisi əsasında Təhsil proqramlarının təlim nəticələrinin əldə olunması Universitetdə təmin olunur. Fakültə və kafedraların akademik kollektivləri Təhsil proqramlarının cəmiyyətin və əmək bazarının dəyişən ehtiyaclarına cavab verən nəzəri və praktik məzmunu təmin etməsi məqsədilə fənlərin sillabusları mütəmadi olaraq yenilənir.

BDU-da təhsil proqramları üzrə dərs saatlarının bölgüsü Avropa Kredit Transfer və Toplanması Sisteminin (AKTTS) prinsiplərinə uyğun aparılır**.** Belə ki, Universitetdə təhsil Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 24 dekabr tarixli 348 nömrəli qərarı ilə təsdiq edilmiş "Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində və Azərbaycan Milli Elmlər Akademiyasının

magistratura səviyyəsində kredit sistemi ilə tədrisin təşkili Qaydaları"na uyğun həyata keçirilir.

Təhsil proqramlarının məzmununu formalaşdırarkən akademik heyət ixtisas üzrə təhsil proqramlarını əsas götürür. Universitet tələbələrinin həftəlik maksimal tədris yükünün həcmi 45 saatdır (auditoriya və auditoriyadankənar məşğələlər nəzərə alınmaqla). Həftəlik auditoriya saatlarının həcminin ümumi həftəlik yükün 50%-indən çox olmaması tədris planlarının tərtib olunması zamanı nəzərə alınır. Bakalavriat ixtisasları üzrə tələbə nəzəri təhsilin 240 kreditini, magistraturada isə 120 kreditini mənimsəməlidir. Bakalavriatda 30 kredit ümumi fənlərin, 120 kredit İxtisas fənlərinin, 60 kredit Universitet tərəfindən müəyyən edilən fənlərin, 30 kredit isə tələbələrin peşə fəaliyyətinə hazırlaşmaq üçün bütün növ peşə təcrübələrinə ayrılır. Universitet tərəfindən müəyyən edilən fənlər tələbələr üçün seçmə xarakter daşıyır və tələbələrin xarici proqramlarda iştirakına şərait yaradır. Magisraturada 14 kredit hümanitar fənlər bölümünə, 76 kredit ixtisas (ixtisaslaşma) fənlər bölümünə, 30 kredit elmi-tədqiqat təcrübəsi və magistr dissertasiyasının hazırlanmasına ayrılır.

Bu zaman:

- ixtisas (və ya ixtisaslaşma) üzrə təhsil proqramına daxil edilən tədris fənləri proqramın təlim nəticələri və məzunun yiyələnəcəyi peşə kompetensiyalarına uyğun olaraq müəyyənləşdirilmişdir;
- təhsil proqramına daxil edilən tədris fənlərinin təhsil illəri (semestrlər) üzrə ardıcıllığı gözlənilmişdir;
- təhsil proqramının təlim nəticəsinə əsaslanaraq daxil edilmiş fənlərin təlim göstəriciləri (kreditləri) uyğunlaşdırılmışdır;
- təhsil proqramlarının seçmə bloklarının hər birində tələbənin seçim etdiyi fənlər uyğunlaşdırılmışdır;
- nəzəri və praktik yönümlü fənlərin (məşğələ və laboratoriya) proqramdakı faiz nisbəti məzunun peşə kompetensiyalarına (bilik, bacarıq, yaradıcılığın formalaşması (kreativlik) üçün qeyri-standart tapşırıqların əməkdaşlıq və komanda şəklində həll olunması və öz fərdi biliklərini paylaşmaq bacarıqlarının aşılanması) uyğun olaraq hesablanmışdır;
- əmək bazarında peşəyə qoyulan tələblər nəzərə alınmaqla müxtəlif formalı təcrübələrin (istehsalat, pedaqoji, elmi) aparılması qaydaları müəyyən edilmişdir.

Qeyd olunmalıdır ki, BDU-da bakalavriat və magistratura təhsil səviyyələri üzrə fəaliyyət göstərən ikili diplom proqramlarında beynəlxaq təcrübəyə uyğun olaraq fənlərin ardıcıllığı, məzmunu və kreditlərin uyğunluğu gözlənilmişdir.

5 günlük iş rejimində tələbənin həftəlik auditoriya və auditoriyadankənar ümumi yükünün həcmi 45 saatdır. BDU-da həftəlik auditoriya saatlarının həcmi ümumi həftəlik yükün 50%-indən çox olmur. İxtisasın xüsusiyyətlərindən asılı olaraq həftəlik yükün həcmi dəyişdirilə bilər.

Təhsil proqramlarının icrası nəticəsində əldə olunan təlim nəticələri BDU-nun rəsmi saytı (www.bsu.edu.az), rəsmi sosial media hesabları (facebook - https://www.facebook.com/bdu.eduaz1919; twitter - https://twitter.com/bdu_eduaz; telegram - https://t.me/bdu_eduaz; instagram - https://instagram.com/bdu_eduaz), BDU TV, "Bakı Universiteti" qəzeti, kütləvi informasiya vasitələri vasitəsilə ictimaiyyət üçün əlçatandır.

Universitetin tədris fəaliyyəti, təlim nəticələrindən bəhs edən materiallar BDU-nun rəsmi saytı və sosial media hesabları ilə yanaşı, müntəzəm olaraq kütləvi informasiya vasitələrində (AzTV, ATV, REAL TV və s. radio və televiziya kanallarında, AZƏRTAC, APA, Report, Trend və s. informasiya agentliklərində, xəbər saytları və dövri mətbuat orqanlarında) operativ və ətraflı işıqlandırılır, ictimaiyyətdən və mətbuatdan daxil olan sorğular operativ və dolğun olaraq cavablandırılır.

BDU-da təhsil proqramlarının hazırlanmasında ölkənin istehsalat və sənaye müəssisələrindən aparıcı mütəxəssislər iştirak etmişdir. Proqramlarda çeviklik və dinamikliyin təmin edilməsi, əmək bazarının tələblərinə uyğun yeni fənlərin tədrisi və ya tədris proqramlarının yenilənməsi, müəssisələrlə bağlanılmış müqavilələr əsasında təcrübələrdə innovativ metodların tətbiq olunma yolları tədris illərində mütəmadi olaraq fakültə elmi şuralarında işəgötürənlərin iştirakı ilə müzakirə olunmaqla həyata keçirilir. Təcrübələr zamanı məzunların nəzəri bilik səviyyələri işəgötürənlər tərəfindən müvafiq qaydada yoxlanılaraq qiymətləndirilir.

Təhsil proqramları Azərbaycan dilində hazırlanır.

## 3.3. Tədrisin təşkili

BDU-da tədris planları kredit sisteminin tələbləri gözlənilməklə tərtib edilmişdir:

- bakalavr dərəcəsinin alınması üçün nəzərdə tutulmuş 240 kredit və magistr dərəcəsinin alınması üçün 120 kredit normativ hüquqi sənədlərə müvafiq olaraq semestrlər üzrə bərabər şəkildə (hər semestr üzrə 30 kredit) bölünmüşdür;
- dövlət təhsil standartına müvafiq olaraq təhsil proqramının strukturunda Ümumi fənlər bloku üzrə 30, İxtisas fənləri bloku üzrə 120, Ali təhsil müəssisəsi tərəfindən müəyyən edilən fənlər bloku üzrə 60, Təcrübələr üzrə 21 və Buraxılış işi üzrə 9 kredit ayrılmışdır;
- proqramın təlim nəticələri və məzunun peşə kompetensiyalarına uyğun olaraq fənlərin ardıcıllığı gözlənilmişdir.

BDU-da 83 ixtisas və 246 ixtisaslaşma üzrə ixtisasın (ixtisaslaşmanın) tədris planına daxil edilmiş fənlərin tədris illəri və semestrlər üzrə bölgüsünü əks etdirən tədris qrafikləri tərtib olunmuş və BDU-nun rektoru tərəfindən təsdiq edilmişdir. İxtisas və ixtisaslaşmalar üzrə tədris planı əsasında hazırlanan illik işçi tədris planları müvafiq sahə üzrə prorektorlar tərəfindən hər tədris ili üçün təsdiq edilmişdir.

Tədris planında öyrənilməsi məcburi olan ümumi fənlərə 24 kredit, bu modulun seçmə fənlər blokuna 6 kredit, ixtisas fənləri blokuna (o cümlədən Mülki müdafiə fənni üzrə) 120 kredit, Universitet tərəfindən müəyyən edilən ixtsasın seçmə fənlərinə 60 kredit ayrılmışdır.

Tədris planında ümumi və ixtisas fənləri arasında balans 30:180 nisbətində saxlanılır. Bu zaman məcburi fənlər nisbəti 24:120, seçmə fənlər nisbəti isə 6:60-dır.

Fənn üzrə sillabuslar (fənn proqramları) kafedralarda tərtib edilərkən təhsil proqramında fənnin təlim nəticələri əsas götürülərək müzakirə olunmuş və təsdiqlənmişdir. Təhsil proqramının təlim nəticəsinə və məzunun peşə kompetensiyalarına uyğun olaraq proqrama daxil edilən fənlər, fənlərin sayı, krediti və fənnin təlim nəticələri müəyyənləşdirilmişdir. Proqramların və sillabusların tərtibi zamanı daxil edilən fənlər, fənlər üzrə mövzular və onların əhatəliliyi, əmək bazarının tələbləri, fənn üzrə tələbənin əldə etməli olduğu bilik, bacarıq, vərdişlər və mənimsəmə səviyyəsi

professor-müəllim heyətinin, işəgötürənlərin və BDU-da tədrisə cəlb olunmuş istehsalatdan olan peşəkar mütəxəssislərin iştirakı ilə müzakirə olunmuş və müvafiq fakültə elmi şuralarında təsdiq olunmuşdur.

Fənn müəllimləri tərəfindən formalaşdırılmış fənn üzrə sillabuslar (fənn proqramları) kafedralarda tərtib edilərkən ətraflı müzakirə olunmuş, kafedrada müəllimlərin təklif və iradları əsasında ümumi rəy formalaşdırılmış və sillabuslar kafedra müdiri tərəfindən təsdiq olunmuşdur. Sillabuslarda mövzunun qısa məzmununa və təlim nəticələrinə kafedra müdiri və dekan tərəfindən nəzarət edilir.

BDU-da 5 günlük iş rejimində tələbənin həftəlik auditoriya və auditoriyadankənar ümumi yükünün həcmi 45 saatdır. Tələbənin həftəlik işinin həcmi 1,5 kreditdir (yay semestri istisna olmaqla). Buraxılış işinin, magistrlik dissertasiyasının hazırlanmasına və müdafiəsinə, eləcə də buraxılış dövlət və semestr imtahanlarına hazırlığa, imtahanın verilməsinə və təcrübələrin keçirilməsinə ayrılmış hər bir həftə 1,5 kreditə bərabərdir. Bütün hallarda bir semestrdə tələbənin götürdüyü kreditlərin sayı 40-dan çox olmur. Tələbənin həftəlik auditoriya saatının miqdarı 22 saat, fənlərin sayı isə 5-6 tərtibindədir. Tələbənin həftəlik sərbəst iş saatı 23 olaraq müəyyənləşdirilmişdir ki, bu da təhsil standartlarına uyğundur.

Tədris planında fənlər vacibliyinə və məzmununun mənimsənilməsi ardıcıllığına görə 3 qrupa bölünmüşdür: məcburi və ardıcıl öyrənilən fənlər; məcburi, lakin ardıcıllığı vacib olmayan fənlər; tələbələrin öz seçimi əsasında öyrənilən fənlər. Bu ardıcıllığı gözləməklə və akademik məsləhətçilərin (tyutorların) köməyi ilə tələbələr sərbəst şəkildə öz fərdi tədris planlarını tərtib edirlər. Fərdi tədris planlarında, fakültənin tədris planına əsasən tələbənin tədris ili ərzində semestrlər üzrə keçəcəyi fənlər, onların kreditləri və fənni tədris edəcək müəllimlərin ad və soyadları göstərilmişdir. Fərdi tədris planları müəyyən olunmuş müddətlərdə akademik məsləhətçilərə (tyutorlara) təhvil verilir, fakültə dekanı tərəfindən təsdiqləndikdən sonra bir nüsxəsi tələbəyə qaytarılır. Tələbə tədris ilinə təsdiq olunmuş fərdi tədris planı ilə başlayır.

Universitetdə ixtisasın (ixtisaslaşmanın) tədris planına və tələbələrin fərdi tədris planlarına uyğun hazırlanmış, cari tədris ilində tədris olunacaq fənlərin adlarını, dərsin növlərini, fənlərin kreditlərini və tələbələrin sayını özündə əks etdirən ixtisaslar (ixtisaslaşmalar) üzrə illik işçi tədris planı hazırlanmış və müvafiq sahə üzrə prorektor tərəfindən təsdiq edilmişdir.

Müəllimlərin tədris etdiyi fənləri, mühazirə və məşğələlərə (laboratoriya işlərinə) ayrılan saatların miqdarını, həmin fənlərin semestrlər üzrə tədrisini, həmçinin fənn üzrə tələbələrin sayını özündə əks etdirən və kafedra müdiri tərəfindən imzalanmış və dekan tərəfindən təsdiq edilmiş illik işçi tədris planı mövcuddur.

İxtisas üzrə Təhsil proqramında hər fənn üzrə AKTS krediti müəyyən olunmuşdur. Bu kreditlərin tədris növləri üzrə paylanması, yəni mühazirə, seminar, laboratoriya işi və praktik məşğələlərin saatları kafedralarda professor-müəllim heyətinin müzakirələri əsasında müəyyən edilir və tədris planlarında öz əksini tapır.

Məsləhət saatları hər bir mühazirə dərsinə bir tədris qrupu üçün 1 saat olaraq müəyyənləşdirilmişdir. Fənni tədris edən müəllim tərəfindən məsləhətlər tədris qrupları üzrə ayrı-ayrılıqda aparılır, tələbələrə fənn üzrə əlavə ədəbiyyatlar və tədris materialları təqdim edilir, tələbələr imtahan sualları ilə ətraflı məlumatlandırılır və onların sualları cavablandırılır.

Müəllimin rəhbərliyi altında tələbələrin sərbəst işinin təşkili BDU-nun Elmi Şurasının 2014-cü il 15 oktyabr tarixli iclasının qərarı ilə təsdiq edilmiş “Bakı Dövlət Universitetində tələbələrin sərbəst işlərinin yerinə yetirilməsi haqqında Təlimat”a əsasən aparılır.

Universitetdə tədris prosesində tələbənin müstəqil və müəllimin rəhbərliyi ilə sərbəst işinin təşkili tədris prosesinin mühüm tərkib hissəsidir. Sərbəst işlərin həcmi keçirilən mühazirələrə, seminarlara və praktik məşğələlərə ayrılan akademik saatlara müvafiq olaraq Universitet tərəfindən müəyyən edilir. Müəllimin tələbələrlə sərbəst işi onun tədris-metodiki işi hesab edilir. Tələbənin sərbəst işinin növü və forması (fərdi, komanda, qrup tapşırığı və s.) fənni tədris edən müəllim tərəfindən müəyyənləşdirilir. Sərbəst işin yerinə yetirilməsinə görə tələbəyə maksimum 10 bal verilir.

Təcrübə tələbələrin nəzəri biliklərinin praktikada tətbiqi, eləcə də peşə bacarıqlarının gücləndirilməsi baxımından əhəmiyyətlidir. Təcrübənin məqsədi və həcmi bakalavriat və magistratura səviyyəsinin ixtisas üzrə Təhsil proqramında müəyyən olunmuşdur.

BDU-da ixtisasın (ixtisaslaşmanın) xarakterindən asılı olaraq təcrübənin müxtəlif: tədris, istehsalat, pedaqoji, arxeoloji, çöl, diplomqabağı, elmi-tədqiqat, elmi-pedaqoji və s. növləri tətbiq edilir. Təcrübələr BDU-nun Quba tədris, təcrübə və istirahət Mərkəzində, BDU-nun Altıağac tədris-təcrübə bazasında, dövlət qurumları, dövlət və özəl şirkətlər, ümumtəhsil məktəbləri, BDU-nun və elmi-tədqiqat institutlarının laboratoriyaları, beynəlxalq təşkilatlar və digər uyğun müəssisələrdə təşkil edilir. Təcrübədən öncə Universitetlə təcrübə təşkil olunacaq təşkilat arasında müvafiq müqavilə imzalanır. Tələbənin fərdi müraciəti əsasında onun ixtisasına uyğun olaraq digər təşkilatda, o cümlədən xarici ölkələrdə təcrübə keçməsinə şərait yaradılır. Təcrübələrə metodiki təminat kafedra tərəfindən həyata keçirilir. Təcrübəyə kafedra tərəfindən müəyyən olunmuş müəllim(lər) rəhbərlik edir.

BDU-da professor-müəllim heyəti üçün müntəzəm olaraq təkmilləşdirmə kursları təşkil olunur. COVİD-19 pandemiyası dövründə tətbiq olunan xüsusi karantin rejiminin tələblərinə görə ölkədə və xarici ölkələrdə stajkeçmə təcrübəsindən istifadə mümkün olmamışdır. Hesabat dövründə BDU-nun əməkdaşları stajkeşmə üçün respublikanın 33 müəssisəsinə göndərilmişdir. BDU-ya stajkeçmə üçün əməkdaş göndərən müəssisələrin sayı isə 8 olmuşdur. Stajkeçmə haqqında statistik məlumatlar aşağıdakı cəvəllərdə verilmişdir.

**BDU-dan kənar müəssisələrə stajkeçməyə göndərilən əməkdaşların və BDU-ya kənar müəssisələrdən stajkeçməyə gələn əməkdaşların sayı**

| Tədris ili | BDU-dan kənar müəssisələrə stajkeçməyə göndərilən əməkdaşların sayı | BDU-ya kənar müəssisələrdən stajkeçməyə gələn əməkdaşların sayı |
|---|---|---|
| 2016/2017 | 93 | 16 |
| 2017/2018 | 171 | 28 |
| 2018/2019 | 190 | 8 |
| 2019/2020 | - | - |
| 2020/2021 | - | - |
| 2021/2022 | - | 8 |
| **Cəmi** | **454** | **44** |

**BDU-da təşkil olunan təkmilləşdirmə kurslarının fəaliyyəti**

| Tədris ili | BDU-da təşkil olunan təkmilləşdirmə kurslarında iştirak edən əməkdaşların sayı |
|---|---|
| 2017/2018 | 166 |
| 2018/2019 | 80 |
| 2019/2020 | - |
| 2020/2021 | 155 |
| 2021/2022 | 122 |
| **Cəmi** | **523** |

Xarici ölkələrdə müəllimlərin ixtisaslarının artırılması iki istiqamətdə həyata keçirilir. Bunlardan biri Türkiyə universitetləri ilə həyata keçirilən Mövlanə proqramıdır. Müəllimlər bir və ya iki həftə ərzində tədris prosesində iştirak etmək hüququ əldə edirlər. Digər istiqamət isə Almaniya, Polşa, Rumıniya, İspaniya, İtaliya, Portuqaliya və digər Avropa ölkələri ilə həyata keçirilən və Avropa İttifaqı tərəfindən maliyyələşdirilən Erasmus+ beynəlxalq proqramıdır. Hesabat dövründə professor-müəllim heyətindən 56 nəfər göstərilən proqramlar üzrə ixtisasartırma prosesində iştirak etmişdir.

Tədris planında nəzərdə tutulan fənlərin xüsusiyyətindən asılı olaraq kurs layihəsi (işi) və referatların hazırlanması BDU-nun Elmi Şurasının 2014-cü il 15 oktyabr tarixli iclasının qərarı ilə qəbul edilmiş “Bakı Dövlət Universitetində tələbələrin kurs işləri (layihələri) haqqında Əsasnamə”yə uyğun olaraq həyata keçirilir. Bu işlər fənn üzrə əldə edilmiş nəzəri və praktiki hazırlığı əks etdirmək məqsədilə yerinə yetirilən müstəqil tədqiqat işidir. İşin yerinə yetirilməsi nəzəri və praktik biliklərin daha da dərinləşdirilməsi baxımından müasir elmi ədəbiyyatdan, statistik məlumatlardan, qabaqcıl xarici təcrübədən geniş istifadə olunmasını nəzərdə tutur. İş hər hansı bir mövzu üzrə tələbənin müstəqil işi olmaqla, elmi rəhbərin iştirakı ilə yerinə yetirilir və işin yerinə yetirilməsi prosesində tələbənin aşağıdakı qabiliyyətləri müəyyən edilir:

- müstəqil elmi araşdırma;
- nəzəri və praktik materialların ümumiləşdirilməsi;
- nəzəri və praktik materialın təhlili;
- arqumentləşdirilmiş nəticələrin formalaşdırılması qabiliyyəti.

Kafedralar tərəfindən təsdiq olunmuş mövzular tələbələr tərəfindən sərbəst seçilir. Tələbə əsaslandırdığı halda işin mövzusunu özü də təklif edə bilər.

Kurs layihəsinin (işinin) və referatların müdafiəsi müvafiq kafedralar tərəfindən müəyyən edilmiş müddətlərdə tələbələrin iştirakı ilə təşkil olunur. Müdafiə zamanı tələbə müdafiə mövzusunun əsas məsələlərini, istifadə etdiyi mənbələr haqqında biliyini, nəzəri müddəaları təcrübə ilə əlaqələndirmək, konkret faktiki materialı təhlil etmək, nəticə və təklifləri formalaşdırmaq qabiliyyətini nümayiş etdirir.

BDU-da buraxılış işi və magistrlik dissertasiyasının hazırlanması və müdafiəsinin təşkili Azərbaycan Respublikasının təhsil nazirinin 1997-ci il 27 yanvar tarixli 54 nömrəli əmri ilə təsdiq edilmiş “Azərbaycan Respublikası ali təhsil müəssisələri tələbələrinin bakalavr pilləsində Dövlət Attestasiyası haqqında Əsasnamə” və Azərbaycan Respublikasının təhsil nazirinin 1998-ci il 20 aprel tarixli 202 nömrəli əmri ilə təsdiq edilmiş

“Magistrlik dissertasiyasının hazırlanması, təqdim olunması və müdafiəsi qaydası haqqında Əsasnamə” ilə tənzimlənir.

Buraxılış işi və magistrlik dissertasiyası iddiaçının müstəqil elmi və pedaqoji işə hazırlığını nümayiş etdirən, elmi rəhbərin göstəriş və tövsiyələri əsasında işlənmiş elmi-tədqiqat işidir. Buraxılış işi və magistrlik dissertasiyasının hazırlanması və müvəffəqiyyətlə müdafiəsi bakalavr və magistr hazırlığı proqramının yerinə yetirilməsinin məcburi şərtidir.

İxtisas kafedralarında elmi-tədqiqat işi ilə məşğul olan professor-müəllim heyəti tərəfindən buraxılış işi və dissertasiya mövzuları hazırlanır. Proqram rəhbərləri mövzu seçimində təhsilalanlara lazımi köməklik göstərirlər. Buraxılış işi və magistrlik dissertasiyası işlərinin mövzuları müvafiq kafedralarda müzakirə olunur və fakültə Elmi Şurasının qərarı ilə təsdiq olunur. Buraxılış işi Yekun Dövlət Attestasiya Komissiyasına və dissertasiya işi İxtisaslaşdırılmış Şuraya müvafiq rəylərlə birlikdə tələbənin ərizəsi əsasında müdafiəyə təqdim edilir.

BDU-da imtahan sessiyalarının təşkil edilməsi üçün Azərbaycan Respublikası Təhsil Nazirliyinin 2008-ci il 11 sentyabr tarixli 1060 nömrəli əmri ilə təsdiq edilmiş “Kredit sistemi ilə təhsil alan tələbələrin biliyinin qiymətləndirilməsi haqqında Əsasnamə”ni, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 24 dekabr tarixli 348 nömrəli Qərarı ilə təsdiq edilmiş “Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində kredit sistemi ilə tədrisin təşkili Qaydaları”nı və həmin Qaydalara Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-ci il 14 iyun tarixli 257 nömrəli Qərarı ilə edilən dəyişiklikləri, BDU-nun Elmi Şurasının iclasının qərarlarını və digər müvafiq hüquqi-normativ sənədləri rəhbər tutmaqla hər semestrin sonunda bakalavriat və magistratura səviyyələri üzrə imtahan sessiyasının təşkili və həyata keçirilməsi məqsədi ilə əmr verilir:

- imtahan sessiyasının başlama tarixi Azərbaycan Respublikasının elm və təhsil nazirinin əmrinə əsasən təyin edilir;
- əyani təhsilalma forması üzrə təhsilalanlar üçün imtahanlar yazılı, zərurət yarandığı halda şifahi-dialoq və bəzi fənlər üzrə test formasında aparılır;
- tələbələr (magistrantlar) imtahanlara tələbə (magistrant) vəsiqəsi və ya şəxsiyyət vəsiqəsi ilə buraxılır;
- valideynlərin müraciəti əsasında onların imtahanlarda iştirak etmələrinə və BDU-nun İctimai Nəzarət Şurası üzvləri və KİV nümayəndələrinin imtahanların gedişini izləməsinə müvafiq şərait yaradılır;
- imtahanların mütəşəkkil keçirilməsi, onların gedişinə nəzarətin artırılması məqsədilə fakültələrdə eyni fənlər üzrə qrupların birləşdirilməsi və imtahan cədvəllərinin səmərəli tərtibinin koordinasiyası təmin edilir;
- imtahan cədvəlləri üzrə kafedralarda müvafiq qeydiyyat aparmaqla imtahanqabağı məsləhət saatları keçirilir;
- sessiya zamanı imtahanlarda fənn proqramlarının və digər zəruri tədris-metodiki vəsaitlərin olması təmin olunur;
- tələbələr (magistrantlar) imtahanın gedişində telefon və digər texniki vasitələrdən istifadənin qadağan olunması barədə əvvəlcədən məlumatlandırılırlar;
- universitet imtahan prosesinə nəzarətin auditoriyalarda video-kameralar vasitəsilə aparılmasını, köçürmə hallarına yol vermiş və ya daxili intizam qaydalarını pozmuş

tələbələrin (magistrantların) video-görüntülərinin saxlanılmasını, lazım gəldikdə tələbələrin və valideynlərin nəzərinə çatdırılmasını təmin edir;

– cari tədris ilinin imtahan sessiyasının nəticələrinə görə təqaüd almaq hüququ olan tələbələrin siyahısı tərtib edilərək rəsmiləşdirilir;
– sessiyanın gedişinə operativ nəzarət etmək, tələbələrin biliyinin qiymətləndirilməsində şəffaflığı və obyektivliyi təmin etmək məqsədi ilə Apellyasiya Komissiyası yaradılır;
– Apellyasiya Komissiysı sessiya müddətində imtahanların gedişi ilə əlaqədar ərizə, təkliflərin və Elm və Təhsil Nazirliyinin "Qaynar xətti" ilə daxil olmuş şikayətlərin araşdırılmasını təmin edir və bu barədə tədbir görülməsi məqsədilə müvafiq təkliflər verir.

BDU-da yay semestrinin təşkili Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 24 dekabr tarixli 348 nömrəli Qərarı ilə təsdiq edilmiş "Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində kredit sistemi ilə tədrisin təşkili Qaydaları"na (e-qanun.az/framework/27030) əsasən tənzimlənir.

Yay semestri könüllülük prinsipi ilə və ödənişli əsaslarla həyata keçirilir. O, aşağıdakı məqsədlərlə təşkil olunur:

– akademik borcların ləğv edilməsi;
– fənlərin prerekvizitliyi gözlənilməklə, hümanitar fənlər bölümünə daxil olan və BDU tərəfindən müəyyən edilən seçmə fənlərin kreditlərinin qazanılması;
– müvəffəqiyyət qazanılan fəndən qiymətin yüksəldilməsi;
– Universitetin təklif etdiyi ayrı-ayrı fənlər üzrə digər ali təhsil müəssisəsi tələbələrinə müvafiq kreditlər qazanılmasına şəraitin yaradılması.

Yay semestri yaz semestri başa çatdıqdan sonra təşkil olunur və onun başlanma müddəti Universitet tərəfindən müəyyən olunur. Yay semestrinin (nəzəri təlim və imtahanlar) müddəti 6 həftədir. 1 həftəlik imtahan sessiyası axırıncı həftə təşkil edilir. Yay semestrində tələbənin götürdüyü fənlər üzrə kreditlər maksimum 10 olaraq müəyyənləşdirilir.

Yay semestri üzrə statistik göstəricilər aşağıdakı diaqramda verilmişdir:



Hər hansı tədris fənni, kurs işi, təcrübə, akademik fərq üzrə əsas və əlavə sessiyalarda (o cümlədən, attestasiyada üzürsüz səbəbdən iştirak etmədikdə) tələbənin attestasiya nəticəsi müvəffəq olmadığı halda kredit borcu yaranır. Kredit borclarının ləğvi üçün Universitet tələbələrə normativ sənədlərlə müəyyən olunmuş şərait yaradır. Kredit borcu yaranmış tələbələrin və fənlərin illər üzrə dinamikası aşağıdakı cədvəldə verilmişdir.

**Kredit borcu olan tələbələrin tədris illəri üzrə dinamikası**

| Tədris ili | I tədris ili üzrə | II tədris ili üzrə | III tədris ili üzrə | IV tədris ili üzrə | V tədris ili üzrə | Cəmi |
|---|---|---|---|---|---|---|
| 2016/2017 | 2717 | 2382 | 1577 | 903 | 81 | 7660 |
| 2017/2018 | 2780 | 2460 | 1931 | 783 | 84 | 8038 |
| 2018/2019 | 2542 | 2132 | 1696 | 793 | 93 | 7256 |
| 2019/2020 | 1665 | 1480 | 1332 | 724 | 49 | 5250 |
| 2020/2021 | 279 | 390 | 242 | 86 | 33 | 1030 |
| 2021/2022 | 2400 | 2258 | 1653 | 457 | 60 | 6828 |

Kredit borcu yaranmış fənlərin ümumi həcminin tədris illəri üzrə dinamikası aşağıdakı cədvəldə verilmişdir.

| Tədris ili | Cəmi say |
|---|---|
| 2016/2017 | 1544 |
| 2017/2018 | 1553 |
| 2018/2019 | 1517 |
| 2019/2020 | 1128 |
| 2020/2021 | 512 |
| 2021/2022 | 1583 |

Cədvəldən göründüyü kimi, COVİD-19 karantin rejimi dövründə kredit borclarının səviyyəsi dərslərin və imtahanların onlayn qaydada təşkili ilə əlaqədar azalmışdır.

Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin Kollegiyasının 2022-ci il 30 sentyabr tarixli KQ-05 nömrəli Qərarı ilə təsdiq edilmiş “Ali təhsil müəssisəsinin institusional akkreditasiyası üzrə qiymətləndirmə Meyarları”nın 1 nömrəli Əlavəsində təhsil və tədris istiqaməti üzrə müəyyən edilmiş 10 meyar üzrə tədris prosesi ilə bağlı tətbiq edilən normaların səmərəliliyi BDU tərəfindən daim izlənilir və təkmilləşdirilməsi istiqamətində müvafiq addımlar atılır:

1. Hər bir tələbənin fərdi tədris planının olması və onların bu planın tərtibində iştirakı

BDU tərəfindən tələbəyə təhsil müddətində tədris planında müəyyən olunmuş krediti qazanmasına şərait yaradılır.

Birinci kursa qəbul olunan tələbələr üçün fakültə tərəfindən fərdi tədris planı hazırlanır. Növbəti tədris ilində tələbələr ixtisasın tədris planı əsasında öz fərdi tədris planını hazırlayır, lazımi hallarda akademik məsləhətçi (tyutor) ilə bu barədə məsləhətləşmələr aparır, onu imzalayır, tarix qeyd olunur və 25 iyun - 10 iyul tarixinə qədər

fakültəyə təqdim edir. Yalnız payız semestrində akademik borcu olanlar qış tətilinin ilk həftəsində fərdi tədris planlarında müvafiq düzəlişlər edə bilərlər.

2. Tələbənin fənn və müəllim seçimində müstəqilliyi

Tələbələr ixtisasın tədris planı əsasında öz fərdi tədris planını hazırlayırlar. İxtisasın tədris planında qeyd olunan fənlərin ardıcıllığını və seçmə fənləri hər bir tələbə müstəqil şəkildə seçir.

BDU öz maliyyə və təşkilati imkanlarını nəzərə alaraq hər bir fənnin tədrisinə başlanılması üçün mövcud normalar gözlənilməklə tələbələrin minimal sayını və hər bir müəllim üçün tədris qrupunda olan tələbələrin maksimal sayını müəyyənləşdirir.

Bir müəllimi seçənlərin sayı müəyyən olunmuş maksimim həddən çox olduqda bu fənn üzrə ikinci qrup təşkil edilir və buraya fənnin tədrisi üçün bir qayda olaraq eyni kvalifikasiyaya malik müəllim(lər) cəlb edilir.

3. Tələbənin biliyinin qiymətləndirilməsində çoxballı sistemin tətbiqi

Tələbənin biliyinin qiymətləndirilməsi Azərbaycan Respublikası təhsil nazirinin 2008-ci il 11 sentyabr tarixli 1060 nömrəli əmri ilə təsdiq olunmuş “Kredit sistemi ilə təhsil alan tələbələrin biliyinin qiymətləndirilməsi haqqında Əsasnamə” ilə tənzimlənir.

Bu sistem tələbəyə fərdi yanaşmanı təmin etməklə onun tədris prosesindəki fəaliyyətinin aşağıdakı göstərilən əsas istiqamətlərini əhatə edir:

- mühazirə, seminar (məşğələ), laboratoriya dərslərinə davamiyyət;
- seminar (məşğələ) dərslərində müxtəlif formalı yoxlamalar (frontal sorğular, kollokviumlar, pratik məsələ həlli və s.) əsasında bilik səviyyəsinin qiymətləndirilməsi;
- laboratoriya işlərinin yerinə yetirilməsi;
- kurs işinin yazılması və onun müdafiəsi;
- təcrübələrin nəticələri;
- fənnlər üzrə imtahanların nəticələri;
- buraxılış işlərinin müdafiəsi və yekun dövlət imtahanlarının nəticələri.

Balların maksimum miqdarı aşağıdakı kimi müəyyənləşdirilir:

- 50 bal - imtahanın nəticəsinə görə;
- 10 bal - dərslərə davamiyyətə görə;
- 10 bal - tələbənin sərbəst işinə görə;
- 30 bal - seminar (məşğələ) və ya laboratoriya dərslərinin nəticələrinə görə.

Semestr ərzində 3 dəfə kollokviumların keçirilməsi məcburidir.

### 3.4. Tədris metodları və üsulları

Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”də qeyd olunur ki, dünyada artan rəqabətə davam gətirə bilmək üçün iqtisadiyyatın uzunmüddətli inkişafı müasir və güclü təhsilə arxalanmalıdır. Güclü təhsil hesabına yüksək peşə bacarıqlarına malik insan kapitalı yaratmaq üçün ali təhsil müəssisələrinin beynəlxalq səviyyədə keyfiyyət baxımından rəqabətədavamlılığı təmin olunmalıdır. Bu məqsədə çatmaq üçün təlim nəticələrinin əldə olunmasını təmin edən innovativ, yaradıcı və interaktiv metod və texnologiyalardan istifadə BDU-da prioritet istiqamət hesab edilir.

İnteraktiv mühazirə, məşğələ və s. ilk növbədə təhsilalanın şəxsiyyətinin formalaşmasına yönəldilir. Müəllim idrak fəaliyyətinin əlaqələndiricisi, tələbələrin məsləhətçisi və köməkçisi kimi çıxış edir. Təhsilin məzmunu ilə yanaşı, tələbələrin tərbiyə və inkişafında təlim metodları və təşkilati formalar da mühüm rol oynayır. Tələbələrin yaradıcı fəaliyyətlərinə böyük diqqət müəllim-tələbə əməkdaşlığının nəticəsidir.

BDU-da əksər mühazirələrin elektron variantı müvafiq veb səhifələrdə yerləşdirilmişdir. Professor-müəllim heyəti mühazirə və məşğələləri müvafiq avadanlıqlarla təchiz olunmuş auditoriyalarda təqdimatlarla tədris edir. BDU-da İKT-nin tətbiqi innovativ bacarıqların inkişaf etdirilməsi üçün metod kimi istifadə olunur. Təlim-tədris prosesində rəqəmsal texnologiyaların geniş istifadəsinə mane olan amillərin aradan qaldırılması üçün rəqəmsal şəbəkə infrastrukturunun inkişaf etdirilməsinə, yüksək sürətli internet əlaqəsi ilə təmin olunmasına önəm verilir. Multimedia xarakterli tədris vasitələrinin işlənilməsi, yayılması, təhsil prosesinə tətbiq olunması sürətləndirilir.

Məlumdur ki, "Tələbəyönümlü" və ya "Tələbəmərkəzli" təhsil dedikdə təhsilalanın fərdi bacarığı nəzərə alınmaqla fərdi təhsil trayektoriyası əsasında təhsil kimi, yəni "öyrətməkdən" imtina və "öyrənməyə" keçid kimi başa düşülür. Ümumi halda "Tələbəmərkəzli" öyrənmə tələbələrə səlahiyyətlərindən istifadə etmə və əmək bazarında rəqabətə davamlı, aktiv və məsuliyyətli vətəndaşlar kimi yetişmə fürsətini verir. Başqa sözlə, müasir təhsil prosesinin məqsədi müəllimdən bilik və bacarıqların tələbəyə köçürülməsi deyildir. Məhz tələbələrin davamlı özünüidarəetmə qabiliyyətini inkişaf etdirmək, analitik təhlil, sərbəst düşünmə, verilən məlumat və öz düşüncələri arasında əlaqələrin yaradılması, nəzəri bilikləri praktiki yollarla dərinləşdirmək və qazandığı bilik və bacarıqları gələcək peşə fəaliyyətlərində tətbiq vərdişlərinin aşılanması BDU-nun təhsil üzrə əsas məqsədlərindəndir. "Tələbəmərkəzli" təhsil sistemində tələbə motiviasiyasının yüksək səviyyədə saxlanılması, nəzəriyyə və praktiki tətbiqə əsaslanan elm-təhsil-istehsalat triadasının qarşılıqlı əlaqəsinin inkişaf etdirilməsi, habelə, akademik heyətin məsləhət və rəhbərliyi ilə müstəqil və kreativ düşünmə bacarığına malik mütəxəssislərin yetişdirilməsi BDU-nun təhsildə əsas hədəflərindən biridir.

BDU-da tədris metodlarının – tələbəyönümlü, problemyönümlü tədris, səriştə əsaslı tədris, nəzəriyyəyə və praktiki tətbiqə əsaslanan tədris yanaşmalarından formal, qeyri-formal təhsil formalarında, əyani və qiyabi təhsilalma formalarında istifadə edilir. Rəqəmsal texnologiyaların tətbiqi, yüksək sürətli internet tədris metodlarının bütün təhsil formalarında tətbiqini mümkün edir və səmərəliliyinə səbəb olur.

Tədris metodlarında tələbəyönümlü, problemyönümlü tədris, səriştə əsaslı tədris, nəzəriyyəyə və praktiki tətbiqə əsaslanan tədris yanaşmalarında daha çox dərindən öyrənmə, maraqlanma, motivasiya olunma və öhdəlik götürmə yanaşmaları tətbiq edilir.

BDU-da mühazirə və məşğələlərdə effektiv "Tələbəmərkəzli" metoddan istifadə edilir. "Düşün, düşüncəni yoldaşınla, sonra qrupla bölüş" prinsipi əsas götürülərək dərsdə iştirak edən tələbələr bütövlükdə müzakirələrə cəlb olunur (qrup halında, komanda halında və s.) – hər bir tələbə müzakirələrdə iştirak edir. Tələbənin aktivliyini təmin etmək üçün müəllimlər müxtəlif üsullara üstünlük verirlər. Müəllimlər əsasən "Beyin fırtınası", dəyirmi masa şəklində təşkil olunan seminar, izahlı-illüstrativ seminar, oyun şəklində təşkil olunan seminar formalarına, interaktiv təlim forması, problemli mühazirələr, dialoq mühazirələr, mətbuat konfransı şəklində təşkil olunan mühazirə və s. formalara üstünlük verirlər.

BDU-da müasir təlim texnologiyalarından məqsədyönlü istifadə, fəal/interaktiv metodların düzgün seçilməsi və tətbiqi fənlərin tədrisində mühüm tələb kimi qarşıya qoyulur. Fəal/interaktiv təlim biliyi hazır şəkildə deyil, müstəqil, yaradıcı, tədqiqatçılıq fəaliyyəti nəticəsində əldə etməyə əsaslanır. Fəal/interaktiv təlimə məxsus metodların seçilməsi, fənlərin mahiyyətinin, özünəməxsusluğunun nəzərə alınması zəminində reallaşdırılır. Metodların tətbiqi o vaxt uğurlu olur ki, təlim materiallarının həcmi, mürəkkəbliyi və çətinlik səviyyəsi kimi xüsusiyyətləri nəzərə alınsın.

BDU-da yeni təlim və tədris metodlarının tətbiq edilməsi stimullaşdırılır və yeni metodların həyata keçirilməsi üçün uyğun tədris infrastrukturunun yaradılması istiqamətində iş aparılır. Kafedralarda aşağıdakı yeni zəruri hesab edilən təlim və tədris metodlarının tətbiqi müzakirə olunur:

– Treninq – pedaqoji prosesin təcrübi hissəsi əsas sayılır, nəzəriyyə ikinci hissəyə keçir;

– Modul təlim – təhsil informasiyasının sərbəst hissələrə, modullara ayrılması;

– Distant təhsil – pedaqoji prosesin telekommunikasiya vasitələri ilə aparılması. BDU-da bu istiqamətin tətbiqi üçün baza yaradılmışdır (“Blackboard” elektron tədris platformasından istifadə etməklə);

– Dəyər oriyentasiyası – təhsilalanların real həyat şəraitinə, cəmiyyətin tələblərinə və ya fəaliyyətinə adaptasiyası üçün sosial və mədəni ənənələr və qaydalar, qiymətli dəyərlər kompleksinə yiyələnmələri;

– Keys metod – hər hansı bir praktik problemin həll yollarının kollektiv və ya fərdi axtarışını tələb edən təlim materialıdır. Onun fərqləndirici xüsusiyyəti real həyatdan götürülən faktlar əsasında problemli situasiyanın təsvir edilməsidir;

– Kouçinq (məşqçilik) – təhsilalanların könüllü, şüurlu və planlı şəkildə daxil olduqları öyrənmədir. Kouçinq planlı fərdi inkişaf prosesidir. Burada xidməti verən şəxs - kouç və alan şəxs - koçi arasında əməkdaşlıq mövcuddur;

– Rollu oyunlar – tədqiq olunan mövzu üzrə təhsilalanların müəyyən olunmuş rolları aparmaları;

– İşgüzar oyunlar – real hadisələrin elə imitasiya modeli nəzərdə tutulur ki, oyun prosesində təhsilalanlar müəyyən iş tapşırıqlarını alır və özlərini elə aparırlar ki, guya bu tapşırıqları icra edirlər;

– Kreativ qruplar – qeyri-real görünən nə isə yaratmaq;

– Cüt şəkildə işləmək – kommunikasiya vərdişləri inkişaf edir;

– Refleksiya metodu – təhsilalanın öz düşüncəsi, əməli, xarakterinə, həyata və dünyaya baxış tərzinə kənardan baxması, başqa sözlə, bütün bunlara güzgü tutmasıdır;

– Rotasiya metodu – planlı şəkildə təhsilalanların dərs prosesində müxtəlif rollarda yerdəyişmələri;

– Beyin fırtınası metodu – kiçik qruplarda birgə iş, əsas məqsəd qoyulmuş problemin, verilmiş məsələnin həlli yollarının axtarılması;

– Konsaltinq – təhsilalanlar informasiya və ya praktiki kömək üçün daha təcrübəlilərdən məsləhət alırlar və s.

BDU-da interaktiv metod, yeni diqqətin ilk növbədə təhsilalanın şəxsiyyətinin formalaşmasına yönəldilmə, müəllimin idrak fəaliyyətinin əlaqələndiricisi, təhsilalanların

məsləhətçisi və köməkçisi kimi çıxış etməsi metoduna üstünlük verilir, bu metodlar təşviq edilir.

Tədris prosesinin təşkili şöbəsi və Keyfiyyətin təminatı və monitorinq şöbəsi tərəfindən tədris metod və üsullarının dövri monitorinqi və sistematik qiymətləndirilməsi aparılır, nəticələr təhlil olunur, preventiv tədbirlər həyata keçirilir və təkmilləşdirilmə istiqamətində addımlar atılır.

### 3.5. Təlim və tədris resursları

BDU 2021-ci ildən etibarən ABŞ-nin təhsildə informasiya texnologiyalarının tətbiqi sahəsində dünya lideri olan “Blackboard” şirkəti ilə əməkdaşlığa başlamışdır.

“Blackboard” 1997-ci ildə qurulmuş, dünyanın əksər bölgələrində ali təhsil, K-12, biznes və dövlət sektorundakı müştərilərə xidmət göstərən aparıcı rəqəmsal təhsil-texnologiya şirkətidir. “Blackboard”un missiyası tələbə və universitet səviyyəsində uğur qazanmaq, innovativ texnologiya və xidmətlərdən maksimum yararlanmaq üçün qlobal təhsil cəmiyyəti ilə tərəfdaşlığa nail olmaqdır.

“Blackboard”, Azərbaycanın ADA Universiteti də daxil olmaqla dünyanın bir çox universitetlərində tədris prosesində uğurla tətbiq edilir.

Sistem Universitetdə beynəlxalq təcrübənin tətbiqinə, e-təhsilin təkmilləşdirilməsinə və təhsil xidmətlərinin keyfiyyətinin artırılmasına şərait yaradır. “Blackboard” şirkəti üçün mühüm yerli tərəfdaşlardan biri hesab edilən Bakı Dövlət Universitetində şirkət tərəfindən təklif olunan xidmətlərin böyük əksəriyyətinin tətbiqi reallaşdırılır. "Blackboard” - tədrisin idarəedilməsi proqramının istifadəsi BDU-da “Blackboard EdTech” ekosisteminə daxil olan “bulud platforması” vasitəsilə ilə tələbələrin və müəllimlərin elektron məlumat bazasının yaradılması, tədris prosesinin və təhsilin məzmununun elektron idarəedilməsi, elektron qiymətləndirmə və digər tədris proseslərinin elektronlaşdırılmış həllinə imkan yaradır. Elektron idarəetmə sisteminin təkmilləşdirilməsi üçün “Blackboard Learn”, “Virtual Classroom Solution”, “Collaborate”, “Accessibility Solution” və “Blackboard Ally” kimi komponentlərindən istifadə olunur. BDU-da 2020/2021-ci tədris ilinin yay semestrinin “Blackboard” – tədrisin idarə edilməsi sistemi vasitəsilə təşkilinə start verilmişdir. Tədris materiallarının elektron qaydada sistemə yüklənməsi, tələbələrə asan yolla çatdırılması, “Blackboard Collaborate” platforması vasitəsilə tədris prosesinin onlayn qaydada təşkili həyata keçirilir. Tələbələr sistem üzərindən qiymətləndirilir, dərslərin video yazılışı aparılır və tələbələrin davamiyyəti sistem tərəfindən avtomatik qaydada yoxlanılaraq şəxsi kabinetlərdə öz əksini tapır. Eyni zamanda, mobil tətbiq vasitəsilə məlumatların daha rahat əldə edilməsi təmin edilir. Gündəlik olaraq tələbə və müəllimlərin aktivliyi təhlil olunur, sistemə giriş zamanı çətinlik yaşayan tələbələr üçün video-təlimatlar hazırlanaraq təqdim edilir. Fərdi qaydada problemin həlli, “Qaynar xətt” vasitəsilə çətinliyin aradan qaldırılması istiqamətində işlər görülür. Bundan başqa, BDU-nun müəllim kollektivinə könüllülük prinsipi əsasında təlimlərin keçirilməsi davam etdirilir. 2021/2022-ci tədris ilindən etibarən tam olaraq tədris prosesinin elektron idarə olunması üçün “Blackboard” sisteminin bütün tələbə və müəllim kontingenti arasında tətbiqinə start verilmişdir. BDU-nun təşəbbüsü ilə “Blackboard” sisteminin Azərbaycan dilli versiyası da yaradılmışdır.

BDU-da müasir təlim prosesini aparmaq üçün zəruri texnika (proyektorlar, kompüterlər, ağıllı lövhələr və s.) ilə tam təchiz olunmuş auditoriyalar mövcuddur. 84 auditoriya proyektorla, 53 auditoriya ağıllı lövhələrlə təmin edilmişdir. İnternetə çıxışı olan

kompüterlərin sayı ümumi kompüterlərin sayının 65%-ni təşkil edir. Auditoriyaların 56%-nin internetə çıxışı təmin olunmuşdur. Əksər auditoriya və laboratoriyalarda keçirilən mühazirə, məşğələ və laboratoriya dərslərinin gedişini mərkəzləşdirilmiş video sistemlə izləmək imkanı mövcuddur.

Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin təsdiq etdiyi müasir Təhsil Proqramlarına görə, tədris, öyrənmə və qiymətləndirmə proseslərində universitet ən azı aşağıdakı infrastrukturlara malik olmalıdır:

– veb auditoriyaların olması (ən azı mühazirə və məşğələ otaqları proyektor, kompüter və internetə çıxış ilə təmin edilməlidir);

– kompüterlərlə təchiz olunmuş laboratoriyaların mövcudluğu;

– elektron kitabxananın olması;

– təhsilalanların universitetin lokal şəbəkəsinə, internetə, məlumat bazalarına, elektron kitabxanalarına, axtarış sistemlərinə çıxışının təmin edilməsi.

BDU-da bu göstərilən infrastrukturlar üzrə tədris prosesi ilə bağlı rəqəmsal xidmətlərin və texniki təminatın təhsil proqramlarına uyğunluğu təmin edilmişdir.

BDU-da akademik, inzibati və tədris otaqları da daxil olmaqla, ümumilikdə 2000-dən artıq kompüter vardır, onlardan 800-dən çoxu auditoriya və tədris lobaratoriyalarındadır. Universitetdə 25 kompüter laboratoriyası fəaliyyət göstərir. İstifadə olunan internet şəbəkəsinin maksimal sürəti 500 mbit/san, orta sürəti isə 10 mbit/san-dir. Əksər auditoriya və tədris laboratoriyalarında keçirilən mühazirə, məşğələ və laboratoriya dərslərinin gedişini mərkəzləşdirilmiş sistemlə izləmək mümkündür. Elm və Təhsil Nazirliyinin dəstəyi ilə CodeAcademy və DevEducation kimi şirkətlər tərəfindən Kompüter elmləri sahəsində dərin biliklərin və qeyri-standart tapşırıqların həllinin aşılanması məqsədilə reallaşdırılan layihə çərçivəsində BDU tərəfindən ən müasir kompüter və avadanlıqlarla təchiz olunmuş yeni 6 xüsusi auditoriya yaradılmışdır.

BDU-da tədris binalarının və tədris otaqlarının vəziyyəti “Təhsil müəssisələrinin tikintisinə, maddi-texniki təchizatına dair vahid normalar, ümumi sanitariya-gigiyena tələbləri, şagird yerləri ilə təminat normativləri” haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 3 avqust tarixli 171 nömrəli Qərarına uyğundur. Tədrisin istiqamətinə uyğun təcrübə otaqları və laboratoriyalar, 100 nəfərədək, 50 nəfərədək, 15-25 nəfərədək tutumu olan müxtəlif auditoriyalar mövcuddur. Universitetin ümumi auditoriya fondu 48608 kv.m., umumi tələbə sayı isə 24584 nəfərdir. Bir tələbəyə düşən faydalı sahə 1,98 kv.m. təşkil edir.

Universitetdə akademik heyətin fəaliyyətini təmin edən 4914 kv.m. sahəsi olan otaqlar, inzibati və tədris-köməkçi heyət üçün isə 5830 kv.m. sahəsi olan otaqlar vardır.

Pandemiya dövründə – 2020-ci il 3 mart tarixindən etibarən ölkədə tətbiq olunan xüsusi karantin rejimi ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin “Azərbaycan Respublikasının ərazisində fəaliyyət göstərən bütün təhsil müəssisələrində tədris və təlim-tərbiyə prosesinin dayandırılması barədə” Qərarına əsasən tədris və təlim-tərbiyə prosesi məsafədən təşkil olunmuş, o cümlədən kitabxanalarda oxuculara yerində xidmət dayandırılmışdır.

Kitabxana xidməti Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 16 oktyabr tarixli “Xüsusi karantin rejimi dövründə Azərbaycan Respublikasının ərazisində fəaliyyət göstərən təhsil müəssisələrinin fəaliyyəti ilə bağlı əlavə tədbirlər barədə Qərar”ı və Azərbaycan Respublikası Təhsil Nazirliyinin 2020-ci il 12 sentyabr tarixli "Xüsusi

karantin rejimi dövründə ali və orta ixtisas təhsili müəssisələrində tədris prosesinin təşkilinə dair Təlimat"ına uyğun olaraq həyata keçirilmişdir. 2020-2021-ci illərdə oxuculara yerində xidmət dayandırıldığına görə kitabxanaya oxucu gəlişi və onlara ədəbiyyatın verilməsinin dinamikasında kəskin azalma olmuşdur.

| **İllər** | **BDU üzrə** | | **Kitabxanada qeydiyyatda olan oxucuların sayı** | | **Ümumi kitabxana fondu** | **Kitabxanaya müraciətlərin sayı** | **Verilən ədəbiyyatın sayı** |
|---|---|---|---|---|---|---|---|
| | Akademik heyət | Təhsil alanlar | Akademik heyət | Təhsil alanlar | | | |
| **2017** | 1309 | 19255 | 4224 | 12081 | 2119776 | 820356 | 1372391 |
| **2018** | 1300 | 20444 | 4256 | 14302 | 2115543 | 830456 | 1571463 |
| **2019** | 1307 | 21151 | 4113 | 11564 | 2124877 | 520089 | 1798711 |
| **2020** | 1276 | 22330 | 2039 | 7626 | 2128853 | 23754 | 27385 |
| **2021** | 1310 | 23011 | 2089 | 7758 | 2137823 | 26701 | 36613 |
| **2022** | 1382 | 24584 | 2130 | 8480 | 2143463 | 655125 | 954624 |

1998-ci ildə qəbul olunmuş “Kitabxana işi haqqında” Azərbaycan Respublikası Qanununun 15-ci maddəsində məcburi nüsxələrin təqdim olunacağı kitabxanalar sırasına BDU-nun Elmi Kitabxanası da daxil idi. Buna görə də ölkədə nəşr olunan bütün çap məhsullarından 2 nüsxə BDU-nun Elmi Kitabxanasına təqdim olunur, kitabxananın fondu məcburi nüsxələr hesabına daha da zənginləşirdi.

2019-cu il 19 fevral tarixində “Kitabxana işi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə müvafiq qərar qəbul edildikdən sonra, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 25 sentyabr tarixli 418 nömrəli Qərarı ilə təsdiq edilmiş “Kitabxanaların çap məhsullarının pulsuz məcburi nüsxələri ilə təchizatı Qaydası”nın 4.1-ci bəndində məcburi nüsxələrin təqdim olunacağı kitabxanaların yeni siyahısı verilmişdir. Bu Qaydada və bu Qaydaya dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 20 mart tarixli 103 nömrəli Qərarında BDU-nun Elmi Kitabxanası məcburi nüsxələr alan kitabxanalar siyahısından çıxarılmışdır. 2020-ci ildən etibarən ölkədə nəşr olunan çap məhsullarının məcburu nüsxələri kitabxanaya təqdim olunmur.

Buna baxmayaraq, Universitetin nəşr etdiyi, eləcə də müəlliflərin təqdim etdikləri dərslik və dərs vəsaitlərinin hesabına Elmi Kitabxananın fonduna daxil edilən tədris ədəbiyyatının sayında artım müşahidə olunur.

| İllər | Ümumi fond | İl ərzində daxilolmalar | Tədris fondu | Daxilolma (çap) | Daxilolma (elektron) | Elmi fond | Daxilolma |
|---|---|---|---|---|---|---|---|
| 2017 | 2119776 | 11819 | 633662 | 2871 | 2515 | 1099421 | 4464 |
| 2018 | 2115543 | 7529 | 634162 | 1092 | 2524 | 1093857 | 2338 |
| 2019 | 2124877 | 10575 | 635532 | 1532 | 2535 | 1100232 | 6485 |
| 2020 | 2128853 | 5127 | 636719 | 1286 | 2525 | 1101884 | 1682 |
| 2021 | 2137823 | 12431 | 637709 | 1627 | 2538 | 1103897 | 2257 |
| 2022 | 2143463 | 12252 | 639796 | 2443 | 2713 | 1107221 | 3442 |

Tədris dillərinə uyğun Elmi Kitabxananın kitab fondu

| İllər | Ümumi fond | Azər-baycan | Daxil-olma | Rus | Daxil-olma | İngilis | Daxil-olma | Şərq dilləri | Digərləri | Daxil-olma |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| **2017** | 2119776 | 341282 | 7901 | 1656647 | 824 | 22198 | 97 | 10021 | 26738 | 68 |
| **2018** | 2115543 | 337772 | 4247 | 1653047 | 400 | 22309 | 111 | 10056 | 26778 | 45 |
| **2019** | 2124877 | 345386 | 7776 | 1653608 | 671 | 22421 | 112 | 10338 | 27068 | 290 |
| **2020** | 2128853 | 349173 | 3893 | 1653789 | 202 | 22478 | 57 | 10344 | 27075 | 7 |
| **2021** | 2137823 | 354743 | 6236 | 1654100 | 524 | 22861 | 385 | 10379 | 27134 | 59 |
| **2022** | 2143463 | 357483 | 6780 | 1655371 | 1798 | 22985 | 124 | 10605 | 26101 | 112 |

Elmi Kitabxananın fondunda 2017-ci ildə Azərbaycan dilində 341282 nüsxə ədəbiyyat var idisə, 2022-ci ildə bu rəqəm 357483 nüsxə olmuşdur. Rus dilində ədəbiyyat 2017-ci ildə 1656647, 2022-ci ildə 1655371 nüsxə təşkil etmişdir. İngilis dilində isə 2017-ci ildə 22198 nüsxə ədəbiyyat olmuş, 2022-ci ildə bu rəqəm artaraq 22985 nüsxə təşkil etmişdir.

Elmi Kitabxanada dərsliklərin, elmi ədəbiyyatların əldə edilməsi və elmi bazalardan istifadə üçün ayrılan vəsait haqqında məlumat aşağıdakı cədvəldə verilmişdir.

| İllər | Dərsliklər, elmi ədəbiyyatlar | | | Elmi bazalar | | Cəmi |
|---|---|---|---|---|---|---|
| | Abunə | Köçürmə | Anbar | Clarivate Analytics | EBSCO | |
| **2017** | 125840,00 | 28883,72 | 9241,50 | 203680,00 | 2000,00 | 369645,22 |
| **2018** | 74870,65 | 36847,11 | 6552,00 | 200894,00 | 2000,00 | 321163,76 |
| **2019** | - | 4149,64 | 250,00 | 181147,00 | 2000,00 | 187546,64 |
| **2020** | 81,00 | 363,50 | 200,00 | 190400,00 | - | 191044,50 |
| **2021** | 4522,10 | 216,00 | 8992,00 | 281530,00 | 2000,00 | 297260,10 |

2020-2022-ci illərdə BDU-nun müxtəlif fakültələrində tədris olunan fənlərə dair dərslik, dərs vəsaiti və elmi ədəbiyyat BDU-nun yeni yaradılan mətbəəsində çap olunduğuna görə dərslik və dərs vəsaitlərinin abunə və ya köçürmə yolu ilə alınmasına faktiki olaraq ehtiyac duyulmur. Həmçinin, son illərdə oxucuların çap şəklində xarici elmi jurnallara, o cümlədən referativ jurnallara tələbatı az olduğundan onların alınmasına ayrılan vəsaitin əvəzinə elektron elmi bazalardan istifadə üçün ayrılan vəsaitin həcmində artım edilmişdir.

BDU-da təlim və tədris resurslarının keyfiyyət və kəmiyyət baxımından uyğunluğu və təhsilalanlar üçün əlçatanlığı təmin edilmişdir.

BDU-da sağlamlıq imkanları məhdud şəxslər üçün uyğunlaşdırılmış tədris resursları qismən mövcuddur. Bu istiqamətdə Sosial iş kafedrası ilə birlikdə müvafiq işlər görülür.

BDU-da təlim və tədris resursları mütəmadi olaraq yenilənir. Bu baxımdan hesabat dövründə 2500-dən çox müasir tələblərə cavab verən kompüterlər, ağıllı lövhələr, proyektorlar və s. alınmış, auditoriya fondu optimallaşdırılmış, təmir edilmiş və müvafiq avadanlıqlarla təmin edilmişdir.

BDU-da tələbə təşkilatlarının və klublarının fəaliyyət göstərməsi, onların sosial layihələrinin həyata keçirilməsi, mədəni-kütləvi və idman fəaliyyəti üçün zəruri şərait yaradılmışdır.

Universitetdə fəaliyyət göstərən tələbə təşkilatları – Tələbə Həmkarlar İttifaqı Komitəsi, Tələbə Gənclər Təşkilatı, “BDU könüllüləri” qrupu üçün bütün zəruri avadanlıqlarla təchiz edilmiş otaqlar ayrılmışdır. Tələbələrin idman fəaliyyətinin dəstəklənməsi məqsədilə İdman-Sağlamlıq Mərkəzi, mədəni-kütləvi layihələrinin həyata keçirilməsi, yaradıcılıq fəaliyyətlərinin inkişaf etdirilməsi məqsədilə isə Mədəniyyət-Yaradıcılıq Mərkəzi yaradılmışdır. Bu struktur bölmələri və Humanitar məsələlər və gənclər siyasəti şöbəsi tələbələrin yaradıcılıq qabiliyyətlərinin inkişaf etdirilməsi, onların sosial layihələrinin dəstəklənməsi məqsədilə tələbələr arasında iş aparır, tələbə təşkilatları ilə sıx əməkdaşlıq edir.

Universitetdə həm tələbə təşkilatlarının nəzdində, həm də müstəqil olaraq tələbə klubları fəaliyyət göstərir. Tələbə təşkilatlarının nəzdində İntellektual oyunlar, "Conversation", Məntiq, Diskussiya, Gənc rəssamlar, Kino, Şahmat, Yazarlar, Natiqlik, Qiraətçilər, Gənc riyaziyyatçılar, Gənc diplomatlar, Fizika və əyləncə və s. kimi klub və dərnəklərdə tələbələr müxtəlif layihələr həyata keçirir, müsabiqələr təşkil edirlər. Bundan əlavə, tələbələrin müstəqil Debat, “Enactus” komandası, “Söz” Yaradıcılıq Birliyi, Qiraət klubu, Türkoloji dərnəyi, Özünü inkişaf dərnəyi, Vikipediya qrupu, “Gənc kimyaçılar", "Gənc torpaqşünaslar", "Eko" klub və s. kimi dərnək və intellektual klubları, ifaçılıq, rəqs, bədii qiraət üzrə yaradıcılıq qrupları, basketbol, futbol, voleybol, tennis, şahmat və s. idman klubları fəaliyyət göstərir. Tələbələrin qrup və komandaları respublika və beynəlxalq əhəmiyyətli yarış və müsabiqələrdə BDU-nu uğurla təmsil edirlər. Bu klubların müxtəlif sosial layihələrinin, mədəni-kütləvi tədbirlərinin, eləcə də idman yarışlarının keçirilməsi üçün lazımi inzibati və təşkilati dəstək göstərilir, onların müsabiqələrdə iştirakı təmin edilir. Tələbə klublarının mədəni-kütləvi tədbirlərinin hazırlanması və həyata keçirilməsi üçün akt zalları, məşq otaqları, müxtəlif geyim, musiqi alət və avadanlıqları, idman fəaliyyətləri üçün stadion, geyim, geyinmə otaqları, müxtəlif idman qurğuları mövcuddur.

Azərbaycanın ali məktəbləri arasında ilk dəfə olaraq BDU-da 2019-ci ilin dekabr ayında Psixoloji yardım sektoru yaradılmışdır. Psixoloji yardım xidmətinin məqsədi Universitet əməkdaşlarının və tələbələrinin peşəkar şəxsi inkişaf və yüksəlişinə dəstək göstərmək, onların psixoloji müdafiəsini təmin etmək, psixi sağlamlığını qoruyub saxlamaq və gücləndirmək, tələbələrin öz qabiliyyətlərinin üzə çıxarmasına köməklik göstərməkdir. Psixoloji yardım sektorunda peşəkar psixoloqlar öz iş fəaliyyətərini bir necə istiqamətdə aparırlar. Sektorda tələbələr və əməkdaşlar üçün fərdi konsultasiyalar, seanslar, müxtəlif mövzular üzərində qurulan təlimlər keçirilir. Psixoloji yardım sektoru əməkdaş və tələbələr üçün stres və stresin idarə olunması, depressiv vəziyyət, psixosomatik problemlər, şəxsi inkişaf və s. mövzularda təlimlər keçirir, əhval-ruhiyyə pozuntuları, həyəcan-təşviş pozuntuları, yuxu pozuntuları, ailə konsultasiyası, postravmatik stress və əlaqəli pozuntular, zərərli vərdişlərdən xilas olmaq və s. kimi xidmətlər göstərir. Sektorda həmçinin müxtəlif sosial layihələr həyata keçirirlir. 2021-ci ildə “Oxu klubu” yaradılmışdır. Klubun məqsədi oxu vərdişlərinin və moderatorluq qabiliyyətinin inkişaf etdirilməsi, əsərlərin təhlili, oxuculuq bacarıqlarının inkişaf etdirməsi üçün psixi proseslər üzrə praktik çalışmaların yerinə yetirilməsidir. 2022-ci ildə yaradılmış “Psixologiya” klubunun məqsədi psixologiya ixtisası üzrə təhsil alan tələbələr ilə psixologiyaya aid müxtəlif mövzuların müzakirə edilməsidir. Sektor hər ilin mart ayından etibarən Sosial elmlər və psixologiya fakültəsinin 4-cü kurs tələbələri ilə, təcrübə planına əsasən, 3 ay müddətində praktik iş aparır.

### 3.6. Təhsilalanların bilik və bacarıqlarının qiymətləndirilməsi və təhsil sənədinin verilməsi

Bilik və bacarıqların qiymətləndirilməsi sistemi ilə bağlı prosedur və qaydalar Azərbaycan Respublikası təhsil nazirinin 2008-ci il 11 sentyabr tarixli 1060 nömrəli əmri ilə təsdiq olunmuş “Kredit sistemi ilə təhsil alan tələbələrin biliyinin qiymətləndirilməsi haqqında Əsasnamə” və bakalavriat və magistratura səviyyələri üzrə rəsmiləşdirilmiş təhsil proqramları ilə tənzimlənir. Biliyin qiymətləndirilməsinin obyektivliyi və təhsilalanların ixtisas kompetensiyalarının formalaşdırılma səviyyəsi aşağıdakılar əsasında əldə edilir:

– tətbiq edilən biliyin qiymətləndirilməsi meyarları ilə təhsilalanların tanış edilməsi;

– birinci dərsdə sillabusa (işçi tədris proqramı) uyğun olaraq fənnin öyrənilməsi tələbləri ilə təhsilalanların tanış edilməsi;

– Apellyasiya Komissiyasının fəaliyyət göstərməsi.

BDU-da qiymətləndirmədə tələbələrin səmərəli şəkildə ölçüləbilən gözlənilən təlim nəticələrini əldə etmələri üçün müvafiq şərait yaradılmışdır. Bu, əldə olunan irəliləyişi monitorinq etməyə, təhsil proqramlarının nəticələrinə hansı dərəcədə nail olunduğunu qiymətləndirməyə, eləcə də tələbələrlə fikir mübadiləsinə şərait yaratmağa və təhsil proqramlarının təkmilləşdirilməsi üçün ilkin şərtlərin formalaşdırılmasına yardım edir. Təhsil proqramının mənimsənilmə nəticələri məzunun əldə etdiyi kompetensiyalarla təyin edilir.

BDU-da tələbələrin bütün növ attestasiyalarının qiymətləndirilməsi meyarları təsdiq edilmişdir. Bu meyarlar ölçüləbilən və etibarlıdır. Biliyə nəzarət edilməsinin əsas məqsədi tələbələri sonrakı aktiv fəaliyyətə cəlb etmək üçün onların müvəffəqiyyətinin, nəyə nail olduqlarının müəyyən edilməsi, mükəmməlləşmə yollarının göstərilməsi, biliyin, bacarığın, mənimsəmənin, səriştələrin dərinləşdirilməsidir. Bu məqsəd birinci növbədə təhsilalanların tədris materialını mənimsəmə keyfiyyətinin təyin edilməsi, tədris fənninin proqramı üzrə kompetensiyaların, biliklərin, bacarıqların mənimsəmə səviyyəsini müəyyən etməkdir. İkincisi isə, yerinə yetirilmiş işə görə məsuliyyət hiss etmək, təşəbbüs göstərmək kimi şəxsi keyfiyyətlərin aşılanmasıdır. Kompetensiya (səriştə), bilik, bacarıqların qiymətləndirilməsinin əsas funksiyası istiqamətverici, stimullaşdırıcı, nəzarətedici, tərbiyəedicidir.

BDU-da tədris prosesində fərqli qiymətləndirmə üsullarından istifadə edilir. Bu üsullar tələbəmərkəzli yanaşmanı və tələbələrin tərdis prosesindəki fəal rol oynamasını təşviq edir: yazılı tapşırıqlar; bilik və bacarıqlara dair testlər; şifahi təqdimatlar; sorğular; açıq müzakirələr; təcrübə hesabatları, sahə işləri hesabatları; təcrübədə, laboratoriyada müşahidələrə əsasən bacarıqların qiymətləndirilməsi; layihə işlərinə dair hesabatlar; portfolionun qiymətləndirilməsi; frontal sorğu; qrup şəklində və özünü qiymətləndirmə; aralıq imtahan; əsas imtahan və s.

Təlim nailiyyətlərinin qiymətləndirilməsində istifadə olunan üsullar aydın müəyyənləşdirilmiş meyarlara əsaslanmışdır və təhsil müddətində tələbənin əldə etdiyi bilik, bacarıq və qabiliyyət səviyyəsini düzgün və etibarlı şəkildə müəyyən etməyə imkan verir. Təlim nəticələrinin qiymətləndirilməsi zamanı müəllimlər şəffaflıq, qərəzsizlik, qarşılıqlı hörmət və hümanistlik prinsiplərini əsas tuturlar. BDU-da təcrübə və çoxsaylı mənbələrin analizi əsasında yoxlama və qiymətləndirmənin əsas prinsipləri

formalaşdırılmışdır və həyata keçirilən təhsil proqramından asılı olmayaraq bütün müəllimlər obyektivlik, əsaslandırılma və sistemlilik prinsiplərinə əsaslanırlar.

Tələbələrə müəllimlərlə/qiymətləndiricilərlə təhsillərinin bütün aspektlərini, o cümlədən qiymətləndirmə prosesini müzakirə etmək imkanı verilir. Qiymətləndirmədə təhsilalanların özünüqiymətləndirmə bacarığının formalaşması, sərbəst öyrənmə istəyinin yaradılması və təlimin keyfiyyətinin yüksəldilməsinə nail olunması amilləri nəzərə alınır. Tələbələrin irəliləyişi və gələcək karyeraları üçün qiymətləndirmə önəmli olduğundan, qiymətləndirmə üzrə keyfiyyət təminatı prosesləri aşağıdakıları nəzərə alır: bilikləri qiymətləndirən şəxslər mövcud imtahan və yoxlamaların aparılması metodları ilə tanış olur və bu sahədə onlara bilik və bacarıqlarının təkmilləşdirilməsində yardım göstərilir; qiymətləndirmə meyarları və metodları, habelə qiymət verilməsi meyarları barədə təhsilalanlar qabaqcadan məlumatlandırılırlar; qiymətləndirmə prosesi tələbələrdən gözlənilən təlim nəticələrini nümayiş etdirməyə imkan verir; mümkün olan hallarda qiymətləndirmə bir neçə müəllim tərəfindən aparılır; qiymətləndirmə qaydalarında yüngülləşdirici hallar nəzərdə tutulur.

BDU-da İKT-nin təhsilin idarə edilməsinə səmərəli inteqrasiyası davam etdirilir və təhsilin vahid informasiya sisteminin yaradılması yolu ilə müxtəlif idarəetmə mexanizmləri də tətbiq olunur (Avropanın IMC şirkətinin məhsulu olan CLIX (Learning Management System) tədrisi idarəetmə sistemi). CLIX sistemi hal-hazırda daha çox keyfiyyətin qiymətləndirilməsi istiqamətində ixtisaslaşmışdır. Sistemdə tədrisin bütün elementlərindən (tələbə və müəllimlərin şəxsi kabinetləri, dərs otaqları, tədris kontentləri, forumlar, xəbərlər, elanlar və s.) istifadə edilir. Belə ki, müəllimlər şəxsi kabinetlərinə daxil olaraq kontentləri (sillabuslar, mühazirə mətnləri, test sualları, tapşırıqlar və s.) formalaşdırır və tələbələrin də fərdi kabinetlərində bu kontentlər əlçatan olur. Hal-hazırda qiyabi təhsil alan tələbələrin imtahanlarının test üsulu ilə keçirilməsinə xidmət edir. CLIX platformasının test bazasına 2500-dən çox fənn üzrə 1460000-dən çox test sualı yerləşdirilmişdir.

BDU-da sağlamlıq imkanları məhdud şəxslərə münasibətdə xüsusi qiymətləndirmə üsulundan (şifahi sorğu) istifadə edilir.

Tələbələrin müvəffəqiyyətlərinə nəzarət cari və aralıq qiymətləndirilmə vasitəsilə həyata keçirilir. Carı nəzarət tədris materialının mənimsənilməsinin keyfiyyəti haqqında operativ informasiya almaq, tədris prosesinin idarə olunması və məşğələlərin keçirilməsi metodikasının təkmilləşdirilməsi, tələbələrin sərbəst işlərinin stimullaşdırılması məqsədi daşıyır. Cari qiymətləndirılmə semestr ərzində, tədris fənni çərçivəsində fənnin modulunun (bölməsinin) öyrənilməsi zamanı həyata keçirilir. Onun forması və növü fənnin spesifikliyi nəzərə alınaraq müəllim tərəfindən şəffaflıq, ədalətlilik və rəqabətlilik prinsipləri əsasında müəyyən edilir. Tələbələrin bilik və bacarıqlarının yoxlanılmasının sorğu üsulundan başqa, müəllimlər tərəfidən digər metodlardan: test üsulu, məruzə, referat, yoxlama işi (tədris planında nəzərdə tutulubsa) və s.-dən istifadə olunur. Tələbələrin məşğələlərə davamiyyəti də cari nəzarətə aiddir. Cari nəzarətin nəticələri jurnalda qeyd olunur və kafedra iclaslarında müzakirə olunur.

Aralıq attestasiya tədris planı əsasında bütün fənn üzrə və ya onun əsas bölmələrinin təhsil məqsədinə çatma səviyyəsini müəyyən etmək üçün aparılır. Bu nəzarət imtahan, kurs işlərinin müdafiəsi, təcrübələr üzrə hesabatlar və s. şəklində həyata keçirilir. Semestr ərzində öyrənilmiş fənlərin (və ya onların bölmələrinin) nəzəri biliklərinin yoxlanılması yazılı, şifahi və ya test imtahanı formasında həyata keçirilir.Tələbələrin fənn üzrə praktiki

işlərinin növləri (praktiki məşğələ, laboratoriya işi, kurs işi və ya layihəsi) bal sistemi ilə qiymətləndirilir. Aralıq qiymətləndirmənin nəticələri imtahan cədvəllərində qeyd olunur. Tələbə müvəffəqiyyətinin nəzərə alınmasında və akademik arayış, transkript, diplom verilərkən bu cədvəllər əsas götürülür.

BDU-da Yekun Dövlət Attestasiyası (YDA) Azərbaycan Respublikası Təhsil Nazirliyinin 1997-ci il 27 yanvar tarixli 54 nömrəli əmri ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Ali Təhsil Müəssisələri tələbələrinin bakalavr pilləsində Dövlət Attestasiyası haqqında Əsasnamə” və Azərbaycan Respublikası təhsil nazirinin 1998-ci il 20 aprel tarixl 202 nömrəli əmri ilə təsdiq olunmuş “Magistrlik dissertasiyasının hazırlanması, təqdim olunması və müdafiəsi qaydaları haqqında Əsasnamə”yə əsasən təşkil olunur. YDA, bakalavriat və magistratura səviyyələrinin ixtisas üzrə “Təhsil proqramı” təhsilalanlar tərəfindən tam başa çatdırıldıqdan sonra həyata keçirilir və ixtisas (ixtisaslaşma) üzrə diplom verilməsi ilə başa çatır. YDA akademik təqvim və tədris planında nəzərdə tutulmuş müddətlərdə keçirilir. 4-cü tədris ili tələbələrinin ÜOMG-si yüksək olan 30%-i buraxılış işi hazırlayır və Dövlət Attestasiya Komissiyası tərəfindən səsvermə yolu ilə qiymətləndirilir. Yekun dövlət imtahanı Dövlət Attestasiya Komissiyasının nəzarəti ilə yazılı şəkildə həyata keçirilir. Magistrantlar “Təhsil proqramını” yerinə yetirdikdən sonra İxtisaslaşdırılmış Şuralarda dissertasiya işini müdafiə edir və onlara magistr ali elmi-ixtisas dərəcəsi və dövlət nümunəli diplom verilir. Dissertasiya işi magistrantların tədqiqat və analitik qabiliyyətlərini aşkar etmək məqsədi daşıyır.

Tədris illəri üzrə Yekun Attestasiyada əldə olunan müvəffəqiyyət və keyfiyyət göstəriciləri aşağıdakı şəkildə göstərilmişdir.



Magistratura səviyyəsi üzrə məzunların statistikası aşağıdakı diaqramda verilmişdir.




BDU-da hər semestrin imtahan sessiyasında bilik və bacarıqların qiymətləndirilməsi sistemi üzrə fakültələrdə təhlillər aparılır, nəticələr analiz olunur, aidiyyəti prorektorlar tərəfindən bu barədə Elmi Şurada hesabat verilir, nəticələr müzakirə edilir və proseslərin təkmilləşdirilməsi istiqamətində qərarlar qəbul edilir. Tədris illəri üzrə müvəffəqiyyət və keyfiyyət göstəriciləri aşağıda göstərilmişdir.







İxtisas üzrə təhsil proqramları əsasında (fərdi tədris planlarının tərtibi, iş planları və s.) təhsil səviyyəsinin bitirilməsi qaydaları və şərtləri sadə, aydın və başa düşülən formadadır və tələbələr üçün əlçatandır.

Təhsil səviyyəsini bitirən məzunlara dövlət təhsil sənədi (diplom) və ya təhsil səviyyəsini uğurla bitirməyən şəxslərə müavafiq arayışlar qanunvericiliyin tələblərinə

uyğun olaraq verilir. Aşağıdakı cədvəldən göründüyü kimi, normativ təhsil müddətində diplom ala bilməyən tələbələrin sayında azalma tendensiyası vardır.

Diplom alan (məzun olan) və kontingentdə qalan tələbələrin illər üzrə sayı aşağıdakı cədvəldə verilmişdir.

| Tədris illəri | Diplom alan tələbələrin sayı | Normativ təhsil müddətindən artıq müddətdə təhsilalan tələbələrin sayı |
|---|---|---|
| **2016/2017** | 4367 | 794 |
| **2017/2018** | 4077 | 1001 |
| **2018/2019** | 4771 | 973 |
| **2019/2020** | 6062 | 909 |
| **2020/2021** | 5874 | 611 |
| **2021/2022** | 4605 | 600 |

### 3.7. Professor-müəllim heyəti və inzibati-texniki işçilər

BDU-da əmək münasibətlərinin və mülki münasibətlərin bağlanılması, əmək münasibətlərinə xitam verilməsi mövcud qanunvericiliyə, Azərbaycan Respublikası Əmək Məcəlləsinin tələblərinə, Azərbaycan Respublikası Təhsil Nazirliyinin Kollegiyasının 2017-ci il 15 noyabr tarixli 5/5 nömrəli Qərarı ilə təsdiq edilmiş "Ali təhsil müəssisələrində kafedra müdiri, dekan və dekan müavini vəzifələrinin tutulması Qaydaları"na, Azərbaycan Respublikası Təhsil Nazirliyinin 1996-cı il 7 avqust tarixli 401 nömrəli əmrinə Əlavə 1 – "Ali təhsil müəssisələrində professor-müəlim və kafedra müdiri vəzifələrinin tutulması qaydaları haqqında Əsasnamə"yə və BDU-nun Nizamnaməsinə uyğun olaraq həyata keçirilir. İşə götürülmüş akademik heyətin təşəbbüslərinə və yaradıcılıqlarına şərait yaradılır, onların fəaliyyəti stimullaşdırılır, ixtisaslarını artırmaq və təkmilləşdirmək üçün tədbirlər görülür, texniki cəhətdən təchiz olunmuş iş yeri ilə təmin olunurlar. Universitetin resursları bütün əməkdaşlar üçün əlçatandır.

Universitetin kadr siyasətinin məqsədi insan resurslarının inkişafı və effektiv idarə edilməsi, işçilərin kəmiyyət və keyfiyyət göstəricilərini optimal saxlamaq, onların ixtisas və sosial inkişafını təmin etmək, yüksək kvalifikasiyaya malik kadrların müvafiq qaydada akademik fəaliyyətə cəlb olunma prosesini düzgün idarə etməkdir. Universitet qarşısında qoyulmuş strateji məsələləri həll etmək üçün yüksək ixtisaslı kadrların işə qəbul edilməsində maraqlıdır.

Akademik heyət təhsil proqramlarını effektiv həyata keçirmək tələbatına uyğun və ümumi dərs yükünə əsasən formalaşdırılır. Akademik heyətin işə qəbulu, yüksəlişi və digər inzibati vəzifəyə keçirilməsi müvafiq qanunvericilik əsasında həyata keçirilir. Tətbiq edilən yanaşma şəffaf və ictimaiyyət üçün əlçatandır. Fakültə dekanı, kafedra müdiri, professor, dosent, baş müəllim və müəllim vəzifələrinin tutulması haqqında müvafiq elanlar dövri mətbuat orqanlarında və Universitetin rəsmi saytında dərc olunur, seçkilərin nəticələri ictimaiyyətə açıqlanır.

Akademik heyətin pedaqoji və texnoloji səriştələri Universitet tərəfindən təklif edilən təhsil xidmətlərinin keyfiyyəti üçün çox böyük əhəmiyyət kəsb edir və BDU rəhbərliyi onların kompetensiyalarının sistematik qiymətləndirilmələrini təmin edir. Müəllimlərin

kompetensiya səviyyələri açıq dərslərin keçirilməsi, dərslərdə qarşılıqlı iştirak, kafedra müdirlərinin dərslərdə iştirakı, "Müəllim tələbənin gözü ilə" anket sorğusunun keçirilməsi nəticələri ilə təsdiq olunur və təhsilin effektivliyi və keyfiyyəti ilə ölçülür. Professor-müəllim heyəti müxtəlif proqramlar çərçivəsində (Erasmus+, Fulbright, Mövlanə və s.) xarici ölkələrin elm və təhsil müəssisələrinə ezam olunaraq öz peşə kompetensiyalarını yüksəldirlər.

BDU təhsil sisteminin yenidən qurulması, modernləşdirilməsi və bu işlərin təşkilində aktiv (interaktiv) metodlardan istifadə olunması Universitetin fəaliyyətində prioritet hesab edilir. Aktiv (interaktiv) metodlarla iş üsulları müntəzəm olaraq öyrənilir, pedaqoji-psixoloji tədqiqatların nəticələri daim sistemləşdirilir. Təlim-tərbiyə prosesinin məzmununun yenilənməsi, təhsil sferasına, pedaqoji prosesə aktiv (interaktiv) metodların elmi əsaslarla gətirilməsini vacib edir, bütövlükdə təhsildə texnoloji yanaşmaların tətbiqini aktuallaşdırır. COVİD-19-la əlaqəli xüsusi karantin rejimi dövründə BDU-da tədris məsafədən təşkil olunduğu üçün professor-müəllim heyətinə həm interaktiv metod, həm də məsafədən tədris metodlarının tətbiqi üzrə təlimlər keçirilmiş və təlimlərdə fərqlənən əməkdaşlara sertifikatlar verilmişdir. Nəticədə, bu təlimlər BDU-nun bütün tələbə və müəllim kontingentinə tədris prosesinin "Blackboard" sistemində təşkilini və tələbələrin qiymətləndirilməsini mükəmməl mənimsəməyə imkan vermişdir.

BDU-da akademik heyətin öz ixtisas sahələri üzrə ixtisasartırma, təkmilləşdirilmə və digər təlim kurslarında iştiraki sistemli şəkildə tərtib olunmuş qrafikə əsasən həyata keçirilir. 2015/2016-cı tədris ilində 81; 2016/2017-ci tədris ilində 93; 2017/2018-ci tədris ilində 171; 2018/2019-cu tədris ilində 190 müəllim respublikanın elm və təhsil müəssisələrində ixtisasartırma kurslarında iştirak etmişdir. Pandemiya dövründə tətbiq olunan məhdudiyyətlər səbəbindən əməkdaşlar ixtisasartırma kurslarına göndərilməmişdir. Eyni zamanda BDU-da da ixtisasartırma kursları təşkil olunmuş, bu kurslarda 2017/2018-ci tədris ilində 166; 2018/2019-cu tədris ilində 80; 2020/2021-ci tədris ilində 155; 2021/2022-ci tədris ilində isə 523 əməkdaş təkmilləşmə kurslarını başa vurmuş və onlara sertifikatlar verilmişdir.

BDU müəllimlərinin xarici ölkələrdə bir və ya iki həftə ərzində tədris prosesində iştirak etməklə ixtisaslarının artırılması üçün Mövlanə, Erasmus+ və Fulbrigth beynəlxalq proqramlarının imkanlarından istifadə edilir. Hesabat dövründə 56 nəfər professor-müəllim heyətinin üzvü göstərilən proqramlar üzrə ixtisasartırma prosesində iştirak etmişdir.

BDU-da akademik heyətin yaradıcı və innovativ tədris bacarıqlarının qiymətləndirilməsi sistemi mövcuddur. Hazırda BDU-da əməkdaşların əməyinə görə aşağıdakı ödənişlər edilir: əməkhaqqı; elmi dərəcə və elmi ada görə əməkhaqqına əlavələr; semester, il ərzində görülmüş işlərin nəticələrinə görə, ixtiraların tətbiqi üzrə işlərinə görə mükafatlandırmalar; digər kompensasiya, sosial və stimullaşdırıcı xarakterli ödənişlər.

Peşəkarlığa, elmi dərəcə və elmi ada, iş stajına, yerinə yetirilmiş işlərin keyfiyyətinə və həcminə, əməyin intensivliyinə, təşəbbüslərin göstərilməsinə, öz vəzifələrini peşəkarcasına yerinə yetirməyə görə akademik heyətə müxtəlif əlavə ödənişlər də edilir.

Universitetdə bütün əməkdaşların əməyini stimullaşdırmaq üçün onlara il ərzində mükafatlar verilir. Elmi, tədris və ictimai fəaliyyətinə görə fərqlənən əməkdaşlar BDU rektorunun Fəxri fərmanı və Təşəkkürnaməsi ilə təltif edilir, mükafat verilir, Elm və Təhsil

Nazirliyi tərəfindən mükafatlandırılmaları və dövlət təltiflərinə təqdim olunmaları üçün BDU tərəfindən müvafiq vəsatət qaldırılır.

Ştatda olan və tədrisə cəlb olunan akademik heyət arasında dərs yükünün bölgüsündə dürüst və şəffaf meyarlar mövcuddur. Elmi-tədqiqatla aktiv məşğul olan professor-müəllim heyətinin tam ştat vahidinin illik dərs yükü 500 saat müəyyən edilmişdir. Kafedralarda ştatda olan müəllimlərə dərs yükü bölündükdən sonra artıq qalan yük kafedranın ştatda olan əməkdalarına saathesabı qaydada (240 saata qədər) və ya digər müəssisələrdən tədrisə cəlb olunan yüksək ixtisaslı mütəxəssislərə verilir.

Fakültələr üzrə təhsilə cəlb olunan professor-müəllim heyətinin tələbə sayına nisbətinin cari vəziyyəti aşağıdakı cədvəldə verilmişdir.

| | Fakültə | Bakalavriat və magistratura | Professor-müəllim heyəti | T/PMH |
|---|---|---|---|---|
| 1 | Mexanika-riyaziyyat | 1368 | 119 | 11,49 |
| 2 | Tətbiqi riyaziyyat və kibernetika | 1853 | 157 | 11,80 |
| 3 | Fizika | 1229 | 122 | 10,07 |
| 4 | Kimya | 1180 | 88 | 13,41 |
| 5 | Biologiya | 1204 | 134 | 8,99 |
| 6 | Ekologiya və torpaqşünaslıq | 971 | 131 | 7,41 |
| 7 | Coğrafiya | 1636 | 137 | 11,94 |
| 8 | Geologiya | 546 | 59 | 9,25 |
| 9 | Filologiya | 1481 | 268 | 5,67 |
| 10 | Tarix | 2064 | 171 | 12,07 |
| 11 | Beynəlxalq münasibətlər və iqtisadiyyat | 3452 | 290 | 11,90 |
| 12 | Hüquq | 1669 | 222 | 7,52 |
| 13 | Jurnalistika | 673 | 78 | 8,63 |
| 14 | Kitabxanaçılıq-informasiya | 569 | 52 | 10,94 |
| 15 | Şərqşünaslıq | 940 | 128 | 7,34 |
| 16 | Sosial elmlər və psixologiya | 1951 | 292 | 6,68 |
| **Cəmi** | | **22786** | **2448** | **9,31** (orta qiymət) |

Tədris prosesində iştirak edən professor-müəllim heyətinin 95 %-nin əsas iş yeri BDU-dur.

Tədris prosesində iştirak edən professor-müəllim heyətinin ümumi sayı – 1382

Əsas iş yeri BDU olan professor müəllim-heyətinin sayı – 1308

Digər müəssisələrdən tədrisə cəlb olunanların sayı – 74

Ümumiyyətlə, BDU-da dərs yükü "Təhsil müəssisələrinin pedaqoji işçilərinin dərs yükü normalarının müəyyən edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 24 noyabr tarixli 215 nömrəli Qərarı əsas götürülməklə bölünür. Tədris planına daxil edilmiş fənlərin multidissiplinar olması, BDU-da 83 ixtisas üzrə bakalavriat, 246 ixtisaslaşmada magistrant hazırlandığı və əmək bazarının tələblərinə

uyğun qeyri-standart tapşırıqları həll etmək qabiliyyətinə malik olan mütəxəssis hazırlığının BDU-nun əsas məqsədlərindən biri olduğu nəzərə alınmaqla istehsalatdan və digər qurumlardan olan alim və mütəxəssislərin tədrisə cəlb olunmasını zəruri edir.

Hal-hazırda BDU-da akademik heyətin illik elmi və pedaqoji fəaliyyəti müəyyən olunmuş meyarlar əsasında qiymətləndirilir, aylıq əməkhaqlarına müəyyən əlavələr verilir. Digər tərəfdən, BDU-nun nəzdində Gənc İstedadlar Liseyinin pedaqoji heyətinə, həmçinin elmi-tədqiqat institutları, mərkəzləri və laboratoriyalarında çalışan əməkdaşların da aylıq əməkhaqlarına əlavələr verilir (nəzərə almaq lazımdır ki, adı çəkilən əməkdaşların müəyyən qismi həmçinin BDU-da əvəzçiliklə pedaqoji fəaliyyətlə də məşğuldur). 2023-cü il ərzində yeni meyarlar əsasında hazırlanmış differensiallaşdırılmış əməkhaqqı sisteminin tətbiqi məsələsi müvafiq qaydada müzakirəyə çıxarılacaqdır.

Aşağıdakı cədvəldə xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrindən məzun olmuş və BDU-da çalışan professor-müəllim heyəti haqqında məlumat verilmişdir.

| **Fakültənin adı** | **Xaricdə təhsil almış əməkdaşların sayı** |
|---|---|
| Mexanika-riyaziyyat | 8 |
| Tətbiqi riyaziyyat və kibernetika | 7 |
| Fizika | 15 |
| Kimya | 8 |
| Biologiya | 8 |
| Coğrafiya | 8 |
| Geologiya | 2 |
| Tarix | 14 |
| Filologiya | 12 |
| Hüquq | 9 |
| Beynəlxalq münasibətlər və iqtisadiyyat | 9 |
| Şərqşünaslıq | 3 |
| Jurnalistika | 3 |
| Sosial elmlər və psixologiya | 9 |
| **Cəmi** | **115** |

### 3.8. Tələbəyönümlü tədris

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 24 dekabr tarixli 348 nömrəli qərarı ilə təsdiq edilmiş "Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (ali) tibb təhsilində və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində kredit sistemi ilə tədrisin təşkili Qaydaları"na müvafiq olaraq hər tədris ili üçün ixtisasın (ixtisaslaşmanın) tədris qrafiki əsasında tələbənin fərdi tədris planı - tələbənin tədris ili ərzində təhsil alacağı fənləri, onların müvafiq kreditlərini, fənlər üzrə müəllimlərin siyahısını əks etdirən sənəd hazırlanır. Fənlərin prerekvizitliyi gözlənilməklə, tələbənin fərdi tədris planı müəyyən olunmuş forma üzrə akademik məsləhətçinin köməyindən istifadə etməklə onun özü tərəfindən tərtib edilir. Tələbələr fənn müəllimlərini və fənləri seçməkdə sərbəstdirlər. Tələbələr növbəti tədris ili üçün fərdi tədris planlarını tərtib edərkən ilk növbədə əvvəlki tədris ilindən qalmış akademik borcları olan fənləri yazırlar. Birinci tədris ili üçün tələbənin fərdi tədris planını fakültə (tyutor)

hazırlayıb tələbələrə təqdim edir. Növbəti tədris ilində isə tələbə öz fərdi tədris planını hazırlayır və iyulun 5-dən 15-dək fakültəyə təqdim edir. Tələbənin fərdi tədris planı tələbə tərəfindən imzalandıqdan sonra sentyabrın 15-nə kimi dekan tərəfindən təsdiq edilir, bir nüsxə tələbəyə verilir, bir nüsxə isə fakültədə saxlanılır.

II və III tədris illəri üçün ixtisasın (ixtisaslaşmanın) tədris qrafiki əsasında tələbələr akademik məsləhətçinin (tyutorun) köməyi ilə öz fərdi tədris planını hazırlayırlar, iyulun 5-dən 15-dək fakültəyə təqdim edirlər. Fərdi tədris planlarında ixtisas üzrə təhsil proqramına əsasən müəyyən olunmuş (60 AKTS) və ixtisas kafedraları tərəfindən təklif olunmuş seçmə fənlər öz əksini tapır. Tədris planları formalaşdırılan zamanı hər bir semestr üzrə fakültələrdə seçmə fənnlər kataloqu yaradılır. Kafedralar tərəfindən təklif edilən seçmə fənlər tədris-metodiki sənədlərlə təmin olunur. Seçmə fənləri fərdi tədris planlarına daxil etməkdə tələbələr sərbəstdirlər. Fənləri seçmə zamanı tələbələr tyutorların məsləhətlərindən istifadə edə bilərlər. May ayında adətən tələbələr üçün ixtisas kafedralarının müəllimləri tərəfindən təbliğat xarakterli söhbətlər aparılır. Bu söhbətlər nəticəsində də tələbələr öz seçimlərini edə bilirlər.

BDU-da Bolonya prosesinin təşviqi, kredit sistemi ilə tədrisin təşkili, AKTS sisteminin tətbiq edilməsi və tələbələrə köməklik göstərilməsi məqsədi ilə akademik məsləhətçilər (tyutorlar) xidməti təşkil edilmişdir. Təhsilverən və tyutorlar tələbələr tərəfindən sərbəst seçilir. Bir qayda olaraq tyutoru 200-dək tələbə seçə bilər. Bir müəllimi seçən tələbələrin sayı fənnin xüsusiyyətindən və tədrisin formasından (mühazirə, məşğələ, laboratoriya və s.) asılı olaraq BDU tərəfindən müəyyən edilmişdir. Tələbələr müəllim seçimi zamanı müvafiq kafedra və tyutorlar tərəfindən hər hansı fənni tədris edə bilən təhsilverənin elmi və pedaqoji göstəriciləri haqqında onlara verilmiş məlumata əsaslanırlar.

Hesabat dövründə BDU-da tələbələr və məzunlar arasında anket sorğuları (yazılı, elektron və ya onlayn şəkildə) keçirilmişdir. Sorğular əsasən bu istiqamətlər üzrə aparılmışdır:

- Universitetin ümumi fəaliyyətinin qiymətləndirilməsi sorğusu;
- müəllimlərin pedaqoji fəaliyyətinin qiymətləndirilməsi sorğusu;
- fənlər üzrə məmnunluq sorğusu;
- təhsil müddəti ərzində qazanılmış səriştələrdən məmnunluq sorğusu;
- qazanılmış peşə kompetensiyalarının əmək bazarının tələblərinə uyğunluğu sorğusu;
- qazanılmış ümumi kompetensiyaların əmək bazarının tələblərinə uyğunluğu sorğusu və s.

Keçirilən sorğuların məqsədi aşkarlanan nöqsanların təhlili, onların aradan qaldırılması və təhsildə keyfiyyətin yüksəldilməsidir. Sorğuların təhlili nəticəsində müəyyən olunmuş nöqsanların aradan qaldırılması istiqamətində tədbirlər görülmüşdür. Növbəti ildə keçirilən sorğularda qeyd olunan nöqsanların aradan qaldırılması məsələsi yenidən yoxlanılmışdır. Bununla yanaşı, pedaqoji fəaliyyətində fərqlənən müəllimlərin tədris metodları təşviq olunmuş və mükafatlandırılmışdır.

BDU-da tələbə və məzunların imtahan sessiyasının təşkili, qiymətləndirmə metodlarının təkmilləşdirilməsi, əmək bazarının tələb etdiyi kompetensiyalar, elektron kitabxana üzrə təklifləri mütəmadi olaraq toplanılır, təhlil edilir və qərar qəbul edilmək üçün müzakirəyə çıxarılır.

BDU-da hesabat dövründə təhsilalanlar arasında sorğuların keçirilməsi üçün (müəllimin pedaqoji və BDU-nun fəaliyyətinin müəyyən aspektlərini qiymətləndirmək məqsədilə) on sualdan ibarət sorğu anketi hazırlanmışdır. Yazılı sorğu anket forması BDU-nun Elmi Şurasında təsdiq edilmişdir. Sorğularda respondentlərin anonimlik, konfidensiallıq şərtlərinin gözlənilməsi üçün hər fakültənin, BDU-nun müvafiq strukturlarının nümayəndələrindən ibarət xüsusi İşçi qruplar yaradılmış və onlarla lazımi təlimatlar verilmişdir. Sorguların keçirilməsində Tələbə Həmkarlar İttifaqı Komitəsi, Tələbə Gənclər Təşkilatı və İnformasiya Texnologiyaları Mərkəzinin əməkdaşları yaxından iştirak etmişdir.

Sorğular təhsilalanlar arasında keçirilmişdir. Sorğunun məqsədi təhsilalanların müəllimlərindən, kafedra, fakültə və Universitetin ümumilikdə fəaliyyətinin bir sıra aspektlərindən məmnunluq səviyyəsini müəyyənləşdirmək olmuşdur. Sorğular bir anket forması ilə keçirilsə də, onu şərti olaraq "BDU-nun ümumi fəaliyyətinin qiymətləndirilməsi sorğusu" və "Fənnlər üzrə məmnunluq sorğusu" hissələrinə ayırmaq olar.

Müəllimin tədris fəaliyyətinin tələbələr tərəfindən qiymətləndirilməsi üzrə sorğunun keçirilməsində Keyfiyyətin təminatı və monitorinq şöbəsinin əməkdaşları, 2020-ci ilə qədər Tədris-Metodiki Şura üzvləri, fakültə dekanları, fakültələrin gənc müəllim və fəalları aktiv iştirak etmişlər. Bu tədbir hər bir müəllimi məsuliyyətli olmağa, mühazirələrini, pedaqoji ustalığını daim diqqətdə saxlamağa sövq etmişdir. Son 5 il ərzində keçirilmiş sorğuların sayı 75000 anket (yazılı və elektron) olmuşdur. Hesabat dövründə sorğular 2016/2017 və 2017/2018-ci tədris illərində keçirilmişdir. Əgər 2017-ci ilə kimi keçirilən sorğular yazılı anketlərlə aparılırdısa, 2017/2018-ci tədris ilində ilk dəfə olaraq sorğular yazılı anketlərlə yanaşı, həm də elektron formatda keçirilmişdir. 2018/2019-cu tədris ilində sorğuların keçirilməsi üçün bütün hazırlıq tədbirləri görülmüş, Universitetin 100 illik yubileyinin keçirilməsi nəzərə alınaraq daha da təkmilləşdirilmişdir. Sorğu anketi BDU-nun Elmi Şurasında təsdiq olunmuşdur. Lakin pandemiya ilə əlaqədar tətbiq olunan xüsusi karantin rejiminin məhdudiyyətləri səbəbindən 2019/2020 və 2020/2021-ci tədris illərində sorğuların kütləvi şəkildə keçirilməsi təxirə salınmışdır. 2016/2017-ci tədris ilində keçirilən sorğularda 15 mindən çox tələbə iştirak etmişdir. Sorğu prosesində paylanan 45 minə yaxın anketdə 1853 müəllim tələbələr tərəfindən qiymətləndirilmişdir. Sorğunun məqsədinə uyğun məmnunluq səviyyəsi 5 ballıq sistemlə fakültələr üzrə 4 - 4,6 aralığında dəyişmişdir. Elektron sorğuda 15 mindən çox tələbə iştirak etmişdir. Sorğu prosesində paylanan 30000-ə (12000-dən çox yazılı anket, 17000-dən çox elektron anket) yaxın anketdə 1300-ə qədər müəllim tələbələr tərəfindən qiymətləndirilmişdir. Sorğunun məqsədinə uyğun məmnunluq səviyyəsi 5 ballıq sistemlə qiymətləndirilmişdir. Məmnunluq səviyyəsi fakültələr üzrə elektron sorğuda 3,4 - 4,6 bal, yazılı anket sorğusunda 4 - 4,5 bal aralıqlarında dəyişmişdir. Universitet üzrə orta bal elektron sorğuda 4,4, yazılı anket sorğusunda isə 4,9 bal təşkil etmişdir.

2017/2018-ci tədris ilində keçirilən sorğuda yazılı və elektron sorğu anketlərinin emalı belə bir fikrə gəlməyə əsas verir ki, 5 ballıq sistemlə bütün fakültələrdə göstərici 4,6 baldan çoxdur.

Sorğuların nəticəsinin təhlili aşağıdakı nöqsanları ortaya çıxarmışdır:

- bəzi müəllimlər tərəfindən qiymətləndirilmədə qeyri-obyektivliyə yol verilmişdir;
- bəzi müəllimlər tələbələrə fərdi yanaşmır, onların problemlərinə biganəlik nümayiş etdirirlər;

- tələbələr tərəfindən nitq problemləri olan və ya qeyri-etik davranış hallarına yol vermiş bəzi müəllimlər qeyd edilmişdir.

Sorğuların nəticələri fakültə Elmu Şuralarında və BDU-nun Elmi Şurasında müzakirə olunaraq təhlil edilmiş və müvafiq qərarlar verilmişdir.

BDU-da təhsilalanların şikayət və təklifləri üçün bütün şərait yaradılmışdır. Təhsilalanlar öz şikayət və təkliflərini sərbəst şəkildə aşağıdakı yollarla təqdim edə bilirlər.

Hesabat ilində tələbələrdən daxil olan müraciətlər operativ şəkildə (xarakterindən asılı olaraq 1-3 gün müddətində) cavablandırılmışdır. Tələbələr şikayət və təkliflər üçün, onları maraqlandıran suallarla aşağıdakı yollarla müraciət edirlər:

- BDU-nun rəsmi saytında "Tələbədən rektora" bölməsi (contact.bsu.edu.az) vasitəsilə;
- Fakültələrə və müvafiq struktur bölmələrinə birbaşa müraciət etməklə;
- BDU-nun Müraciətlərlə iş sektoru vasitəsilə;
- Tələbə təşkilatları vasitəsilə (TGT, THİK);
- Humanitar məsələlər və gənclər siyasəti şöbəsi vasitəsilə;
- BDU-nun rəsmi sosial media hesabları vasitəsilə;
- Müraciətlər və şikayətlər qutusu vasitəsilə;
- Rektorun qəbuluna yazılmaqla.

Təhsilalanların hər bir şikayət və təklifi təhlil olunur, müraciətlər operativ şəkildə müvafiq struktur bölməyə yönləndirilir, tələbə ilə əlaqə yaradılaraq müraciəti cavablandırılır.

Universitetdə Bolonya prosesinin təşviqi, kredit sistemi ilə tədrisin təşkili, AKTS-nin tətbiq edilməsi və tələbələrə kömək göstərilməsi məqsədi ilə akademik məsləhətçi (tyutor) xidməti Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 24 dekabr tarixli 348 nömrəli qərarı ilə təsdiq edilmiş "Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (ali) tibb təhsilində və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində kredit sistemi ilə tədrisin təşkili Qaydaları"nın 5-ci bölməsinə əsasən təşkil edilmişdir (e-qanun.az/frameWork/27030). Tyutorlar bu sahədə müəyyən təcrübəsi və səriştəsi olan ali təhsilli şəxslər arasından seçilirlər və rektorun əmri ilə bu vəzifəyə təyin olunurlar. Onlar öz təcrübələrini artırmaq üçün BDU-nun təşkil etdiyi tyutor kurslarını başa vuraraq müvafiq sertfikat alırlar.

Universitetdə tətbiq olunan "Blakcboard" platforması tələbələr və təhsilverənlər, eləcə də tələbələr və akademik məsləhətçilər arasında həm qrup şəklində, həm də fərdi kommunikasiyalar üçün geniş imkan yaradır. İş günü ərzində tələbələr və təhsilverənlər, eləcə də tələbələr və akademik məsləhətçilər (tyutorlar) arasında müntəzəm üzbəüz təmaslar qurulur. Təhsilverənlər, tyutorlar və təhsilalanlar arasında sosial şəbəkələr, elektron poçt vasitəsilə kommunikasiya da geniş tətbiq olunur.

Sağlamlıq imkanları məhdud şəxslərin cəmiyyətə inteqrasiyası meyarlarının tədris prosesində nəzərə alınması Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 14 dekabr tarixli 3498 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "2018-2024-cü illərdə Azərbaycan Respublikasında sağlamlıq imkanları məhdud şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə Dövlət Proqramı"na (e-qanun.az/frameWork/37269) əsasən həyata keçirilir. BDU-da sağlamlıq imkanları məhdud şəxslərin təhsil hüququ təhsilin bütün pillələri üzrə digər

şəxslərlə bərabər səviyyədə təmin edilmiş və onların təhsili üçün əlverişli mühit yaradılmışdır.

BDU-nun Elmi Şurasının müvafiq qərarı əsasında Vətən müharibəsində iştirak etmiş BDU tələbələri alt qrup ödənişlərindən azad edilmişdir. Həmçinin, sosial həssas qrupa aid edilən tələbələrin bir qisminin gündəlik qida xərcləri BDU TKİH tərəfindən qarşılanır. BDU-nun yataqxanasından istifadə zamanı sosial həssas ailə qrupuna aid olanların yerləşdirilməsinə üstünlük verilir. Tələbə təşkilatları, tyutorlar mütəmadi olaraq bu tələbələrlə ünsiyyətdə olur, onların problemləri həll olunur.

BDU-da təhsilalanlara təqaüd Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 5 fevral tarixli 38 nömrəli qərarı ilə təsdiq edilmiş "Doktorantlara, ali təhsil, orta ixtisas və peşə təhsili müəssisələrinin, həmçinin Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsinin tələbələrinə təqaüdlərin təyin olunması və ödənilməsi Qaydası"na (e-qanun.az/framework/32086#_edn6) əsasən verilir. Tətil və istehsalat təcrübəsi müddətində də tələbələrin təqaüd alma hüquqları saxlanılır. Dövlət sifarişi, dövlət hesabına və ödənişli əsaslarla təhsil almalarından asılı olmayaraq əyani təhsil alan tələbələrə təqaüd onların ümumi orta müvəffəqiyyət göstəricisinə (ÜOMG) görə verilir:

- fənlər üzrə göstəriciləri 91-100 bal olan tələbələrə "əlaçı" təqaüdü;
- fənlər üzrə göstəriciləri 71-100 bal olan tələbələrə "həvəsləndirici" təqaüdü;
- fənlər üzrə göstəriciləri 51-100 bal olan tələbələrə "adi" təqaüd.

Eyni zamanda, Azərbaycan Respublikası Prezidentinin "Ali təhsil müəssisələrində təqaüd sisteminin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər barədə" 2019-cu il 14 fevral tarixli Sərəncamına əsasən ölkədə yüksəkixtisaslı, peşəkar kadrların hazırlanmasına dövlət qayğısının artırılması və təhsildə yüksək nəticələr əldə edən tələbələrin təqaüd almaları üçün əlavə imkanların yaradılması məqsədilə ali təhsil müəssisələrində müvəffəqiyyət göstəriciləri əsasında dövlət hesabına maliyyələşən təqaüd yerlərinin sayı 2019/2020-ci tədris ilindən etibarən artırılmağa başlanılmışdır.

2021/2022-ci tədris ilinin yaz və 2022/2023-cü tədris ilinin payız semestrləri üzrə təqaüd yerlərinin bölgüsünə dair Azərbaycan Respublikası təhsil nazirinin 2022-ci il 08 fevral tarixli F-65 nömrəli əmrinə əsasən Bakı Dövlət Universiteti üzrə 1556 əlavə təqaüd yeri ayrılmışdır.

BDU-da məqsədli təqaüdlərin verilməsi üzrə əsasnamə təsdiq edilmişdir. BDU-da hal-hazırda bir neçə adlı və məqsədli təqaüd verilir.

**Bakalavriat səviyyəsi üzrə təqaüd alanların sayı**

| Tədris illəri (semestrləri) üzrə | Əlaçı təqaüdü | Həvəsləndirici təqaüd | Adi təqaüd | Gələcəyin müəllimi | Prezident təqaüdü |
|---|---|---|---|---|---|
| 2016/2017, payız | 543 | 2281 | 5617 | 460 | 17 |
| 2016/2017, yaz | 768 | 3089 | 4209 | 460 | 15 |
| 2017/2018, payız | 866 | 2256 | 5227 | 605 | 28 |
| 2017/2018, yaz | 733 | 2780 | 4387 | 605 | 25 |
| 2018/2019, payız | 829 | 2002 | 5364 | 597 | 34 |
| 2018/2019, yaz | 851 | 3356 | 5276 | 597 | 29 |
| 2019/2020, payız | 899 | 2642 | 6932 | 592 | 45 |
| 2019/2020, yaz | 963 | 3710 | 5654 | 592 | 46 |
| 2020/2021, payız | 4152 | 4252 | 4232 | 586 | 54 |

| | | | | | |
|---|---|---|---|---|---|
| 2020/2021, yaz | 5160 | 6041 | 2290 | 586 | 54 |
| 2021/2022, payız | 4107 | 5043 | 5217 | 548 | 56 |
| 2021/2022, yaz | 1401 | 4957 | 5446 | 548 | 55 |

**Magistr və doktoranlar sırasında təqaüd alanların sayı**

| Tədris illəri (semestrləri) üzrə | Əlaçı təqaüdü | Həvəsləndirici təqaüd | Adi təqaüd |
|---|---|---|---|
| 2016/2017, payız | 466 | 414 | 157 |
| 2016/2017, yaz | 312 | 177 | 561 |
| 2017/2018, payız | 559 | 328 | 112 |
| 2017/2018, yaz | 316 | 271 | 394 |
| 2018/2019, payız | 589 | 383 | 105 |
| 2018/2019, yaz | 253 | 218 | 443 |
| 2019/2020, payız | 527 | 425 | 152 |
| 2019/2020, yaz | 326 | 243 | 497 |
| 2020/2021, payız | 913 | 307 | 72 |
| 2020/2021, yaz | 472 | 72 | 632 |
| 2021/2022, payız | 707 | 530 | 174 |
| 2021/2022, yaz | 462 | 192 | 722 |

BDU-da təhsil müxtəlif kateqoriyalı tələbələrin ehtiyaclarını ödəməyə yönəlmiş akademik siyasətə əsaslanır. Tələbələrin təhsili dövlət sifarişi hesabına və ya ödənişli əsaslarla həyata keçirilir. Təhsil haqqı dövlət tərəfindən və ya tələbələrin özləri tərəfindən ödənilir. Dövlət sifarişli və ödənişli əsaslarla təhsil alan tələbələrin kontingenti Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 8 fevral tarixli 39 nömrəli Qərarı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının ali təhsil müəssisələrinə tələbə qəbulu Qaydaları”na uyğun olaraq abituriyentlərdən formalaşdırılır. Hər bir ixtisas üzrə dövlət sifarişi üzrə yerlərin sayı müvafiq dövlət orqanları tərəfindən müəyyən edilir. Bu yerlər üçün ən yüksək bal toplamış abituriyentlər seçilir və onlar dövlət sifarişi ilə hazırlanır. Dövlət sifarişi üzrə yerlərin kifayət qədər çox olması (hazırda bakalavriat səviyyəsi üzrə təqribən 67%) BDU-nun Respublikada yüksək səviyyəli kadr hazırlayan elm və təhsil mərkəzi olması ilə bağlıdır. Dövlət sifarişi ilə qəbul olunmuş təhsilalanlara təqaüd Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 5 fevral tarixli 38 nömrəli Qərarı ilə müəyyən edilmiş Qaydalara əsasən verilir.

### 3.9. Təhsil proqramlarının monitorinqi və yenilənməsi

BDU-nun təhsil proqramlarının məzmunu və quruluşu Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi tərəfindən təsdiq edilmiş “Ali təhsil pilləsinin Dövlət Standartları”na uyğundur və tədris planları, işçi tədris planları və tədris proqramları vasitəsilə həyata keçirilir. Universitetdə təhsil nəticələrinin effektivliyini artırmaq məqsədi ilə təhsil proqramlarının qiymətləndirilməsi və monitorinqinə, eləcə də bütün təhsil səviyyələri üzrə tədris planlarına kompleks yanaşma tətbiq edilir. Monitorinqin forması:

– təhsilalanlar, professor-müəllim heyəti, işəgötürənlər, digər maraqlı tərəflərlə şifahi sorğuların keçirilməsi;
– təhsilalanlar, professor müəllim heyəti, işəgötürənlər, digər maraqlı tərəflərlə anket sorğularının keçirilməsi;

– məzunların işədüzəlmələri üzrə statistikanın analizi;
– məzunlar və işəgötürənlərlə əks-əlaqə yaradılması.

Təhsil proqramlarının keyfiyyətinin qiymətləndirilməsi, tədris planlarının, seçmə fənlər kataloqunun, təhsilalanların fərdi tədris və iş planlarının, təhsilalanlar və işəgötürənlərlə anket sorğularının keçirilməsi nəticələrinin analizi əsasında aparılır. Bu tədbirlərin həyata keçirilməsi BDU-da təhsil proqramlarının monitorinqi mexanizminin olduğunu və bu sahədə fəaliyyətin planlı aparıldığını göstərir.

Təhsil proqramları üzrə təlimin nəticələri təhsilalanlarda əmək bazarında tələb olunan kompetensiyaların formalaşdırılması, ixtisas fəaliyyəti, təhsil prosesinin psixoloji-pedaqoji istiqamətinin təmin edilməsi, təhsilalanların sosiallaşmasını təmin edən şəxsi ixtisas və sosial inkişafı, şəxsiyyətdə ümumi mədəniyyətin formalaşmasıdır. Fakültələrdə akademik heyətin iştirakı ilə təhsil proqramlarının təlim nəticələri, eləcə də hər bir fənnin təlim nəticələri müəyyənləşdirilir və hər bir fənnin sillabusu hazırlanır. Təhsil proqramları üzrə təlim nəticələrinin əldə edilməsinə nəzarət akademik heyətlə sorğu, sənədlərin öyrənilməsi və müşahidələrin aparılması yolu ilə aparılır. Uyğunsuzluq aşkar olunduqda xəbərdaredici və korrektəedici tədbirlər görülür.

Təhsil proqramlarının monitorinqi və onların dövri olaraq qiymətləndirilməsi cəmiyyətin, işəgötürənlərin, təhsilalanların tələblərinə uyğun nəticələrinin əldə edilməsinə zəmanət verir. Monitorinqin və qiymətləndirmənin nəticələrinin əsasında təhsil proqramlarının daim yaxşılaşdırılması istiqamətində qərarlar qəbul edilir.

Keyfiyyətin təminatı və monitorinq şöbəsi, Tədris prosesinin təşkili şöbəsi fakültə dekanları və kafedralarla birgə ildə bir dəfə təhsil proqramlarının monitorinqi və özünüqiymətləndirilməsini aparır. Özünüqiymətləndirmə hesabatları fakültə Elmi Şuralarında müzakirə olunur və müvafiq qərarlar qəbul edilir.

BDU-da tədris olunan təhsil proqramları əmək bazarının və cəmiyyətin tələblərinə uyğun daim yenilənir.

### 3.10 Karyera xidməti və məzunlarla davamlı əlaqə sistemi

BDU-da Karyera və məzunlarla əlaqə sektoru fəaliyyət göstərir. Sektorun vəzifələrinə əməkdaşların, təhsilalanların və məzunların karyera planlaşdırılmasının və inkişafının təmin edilməsi, onlarla karyera inkişafı ilə əlaqədar maarifləndirici tədbirlərin təşkili və həyata keçirilməsi, müvafiq sahənin inkişafı ilə bağlı beynəlxalq təcrübənin öyrənilməsi və Universitet rəhbərliyinə təkliflərin işlənilib hazırlanması, Universiteti müxtəlif dövrlərdə bitirən və fərqlənən məzunların BDU-da işə cəlb olunması, onların mövcud potensial imkanlarından istifadə edilməsi, əmək bazarını və kadr hazırlığına qoyulan tələbləri öyrənməklə təhsil proqramlarının təkmilləşdirilməsinə və məqsədli kapital fondlarının yaradılmasına dair təkliflərin işlənilib hazırlanması və s. daxildir.

Karyera və məzunlarla əlaqə sektoru müntəzəm olaraq tələbələr üçün “CV-ni necə doldurmalı?”, “Özünü və bacarıqlarını necə təqdim etməli?” və s. mövzularda təlimlər keçirir, ölkənin tanınmış karyera planlanması üzrə mütəxəssislərinin, nüfuzlu şirkətlərinin təlim və təqdimatlarını, seminarlarını, iri dövlət və özəl şirkətlərin nümayəndələri ilə görüşləri təşkil edir.

Tələbə və məzunlara öz ixtisaslarına uyğun olaraq işə düzəlmə imkanları, şəxsi inkişaf proqramları barədə məsləhət xidmətləri göstərilir, işəgötürənlərlə məzunların görüşləri təşkil edilir.

BDU-da karyera sərgiləri təşkil olunur, ölkənin dövlət müəssisələri və nüfuzlu özəl şirkətləri sərgidə iş imkanları haqqında məlumat verir, tələbə və məzunlarla birbaşa əlaqə yaradırlar. Eləcə də digər universitetlərdə və təşkilatlarda keçirilən karyera sərgiləri haqqında tələbə və məzunlar məlumatlandırılır və onların sərgilərdə iştirakı təşviq edilir.

Universitet Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi ilə sıx əməkdaşlıq edir. Artıq Agentlik BDU məzunlarının işədüzəlmələrinə kömək edən işgüzar tərəfdaşa çevrilmişdir. Dövlət Məşğulluq Agentliyi əməkdaşlarının əsasən son təhsil ili tələbələri ilə görüşləri təşkil edilir, tələbələr vakant iş yerləri haqqında məlumat alırlar. Kadr seçimində maraqlı olan təşkilatların və müəssisələrin kadrlar üzrə məsul əməkdaşlarının dördüncü təhsil ili bakalavr və ikinci təhsil ili magistrantlarla görüşləri təşkil olunur, seçim üçün onların yekun Dövlət Attestasiyasında və magistr dissertasiyalarının müdafiəsində iştiraklarına şərait yaradılır.

Sektor Respublikada sənaye, biznes, kənd təsərrüfatı və digər sahələr üzrə vakant yerləri və iş elanlarını analiz edir, uyğun fakültələrin tələbələrinə vakant elanlarla əlaqədar məlumat verir.

BDU-da Karyera və məzunlarla əlaqə sektoru müntəzəm olaraq məzunların əmək bazarında fəaliyyətləri, karyera yüksəlişlərini izləyir. Zərurət yarandıqda müxtəlif təşkilatlarda çalışan məzunların BDU-nun elmi-tədqiqat laboratoriyalarından istifadəsinə imkan yaradılır. Professor-müəllim heyəti ilə onların məsləhətləşmələri əlaqələndirilir, iş prosesində lazım olan elmi-metodoloji tövsiyələrin verilməsi üçün şərait yaradılır.

Məzunların təhsil proqramı çərçivəsində əldə etdiyi səriştələrindən və təhsil proqramının keyfiyyət səviyyəsindən məmnunluğunun ölçülməsi anket sorğuları vasitəsilə həyata keçirilir. Həm məzunların, həm də işəgötürənlərin onlayn anket sorğularına verdikləri cavabların təhlili məzunların təhsil proqramı çərçivəsində əldə etdikləri səriştələrindən və təhsil proqramının keyfiyyət səviyyəsindən məmnunluğunu müəyyən etməyə imkan verir. Bu təhlillərin nəticələri uyğun kafedralarda və fakültələrdə müzakirə olunur, müvafiq qərarlar qəbul edilir. İxtisas müəllimləri və buraxılış kafedraları qəbul olunmuş qərarlarla məlumatlandırılır, bu istiqamətdə aparılan işlərə nəzarət edilir və monitoriqi aparılır.

Karyera və məzunlarla əlaqə sektoru fakültələr və Tələbə Gənclər Təşkilatı ilə birgə müntəzəm olaraq məzunlarla əlaqə saxlayır, onların işədüzəlmə vəziyyəti və vəzifələrində irəliləmələrini izləyir, onlar haqqında məlumatları yeniləyir. 2019-cu ildə BDU-nun məzunlarının 1-ci Beynəlxalq Forumu keçirilmişdir. Qarşıdan gələn illərdə növbəti forumların keçirilməsi planlaşdırılır.

## 4. ELMİ TƏDQİQAT

### 4.1 Elmi-tədqiqat strategiyası

BDU-nun Elmi Şurasının 2014-cü il 21 may tarixli iclasında (protokol № 4) qəbul edilmiş “Bakı Dövlət Universitetinin 2014-2020-ci illər üzrə Missiya və Strateji İnkişaf Planı”nda və “Bakı Dövlət Universitetinin 2014-2020-ci illər üzrə İnkişaf Proqramı”nda Universitetin elmi-tədqiqat istiqamətində strateji hədəfləri ilə bağlı müəyyən müddəalar öz əksini tapmışdır.

“Bakı Dövlət Universitetinin 2021-2030-cu illər üzrə elmi-tədqiqat Strategiyası” sənədi hazırlanmış (bundan sonra - Strategiya), BDU-nun Elmi Şurasının 2021-ci il 28 dekabr tarixli iclasının qərarı ilə (protokol № 12) təsdiq edilmişdir. Bu sənəd elmi tədqiqatın təşkili, həyata keçirilməsi, elmi nəticələrin tətbiqi və yayılması, aprobasiyası və təbliği, tədris prosesinə inteqrasiyası və elmi araşdırma sahəsində bacarıq, vərdiş və səriştələrin fasiləsiz olaraq inkişaf etdirilməsinin ümumi yanaşmalarını, əsas prinsiplərini və mexanizmini və s. əks etdirir.

Elmi tədqiqatın strategiyası BDU-nun strateji idarəedilməsinin tərkib hissəsidir və aşağıdakı digər sənədlərlə birgə baxılır: missiya, strateji inkişaf proqramı, akademik siyasət, universitetdə keyfiyyətin təmin olunması sahəsində siyasət və s. Strategiya elmi-tədqiqat, təlim və tədris arasındakı Universitetdaxili, ölkədaxili və beynəlxalq əlaqələri əks etdirir. O, BDU-nun bütün müvafiq struktur bölmələrinin iştirakını nəzərdə tutaraq həyata keçirilir və geniş ictimaiyyətə BDU-nun www.bsu.edu.az saytı və digər yollarla çatdırılır.

Strateqiya hazırlanarkən “Təhsil haqqında” Azərbaycan Respublikasının Qanunu; “Elm haqqında” Azərbaycan Respublikasının Qanunu**;** Azərbaycan Respublikasında Təhsilin İnkişafı üzrə Dövlət Strategiyası; Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi; 2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı; Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər; BDU-nun Nizamnaməsi; 2021-2030-cu illər üzrə BDU-nun Strateji İnkişaf Planı və digər müvafiq sənədlərdən istifadə edilmişdir.

Dövlətin elm siyasətinə uyğun olaraq, BDU elmi-tədqiqat fəaliyyətinə və innovasiyaların tətbiqinə cəmiyyətin və dövlətin maraqları çərçivəsində şəxsiyyətin hərtərəfli inkişafı üçün ölkənin elmi-tədqiqat və istehsalat müəssisələri ilə qarşılıqlı əlaqədə Universitet tərəfindən həyata keçirilən vahid proses kimi baxır, elmi tədqiqatların səmərəliliyini və yüksək keyfiyyətini ali təhsil müəssisəsinin fəaliyyətinin ən vacib prioritetlərindən biri hesab edir. BDU elmi-tədqiqat sahəsində siyasətinin formalaşmasını strateji idarəetmənin əsaslarından biri kimi nəzərdə tutur.

Elmi-tədqiqat strategiyası BDU-nun missiyasına və hədəflərinə tam uyğundur. Sənədin 2.2-ci bəndində göstərilmişdir ki, Strategiyanın missiyası “2021-2030-cu illər üzrə BDU-nun Strateji İnkişaf Planı”nda nəzərdə tutulmuş müddəaların həyata keçirilməsinə, xüsusilə bu planın elm və innovasiyalar istiqamətlərində müəyyən edilən hədəflərə nail olunmasına dəstək verməkdən ibarətdir.

Strategiyanın 1.3-cü bəndində qeyd olunur ki, “Strategiya prioritet istiqamətlər üzrə elmi-tədqiqatların səmərəliliyinin artırılması, uzun illər ərzində yaradılmış elmi məktəblərin qorunub saxlanılması və daha da inkişaf etdirilməsi ilə yanaşı yeni elmi məktəblərin formalaşdırılması, Universitetin elmmetrik göstəricilərinin yüksəldilməsi üzrə qarşılıqlı əlaqədə olan kompleks tədbirləri əhatə edir”.

Strategiyanın məqsədləri BDU-nun uzunmüddətli strateji inkişaf proqramının istiqamətlərinə uyğundur. BDU-nun uzunmüddətli strateji inkişaf proqramı aşağıdakıları nəzərdə tutur:

- davamlı akademik inkişaf;
- elm və innovasiyalar sahəsində gələcəyə baxış və mütəmadi olaraq yenilənən hədəflər;
- daim təkmilləşdirilən, qısa və uzunmüddətli sosiallıq və beynəlmiləlləşmə üzrə

fəaliyyət.

Sənədin 3.1-ci bəndində qeyd edilir ki, Strategiyanın və onun reallaşdırılması istiqamətində BDU-nun elmi və innovativ fəaliyyətinin əsas məqsədləri aşağıdakılardır:

- elm-təhsil-istehsalat inteqrasiyası, tədris prosesi ilə elmi tədqiqatın vəhdətinin təmin edilməsi, tədris prosesində tədqiqat komponentinin genişləndirilməsi əsasında ali təhsilli mütəxəssislərin və yüksək ixtisaslı elmi kadrların hazırlanma keyfiyyətinin davamlı olaraq yüksəldilməsi;
- BDU-da müasir standartlara uyğun innovativ elmi mühitin formalaşdırılması;
- BDU-nun elmi və elmi-pedaqoji potensialının inkişaf etdirilməsi;
- BDU-nun təşkilati strukturunun və elmi infrastrukturunun davamlı (daimi və ya vaxtaşırı) olaraq müasirləşdirilməsi;
- innovativ tədqiqat layihələrinin dəstəklənməsi üçün BDU-nun maddi-texniki bazasının genişləndirilməsi və modernləşdirilməsi;
- Respublikada elm, texnika və texnologiyanın inkişafının prioritet istiqamətləri çərçivəsində fundamental və tətbiqi tədqiqatların səmərəliliyinin artırılması;
- elmi-tədqiqat sahəsində BDU-nun yüksək rəqabətqabiliyyətliliyinin təmin ediməsi,
- elmi-tədqiqat işlərinin səviyyəsinin beynəlxalq səviyyəyə qaldırılması və beynəlxalq əməkdaşlığın təmin edilməsi;
- ölkənin davamlı sosial-iqtisadi inkişafına elmi dəstəyin verilməsi və s.

Göründüyü kimi, Strategiyanın məqsədləri BDU-nun uzunmüddətli strateji inkişaf proqramının istiqamətlərinə tam uyğundur.

Strategiyada elmi-tədqiqat fəaliyyətinin təlim və tədris prosesinə inteqrasiyası 1.2 və 1.5-ci bəndlərdə nəzərə alınnmışdır. Belə ki, 1.2-ci bənddə qeyd edilir ki, “Elmi-tədqiqat fəaliyyəti Universitetin inkişafının prioritet istiqamətlərindən biridir və mövcud kadr hazırlığı istiqamətində fundamental və tətbiqi tədqiqatlar əsasında təlim-tədris və tərbiyə prosesinin fasiləsiz təkmilləşdirilməsini təmin edir”. Strategiyanın 1.5-ci bəndində isə göstərilmişdir ki, “Strategiya elmi-tədqiqat, təlim və tədris arasındakı milli və Universitetdaxili əlaqələri əks etdirir”.

Strategiyanın 3.1-ci bəndinin 6-cı alt bəndində göstərilmişdir ki, “Respublikada elm, texnika və texnologiyanın inkişafının prioritet istiqamətləri çərçivəsində fundamental və tətbiqi tədqiqatların səmərəliliyinin artırılması” Strategiyanın əsas məqsədlərindəndir.

Strategiyada “2021-2030-cu illər üzrə BDU-nun Strateji İnkişaf Planı”na istinadən qeyd edildiyi kimi, BDU-nun elm-təhsil müəssisəsi kimi inkişafının ən mühüm hissəsi olan uğurlu elmi fəaliyyətin təşkili professor-müəllim heyəti və tədqiqatçıların bilik, bacarıq və tədqiqatçılıq səriştəsinə əsaslanır (5-ci bənd). Bu bənddə BDU-da aparılan elmi-tədqiqatların təşkilinin əsas istiqamətləri aşağıdakı kimi müəyyən edilmişdir:

- BDU-da akademik heyət, habelə tələbə, magistrant və doktorantların inkişafına təkan verən elm-təhsil ekosistemi və tədqiqatların aparılmasına şərait yaratmaq;
- beynəlxalq standartlara cavab verən və rəqabətədavamlı tədqiqatlar aparmaq;
- faydalı təcrübə qazanmaq məqsədi ilə mövcud elmi-tədqiqat institutlarını, mərkəzlərini və laboratoriyalarını yenidən qurmaq və dövrün tələblərinə uyğun olaraq yenilərini yaratmaq;

– Respublikanın və xarici ölkələrin yüksək reytinqli ali məktəb və tədqiqat mərkəzləri ilə, o cümlədən beynəlxalq elmi təşkilatlarla elm və innovasiyalar sahəsində sıx əlaqələr yaratmaq, yüksək səviyyəli beynəlxalq əməkdaşlıq və intensiv təcrübə mübadiləsi aparmaq.

Strategiyanın 6.1-ci bəndində göstərilir ki, BDU-da elmi-tədqiqatın əsas iştirakçılarından biri professor-müəllim heyəti və elmi işçilərdir. Sənədin 7-ci bəndində isə qeyd edilir ki, Strategiyada nəzərdə tutulan məqsədlərə nail olunması, tədqiqat fəaliyyətinin optimallaşdırılması və səmərəli idarə olunması üçün həlli vacib olan məsələlərdən biri "BDU-nun elmi və pedaqoji işçilərinin akademik mobilliyinin stimullaşdırılmasıdır (xarici elmi təcrübələr, xarici ölkələrin universitetlərində mühazirələr oxumaq və s.)".

Strategiyanın 7-ci bəndində elmi-tədqiqat sahəsində vəzifələrdən danışarkən professor-müəllim heyətinin nəşr fəaliyyətinin göstəricilərinin yüksəldilməsi, xarici dillərdə nəşrlərin və sitatların sayının artırılması, alimlərə, xüsusən gənc alimlərə dünyanın aparıcı ölkələrinin elmi müəssisələrində ixtisasartırma kursları keçmək və araşdırmalar aparmaq üçün imkanların yaradılması, beynəlxalq elmi əlaqələrin genişləndirilməsi, nüfuzlu xarici elmi mərkəzlərlə ortaq elmi-tədqiqat proqramlarının işlənilməsi, birgə tədqiqat laboratoriyalarının təşkil edilməsi, beynəlxalq elmi layihələrdə BDU alimlərinin iştirakının təmin edilməsi göstərilir.

Elmi-tədqiqat Strategiyasının hazırlanması üçün yaradılmış işçi qrupun tərkibinə aktiv elmi-tədqiqatla məşğul olan alimlər, gənc tədqiqatçılar da daxil edilmişdir. Strategiya kafedralarda, elmi-tədqiqat institutları və laboratoriyalarında, Gənc Alimlər Şurası və Tələbə Elmi Cəmiyyətlərində, həmçinin əməkdaşlıq əlaqələrinin mövcud olduğu bir sıra elmi-tədqiqat institutlarında və sənaye müəssisələrində müzakirə edilmişdir. Bu müzakirələrin irad və təklifləri fakültə və institut elmi şuraları tərəfindən ümumiləşdirilərək müvafiq struktur bölməsinə təqdim edilmişdir. Beləliklə, Strategiyanın hazırlanmasında bütün daxili və xarici maraqlı tərəflərin iştirakı təmin edilmişdir.

## 4.2 Tədqiqat resursları

Hesabat dövründə BDU-nun 16 fakültə, 120 kafedra, 2 elmi-tədqiqat institutu (ETİ), 7 elmi-tədqiqat mərkəzi (ETM), 21 elmi-tədqiqat laboratoriyası (ETL), müxtəlif xidmətlər göstərmək imkanına malik Elmi Kitabxana və tədris-təcrübə bazasında mövcud olan 1000-dən çox müxtəlif təyinatlı cihaz, material və avadanlıqlar (atom qüvvət və optik mikroskoplar, nüvə maqnit rezonansı, skanedici elektron mikroskopları, müxtəlif tipli rentgenstruktur difraktometrləri, spektroflüorimetrlər, müxtəlif dalğa uzunluğu oblastlarını əhatə edən spektrometrlər, kimyəvi reaktivlər, reaksiya avadanlıqları, bioloji inkubasiya kabinləri, mexaniki qurğular, maqnit və elektrik sahə cihazları, kalorimetrlər, termoqravimetrlər, temperatur və sahə ölçü cihazları, ekoloji tədqiqatlar üçün nəzərdə tutulmuş cihazlar, pH-metrlər, xromotoqraflar, ossilloqraflar və 400-dən çox texnoloji avadanlıqlar və ölçü cihazları və s.) BDU-nun əməkdaşları, tələbələri, magistrantları və doktorantları, həmçinin əməkdaşlıq çərçivəsində və Respublikanın elmi-tədqiqat institutları, ATM-lərinin və digər müvafiq qurumların əməkdaşlarının istifadəsində olmuşdur. BDU-nun elmi-tədqiqat institut, mərkəz, laboratoriyalarında və kafedralarda mövcud olan istiqamət və sahələr üzrə elmi tədqiqatlarda müxtəlif proqramlarla və internetə çıxışla təchiz olunmuş 1000-dən çox kompüter və İT avadanlıqlarından istifadə

edilmişdir.

Elmi tədqiqatların təşkilində Elmi Kitabxananın resurslarından səmərəli istifadə olunur. Elmi Kitabxanada:

- Kitabxana fondunda Azərbaycan, rus, Şərq və Avropa dillərində 2 milyon nüsxədən artıq çap məhsulu mövcuddur;
- 20000-dən çox elektron məhsul mövcuddur (http://elibrary.bsu.edu.az);
- Elektron kitabxana yenidən hazırlanır;
- BDU-da Clarivate Analitics şirkətinin Web of Scince bazasına və InCites qiymətləndirmə sisteminə açıq çıxış mövcuddur;
- BDU daxilindən EBSCO, IOP, BIONE, OED (Oxford Universitetinin nəşrləri), ALL-RUSSIAN MATEMATICAL PORTAL, Cambridge University Press Journal, Springer, Springer Nature və s. elektron bazalarına çıxış mövcuddur.

Elmi-tədqiqatlar elmi strukturlarla yanaşı, kafedralarda, kafedraların müxtəlif qurumlarda fəaliyyət göstərən 13 filialında, həmçinin Elm və Təhsil Nazirliyinin nəzdindəki Coğrafiya İnstitutu və Torpaqşünaslıq və Aqrokimya İnstitutunda yaradılmış Elm və tədris mərkəzlərində də aparılmışdır.

Son 2 il ərzində BDU-da Sənaye kimyası, Rəqəmsal araşdırmalar, Mikrobiologiya və virusologiya, Biomühəndislik, Kompleks geoloji və geofiziki tədqiqatlar, Astrokosmik və atmosfer tədqiqatları, Hüceyrə kulturası və genom redaktəsi kimi yeni sənaye yönümlü ETL-lər yaradılmış, maddi-texniki baza müasirləşdirilmiş və elmtutumlu avadanlıqlarla təchiz olunmuşdur.

Hazırda BDU-da Fizika Problemləri ETİ, Tətbiqi Riyaziyyat ETİ, bir sıra kafedralar, ETM-lər, ETL-lər, o cümlədən müasir cihaz və avadanlıqlarla təchiz edilən Tədqiqat, İnkişaf və İnnovasiyalar üzrə Mükəmməllik Mərkəzi kollektiv istifadə mərkəzləri kimi fəaliyyət göstərirlər. Bu qurumlarda bir sıra ali təhsil müəssisələri, Elm və Təhsil Nazirliyinin tabeliyindəki elmi-tədqiqat institutları ilə birgə tədqiqat işləri aparılmışdır.

BDU-nun büdcəsindən elmi-tədqiqat üçün ayrılan maliyə resurslarının illər üzrə bölgüsü (manatla) aşağıdakı kimidir:



2017-2022-ci illər ərzində BDU-nun əməkdaşları tərəfindən yerli və beynəlxalq donorlardan elmi-tədqiqat sahəsində ümumi dəyəri 10300000 manat təşkil edən 100-ə yaxın qrant alınmışdır. Təkcə 2021-ci ildə Universitetin əməkdaşları 22 (9 beynəlxalq və 13 respublikadaxili) elmi layihə həyata keçirmişlər.

Elmi-tədqiqat qrant layihələrinin sayı və layihələr üzrə maliyyə resurslarının illər üzrə bölğüsü (manatla) cədvəldə göstərilmişdir:

| **İllər** | **Layihələrin sayı** | **Layihələr üzrə maliyyə resursları (manatla)** |
|---|---|---|
| 2017 | 34 | 1766034 |
| 2018 | 37 | 1815909 |
| 2019 | 39 | 1983372 |
| 2020 | 38 | 2047152 |
| 2021 | 22 | 1647652 |
| 2022 | 21 | 1046902 |

2017-2022-ci illərdə BDU-da elmi-tədqiqatla məşğul olmuş professor-müəllim heyətinin illər üzrə say göstəricisi:




2017-2022-ci illərdə BDU-da elmi-tədqiqatla məşğul olmuş dosent və fəlsəfə doktorlarının illər üzrə say göstəricisi:



2017-2022-ci illərdə BDU-da elmi-tədqiqatla məşğul olmuş professor və elmlər doktorlarının illər üzrə say göstəricisi:




Elmi fəaliyyətin təşkili və innovasiyalar Mərkəzinin, Tədrisin təşkili və idarə edilməsi Mərkəzinin və Tələbələrin Elmi-Texniki Yaradıcılıq Mərkəzinin (TETYM), Gənc Alimlər Şurası və Tələbə Elmi Cəmiyyətlərinin birgə fəaliyyəti çərçivəsində tələbələrdə yaradıcılığın formalaşdırılması (kreativlik) üçün qeyri-standart tapşırıqların əməkdaşlıq və komanda şəklində həll olunması və öz fərdi biliklərini paylaşmaq bacarıqlarının aşılanması istiqamətində işlər aparılır, onlara elmi ideyaların reallaşdırılması, həllər və təcrübədə sınaqdan çıxarılması, patentləşdirilməsi, tanıdılması və tətbiqi istiqamətlərində elmi və pedaqoji yönümlü təlimlər keçirilir, tələbələr fərdi və ya qrup şəklində elmi seminarlara, müsabiqələrə, sərgilərə, elmi layihələrə, olimpiadalara, konfranslara, simpoziumlara, debatlara və forumlara cəlb olunur.




Yeni texnologiyaların transferi və gənc tədqiqatçılara onlarla işləmək bacarığının öyrədilməsi, sənayedə çalışan mütəxəssislərin tədrisə (ödənişli və könüllülük əsasında) cəlb olunması, dünyanın müxtəlif (ABŞ, İtaliya, Qazaxıstan, Ukrayna, Yaponiya,

Rumıniya, Almaniya, Macarıstan, Çex Respublikası və s.) ölkələrinin elmi-tədqiqat institutlarında və universitetlərində çalışan alim və mütəxəssislərin ustad dərsləri (master class), mühazirələri və elmi seminarları təşkil olunur (onlayn da daxil olmaqla), alınmış elmi nəticələrin əsasında məqalələrin tərtibatı və dərc olunması istiqamətində gənc tədqiqatçılar üçün müxtəlif seminarlar və təlimlər təşkil edilir.

Tələbələrdə təhsil-elm-innovasiya təfəkkürünün formalaşdırılmasında, tələbə ideyalarının həyata keçirilməsində inkubasiya mərkəzi olaraq Tələbə Elmi-Texniki Yaradıcılıq Mərkəzi fəaliyyət göstərir. Mərkəz fakültə Gənc Alimlər Şuraları və Tələbə Elmi Cəmiyyətləri ilə birgə çalışır. Proqramlaşdırma, elektronika, kimya, fizika və biologiya mühəndisliyi üzrə fəaliyyət göstərən dəknəklərdə tələbə ideyalarının reallaşdırılması və layihələrin hazırlanması üçün Mərkəz müxtəlif tipli cihaz, avadanlıq, məmulat və materiallarla, 3D-printerlərlə və s. ilə təchiz olunmuş, dərsdənkənar məşğələlərin aparılması üçün şərait yaradılmışdır. Müxtəlif astronomik hadisələrin müşahidə edilməsi üçün Mərkəzdə tələbələrin istifadəsində olan müasir teleskop mövcuddur. Maraqlı astronomik hadisələrin müşahidə edilməsində tələbələr və müxtəlif məktəblərin şagirdləri də iştirak edir.

İstedadlı, elmi tədqiqata və mühəndis-yaradıcılıq fəaliyyətinə marağı olan tələbələr Mərkəzə elektronika, mühəndislik, proqramlaşdırma və s. kimi sahələr üzrə STARTUP laliyəhələrin hazırlanmasına cəlb olunur. Hazırda Mərkəzdə elektronika üzrə dərnəkdə 80-dan çox, proqramlaşdırma üzrə dərnəkdə 100-dən çox və mühəndislik üzrə dərnəkdə isə 140-dan çox olmaqla, ümumilikdə 350-yə yaxın tələbə iştirak edir.

Mütəmadi olaraq təşkil edilən elmi seminarlar, ustad dərsləri, tələbələrin elmi konfranslara bilavasitə cəlb olunması, Tələbə Elmi-Texniki Yaradıcılıq Mərkəzi, fakültə Gənc Alimlər Şuraları və Tələbə Elmi Cəmiyyətləri tərəfindən aparılan təşviqat işləri tələbələr tərəfindən qazanılan qrant layihələrinin sayının artmasına, elmi fəaliyyətə maraqlarının artmasına səbəb olmuşdur.

2021-ci ilə qədər tələbələr əsasən BDU-da keçirilən elmi tədbirlərdə və yerinə yetirilən layihələrdə iştirak edirdisə, artıq hal-hazırda BDU-nun tələbələrdən ibarət komandaları elmi-tədqiqat və mühəndis-texniki layihələr hazırlaya və reallaşdıra bilirlər.

Artıq qısa müddət ərzində BDU tələbələri müxtəlif tipli müsabiqələrdə uğurlar əldə etmişlər.

2022-ci ildə “TeknoFest Azərbaycan - 2022” Festivalında BDU-nun tələbə və gənc tədqiqatçılardan ibarət 2 komandası qalib olmuşdur:

- SAP əsaslı hidrojeller və ağıllı suvarma sistemi; Aqrar Texnologiyalar üzrə II yer; Layihə rəhbəri: Kimya fakültəsinin 4-cü kurs tələbəsi İsa İsayev, 5 tələbə iştirakçı qismində;
- Triboelektrik nanogeneratorlar əsasında görmə və eşitmə əngəlli insanlar üçün sensorların hazırlanması; Sosial Yönümlü Texnologiyalar üzrə III yer; Layihə rəhbəri: Nanoaraşdırmalar ETL-in kiçik elmi işçisi, BDU-nun doktorantı Orxan Güləhmədov, 6 tələbə iştirakçı qismində.

2022-ci ildə Gənclər Fondunun “İdeyanı Reallaşdır - 2022” Qrant Müsabiqəsində BDU-nun tələbə və gənc tədqiqatçılardan ibarət 3 komandası qalib olmuşdur:

- Su mühitində müxtəlif çirkləndirici maddələrin parçalanması; Layihə rəhbəri: BDU-nun Tədqiqat, İnkişaf və İnnovasiyalar üzrə Mükəmməllik Mərkəzinin laborantı Reyhan Mirsultanova, 4 tələbə iştirakçı qismində;

– Hidrogellərin sintezi və ağıllı suvarma sistemi; Layihə rəhbəri: Kimya fakültəsinin 4-cü kurs tələbəsi İsa İsayev, 6 tələbə iştirakçı qismində;
– İnnovativ gənc mühəndislər; Layihə rəhbəri: Nanoaraşdırmalar ETL-in kiçik elmi işçisi, BDU-nun doktorantı Orxan Güləhmədov, 7 tələbə iştirakçı qismində.

BDU-nun gənc tədqiqatçılarının da iştirak etdikləri layihə Erasmus+ Jean Monnet proqramı üzrə müsabiqənin qalibi olmuşdur.

Hesabat dövründə BDU-nun 2 gənc tədqiqatçısı Gənclər üçün Prezident Mükafatı ilə təltif olunmuşdur:

– İsrayılova Aygün Əlimərdan qızı (27.01.2017), biologiya üzrə fəlsəfə doktoru, BDU-nun Tədqiqat, İnkişaf və İnnovasiyalar üzrə Mükəmməllik Mərkəzinin Mikrobiologiya və Virusologiya ETL-in böyük elmi işçisi, Biologiya fakültəsinin Molekulyar biologiya və biotexnologiyalar kafedrasının müəllimi;
– Hacıyeva Sərvinaz Faiq qızı (11.02.2020), BDU-nun Tədqiqat, İnkişaf və İnnovasiyalar üzrə Mükəmməllik Mərkəzinin Sənaye kimyası ETL-in elmi işçisi.

2023-cü ildə Türkiyədə keçiriləcək TeknoFest - 2023 Havacılık, Uzay ve Teknoloji Festivalına BDU-nun tələbə və gənc tədqiqatçılardan ibarət 16 komandası tərəfindən 46 layihə təqdim edilmiş və 8 komandanın 17 layihəsi müsabiqənin 2-ci mərhələsinə vəsiqə qazanmışdır.

Əmək bazarının tələblərinə uyğun yeni ixtisas və ixtisaslaşmaların yaradılması, dünyanın müxtəlif ölkələrinin (ABŞ, Almaniya, İsrail, Fransa, İsveçrə, Qazaxıstan, Özbəkistan) tanınmış universitet və institutları ilə birgə həyata keçirilən ikili diplom proqramları, BDU-da yaradılmış elmi infrastruktur və şəffaf mühit, tələbə və gənc tədqiqatçılara göstərilən qayğı BDU-nun magistraturasına qəbulun ilbəil artmasına səbəb olmuşdur. Belə ki, 2022-ci ildə magistraturada təhsil alanların sayı 2017-ci illə müqayisədə təqribən 1.4 dəfə artmışdır.




BDU-da birbaşa müqavilə əsasında Clarivate Analitics şirkətinin Web of Science bazasına və InCites qiymətləndirmə sisteminə açıq çıxışı mövcuddur.

BDU daxilindən EBSCO, IOP, BIONE, OED (Oxford Universitetinin nəşrləri), ALL-RUSSIAN MATEMATICAL PORTAL, Cambridge University Press Journal, Springer, Springer Nature və s. elektron bazalarına çıxış mövcuddur.

Hər il BDU-da elmi tədqiqatların dünya elminin prioritet istiqamətlərinə uyğun olaraq inkişafına xidmət edən, beynəlxalq səviyyədə BDU-nun reytinqinin yüksəlməsində rolu olan, Web of Science bazasına daxil olan impakt faktorlu elmi jurnallarda dərc olunmuş məqalə müəllifləri məqalənin dərc olunduğu jurnalın kvartil kateqoriyasına uyğun olaraq mükafatlandırılır.

İl ərzində aktiv elmi fəaliyyət göstərərək yüksək elmi nəticələrə nail olmuş, təsir (impakt) faktorlu, tanınmış bazalarda indekslənən nüfuzlu jurnallarda və nəşrlərdə dərc olunmuş elmi məqalələri və digər elmi əsərləri olan, elmi işlərinə istinad olunan, həmçinin yüksək elmi-təşkilati fəaliyyəti ilə fərqlənmiş BDU-nun əməkdaşlarını mükafatlandırmaq məqsədilə BDU əməkdaşları arasında hər il 27 Mart - Azərbaycan Respublikasında "Elm günü"nə həsr olunmuş "İlin alimi" müsabiqəsi keçirilir. Müsabiqə Elmi Şura tərəfindən qəbul olunmuş müəyyən olunmuş meyarlar əsasında təşkil olunur və müsabiqə üzrə qaliblər aşağıdakı nominasiyalar üzrə "İlin alimi" adını alır, diplom və pul mükafatları ilə təltif edilirlər: 1-ci yer: Təbiət və texnika elmləri üzrə – 1 nəfər (2 500 manat); Humanitar və ictimai elmlər üzrə – 1 nəfər (2 500 manat); 2-ci yer: Təbiət və texnika elmləri üzrə – 1 nəfər (1 500 manat); Humanitar və ictimai elmlər üzrə – 1 nəfər (1 500 manat); 3-ci yer: Təbiət və texnika elmləri üzrə – 1 nəfər (1 000 manat); Humanitar və ictimai elmlər üzrə – 1 nəfər (1 000 manat).

İl ərzində aktiv elmi fəaliyyət göstərərək yüksək elmi nəticələrə nail olmuş, təsir (impakt) faktorlu, tanınmış bazalarda indekslənən nüfuzlu jurnallarda və nəşrlərdə dərc olunmuş elmi məqalələri və digər elmi əsərləri olan, elmi işlərinə istinad olunan, həmçinin yüksək elmi-təşkilati fəaliyyəti ilə fərqlənmiş və yaşı 35-ə qədər olan BDU magistrant, doktorant və əməkdaşlarının mükafatlandırılması və elmi fəaliyyətinin stimullaşdırılması məqsədilə 2021-ci ildən başlayaraq hər il BDU-da "2 Fevral - Azərbaycan Gəncləri Günü"nə həsr olunmuş "İlin gənc alimi" nominasiyası üzrə müsabiqə keçirilir. Müsabiqə üzrə qaliblər "İlin gənc alimi" adını alır, BDU-nun döş nişanı, diplom və pul mükafatları ilə təltif edilirlər: Təbiət və texnika elmləri üzrə – 1 nəfər (2 000 manat); Humanitar və ictimai elmlər üzrə – 1 nəfər (2 000 manat).

http://bsu.edu.az/az/news/bdu_lin_gnc_alimi_nominasiyas_zr_msabiq_elan_edir

http://bsu.edu.az/az/news/bdu_lin_gnc_alimi_nominasiyas_zr_msabiq_elan_edir05012023102552

http://bsu.edu.az/az/news/elan_lin_gnc_alimi_nominasiyas_zr_msabiq

Digər tərəfdən qrant və müqavilə əsaslı layihələrdə iştirak edən əməkdaşlar, gənc tədqiqatçılar və tələbələr aylıq maaşa əlavələrlə təmin olunur və mütəmadi olaraq mükafatlandırılırlar.

BDU-da elmi nəticələrin kommersiyalaşdırılması, patetnlərin satışı və s. üzrə BUILD MMC yaradılmışdır. Mükəmməllik Mərkəzinin Rəqəmsal Araşdırmalar, Ekoloji kimya və ətraf mühit, Sənaye kimyası kimi laboratoriyalarında Müdafiə Sənayesi Nazirliyi, Agrodairy, BP-Azerbaijan, SOCAR kimi tanınmış şirkətlərin birbaşa sifarişləri əsasında müqavilə əsaslı layihələr yerinə yetirilir.

2017-2022-ci illərdə BDU-da yerinə yetirilmiş müqavilə əsaslı elmi-tədqiqat layihələrinin sayı və layihələr üzrə maliyyə resurslarının cəmi miqdarı 690000 manat olmuşdur:




Aşağıdakı diaqramda BDU-da 2017-2022-ci illər ərzində qrant və sənaye müəssisələri ilə bağlanılmış müqavilələr əsasında yerinə yetirilmiş layihələrdən illər üzrə əldə olunan gəlirlər  göstərilmişdir (manatla).




Diaqramdan göründüyü kimi, 2021-ci ildə sənayenin problemlərinin elmi-tədqiqat yolu ilə həlli üzrə BDU-nun gəlirləri 2017-ci illə müqayisədə 4 dəfə artmışdır.

Elmin müxtəlif istiqamətləri üzrə tanınmış alim və mütəxəssislərlə təcrübə mübadiləsinin aparılması, elmi nəticələrin kommersiyalaşdırılması, istehsalatda tətbiq edilməsi, habelə, təhsil, elm və texnologiya sahələrində əldə olunmuş ən son nailiyyətlərlə yaxından tanışlıq, mütəxəssislərin təcrübəsinin öyrənilməsi, gənc tədqiqatçıların elmi araşdırmalara təşviq edilməsi, elmi-tədqiqat işlərinin nəzəri və praktik cəhətdən əldə olunan mühüm nəticələrinin beynəlxalq səviyyədə müzakirə edilməsi (aprobasiyası), yeni innovativ prioritet istiqamətlərin müəyyən edilməsi və dünyanın müxtəlif elmi qurumları ilə qarşılıqlı əməkdaşlığın genişləndirilməsi, birgə elmi-tədqiqatların aparılması, problem mövzular üzrə birgə layihələrin işlənilməsi "Tədqiqat Universiteti" statusu əldə etmək mərhələsində olan BDU-nun strategiyasının əsas elementlərindəndir.

BDU-da əməkdaşların, gənc tədqiqatçıların və tələbələrin vaxtaşırı olaraq dünya miqyasında tanınmış universitetlərə, tədqiqat institutlarına və sənaye yönümlü elmi-tədqiqat mərkəzlərinə, beynəlxalq simpozium, konfrans və vorkşoplara ezamiyyələri təşkil olunur, BDU ilə belə elmi qurumlar arasında elm və təhsil istiqamətində əməkdaşlıq müqavilələri imzalanır, müxtəlif proqramlar (Erasmus+, Fulbright, Mövlanə) əsasında müəllim-tələbə mübadiləsi həyata keçirilir, BDU-da mütəmadi olaraq beynəlxalq konfranslar, ustad dərsləri, elmi seminarlar, təlimlər və s. təşkil olunur. Belə əlaqələr praktiki vərdişlərə malik istedadlı mütəxəssislərin sayının artmasına, innovativ təhsil proqramları və fəaliyyətlərinin çoxalmasına, elmi ideyaların kommersiyalaşdırılmasına kömək etməklə yanaşı, BDU elmi məktəblərinin davamlılığına və elmin kütləviləşdirilməsinə gətirib çıxarır.

2021-ci ildə elm sahəsindəki belə əməkdaşlıq əlaqələri 2017-ci ilə nisbətən 1,3 dəfə artmışdır.

2017-ci ildən 2022-ci ilədək BDU-nun əməkdaş, tələbə və doktorantlarının ümumilikdə 1240-dan çox ezamiyyəsi təşkil olunmuşdur. Ezamiyyətlər elmi tədbirlər, birgə-elmi tədqiqatlar, yeni cihazlar üzrə təlimlər, yay və ya qış elmi məktəbləri, birgə qrant layihələri üzrə işçi görüşlər, seminarlar, elmi istiqamət üzrə ixtisasartırma və s. kimi sahələri əhatə etmişdir.







İtaliya hökuməti tərəfindən xaricdə yaşayan İtaliya vətəndaşları və xarici vətəndaşlar üçün elan edilmiş 2022-23-cü illər üçün keçirilən qrant müsabiqəsində BDU-nun Tədqiqat, İnkişaf və İnnovasiyalar üzrə Mükəmməllik Mərkəzinin Nanoaraşdırmalar Laboratoriyasının gənc mütəxəssisi Qəhrəmanlı Lalə Rasim qızı qalib olmuşdur. Proqramda nəzərdə tutulan araşdırmanın İtaliyanın Milli Nüvə Fizikası İnstitutunun Frascati Laboratoriyasında (National Laboratory of Frascati (LNF) of the National Institute for Nuclear Physics) həyata keçirilməsi nəzərdə tutulur. Birölçülü nanonaqillərin və hibrid sistemlərin fotokataliz prosesində istifadəsinin effektivliyi qazanılan qrant mövzusunun əsasını təşkil edir.

BDU-nun Tədqiqat, İnkişaf və İnnovasiyalar üzrə Mükəmməllik Mərkəzinin Mikrobiologiya və virusologiya ETL-in gənc mütəxəssisi Aygün İsrayılova ABŞ Dövlət Departamentinin və Beynəlxalq Təhsil İnstitutunun (Institute of International Education) əməkdaşlığı ilə həyata keçirilən Fulbright Təqaüd Proqramının (Fulbright Visiting Scholar Program) 2023-cü il üçün Azərbaycan üzrə qalibi seçilmişdir. O, Fulbright proqramı çərçivəsində ABŞ-ın Emory Universitetinin Tibb fakültəsində elmi-tədqiqat işlərini davam etdirmək imkanı qazanmışdır.

Hal-hazırda BDU-da 200-ə yaxın doktorant və dissertanta ABŞ, Almaniya, Fransa, İspaniya, İtaliya, Yaponiya, Türkiyə, Portuqaliya, İsveç, Rusiya, Belarus, Ukrayna və s. kimi ölkələrin tanınmış alimləri 2-li rəhbərlik edir.

2017-2022-ci illər ərzində BDU əməkdaşlarının rəhbərliyi və ya iştirakı ilə 36 beynəlxaq qrant layihəsi yerinə yetirilmişdir. Bu layihələr çərçivəsində Türkiyə, Estoniya, Portuqaliya, Rusiya, İsveçrə, İngiltərə, Macarstan, Finlandiya, Almaniya, Qazaxstan, Litva, Niderland, Rumıniya, Turkmənistan, Danimarka, Yunanıstan, İtaliya, İspaniya Belarus, Çex Respublikası, Ukrayna və Özbəkistan alimləri ilə əməkdaşlıq edilmiş, elmi nəticələr üzrə nüfuzlu jurnallarda məqalələr dərc olunmuş, BDU-ya müxtəlif cihaz və avadanlıqlar alınmış, elmi-təcrübə ezamiyyətləri, tələbə-müəllim mübadiləsi və elmi tədbirlər təşkil olunmuşdur.

2017-2022-ci illər ərzində BDU-nun əməkdaşları, doktorantları və tələbələri tərəfindən Web of Science bazasına daxil olan nüfuzlu nəşrlərdə 1940 birgə elmi əsər dərc olunmuşdur.

24 ölkə üzrə əməkdaşlıq nəticələri aşağıdakı kimidir:




1940 birgə elmi əsərdən 1578 elmi əsər dünyanın 125 ölkəsindən olan 2249 universitet, instutut və mərkəzləri ilə əməkdaşlıq çərçivəsində dərc edilmişdir:



Bu əsərlərdən ən çoxu – 413 elmi əsər Türkiyə Respublikasının elmi qurumları ilə olan əməkdaşlığa aiddir. Əməkdaşlıq çərçivəsində birgə yerinə yetirilmiş beynəlxalq qrant layihələri əsasında 540 elmi məqalə və 8 kitab dərc olunmuşdur. Birgə aparılmış elmi-tədqiqatlar çərçivəsində dərc olunmuş məqalələrdən 71 məqalə icmal xarakterli və 148 məqalə isə konfrans materialıdır.




## 4.3 Elmi-tədqiqat fəaliyyəti




Elmi-tədqiqat fəaliyyətinin idarə edilməsi səmərəliliyinin artırılması üçün Elmi Şuranın 2019-cu il 09 oktyabr tarixli qərarı əsasında və rektorun müvafiq əmri ilə BDU-da Elmi fəaliyyətin təşkili və innovasiyalar Mərkəzi yaradılmışdır.

Mərkəz BDU-da elmi-tədqiqat işlərinin yerinə yetirilməsi (nəticələr, onların aprobasiyası, təhlili) haqqında məlumat toplayır, perspektiv mövzular və istiqamətlər barədə proqnozlar verir, mövzu və elmi-tədqiqat işlərinin plan üzrə icrasına nəzarət edir; alim və tədqiqatçılar haqqında məlumat bazası yaradır və yeniləyir; BDU-da fəaliyyət göstərən Dissertasiya Şuralarında müdafiə olunmuş dissertasiya işləri, çap olunmuş monoqrafiyalar, dərslik və dərs vəsaitləri, metodik vəsait və göstərişlər, məqalə, konfrans materialı və tezislər barədə statistik məlumatlar hazırlayır; dövlət proqramlarının, standartların, elmi fəaliyyət sahəsində ümumuniversitet tədqiqat proqramları, qrantlar və müqavilələrin yerinə yetirilməsinə inzibati rəhbərlik və icrasına nəzarət edir; keçirilən elmi tədbirləri təşkil edir, doktorantura proqramı üzrə yerinə yetirilən elmi işlərə, müxtəlif elm sahələri və ixtisaslar üzrə elmi və elmi-pedaqoji kadr hazırlığına, Tələbə Elmi Cəmiyyəti və Gənc Alimlər Şurasının fəaliyyətinə, tələbələrin elmi-tədqiqat işlərinə cəlb olunmalarına, tələbələrin elmi-tədqiqat bacarıqlarının inkişafına nəzarət edir; mühüm əhəmiyyətə malik tətbiqi və innovativ xarakterli elmi işlər və onların səmərəliliyi haqqında məlumatlar hazırlayır; elmi-texniki əməkdaşlıq sahəsində BDU-nun əlaqə saxladığı xarici dövlətlərin universitetləri, elm və istehsalat müəssisələri, birgə işlənilən elmi və innovativ problemlər və alınmış nəticələr, təcrübə mübadiləsi sahəsində görülən işlər, beynəlxalq konfrans, konqres və simpoziumlarda iştirak, beynəlxalq proqramlar üzrə material və təklifləri toplayır; BDU-nun əməkdaş və tələbələrinin elmi-tədqiqat sahəsində əldə etdiyi nəticələrin elmi sferada və iqtisadiyyatın real sektorunda tanıdılmasını təmin edir; BDU-da kommersiya yönümlü ideyaları və nəticələri məqsədyönlü axtarır və seçir; BDU-nun əməkdaş və tələbələrinin intellektual fəaliyyəti əsasında innovativ layihələri formalaşdırır və reallaşdırır; elmi-tədqiqat, təcrübi-konstruktor və dissertasiya işlərinin dövlət qeydiyyat qurumuna təqdim olunması üzrə zəruri hesabatları tərtib edir; əqli mülkiyyət hüququnun qorunması ilə bağlı işləri həyata keçirir; ixtira səviyyəsində olan elmi tədqiqatların Respublikada və xarici ölkələrdə qorunması işlərini təşkil edir, iddia sənədlərinin texniki ekspertizasını keçirir, baxılmağa və dövlət qeydiyyatına təqdim edir.

Mərkəzin tərkibində:

- Elmi-tədqiqatların təşkili və təhlili şöbəsi;
- Elmi-təşkilati şöbə;
- Texnologiyaların transferi və innovasiyalar şöbəsi;
- Magistratura və doktorantura şöbəsi;
- Əqli mülkiyyətin qorunması şöbəsi

fəaliyyət göstərir. Şöbələr öz fəaliyyətində SİP-i, "Bakı Dövlət Universitetinin 2021-2030-cu illər üzrə elmi-tədqiqat Strategiyası"nı və Strategiya əsasında hazırlanmış illik fəaliyyət planını əsas tutur.

Təbiət-dəqiq və humanitar-sosial elm sahələrində prioritet məsələləri və innovativ istiqamətləri müəyyənləşdirmək, doktorant, magistrant və tələbələri elmi araşdırmalara təşviq etmək, elmi-tədqiqat işlərinin nəzəri və praktik cəhətdən əldə olunan mühüm nəticələrini müzakirə etmək məqsədi ilə BDU-da mütəmadi olaraq universitetdaxili, respublika və beynəlxalq səviyyəli konfranslar, vorkşoplar, yay və qış elmi məktəbləri, elmi seminarlar və ustad mühazirələri təşkil olunur.

2017-2022-ci illər ərzində BDU-da ümumilikdə 359 konfrans (Respublika və beynəlxalq səviyyəli), 1488 elmi seminar və məktəb, 179 ustad mühazirəsi keçirilmişdir. 2017-2022-ci illər üçün statistika aşağıdakı kimidir:




2017-2022-ci illər ərzində BDU-da keçirilmiş konfransların illər üzrə statistikası:




Bir qayda olaraq beynəlxalq konfranslar üçün beynəlxalq standartlara cavab verən veb səhifələr yaradılır, məsələn:

http://mtp2021.bsu.edu.az/
http://coia-conf.org/en/
https://www.unoosa.org/oosa/en/ourwork/psa/schedule/2022/2022-iswi-workshop.html
http://acb2022.bsu.edu.az/
http://aos2022.bsu.edu.az/

Daxil olan məruzə və materiallara (tezis və məqalələrə) konfransların proqram komitələri tərəfindən rəylər verilir və BDU-da fəaliyyət göstərən antiplagiat komissiyası tərəfindən müvafiq proqram vəsitəsilə yoxlanılır. Konfrans və digər elmi tədbir materialları, bir qayda olaraq, konfrans öz işini yekunlaşdırdıqdan və məqalələr anonim rəydən keçirildikdən sonra nəşr olunur və paylanır. Bəzi konfranslarda məruzə olunmuş materiallar üzrə məqalələr BDU elmi jurnallarında da rəydən keçirilməklə dərc olunur.

Uzun müddətdir ki, BDU-nun təşkilatçılığı ilə keçirilən 2 beynəlxalq konfransın – Modern Trends In Physıcs (MTP) və International Conference on Control and Optimization with Industrial Applications (COIA) konfranslarının materialları Web of Science bazasında indekslənir.

Son dövrdə keçirilmiş bir sıra elmi tədbirlər haqqında məlumat aşağıda verilir.

Son illər Azərbaycanda kosmik tədqiqatların və kosmik sənayenin inkişafına, müasir texnologiyaların tətbiqinə xüsusi diqqət yetirilir və bu istiqamətdə kadr hazırlığı önəmli rol oynayır. Beynəlxalq Kosmik Hava Təşəbbüsü (The International Space Weather Initiative - ISWI) kosmik hava məlumatlarının əldə edilməsində zəruri sayılan cihazların quraşdırılmasına, həmin məlumatların təhlilinə və alınan nəticələrin digər rəqəmsal elmi məlumatlarla əlaqələndirilməklə analizinə xidmət edən beynəlxalq əməkdaşlıq proqramıdır. Bu proqram çərçivəsində 2022-ci il 31 oktyabr-4 noyabr tarixlərində BMT-nin Xarici Kosmos Məsələləri üzrə Ofisi (UNOOSA) və BDU tərəfindən keçirilmiş "Beynəlxalq Kosmik Hava Təşəbbüsü: Günəş, Kosmik Hava və Geosfer" BMT/Azərbaycan beynəlxalq tədbiri (United Nations/Azerbaijan Workshop on the International Space Weather Initiative: The Sun, Space Weather and Geosphere) Azərbaycanda adıçəkilən sahənin inkişafı üçün geniş imkanlar açmış, kosmik tədqiqatların və beynəlxalq əməkdaşlığın gücləndirilməsinə zəmin yaratmışdır. 65 ölkədən 281 alim və mütəxəssisin iştirak etdiyi tədbir üzrə hesabat BMT Baş Assambleyasının hesabatına daxil edilmişdir.
https://www.unoosa.org/oosa/en/ourwork/psa/schedule/2022/2022-iswi-workshop.html?testme

BDU tələbələrin və gənc tədqiqatçıların yeni texnoloji yeniliklərlə və ən son elmi nəticələrlə tanış olmalarına xüsusi önəm verir. Bu məqsədlə BDU-da dünyada tanınmış alim və mütəxəssislərin iştirakı ilə beynəlxalq yay və qış məktəbləri və təlimlər təşkil olunur. 2021-ci il 4-7 oktyabr tarixlərində Bakı Dövlət Universitetinin təşkilatçılığı və ICESCO-nun təşəbbüsü ilə "Cihazqayırma və tərsinə mühəndisliyin əsasları" üzrə təlim-seminar keçirilmişdir.
http://bsu.edu.az/az/news/bduda_icesconun_cihazqayrma_v_trsin_mhndisliyin_saslar_zr_birinci_seminar_balayb

Məqsəd cihazqayırmaya və tərsinə mühəndisliyə dair əsas ideyaları təqdim etmək, habelə müxtəlif növ sensorların istifadəsi, verilənlərin əldə edilməsi və emal edilməsi haqqında iştirakçıları məlumatlandırmaq olmuşdur. Təlimlərdə BDU tələbələri ilə yanaşı ADNSU, AzTU və BMU-nun tələbələri də cihazların işlənməsinin əsas komponentləri ilə tanış olmuş, eyni zamanda sensorlardan gələn siqnalları əldə etmək və mikronəzarətçilər vasitəsilə idarə etməyi öyrənmişdir.

2022-ci il 22 sentyabr - 4 oktyabr tarixlərində BDU və Almaniyanın "Volkswagen" Fondunun birgə təşkilatçılığı ilə keçirilmiş "Kvant elminin və texnologiyasının müasir meylləri: kvant materiallarından kvant informasiyasına qədər" mövzusunda Beynəlxalq Yay Məktəbində 12 ölkədən 40-dan çox magistrant, doktorant və gənc tədqiqatçı iştirak etmişdir. Tədbirin məqsədi müasir kvant elminin qabaqcıl ideyalarını, yeni nəticələrini, mövcud problemlərini və inkişaf perspektivlərini, kvant texnologiyalarında mümkün tətbiqlərini dinləyicilərə çatdırmaqdan ibarət olmuşdur. Əsasən Avropadan dəvət olunmuş 36 mühazirəçi tərəfindən oxunan mühazirələr kondensə olunmuş hal fizikasının əsasları və tətbiqi, aşağıölçülü materiallar və onların enerji çevrilmələrində tətbiqi, habelə, Dirak yarımmetalları, Mayorana fermionları, topoloji izolyatorlar, yeni ifratkeçirici materiallar,

kvant idarəetməsi və mühəndisliyi, kvant hesablamaları və modelləşdirilməsi, kvant rabitəsi və kriptoqrafiyası, kvant şəbəkələri və onların tətbiqi, kvant optikası və soyuq atomlar, kvant metrologiyası və zondlaması və digər müvafiq mövzuları əhatə etmişdir.

BDU təşkil edərək keçirdiyi bütün elmi tədbirlərdə (ölkədaxili, regional və beynəlxalq) Azərbaycanın digər ATM-lərinin və elmi-tədqiqat institutlarının və müxtəlif qurumların alim və gənc tədqiqatçılarının, mütəxəssislərinin iştirakını təmin edir.

2017-2022-ci illər ərzində BDU-da keçirilmiş 359 konfrans, 1488 elmi seminar və məktəb, 179 ustad mühazirəsində respublikadan və xarici ölkələrdən ümumilikdə 2860 nəfər iştirak etmişdir. İllər üzrə statistika aşağıdakı kimidir:




Sön dövrdə keçirilmiş bir sıra elmi-tədqiqat xarakterli konfranslarda, seminarlarda, məktəblərdə və s. tədbirlərdə digər müəssisə və ölkələrin tədqiqatçılarının iştirak (onlayn da daxil olmaqla) vəziyyəti haqqında aşağıda məlumat verilir.

2021-ci ildə keçirilmiş "Böyük Azərbaycan şairi Nizami Gəncəvi və Şərq-Qərb ədəbi-mədəni irsi" adlı beynəlxalq konfransda respublikadan və xarici ölkələrdən 118 nəfər, o cümlədən, Fırat Universitetinin rektoru, professor Fahrettin Göktaş, Tacikistan Respublikası Elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanasının direktoru Şodimuhamməd Sufizodə, Özbəkistan Respublikasının Cizzax Dövlət Pedaqoji İnstitutunun professoru Gülcaxon Cumanazarova, Türkiyə Cümhuriyyətinin Bilkənt Universitetinin professoru Rasim Özyürek, Kazan Dövlət Mədəniyyət İnstitutunun professoru Güzalya Həziyeva, Türkiyə Cümhuriyyətinin Akdeniz Universitetinin professoru Oğuzxan Qaraburqu iştirak etmişdir.

2021-ci ildə Bakı Dövlət Universitetinin, Almaniyanın Halle-Vittenberq Universiteti, Əl-Fərabi adına Qazax Milli Universiteti, Vilnüs Universiteti, Fransanın Lumiere Lyon-2 Universitetinin birgə təşkilatçılığı ilə keçirilmiş "XXI əsrin yeni çağırışları və hüquq sahəsində inkişafın müasir tendensiyaları" adlı beynəlxalq konfransda ölkəmizin tanınmış hüquqşünasları ilə yanaşı xarici dövlətlərin - Türkiyə, Almaniya, Fransa, Litva, Moldova, Rusiya, Belarus, Ukrayna, Qazaxıstan, Özbəkistanın nüfuzlu hüquqşünas-alimləri, o cümlədən, Ukraynanın Kiyev Hüquq Universitetinin rektoru Yuri Boşitski, Özbəkistanın Daşkənt Dövlət Hüquq Universitetinin rektoru İslambek Rüstəmbekov, Litvanın Vilnüs

Universitetinin Hüquq fakültəsinin dekanı Tomas Davilius, Türkiyənin Ankara Universitetinin Hüquq fakültəsinin dekanı Muhərrəm Özən, Qazaxıstanın Əl-Fərabi adına Qazax Milli Universitetinin Hüquq fakültəsinin dekanı Daulet Baydeldinov, Türkiyənin İstanbul Universitetinin Hüquq fakültəsinin dekanı Ömər Əkməkçi, Rusiyanın Kazan Federal Universitetinin Hüquq fakültəsinin dekanı Liliya Bakulina, Ukraynanın Kiyev Milli Aviasiya Universitetinin Hüquq fakültəsinin dekanı İrina Sopilko, Türkiyənin Bolu Abant İzzət Baysal Universitetinin Hüquq fakültəsinin dekanı Şabah Kayihan və Rusiyanın Moskva Dövlət Universitetinin professoru Anatoli Belkin iştirak etmişdir.

2021-ci ildə BDU və İsrailin Holon Texnologiya İnstitutunun birgə təşkilatçılığı ilə keçirilmiş "Qeyri-səlis məntiq və tətbiqləri" beynəlxalq konfransında İsrailin Holon Texnologiya İnstitutunun prezidenti, professor Eduard Yakubov, Microsoft şirkətinin Azərbaycan nümayəndəliyinin baş direktoru Qaçay Mirzəyev, Latviya Universitetinin professoru Aleksandr Sostak, Serbiyanın Nis Universitetinin professoru Ljubisa Koçinak iştirak etmişdir.

2021-ci ildə BDU, Birləşmiş Nüvə Tədqiqatları İnstitutu, İtaliyanın La Sapienza Universiteti, STAR-Net Nüvə Texnologiyaları üzrə Regional Təhsil və Təlim Şəbəkəsi və Macarıstanın Szeged Universitetinin birgə təşkilatçılığı ilə keçirilmiş "Fizikada müasir trendlər" beynəlxalq konfransında Respublikamızın ali təhsil müəssisələri və elmi təşkilatlarının nümayəndələri ilə yanaşı, ABŞ, Böyük Britaniya, Rusiya, İtaliya, Yaponiya, Polşa, Türkiyə, Pakistan, İran, Braziliya, Gürcüstan və digər ölkələrin qabaqcıl universitet və elmi-tədqiqat institutlarından 157 nəfər, o cümlədən Birləşmiş Nüvə Tədqiqatları İnstitutunun baş direktoru, akademik Qriqoriy Trubnikov, professor Sergey Dmitriyev, professor Aleksandr Çeplakov, STAR-Net Nüvə Texnologiyaları üzrə Regional Təhsil və Təlim Şəbəkəsinin vitse-prezidenti Andrey Timoşenko, Pakistanın Əbdül Vəli Xan adına Mardan Universitetinin (Abdul Wali Khan University Mardan) professoru Məhəmməd Ayaz, Böyük Britaniyanın Uorik Universitetinin professoru Valeri Nakaryakov, Türkiyənin Orta Doğu Texniki Universitetinin professou Əmdulla Mehrabov, Rusiyanın Moskva Fizika və Texnologiya İnstitutunun professoru Emil Əhmədov, ABŞ-ın Delaver Universitetinin professoru Seyid İsmət Şah iştirak etmişdir.

2022-ci ildə keçirilmiş "Kvant elminin və texnologiyasının müasir meylləri: kvant materiallarından kvant informasiyasına qədər" mövzusunda Beynəlxalq Yay Məktəbində və "Mərkəzi Asiya və Qafqazda Dinamika Günləri" adlı Beynəlxalq elmi konfransda müvafiq sahə üzrə dünya miqyasında tanınmış alim-mütəxəssislər – İman Əsgərbəyli (Ankara Universiteti, Türkiyə), Stephen Bartlett (Sidney Universiteti, Avstraliya), Karlo Beenakker (Leiden Universiteti, Hollandiya), Dagmar Bruss (Dusseldorf Universiteti, Almaniya), Giulio Kasati (Insubria Universiteti, İtaliya), Reinhold Egger (Dusseldorf Universiteti, Almaniya), Vladimir Falko (Milli Qrafen İnstitutu, Böyük Britaniya), Rosario Fazio (Əbdus Salam adına Beynəlxalq Nəzəri Fizika Mərkəzi, İtaliya), Yuval Gefen (Weizmann İnstitutu, İsrail), Ali Gencer (Ankara Universiteti, Türkiyə), George Caparidze (İlya Dövlət Universiteti, Gürcüstan), Mixail Kiselev (Əbdus Salam adına Beynəlxalq Nəzəri Fizika Mərkəzi, İtaliya), Boris Malomed (Tel-Əviv Universiteti, İsrail), Davron Matrasulov (Turin Politexnik Universiteti, Özbəkistan), Yasser Omar (Lissabon Universiteti, Portuqaliya), Feliks Von Oppen (Berlin Universiteti, Almaniya), Barri Sanders (Calgary Universiteti, Kanada), Diter Suter (Dortmund Texniki Universiteti, Almaniya) iştirak etmişdir.

2022-ci ildə BMT-nin Xarici Kosmos Məsələləri üzrə Ofisi (UNOOSA) və BDU tərəfindən keçirilmiş “Beynəlxalq Kosmik Hava Təşəbbüsü: Günəş, Kosmik Hava və Geosfer” üzrə BMT/Azərbaycan vörkşopunda dünyanın 65 ölkəsindən, 4 qitəsindən tanınmış alim və tədqiqatçılar, o cümlədən, ABŞ-ın Merilend Universitetinin professoru, kosmik tədqiqatlar sahəsində görkəmli alim, akademik Roald Saqdeyev, BMT-nin Xarici Kosmos Məsələləri üzrə Ofisinin səlahiyyətli nümayəndəsi Luc St-Pierre, NASA-nın əməkdaşı Natchimuthuk Gopalswamy iştirak etmişdir.

2017-2020-ci illərdə fakültə Tələbə Elmi Cəmiyyətlərinin, 2021-2022-ci illərdə isə BDU-nun Tələbə Elmi-Texniki Yaradıcılıq Mərkəzi və fakültə Tələbə Elmi Cəmiyyətlərinin birgə təşkilatçılığı ilə 78 elmi konfrans və 214 elmi seminar təşkil olunmuşdur. Bu konfranslarda Təşkilat Komitəsi bilavasitə tələbələrdən və Proqram Komitəsi isə professor-müəllim heyəti və elmi işçilərdən ibarət olmaqla formalaşdırılmışdır. Elmi-tədqiqat xarakterli konfranslarda, seminarlarda, görüşlərdə və s. tədbirlərdə gənc tələbə-tədqiqatçıların məruzələri dinlənilmişdir.

Elmi tədqiqatlara həvəsi olan tələbələr Tələbə Elmi-Texniki Yaradıcılıq Mərkəzinə dərsdənkənar məşğələlərə cəlb olunurlar. BDU-da keçirilmiş əksər konfranslarda gənclər Yerli Təşkilat Komitəsinin üzvü olmuş, bütün təşkilati məsələlərdə isə BDU tələbə könüllüləri bilavasitə iştirak etmişdir. Ümumi halda, BDU-da və digər qurumlarda keçirilmiş konfrans və elmi seminarlarda 8000-dən çox tələbə və gənc tədqiqatçı iştirak etmişdir. İllər üzrə statistika aşağıda verilmişdir:




2017-2022-ci illər ərzində BDU-nun əməkdaşları tərəfindən yerli və beynəlxalq donorlardan elmi-tədqiqat sahəsində 100-ə yaxın qrant alınmışdır. BDU əməkdaşlarının rəhbərliyi və ya iştirakı ilə 36 beynəlxaq qrant layihəsi yerinə yetirilmişdir.

Beynəlxaq qrant layihələrindən 6-sı - ümumi dəyəri 9000000 (doqquz milyon) manatdan çox olan Avropa Birliyi (FP7, HORIZON-2020, Erasmus+), 5-i ümumi dəyəri 2000000 (iki milyon) manata yaxın olan TÜBİTAK (TÜBİTAK, AMEA-TÜBİTAK, EİF/AEF-TÜBİTAK) və 5-i ümumi dəyəri 200000 (iki yüz min) manata yaxın olan Ukrayna Elm-Texnologiya Mərkəzi (STCU) və digərləti tərəfindən maliyyələşdirilmişdir. Bundan əlavə, Azərbaycan Elm Fondu (AEF) (EİF-Elmin İnkişafı Fondu) tərəfindən elan olunmuş Azərbaycan-Belarus və Azərbaycan-Rusiya qrant müsabiqəsinin, Avropa Nüvə Tədqiqatları Mərkəzinin (CERN), Almaniyanın DAAD proqramının, Halle-Vitterberq

Universitetinin, TEMPUS proqramının, BMT-nin Əhali Fondunun (UNFPA), Birləşmiş Nüvə Tədqiqatları Mərkəzinin, Abdus Salam adına Beynəlxalq Nəzəri Fizika Mərkəzinin (ICTP) və digərlərinin elan etdikləri qrant müsabiqələrinin qalibləri olmuş layihələr BDU-da yerinə yetirilmişdir.




Bir sıra layihələr haqqında aşağıda məlumat verilir.

### Applications and Game Design at partner universities (MAGnUS)

Layihə (2019-2023) Bolonya müddəalarına uyğun olaraq fənlərarası magistr proqramlarını tətbiq etməklə Azərbaycan və Rusiya universitetlərində İT məzunlarının məşğulluğunu və İT təhsilinin keyfiyyətini artırmaq məqsədi daşıyır. Layihənin spesifik məqsədləri bunlardır: Bolonya müddəalarına uyğun olaraq və Aİ-nin ən yaxşı təcrübəsini uyğunlaşdırmaqla, "Mobil tətbiqlər və Oyun dizaynı" üzrə yeni fənlərarası yüksək keyfiyyətli multi-track Master proqramını inkişaf etdirmək; müəllim heyətinin bacarıqlarını təkmilləşdirmək; Tələbə laboratoriyalarını yaratmaq. Layihə çərçivəsində BDU-da Rəqəmsal araşdırmalar ETL yaradılmışdır.

### New Courses in Geospatial Engineering for Climate Change Adaptation of Coastal Ecosystems

GEOCLIC (2021-2024) yeni texnologiyalardan istifadə edərək sahilyanı ekosistemlərin ekoloji təhlükəsizliyini təmin etmək üçün geoməkan texnologiyaları üzrə bakalavr, magistr və fəlsəfə doktoru kurikulumlarını modernləşdirməyi hədəfləyir: GEONETCast; GIS Proqram təminatı - ərazidə mövcud kurikulumların yenilənməsi və sahədəki yeni nailiyyətlərə uyğun olaraq yeni kurikulumların akkreditasiyası/sınanması vasitəsilə ILWIS və məsafədən zondlama və modelləşdirmə texnologiyaları; kurikulumların sınaqdan keçirilməsi və akkreditasiyası, nəticələrin yayılması.

### Innovative Training Center to support a 3rd cycle Advanced Education Course to face Environmental Emergency in Azerbaijan

Neft və qaz hasilatının davamlı artması, eyni vaxtda əlaqəli fəaliyyətlərin (məsələn, hasilat və nəqletmə) artan təsiri ilə birlikdə Qafqaz bölgəsində böyük çirklənməyə səbəb olmuşdur. Belə ərazilərin bərpası hazırda Azərbaycanda milli prioritetlərdəndir. Nəticə etibarı ilə ölkənin əsas ekoloji problemlərinin həlli üçün uyğun texnologiyaların

layihələndirilməsi və tətbiqi sahəsində bacarıqlı mütəxəssislərin hazırlanması aktualdır. ITACA layihəsi (2019-2023) universitet və sənaye arasında əlaqələrin möhkəmləndirilməsinə töhfə vermək üçün Aİ və yerli qurumların, eləcə də neft və qaz hasilatının ətraf mühitə təsiri sahəsində fəaliyyət göstərən müəssisələrin cəlbi ilə Təlim Mərkəzinin layihələndirilməsi və qurulmasını nəzərdə tutur.

Spectral Optimization: From Mathematics to Physics and Advanced Technology
Azərbaycan, Belarus, Çex Respublikası, Almaniya, Qazaxıstan, Ukrayna və Özbəkistanın universitetləri və tədqiqat təşkilatları arasında kadr mübadiləsi və birgə tədqiqat və təlimlərin təşkili Aİ tərəfindən maliyyələşdirilən SOMPATY layihəsinin (2020-2025) məqsədidir. Layihə iştirakçı tədqiqat institutlarının apardığı spektral optimallaşdırma və nanotexnologiyanın həyat elmləri və kvant mexanikasında tətbiqləri üzrə tədqiqatları əhatə edir.

Restructuring and development of doctoral studies in Azerbaijan in line with requirements of European higher education area
Nizami layihəsi (2015-2019) Azərbaycanda doktorantura təhsilinin müasirləşdirilməsi, elmi-tədqiqatlar və ali məktəblərin beynəlmiləlləşdirilməsinə həsr olunmuşdur. Layihə Azərbaycan universitetlərində Bolonya prosesi sənədləri çərçivəsində doktoranturanın təşkili qaydalarının və məzmununun, xüsusilə də elm və tədqiqat müddəalarının Avropa standartlarına uyğunluğunun təmin edilməsi baxımından yenidən təşkili məqsədini daşıyır.

BDU-da əqli mülkiyyət hüquqlarının qorunması, elmi nəticələrin patentləşdirilməsi və digər əlaqəli məsələlərin həlli məqsədilə Elmi fəaliyyətin təşkili və innovasiyalar Mərkəzində Əqli mülkiyyətin qorunması şöbəsi yaradılmışdır. Şöbə BDU-nun intellektual mülkiyyətinin qorunması işini təşkil edir, ixtiraçılıq, patent-lisenziya məsələlərinin tənzimlənməsi ilə məşğul olur, tətbiqi xarakterli elmi-tədqiqat işlərinin və işləmələrin perspektiv və cari planlarının hazırlanmasında iştirak edir, onların maliyyələşdirilməsi üçün təkliflər verir, ixtira səviyyəsində olan elmi tədqiqatların müəlliflik hüququnun Respublikada və xarici ölkələrdə qorunması işlərini təşkil edir, iddia sənədlərinin ilkin texniki ekspertizasını keçirir, baxılmağa və dövlət qeydiyyatına təqdim edir, elmi tədqiqatların patent qabiliyyəti məsələlərinə, həmçinin patent-lisenziya işinə dair informasiya hazırlayır və yayır.

2017-2022-ci illər ərzində BDU-da ümumilikdə, 49 elmi-tədqiqat nəticəsi üzrə patent əldə edilmişdir. Onlardan 3 patent beynəlxalq (Avrasiya) səviyyəlidir.

BDU-da texnologiyaların transferi və elmi nəticələrin kommersiyalaşdırılması işinin təşkili məqsədilə BUİLD MMC yaradılmışdır. BDU Mükəmməllik Mərkəzinin Rəqəmsal araşdırmalar, Ekoloji kimya və ətraf mühit, Sənaye kimyası laboratoriyalarında BP-Azerbaijan, SOCAR kimi iri sənaye şirkətlərinin birbaşa sifarişləri əsasında müqavilə əsaslı layihələr yerinə yetirilir.

BDU-da yaradılmış Elmi fəaliyyətin təşkili və innovasiyalar Mərkəzinin Elmi-təşkilati şöbəsi və BDU-nun Beynəlxalq əlaqələr şöbəsi birgə olaraq institusional əməkdaşlığı (milli və beynəlxalq səviyyədə birgə proqramların icrası və s.), birgə təşəbbüsləri (birgə tədqiqat

mərkəzlərinin yaradılması və s.) təşviq edən səmərəli mexanizmlər işləyib hazırlayır və həyata keçirilməsi üçün müvafiq təkliflər verirlər.

BDU-da müəllim-tələbə mübadiləsi Türkiyə universitetləri ilə Mövlanə proqramı, ABŞ ilə Fulbright və Almaniya, Polşa, Rumıniya, İspaniya, İtaliya, Türkiyə, Portuqaliya və digər Avropa ölkələrinin universitetləri ilə Avropa İttifaqı tərəfindən maliyyələşdirilən Erasmus+ mübadilə proqramı vasitəsilə həyata keçirilir.

Erasmus+ proqramı çərçivəsində 2017-2021-ci illər ərzində BDU-nun 182 əməkdaş və gənc tədqiqatçılarının birgə tədqiqat aparmaları üçün Türkiyənin Yıldız Teknik, Sivas, Orta Doğu Teknik, Cumhuriyyet, Hacettepe, Eskişehir Teknik, İngiltərənin Keele, İtaliyanın Pavia və Roma La Sapienza, Fransanın Montpellier, Çex Respublikasının Masaryk və Karlova, Almaniyanın Berlin Humbolt, Estoniyanın Tartu, İsveçin Linköping, Polşanın Rzeszow, Rumıniyanın Alexandru İoan Cuza və Cluj-Napoca Kənd Təsərrüfatı Elmləri və Baytarlıq Tibb universitetlərinə qısa və uzunmüddətli ezamiyyətləri təşkil olunmuşdur. Aşağıdakı şəkildə illər üzrə statistika verilir.




BDU tərəfdaş kimi MAGnUS layihəsində iştirak edir. Ali təhsil sahəsində potensialın artırılmasına xidmət edən bu layihə çərçivəsində BDU-da "Mobil tətbiqlər və Oyun dizaynı" ixtisası üzrə tədrisin keyfiyyətinin yüksəldilməsi məqsədi ilə müasir standartlara cavab verən laboratoriya qurulmuşdur. Layihədə BDU ilə yanaşı Derbi Universiteti (Birləşmiş Krallıq), Tomar Politexnik İnstitutu (Portuqaliya), Tallin Universiteti (Estoniya), Cənub Federal Universiteti (RF), Həştərxan Dövlət Universiteti (RF), Voronej Dövlət Universiteti (RF), BMU (Azərbaycan) və ADNSU (Azərbaycan) iştirak edir.

"Azərbaycanda ekoloji xarakterli fövqəladə hallar üzrə 3-cü dövr yeni magistratura səviyyəsini dəstəkləyən İnnovativ Təlim Mərkəzi - İTACA" adlı qrant layihəsi İtaliyanın La Sapienza Universitetinin koordinatorluğu ilə həyata keçirilir. GEOCLIC layihəsi üzrə BDU-nun Coğrafiya fakültəsinin Hidrometeorologiya kafedrasının əməkdaşları Avropa İttifaqının ERASMUS+ proqramı çərçivəsində "Sahil ekosistemlərinin iqlim dəyişikliyinə uyğunlaşması üçün geoməkan mühəndisliyi üzrə yeni kurslar" adlı layihədə iştirak etmişdir. 2020-2023-cü illərdə icra edilməsi nəzərdə tutulan layihədə Azərbaycan, Qazaxıstan, Türkmənistan, Almaniya, Rumıniya, Litva və Niderland Krallığının universitetləri tərəfdaş kimi iştirak edir.

BDU aşağıdakı beynəlxalq elmi-tədqiqat, təlim, tədris şəbəkə və assosiasiyalarının üzvüdür:

- MDB ölkələrinin Nanotexnologiya Beynəlxalq İnnovasiya Mərkəzi;
- Nüvə Texnologiyası Sahəsində Təhsilin və Kadr Hazırlığının Təşkili Regional Şəbəkəsi (STAR-Net);
- Avropa Universitetləri Assosiasiyasının Tədqiqat və İnnovasiya Strategiyası Qrupu (RISG);
- Sosial İş Məktəblərinin Beynəlxalq Assosiasiyası.

BDU həmçinin Kitabxanalar üçün Elektron İnformasiya Beynəlxalq Konsorsiumunda (EİFL.net) təmsil olunan Azərbaycan Kitabxana İnformasiya Konsorsiumunun (Az.KİK) respublika üzrə koordinatorudur.

Yeni beynəlxalq kafedra, institut və mərkəzlərin açılmasına yönələn fəaliyyət BDU-nun inkişaf startegiyasına uyğun şəkildə mütəmadi olaraq davam etdirilir. Hazırda BDU-da Hüquq fakültəsində İnsan hüquqları və informasiya hüququ UNESCO kafedrası və Biologiya fakültəsində Biotibbi materiallar ICESCO kafedrası fəaliyyət göstərir.

Multidissiplinar elmlər sırasına daxil olan biotibb - kimya, biologiya və fizikanın müxtəlif sahələrini əlaqələndirən və daha çox tətbiq tapan elm sahələrindən biridir. Bu istiqamət BDU-nun təbiət elmləri sahəsində əsas 5 prioritetindən biridir. Biotibbi materiallar kafedrasının yaradılmasında məqsəd sənaye və akademik ictimaiyyət arasında əlaqələri, təhsil-elm-sənaye üçlüyünün qarşılıqlı inteqrasiyasını inkişaf etdirmək, tələbə və gənc alimləri biotibbi materialların tətbiqi ilə bağlı tədqiqatlara cəlb etmək, həmçinin bu sahədə beynəlxalq əməkdaşlığı genişləndirməkdir. Kafedrada akademik heyətlə sənayedən olan mütəxəssislərin birgə əməkdaşlığı tibbin müxtəlif sahələri üçün perspektiv sayılan nanomodifikasiya olunmuş materialların laboratoriyadan istehsalata kliniki transferinin məqsədyönlü şəkildə asan həyata keçirilməsinə şərait yaradır. Beynəlxalq fənlərarası bu şəbəkənin yaradılması yolu ilə nanosistemlərin ilkin dizaynının hazırlanması, effektivliyinin klinikadan əvvəlki sınaqlarının aparılması, farmakokinetika və toksikliyinin müəyyən edilməsinə nail olunması qarşıya qoyulan məqsədlərdəndir. Kafedranın yaradılması təkcə Azərbaycanda deyil, bütün İslam dünyasında biotibb elminin inkişafına təkan verəcəkdir. Kafedra biotibbi materiallar üzərində tədqiqat işlərinin aparılmasına, ICESCO-ya üzv dövlətlərdən olan tələbə və gənc alimlərin bu araşdırmalara cəlb edilməsinə və müxtəlif ölkələrlə bu sahədə əməkdaşlığın qurulmasına yardım göstərir.

İnsan hüquqları və informasiya hüququ UNESCO kafedrasında “İnsan hüquqları” fənni bakalavr səviyyəsində Hüquq, Beynəlxalq münasibətlər və iqtisadiyyat, Sosial elmlər və psixologiya və digər fakültələrdə tədris olunur. Magistratura pilləsində “İnsan hüquqları”, “Beynəlxalq hüquq”, “Transmilli cinayət hüququ” ixtisaslaşmalarında tədris həyata keçirilir.

Hesabat dövründə BDU-nun 16 fakültə, 120 kafedra, Fizika Problemləri ETİ və Tətbiqi Riyaziyyat ETİ, 7 ETM və 21 elmi-tədqiqat laboratoriyasında təbiət-dəqiq və humanitar-sosial elm sahələrinin aşağıdakı şəkillərdə göstərilən müxtəlif istiqamətlərində aparılmış işlər üzrə 13117 məqalə, 6887 konfrans materialı, 1358 proqram, 564 dərs vəsaiti, 295 dərslik, 249 kitab, 253 monoqrafiya və 149 metodiki göstəriş dərc olunmuşdur.




Elmi-tədqiqat mövzuları üzrə alınmış nəticələr dərslik, dərs vəsaiti, monoqrafiyalarda öz əksini tapmış, mövzular üzrə bakalavriat səviyyəsində təhsil alan tələbələr buraxılış işi formasında, magistratura səviyyəsində isə magistr dissertasiyaları formasında verilmişdir. Buraxılış işlərinin və xüsusilə də magistr dissertasiyalarının bilavasitə Tədqiqat, İnkişaf və İnnovasiyalar üzrə Mükəmməllik Mərkəzinin elmi-tədqiqat laboratoriyalarında, elmi tədqiqat institutlarında və fakültələrin nəzdində fəaliyyət göstərən laboratoriyalarda yerinə yetirilməsi təhsil-elm-istehsalat inteqrasiyasının gücləndirilməsi ilə təhsilalanlarda nəzəri biliklərin möhkəmlənməsinə, praktiki vərdişlərin aşılanmasına və elmi-tədqiqat mövzuları üzrə alınmış nəticələrin mənimsənilməsi və tətbiqinə şərait yaradır.

2017-2022-ci illərdə yerinə yetirilmiş elmi-tədqiqat işləri və mövzuların illər üzrə statistikası aşağıdakı kimidir:




2017-2022-ci illərdə dərc olunmuş nəşrlərin illər üzrə statistikası aşağıdakı kimidir:




BDU-nun əsas məqsədlərindən biri də gənc tədqiqatçılarda, magistrant və tələbələrdə elmi-tədqiqat aparmaq bacarığının inkişaf etdirilməsi, alınmış nəticələrin məruzə edilməsi və məqalə yazmaq bacarığının aşılanmasıdır. Bunun üçün fakültə Tələbə Elmi Cəmiyyətlərinin təşkil etdiyi konfrans və seminarlarda, tematik klublarda tələbələrin və gənc tədqiqatçıların məruzələri professor-müəllim heyəti tərəfindən dinlənilir, müzakirələr aparılır və materialların məqalə şəklində yazılaraq dərc olunması üzrə metodiki köməklik göstərilir.

BDU-da müasir avadanlıqlarla və peşəkar işçi heyətlə təmin olunmuş "Bakı Universiteti" Nəşriyyatı və BDU Mətbəəsi fəaliyyət göstərir. BDU-nun təsisçisi olduğu elmi jurnallar, professor-müəllim heyətinin müvafiq qaydalara uyğun olaraq hazırladıqları və

BDU-nun Elmi Şurası tərəfindən çapına icazə verilən (qrifi olan) dərslik, dərs vəsaiti, metodiki göstərişlər, monoqrafiyalar, bakalavriat buraxılış işləri, magistr və doktorluq dissertasiya işləri və onların avtoreferatları Mətbəədə BDU üzrə müəyyən olunmuş vahid standartlara və digər müvafiq standartlara uyğun olaraq nəşr olunur.

BDU-nun tələbə, doktorant və əməkdaşlarının ingilis dili üzrə danışıq və yazı bacarıqlarının inkişaf etdirilməsi, elmi əsərlərin (məqalə, monoqrafiya) ingilis dilinə tərcüməsində köməklik göstərilməsi məqsədilə BDU-da "dövlət-özəl tərəfdaşlığı" (PPP) çərçivəsində "You will speak" Dil Mərkəzi fəaliyyət göstərir. Mərkəzdə tələbə və əməkdaşlar üçün ödənişsiz "Conversation Club" və seminarlar da təşkil olunur.

Bununla yanaşı, BDU tanınmış "Clarivate Analytics" şirkəti ilə əlaqələrini genişləndirərək əməkdaşlar və gənc tədqiqatçılar üçün şirkətin ekspertlərinin "Web of Science" informasiya bazasının imkanlarından istifadə metodları və indekslənən beynəlxalq jurnallarda məqalələr üçün qoyulan tələblər, axtarışın səmərəli aparılması, ən nüfuzlu jurnalların və yüksək istinadlı məqalələrin axtarılıb tapılması, jurnallarda çap olunacaq məqalələrin tərtib və təqdimetmə qaydaları, idarəetmə və təhliletmə aləti olan "İnCites" sistemindən istifadə imkanları, elmi məqalələr qarşısına qoyulan tələblər, seçim meyarları, yırtıcı jurnallarla bağlı problemlər, elmi məhsuldarlıqla əlaqədar digər göstəricilər və s. üzrə seminar və təlimlərini təşkil edir.

Hesabat dövründə "Clarivate Analytics" şirkətinin nümayəndələri tərəfindən "Beynəlxalq elmi jurnalların axtarıb tapılması və onlarda nəşr olunmağın yolları", "Beynəlxalq elmi jurnallarda məqalələrin yazılmasına dair tövsiyələr" və "Yırtıcı jurnallarla mübarizə" mövzularında bir neçə dəfə təlimlər keçirilmişdir.

Bakı Dövlət Universiteti professor-müəllim heyətinin və elmi işçilərin, xüsusilə gənc tədqiqatçıların elmi-tədqiqat materiallarını ölkədə və xaricdə dərc etdirilməsinə geniş imkanlar yaradır.

Hal-hazırda BDU-da təbiət-dəqiq və humanitar-sosial elm sahələrini əhatə edən 21 jurnal nəşr olunur.

"Bakı Dövlət Universitetinin xəbərləri"nin ilk yarımcildi 1921-ci ildə işıq üzü görmüşdür. Sonralar jurnal müxtəlif adlarla (Известия Бакинского Университета, Труды, Ученые записки, Тематический сборник, Xəbərlər) və müxtəlif sahələri əhatə etməklə nəşr edilmişdir. Yenidən həmin adla (Bakı Universitetinin Xəbərləri) jurnal 1992-ci ildən 4 seriyada nəşr olunur.

BDU-nun elmi prioritetlərinə uyğun olaraq yeni 5 jurnal – Baku State University Journal of Physics and Space Sciences, Baku State University Journal of Earth Sciences and Environment, Baku State University Journal of Chemistry and Materials Science, Baku State University Journal of Life Sciences and Biology, Baku State University Journal of Mathematics and Computer Sciences və Baku State University Journal of Oriental Studies təsis olunmuş, Azırbaycan Respublikası Ədliyyə Nazirliyində qeydiyyatdan keçirilmişdir. Jurnalların nəşri üzrə beynəlxaq standartlara uyğun (məqalələrin elektron qaydada qəbulu, rəyə göndərilmə və s.) veb səhifələri hazırlanmışdır. Jurnallar 2023-cü ildən başlayaraq nəşr olunacaqdır. Jurnalların beynəlxalq redaksiya şuraları formalaşdırılmışdır.




BDU-nun həmtəsisçiliyi ilə dərc edilən və Web of Science Core Collection bazasında ən yüksək - Q1 kvartil kateqoriyalı jurnallar siyahısında yer alan “Applied and Computational Mathematics” jurnalı dünyada tətbiqi riyaziyyat kateqoriyası üzrə 267 beynəlxalq nəşr arasında 4-cü yerdə qərarlaşıb.

BDU-nun “Science Citation Index Expanded” (SCIE) bazasında indekslənən “TWMS Journal Pure and Applied Mathematics” jurnalı “Riyaziyyat” kateqoriyasında 330 beynəlxalq nəşr arasında 43-cü yerdə, Q1 kvartil kateqoriyalı və “Tətbiqi riyaziyyat” kateqoriyasında 265 beynəlxalq nəşr arasında 84-cü yerdə qərarlaşaraq Q2 kvartil kateqoriyalı jurnallar siyahısına daxil olmuşdur.

BDU-nun əsas məqsədlərindən biri də təkcə beynəlxalq bazalarda dərc olunan məqalələrin sayının artırılması deyil, həmçinin, aparılan elmi-tədqiqatların prioritet istiqamətlərini müəyyən etməklə dünyada elmi meyillərə uyğun problem mövzular üzrə tədqiqatların genişləndirilməsi, tətbiq yönümlü və multidissiplinar tədqiqatlara üstünlük verilməsini, alınan nəticələrin dürüstlüyünün təmin edilməsi və əldə olunmuş nəticələrin kvartil (Q) kateqoriyası yüksək olan jurnalların tələblərinə uyğun hazırlanmasını və s. təmin etməkdir. Hesabat dövründə keçirilmiş təlimlər, elmi fəaliyyətin təşkili üzrə aparılmış işlər “Web of Science” bazasında BDU alimləri tərəfindən dərc olunan məqalələrin sayının artması ilə bərabər, onlara istinadların da sayının artmasına gətirib çıxarmışdır. Dərc olunmuş elmi əsərlərə 2022-ci ildə edilmiş istinadlar 2017-ci illə müqayisədə 4 dəfə artmışdır. Bu da öz növbəsində həm BDU-nun Hirş indeksinin (hal-hazırda 54-dür), həm də elmi əsər müəlliflərinin Hirş indeksinin artmasına gətirib çıxarmışdır.

https://www.webofscience.com/wos/woscc/citation-report/1ec6c4c0-cd2c-421d-97f4-70db6f6bf4ea-6b66ca7c

2017-2022-ci illərə Web of Science” bazasına daxil olan elmi nəşrlərdə BDU alimləri tərəfindən dərc olunmuş elmi əsərlərə istinadların illər üzrə statistikası aşağıdakı qrafikdə göstərilmişdir:




Web of Science bazası üzrə Hirş indeksi 2-dən yuxarı olan BDU-nun əməkdaş və doktorantlarının sayı aşağıdakı kimidir:




Mövcud qanunvericilikdə doktoranturanın əyani, qiyabi və dissertant təhsil formalarında fənlərin tədrisi nəzərdə tutulmamışdır.

Magistratura səviyyəsində mövcud tədris planlarında 1-ci tədris ilində ümumnəzəri və praktik fənlər tədris olunur. 2-ci tədris ilində isə ixtisas və tədqiqat yönümlü fənlərin tədrisi aparılır. Tədris planında bu istiqamət üzrə fənlərin sayı fənlərin ümumi sayının 25%-ni təşkil edir. Bundan əlavə, magistratura səviyyəsində elmi-tədqiqat təcrübəsi təşkil olunur. 2 həftə ərzində magistrantlar ixtisas istiqamətlərinə uyğun olaraq elmi institutlara və elmi müəssisələrə təcrübə keçmək və dissertasiya mövzusu üzrə tədqiqatlar aparmaq üçün göndərilir.

BDU-da elmi fəaliyyətin təkmilləşdirilməsi məqsədilə aşağıdakı işlər görülür:

- akademik heyətin tədqiqat və inkişaf bacarıqlarının inkişaf etdirilməsi üçün bütün fakültələrdə, kafedralarda, institut, mərkəz və laboratoriyalarda mütəmadi olaraq təlimlər, elmi seminarlar keçirilir, dissertasiya işlərinin mövzusunun seçilməsi, dissertasiya işi və elmi-tədqiqat nəticələri üzrə müzakirələr təşkil olunur;
- Elmi fəaliyyətin təşkili və innovasiyalar Mərkəzi tərəfindən professor-müəllim heyəti və gənc tədqiqatçılar üçün tədqiqat cihazlarından istifadə, təcrübə aparmaq, nəticələrin təhlili üzrə seminar və təlimlər təşkil olunur;
- vaxtaşırı olaraq akademik heyət Respublikanın və dünyanın müxtəlif ölkələrinin elmi qurumlarına elmi ezamiyyətlərə göndərilir;
- Respublikada fəaliyyət göstərən istehsalat və sənaye müəssisələrinin elmi araşdırmalar yolu ilə həll edilə biləcək problemləri üzrə müzakirələr təşkil olunur;
- dünyanın müxtəlif (ABŞ, İtaliya, Qazaxıstan, Ukrayna, Yaponiya, Rumıniya, Almaniya, Macarıstan, Çex Respublikası  və s.) elmi-tədqiqat institutlarında və universitetlərində çalışan tanınmış mütəxəssislərin (o cümlədən diaspora alimlərinin) ustad dərsləri, mühazirələri və elmi seminarlar təşkil olunur;
- gənc tədqiqatçılar üçün yay və qış elmi məktəbləri təşkil olunur.

BDU-da doktorantura proqramlarının təşviq edilməsi və doktorantura məzunlarının işə cəlb edilməsi siyasəti əsasən aşağıdakı kimidir:

- Gənc Alimlər Şuraları və Tələbə Elmi Cəmiyyətlərinin təşkil etdiyi elmi konfrans, seminar və debatlarda elmi tədqiqata marağı olan istedadlı tələbələri seçmək;
- seçilmiş tələbələri kafedra, elmi-tədqiqat institutlarında, mərkəz və laboratoriyalarda, habelə Tələbə elmi-texniki yaradıcılıq Mərkəzində yerinə yetirilən qrant və müqavilə əsaslı layihələrə cəlb etmək, onların əməyini stimullaşdırmaq;
- müxtəlif layihələr və proqramlar (Erasmus+, ikili diplom və s.) əsasında həmin tələbələri xarici ölkələrə təhsil və ya elmi-tədqiqatlar üzrə ezamiyyətə göndərmək;
- magistratura təhsil səviyyəsini bitirdikdən sonra bu tələbələrə doktorantura üzrə ixtisasın seçilməsində köməklik göstərmək və doktoranturaya cəlb və təşviq etmək;
- təhsil müddətində və illik attestasiyalarda doktorantların nailiyyətlərinin monitorinqini aparmaq;
- doktorantura proqramı çərçivəsində doktorantın cari fəaliyyətini qiymətləndirmək;
- doktorantura hazırlığının nəticələrini optimallaşdırmaq və təkmilləşdirmək məqsədilə doktorantlarla mütəmadi görüşlər və təlimlər təşkil etmək;
- doktorantlar üçün məqsədli təqaüdlər ayırmaq;
- təcrübə imkanlarını genişləndirilmək;
- normativ təhsil müddətində doktorantın fəaliyyətinin keyfiyyət göstəricilərini (dərc olunmuş elmi məqalələri, dissertasiyanın tamamlanması, doktorantın tədris fəaliyyətinə cəlb olunması və s.) təhlil etmək;
- işəgötürənlərlə tərəfdaşlıq əlaqələrini inkişaf etdirmək;
- doktorantın akademik və qeyri-akademik karyera imkanlarını öyrənmək;
- doktoranta karyera imkanları haqqında məlumat vermək.

Aşağıdakı cədvəldə BDU-da ali təhsilin bütün səviyyələri üzrə təhsil proqramlarında tədris prosesində iştirak edən elmlər doktoru və professorların sayının dəyişməsi vəziyyəti tədris illəri üzrə göstərilmişdir.

| Tədris illəri | Elmlər doktorlarının sayı | Elmlər doktorlarının professor-müəllim heyətinin sayına nisbəti, % -lə | Professorların sayı | Professorların professor-müəllim heyətinin sayına nisbəti, % -lə |
|---|---|---|---|---|
| **2016/2017** | 248 | 19 | 240 | 18 |
| **2017/2018** | 241 | 19 | 244 | 19 |
| **2018/2019** | 246 | 19 | 237 | 18 |
| **2019/2020** | 239 | 19 | 228 | 18 |
| **2020/2021** | 237 | 19 | 217 | 17 |

BDU-da çalışan və elmi dərəcəsi olan tədqiqatçıların akademik heyətə olan nisbətinin illər üzrə dəyişməsi vəziyyəti aşağıdakı qrafikdə verilmişdir.




Doktoranturaya qəbul planının hazırlanması zamanı kafedra, institut, mərkəz və laboratoriyalar tərəfindən verilmiş sifarişlərdə ixtisasların BDU-nun elmi prioritetlərinə, elmi-tədqiqat hədəflərinə və əmək bazarının tələblərinə uyğunluğu, habelə, ixtisas üzrə mütəxəssisin hazırlanması imkanları (doktoranta rəhbərlik edə biləcək mütəxəssisin olması, tədqiqatın aparılması üçün BDU-nun imkanları və s.) nəzərə alınır.

BDU-da doktorantura səviyyəsində fəlsəfə doktoru və elmlər doktoru proqramları üzrə 123 ixtisasda kadr hazırlığı aparılır. Universitetdə müxtəlif ixtisaslar üzrə doktorluq dissertasiyalarına rəhbərlik edə bilən 9 AMEA-nın həqiqi üzvü, 5 AMEA-nın müxbir üzvü, 240 nəfərdən çox professor və 600-ə yaxın dosent çalışır. Hər bir professor və dosent eyni zamanda eyni elm sahəsinə daxil olan bir neçə ixtisas üzrə doktorluq dissertasiyalarına rəhbərlik edə bilir.

BDU-da elmi-tədqiqat fəaliyyətinin monitorinqi və qiymətləndirilməsi əsasən aşağıdakı kimi təşkil olunur:

– BDU-nun elmi prioritetlərinə uyğun olaraq istiqamətlər üzrə elmi-tədqiqat mövzuları fakültə, institut, kafedra, şöbə, mərkəz və laboratoriya iclaslarında müzakirə olunaraq müəyyən olunur;

- il ərzində mövzu üzrə aparılan elmi tədqiqatların nəticələri fakültə, institut, kafedra, şöbə, mərkəz və laboratoriya iclaslarında, elmi seminarlarda, konfranslarda müzakirə və təhlil olunur;
- plan üzrə yerinə yetirilmiş elmi-tədqiqat işlərinin nəticələri fakültə, institut, kafedra, şöbə, mərkəz və laboratoriya iclaslarında və elmi şuralarda elmi hesabatların dinlənilməsi (hər bir əməkdaşın və mövzu rəhbərinin) yolu ilə müzakirə olunur və müvafiq qərar qəbul olunur;
- nəticələr Elmi fəaliyyətin təşkili və innovasiyalar Mərkəzinin Elmi fəaliyyətin təşkili və təhlil şöbəsində statistik təhlil olunur;
- il ərzində struktur bölmə rəhbərlərinin və fakültə dekanlarının BDU-nun Elmi Şurasında hesabatları dinlənilir və il ərzində elmi fəaliyyəti qiymətləndirilir (mükafatların verilməsi, vəzifə dəyişiklikləri və s.);
- fakültə, institut, kafedra, şöbə, mərkəz və laboratoriya iclaslarında və elmi şuralarda fəlsəfə və elmlər doktoru proqramları üzrə təhsil alan doktorantların hesabatlarının dinlənilməsi (hər bir əməkdaşın və mövzu rəhbərinin) yolu ilə fərdi iş planı üzrə attestasiyası keçirilir və doktorantın illik attestasiyası üzrə müvafiq qərar qəbul olunur. Doktorantın növbəti tədris ilində təhsilini davam etdirməsi attestasiyanın nəticəsinə əsasən müəyyən edilir;
- elmi işçilərin attestasiyası, onun keçirilməsi qaydaları, şərtləri və attestasiyanın nəticələrinin tənzimlənməsi Azərbaycan Respublikası Əmək Məcəlləsinə, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 23 may tarixli 97 nömrəli qərarı ilə təsdiq edilimiş "Azərbaycan Respublikasında işçilərin attestasiyasının keçirilməsi Qaydaları"na uyğun həyata keçirilir;
- BDU-da il ərzində aparılmış elmi-tədqiqat işlərinin nəticələri üzrə hesabat kitab şəklində çap olunur və müvafiq qaydada təqdim olunur;
- plan üzrə yerinə yetirilmiş elmi-tədqiqat işlərinin ən mühüm nəticələri və nəticələr üzrə statistik məlumatlar müvafiq qaydada Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinə təqdim olunur.

BDU-da doktorluq dissertasiyasının hazırlanması və müdafiəsinin təşkili Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 11 iyun tarixli Fərmanı ilə təsdiq edilmiş "Elmi dərəcələr verilməsi qaydası haqqında Əsasnamə"yə uyğun olaraq həyata keçirilir.

Doktoranturaya qəbul prosesindən sonra ilk altı ay müddətində doktorantın, doktorant və elmi rəhbərin qarşılıqlı razılığı əsasında elmi rəhbəri (məsləhətçisi) və elmi tədqiqat mövzusu ilk olaraq kafedrada, sonra fakültə Elmi Şurasında müzakirə edilərək əmrləşdirilmək üçün təqdimat formasında müvafiq qaydada təqdim olunur. Eyni zamanda doktorantın təhsil müddəti ərzində görəcəyi elmi-tədqiqat işinin ümumi planı (Doktorantın Fərdi İş Planı) hazırlanır. Planda illər üzrə görüləcək işlər, dərc olunacaq elmi nəticələr, fəlsəfə doktoru imtahanlarının verilməsi, tədqiqat işinin yerinə yetirilməsi mərhələləri göstərilir. Tədqiqat işləri elmi-tədqiqat institutlarında, mərkəz və laboratoriyalarında, kafedralarda həyata keçirilir. Elmi rəhbər kimi əsasən bu sahədə böyük elmi təcrübəsi olan elmlər doktorları və zəruri hallarda fəlsəfə doktorları da cəlb olunur.

Doktorant təhsil müddətində (fəlsəfə doktoru proqramı üzrə əyani 3 il, qiyabi və dissertant 4 il, elmlər doktoru proqramı üzrə əyani 4 il, qiyabi və dissertant 5 il) tədqiqat işini yerinə yetirməli, Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən müəyyən edilmiş qaydalara uyğun dissertasiyasını tərtib etməlidir.

Müvafiq doktorluq imtahanlarını verdikdən sonra doktorantın dissertasiyası dissertasiyanın yerinə yetirildiyi struktur bölməsinin genişləndirilmiş iclasında (iclasda ixtisas üzrə mütəxəssislərin iştirakı vacibdir) müzakirə olunur. Elmi-tədqiqat işinin aktuallığına, verilmiş müddətdə yerinə yetirilməsinə bilavasitə elmi rəhbər cavabdehdir.

Dissertasiya işinin müdafiəsi ixtisaslaşdırılmış müdafiə şuralarında həyata keçirilir. 2019-2022-ci illər ərzində BDU-da 19 ixtisas üzrə 8 daimi və 26 ixtisas üzrə 11 birdəfəlik Dissertasiya Şurası fəaliyyət göstərmişdir.

| № | Elmi dərəcə verilən elm sahəsi | İxtisasın şifri və adı | Qeydiyyat nömrəsi | Elmi dərəcənin verilməsi ilə bağlı səlahiyyəti |
|---|---|---|---|---|
| 1 | **Kimya** | 2301.01 - Analitik kimya | ED 2.16 | elmlər doktoru, fəlsəfə doktoru |
| | | 2306.01 - Üzvi kimya | | |
| | | 2307.01 - Fiziki kimya | | |
| 2 | **Fizika** | 2206.01 - Molekulyar fizika | ED 2.19 | elmlər doktoru, fəlsəfə doktoru |
| | | 2211.01 - Bərk cismlər fizikası | | |
| 3 | **Tarix** | 5502.01 - Ümumi tarix | ED 2.20 | elmlər doktoru, fəlsəfə doktoru |
| | | 5503.02 - Vətən tarixi | | |
| 4 | **Riyaziyyat** | 1211.01 - Diferensial tənliklər | FD 2.17 | fəlsəfə doktoru |
| | | 2002.01 - Deformasiya olunan bərk cisim mexanikası | | |
| 5 | **Yer elmləri** | 2515.01 - Petrologiya, vulkanologiya | FD 2.21 | fəlsəfə doktoru |
| | | 2520.01 - Bərk faydalı qazıntıların geologiyası, axtarışı və kəşfiyyatı, minerageniya | | |
| 6 | **Biologiya elmləri** | 2406.01 - Biofizika | FD 2.31 | fəlsəfə doktoru |
| | | 2406.02 - Biokimya | | |
| | | 2409.01 - Genetika | | |
| 7 | **Psixologiya** | 6104.01 - Pedaqoji psixologiya | FD 2.43 | fəlsəfə doktoru |
| | | 6114.01 - Sosial psixologiya | | |
| 8 | **Hüquq elmləri** | 5603.01 - Beynəlxalq hüquq; insan hüquqları | FD 2.44 | fəlsəfə doktoru |
| | | 5606.01 - Dövlət və hüquq nəzəriyyəsi və tarixi; hüquq və dövlət haqqında təlimlər tarixi | | |
| | | 5608.01 - Mülki hüquq; sahibkarlıq hüququ; ailə hüququ; beynəlxalq xüsusi hüquq | | |

### 4.4 Elmi-tədqiqat fəaliyyətində və təhsildə akademik dürüstlük mexanizminin mövcud olması və tətbiqi vəziyyəti

Akademik dürüstlük siyasəti BDU-nun fəaliyyətində tətbiq olunur. 2017-ci ildən BDU ilə “StrikePlagiarism” şirkəti arasında elmi işlərdə plagiatın aşkar edilməsi üçün antiplagiat sistemindən istifadə haqqında müqavilə imzalanmışdır. Elmi, tədris-metodiki işlərdə plagiatın aşkar edilməsi, onunla mübarizə və müəllif hüquqlarının qorunması məsələlərinə BDU-nun nəzdində yaradılmış Antiplagiat Komissiyası nəzarət edir. BDU-nun əməkdaşları, doktorantları, dissertantları, magistrantları və tələbələri tərəfindən hazırlanan bütün elmi işlər Antiplagiat Komissiyası tərəfindən yoxlanılır. Bununla yanaşı, Universitetdə keçirilən konfransların materiallar kitabına və jurnallara tədqim olunmuş məqalələr də yoxlanılır.

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının elmi adların və elmi dərəcələrin verilməsi haqqında Əsasnaməsində qoyulan tələblərindən biri də elmi nəşrlərdə plagiatın olmamasıdır. Bu səbəbdən, BDU-da fəaliyyət göstərən Dissertasiya Şuralarına daxil olan fəlsəfə doktoru və elmlər doktoru dissertasiyaları Antiplagiat Komissiyası tərəfindən yoxlanılır və iddiaçıya müvafiq hesabat nəticələri və arayış təqdim olunur.

BDU-nun rektorunun əmri ilə yaradılan Antiplagiat Komissiyanın qarşısında qoyulan vəzifə əməkdaş, doktorant, dissertant, magistr və tələbə tərəfindən hazırlanmış elmi və tədris-metodiki işlərin (dissertasiya, buraxılış işi, dərslik, dərs vəsaiti, monoqrafiyalar və s.) “Strike plagiarism” plagiatın aşkar olunması proqramı vasitəsi ilə yoxlanılması və alınan nəticələrin təhlilidir.

İkin yoxlamaya təqdim olunan işlər BDU-nun vəsaiti hesabına aparılır, lakin plagiat aşkar olunarsa, iş müəllifə redaktə üçün geri qaytarılır. 3 ay müddətində müəllif düzəlişlər aparıb, işini yenidən (təkrar) yoxlamaya ödənişli əsaslarla təqdim edir.

Təqdim olunan hər bir elmi iş operatorlar tərəfindən sistemə yüklənir və StrikePlagiarism proqramı vasitəsi ilə yoxlanılır. Yoxlamanın nəticələrinə əsasən Komissiyanın rəyi (protokol şəklində) hazırlanır və bu rəy iddiaçıya (Dissertasiya Şurası tərəfindən iş təqdim olunubsa, elmi katibə) təqdim edilir. Komissiyanın rəyi aşağıdakı bəndlərdən ibarət olan suallara cavab verir:

- Mətnində orijinallıq faizini süni şəkildə artırmaq cəhdləri olubmu?
- Mətnində qeyri-qanuni və ya düzgün olmayan istinadlar, düzgün olmayan öz-özünə sitatlar varmı?

Rəy Antiplagiat Komissiyasının rəhbəri və üzvü tərəfindən imzalanır. Bununla yanaşı, yoxlamaya təqdim olunan elmi işin qısa (işdə plagiat aşkar olunmadıqda) və ya tam (iş redaktə üçün qeri qaytarılarsa) hesabatı təqdim olunur.

2017-2022-ci illər ərzində Antiplagiat Komissiyası tərəfindən ümumilikdə 5670 elmi iş yoxlanılmışdır.

Son 2 il üçün statistika aşağıdakı kimi olmuşdur.

2021-ci ildə Komissiya tərəfindən professor-müəllim heyətinin təqdim etdiyi 309 iş yoxlanılmışdır.

Yoxlamadan keçirilən işlər üzrə:

1. Dərslik: 29 – onlardan 2 iş təkrar yoxlanılmışdır, 2 dərsliyə imtina verilmişdir.
2. Dərs vəsaiti: 82 – onlardan 17 iş təkrar yoxlanılmış, 3 iş üç dəfə yoxlanılmışdır, 2 dərs vəsaitinə imtina verilmişdir.

3. Monoqrafiya: 30 – onlardan 2 iş təkrar yoxlanılmış, 6 nəfər işlərini qrif almadan çap etməsinə qərar vermişdir.
4. Elmlər doktoru dissertasiyası: 27 – onlardan 6 iş təkrar yoxlanılmış, 1 iş üç dəfə yoxlanılmışdır.
5. Fəlsəfə doktoru dissertasiyası: 127 – onlardan 27 iş təkrar yoxlanılmış, 3 iş üç dəfə yoxlanılmışdır.
6. Tədris-metodiki vəsait: 8 – onlardan 2 iş təkrar yoxlanılmışdır.
7. Konfrans materialı: 4 – bütün materiallar təkrar yoxlanılmışdır.

2022-ci ildə Komissiya tərəfindən professor-müəllim heyətinin təqdim etdiyi 275 iş yoxlanılmışdır (onlardan 207 iş BDU-nun "Plagiat.pl" şirkəti ilə müqaviləsi hesabına, 68 iş isə iddiaçıların şəxsi hesabına (təkrar yoxlamalar)).

Yoxlamadan keçirilən işlər üzrə:

1. Dərslik: 17 – onlardan 8 iş təkrar yoxlanılmışdır, 1 dərsliyə imtina verilmişdir.
2. Dərs vəsaiti: 70 – onlardan 22 iş təkrar yoxlanılmış, 2 dərs vəsaitinə imtina verilmişdir.
3. Monoqrafiya: 35 – onlardan 14 iş təkrar yoxlanılmışdır.
4. Elmlər doktoru dissertasiyası: 15 – onlardan 2 iş təkrar yoxlanılmış, 2 iş üç dəfə yoxlanılmışdır.
5. Fəlsəfə doktoru dissertasiyası: 127 – onlardan 41 iş təkrar yoxlanılmış, 2 iş üç dəfə yoxlanılmışdır.
6. Tədris-metodiki vəsait: 1
7. Konfrans materialı: 7 – bütün materiallar təkrar yoxlanılmışdır.

Bununla yanaşı, hər il magistr dissertasiyaları da plagiat proqramı vasitəsi ilə yoxlanılır.

## 5. İDARƏETMƏ SİSTEMİ

### 5.1. İdarəetmə orqanları

Universitetin idarəetmə sistemi aşkarlıq, şəffaflıq və demokratiklik prinsipləri əsas tutulmaqla, Azərbaycan Respublikasının "Təhsil haqqında", "Elm haqqında", "Publik hüquqi şəxslər haqqında" Qanunlarına və BDU-nun Nizamnaməsinə uyğun olaraq qurulmuşdur.

İctimai əsaslarla fəaliyyət göstərən BDU-nun Himayəçilər Şurası BDU-nun Nizamnaməsinin 4.7-ci bəndinə əsasən yaradılmışdır və Universitetin strateji inkişaf məsələləri üzrə idarəetmə orqanıdır. Şuranın tərkibini azı 3 nəfər olmaqla, Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi təsdiq edir. Şuranın yaradılması, səlahiyyətləri və fəaliyyətinin təşkili qaydası Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin Kollegiyasının 2020-ci il 6 fevral tarixli KQ-01 nömrəli qərarı ilə qəbul edilmiş "Dövlət tərəfindən yaradılan ali təhsil müəssisələrinin Himayəçilər Şurası haqqında Əsasnamə" və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 16 aprel tarixli 172 nömrəli Qərarı ilə təsdiq edilmiş "Bakı Dövlət Universitetinin Nizamnaməsi" ilə müəyyən edilir.

Elmi Şura Universitetin ali idarəetmə orqanıdır. Elmi Şuranın yaradılması, səlahiyyətləri və fəaliyyətinin təşkili qaydası Azərbaycan Respublikası Elm və Təhsil

Nazirliyinin təsdiq etdiyi müvafiq Əsasnamə və BDU-nun Nizamnaməsi ilə müəyyən olunur.

İctimai əsaslarla fəaliyyət göstərən Elmi-Metodiki Şura BDU-nun Nizamnaməsinin 4.8-ci bəndinə əsasən BDU-nun Himayəçilər Şurası tərəfindən 2021-ci ildə yaradılmışdır. Elmi-Metodiki Şuranın səlahiyyətləri Himayəçilər Şurasının təsdiq etdiyi Əsasnamə ilə müəyyən olunur.

İctimai əsaslarla fəaliyyət göstərən BDU-nun İctimai Nəzarət Şurası məşvərətçi qurumdur, Universitetin fəaliyyətinə ictimai nəzarəti həyata keçirir. Universitetin inkişaf strategiyası və perspektiv planının formalaşmasına, milli və beynəlxalq təhsil xidmətləri bazarında onun rəqabət qabiliyyətliliyinə təsir göstərilməsi, ictimai idarətemə formalarının inkişaf etdirilməsi, BDU-nun təhsil, elmi və ictimai fəaliyyətinin təkmilləşdirilməsi üçün rəy və təkliflər vermək məqsədi ilə 2016-cı ildə yaradılmışdır.

Bundan əlavə BDU-da öz əsasnamələri əsasında fəaliyyət göstərən BDU Həmkarlar İttifaqı Komitəsi, Tələbə Gənclər Təşkilatı, Tələbə Həmkarlar İttifaqı Komitəsi, Tələbə Elmi Cəmiyyəti, Gənc Alimlər Şurası fəaliyyət göstərir.

2021-ci ilə qədər BDU-da fəaliyyət göstərmiş Tədris-Metodiki Şura metodiki işlərin əsas istiqamətini hazırlamış, təhsil prosesində iştirak edən struktur bölmələrinin, fakültələrin, kafedraların qarşılıqlı əlaqələrini koordinasiya etmişdir (BDU-nun Nizamnaməsinə uyğun olaraq 2021-ci ildə Tədris-Metodiki Şuranın əvəzinə Elmi-Metodiki Şura yaradılmışdır).

BDU-nun Himayəçilər Şurasının tərkibinə tanınmış dövlət, elm və mədəniyyət xadimləri, nüfuzlu alimlər daxildir. Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin müvafiq əmri ilə BDU-nun Himayəçilər Şurasının tərkibi aşağıdakı kimi təsdiq edilmişdir:


**Sədr:**

| | |
|---|---|
| Emin Əmrullayev | Azərbaycan Respublikasının elm və təhsil naziri |

**Üzvlər:**

| | |
|---|---|
| Rəşad Nəbiyev | Azərbaycan Respublikasının rəqəmsal inkişaf və nəqliyyat naziri; |
| Azər Cəfərov | Azərbaycan Respublikası ədliyyə nazirinin müavini; |
| İsa Həbibbəyli | Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, AMEA-nın həqiqi üzvü; |
| Elçin Əfəndiyev | Xalq yazıçısı; |
| Roald Saqdeyev | ABŞ-nin Merilend Universitetinin fəxri professoru, akademik; |
| Asəf Hacıyev | Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Parlament Assambleyasının baş katibi, AMEA-nın həqiqi üzvü; |
| Fərid Şəfiyev | Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin İdarə Heyətinin sədri; |
| Bəxtiyar Aslanbəyli | BP-nin Yaxın Şərq və Xəzər ölkələrində kommunikasiya və təşviqat üzrə vitse-prezidenti. |

BDU-nun İctimai Nəzarət Şurasının tərkibinə ölkəmizin ictimai həyatında öz fəallıqları ilə seçilən ictimai xadimlər və nüfuzlu mətbuat nümayəndələri daxildir:

**Sədr:**

| | |
|---|---|
| Arzu Nağıyev | Azərbaycan Respublikası Milli Məclisinin üzvü |

**Üzvlər:**

| | |
|---|---|
| Əminə Ağazadə | Azərbaycan Respublikası Milli Məclisinin üzvü; |
| Rəşad Məcid | Azərbaycan Mətbuat Şurasının sədri; |
| Məhəmməd Abdullayev | "Regionların İnkişafı" İctimai Birliyinin sədri; |
| Eldar Qocayev | Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin SABAH qruplarının rəhbəri; |
| Zülfüqar Hüseynzadə | moderator.az saytının rəhbəri; |
| Lalə Əsgərova | Real TV-nin baş redaktorunun müavini. |

BDU-nun Elmi Şurasında, fakültələrin elmi şuralarında, eləcə də müxtəlif sahələr üzrə yaradılan komissiyalarda Universitetin nüfuzlu alimləri, professor-müəllim heyəti ilə yanaşı, təhsilalanlar – Tələbə Gənclər Təşkilatı, Tələbə Həmkarlar İttifaqı Komitəsi, Tələbə Elmi Cəmiyyətinin üzvləri, eləcə də Universitetin ictimai həyatında öz fəallığı ilə seçilən tələbələr və ictimaiyyət nümayəndələri təmsil olunurlar.

İdarəetmə orqanları əsasnamələrinə və BDU-nun 2021-2030-cu illər üçün Strateji İnkişaf Planına uyğun olaraq fəaliyyət planlarını formalaşdırır və bunu idarəetmə orqanının iclasında müzakirə edərək təsdiq edirlər. Fəaliyyət planı əsasında mütəmadi olaraq öz iclaslarını, yığıncaqlarını, müvafiq tədbirləri keçirir, əldə edilmiş nəticələri təhlil edərək gələcək fəaliyyətlərini müəyyənləşdirirlər.

İdarəetmə orqanları illik fəaliyyət planlarına uyğun mütəmadi olaraq keçirdikləri iclaslarında fəaliyyət istiqamətinə aid görülən işləri analiz edirlər. Qəbul olunmuş qərarlar gələcək fəaliyyətdə nəzərə alınır.

İdarəetmə orqanlarında qanunvericiliyin, normativ-hüquqi aktların tələblərinə uyğun olan qərarlar qəbul edilir. Qəbul olunmuş qərarlar BDU-nun struktur bölmələrinə paylanılır, həmçinin rəsmi saytında və sosial media hesablarında yerləşdirilir. İctimai əhəmiyyət kəsb edən qərarlar haqqında ölkənin kütləvi informasiya vasitələrində də məlumat verilir.

BDU-nun idarəetmə orqanları arasında qarşılıqlı və effektiv kommunikasiya əlaqəsi qurulmuşdur. Qəbul olunmuş qərarlar elektron kommunikasiya vasitələri ilə və kağız daşıyıcılarında ötürülür. İdarəetmə orqanlarının aydın iyerarxiyaya, idarəetmə prinsiplərinə sahib olması, vəzifə və səlahiyyət bölgüsünün dəqiq müəyyənləşdirilməsi onların qarşılıqlı informasiya mübadiləsini, kommunikasiyanın qurulmasını zəruri edir, qəbul edilmiş qərarların icrası üçün zəmin yaradır, Universitetin missiyasının yerinə yetirilməsinə, strategiyasının həyata keçirilməsinə şərait yaradır.

BDU-da idarəetmə orqanları daxilində səlahiyyət və vəzifə bölgüsü Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 16 aprel tarixli 172 nömrəli Qərarı ilə təsdiq edilmiş "Bakı Dövlət Universitetinin Nizamnaməsi" və müvafiq əsasnamələr ilə tənzimlənir. İdarəetmə orqanlarının səlahiyyət və vəzifə bölgüsü Universitetin bütün

fəaliyyət istiqamətlərini əhatə edir və Universitetin strateji inkişaf planlarını həyata keçirməyə imkan yaradır.

BDU-nun Himayəçilər Şurası öz fəaliyyətini Azərbaycan Respublikası Təhsil Nazirliyinin kollegiyasının 2020-ci il 6 fevral tarixli KQ-01 nömrəli qərarı ilə qəbul edilmiş "Dövlət tərəfindən yaradılan ali təhsil müəssisələrinin Himayəçilər Şurası haqqında Əsasnamə"yə, BDU-nun Elmi Şurası öz fəaliyyətini Azərbaycan Respublikası təhsil nazirinin 1997-ci il 10 noyabr tarixli 792 nömrəli əmri ilə təsdiq edilmiş "Ali təhsil müəssisəsinin Elmi Şurası haqqında Əsasnamə"yə müvafiq olaraq hazırlanmış "Bakı Dövlət Unıversitetinin Elmi Şurası haqqında Əsasnamə"yə, BDU-nun İctimai Nəzarət Şurası isə öz fəaliyyətini "İctimai iştirakçılıq haqqında" Azərbaycan Respublikasının 2013-cü il 22 noyabr tarixli Qanununa müvafiq olaraq yaradılmış və BDU-nun Elmi Şurasının 2016-cı il 21 yanvar tarixli iclasının qərarı ilə təsdiq edilmiş "Bakı Dövlət Universitetinin İctimai Nəzarət Şurasının Əsasnaməsi"nə uyğun olaraq qurur.

İdarəetmə orqanlarının fəaliyyətinə dair illik hesabatlar müvafiq şura iclaslarında müzakirə edilərək qəbul olunur, protokollaşdırılır və hesabat aidiyyəti üzrə təqdim olunur.

Universitetdə idarəetmə orqanları öz fəaliyyətlərini BDU-nun Nizamnaməsi və öz əsasnamələri əsasında qurur. İdarəetmə orqanları şəffaf və nəticəyönümlü fəaliyyət göstərir, onların fəaliyyəti, qəbul etdikləri qərarlar haqında mütəmadi olaraq məlumat verilir. İdarəetmə orqanlarının fəaliyyəti davamlı olaraq təkmilləşdirilir.

### 5.2. İnsan resurslarının idarə edilməsi

BDU-da işçilərin işə qəbulu müsabiqə və müsahibə yolu ilə həyata keçirilir.

Fakültə dekanı, kafedra müdiri, professor, dosent, baş müəllim və müəllim vəzifələrinin tutulması Azərbaycan Respublikası Təhsil Nazirliyinin Kollegiyasının 2017-ci il 15 noyabr tarixli 5/5 nömrəli Qərarı ilə təsdiq edilmiş "Ali təhsil müəssisələrində kafedra müdiri, dekan və dekan müavini vəzifələrinin tutulması Qaydaları" və Azərbaycan Respublikası təhsil nazirinin 1996-cı il 7 avqust tarixli 401 saylı əmri ilə təsdiq edilmiş "Ali təhsil müəssisələrində professor-müəllim və kafedra müdiri vəzifələrinin tutulması qaydaları haqqında Əsasnamə"yə uyğun olaraq müsabiqə yolu ilə həyata keçirilir. Müsabiqənin nəticəsinə əsasən həmin vəzifələrə seçilmiş şəxslərlə işəgötürən arasında əmək münasibətləri 5 il müddətinə bağlanılmış əmək müqaviləsi ilə tənzimlənir.

Kafedralar yeni təşkil edildikdə, yüksək ixtisaslı mütəxəssisləri işə cəlb etmək zərurəti yarandıqda və digər müstəsna hallarda ayrı-ayrı şəxslər həmin vəzifələrə sonradan yalnız müsabiqədən keçməklə (bir ildən çox olmamaq şərtilə) müddətli əmək müqaviləsi bağlanılmaqla rektorun əmri ilə təyin olunurlar. Həmin müqavilənin müddətinin təkrar uzadılmasına yol verilmir.

İnzibati vəzifələrə qəbul müsahibə yolu ilə həyata keçirilir. Universitetdə boş olan inzibati vəzifələrin tutulması haqqında müvafiq məlumat verilir, sənədlər qəbul olunur. Qəbul olunmuş sənədlər əsasında namizədin vəzifəyə uyğunluğu yoxlanıldıqdan sonra işə qəbul üzrə komissiya onunla müsahibə aparır. Müsahibənin nəticələrindən asılı olaraq namizədlə işəgötürən arasında müvafiq əmək müqaviləsi bağlanılır.

BDU-nun Strateji İnkişaf Planında çevik və effektiv idarəetmənin təmin olunması, əməkdaş və təhsilalanlar üçün etimad edilən idarəçiliyin yaradılması əsas hədəflərdəndir. Bunun üçün mütəmadi olaraq struktur islahatları həyata keçirilmiş, insan resursları, maliyyə resursları və informasiya resurslarının idarə edilməsində səmərəliliyi artırmaq

məqsədilə optimallaşdırma aparılmış, akademik və inzibati heyət Universitetin strateji inkişaf proqramına, maliyyə resurslarına və tədris yükünə uyğunlaşdırılmışdır.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 16 aprel tarixli 172 nömrəli Qərarı ilə təsdiq edilmiş "Bakı Dövlət Universitetinin Nizamnaməsi"nə müvafiq olaraq hər il üçün BDU-nun ştat cədvəli Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi ilə razılaşdırılmaqla təsdiq olunur. Təsdiqlənmiş ştat cədvəli əsasında işçilərin əmək haqları ödənilir. Elmi dərəcəsi və elmi adı olan, eləcə də, əmək funksiyasını yüksək peşəkarlıqla yerinə yetirən, elmi və pedaqoji fəaliyyəti ilə fərqlənən əməkdaşlara mövcud qanunvericilik və BDU-nun Elmi Şurasının müvafiq qərarları əsasında əməkhaqqına əlavələr ödənilir.

BDU-nun idarəetmə strategiyasında idarəetmədə səmərəliliyin artırılması, əməkdaşıarın peşəkarlıq səviyyəsinin yüksəldilməsi, onların inkişafa, yeni təşəbbüslərə təşviq edilməsi, məmnunluq səviyyəsinin artırılması qarşıya qoyulan əsas vəzifələrdəndir.

Azərbaycan Respublikasının Əmək Məcəlləsi və BDU-nun Nizamnaməsinə müvafiq olaraq, əməkdaşlar kollektiv və fərdi qaydada mükafatlandırılır. Professor-müəllim heyəti və inzibati işçilərin şəxsi inkişafının, elmi və pedaqoji fəaliyyətinin stimullaşdırılması, onların təşəbbüslərinin dəstəklənməsi məqsədilə motivasiya tədbirləri keçirilir, yubileyləri qeyd olunur, Universitet səviyyəsində mükafatlandırılır, Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi və dövlət səviyyəsində təltif olunması üçün vəsatət qaldırılır.

BDU-da işçilərin fəaliyyətinin səmərəliliyinin vaxtaşırı qiymətləndirilməsi üçün monitorinqlər aparılır, müvafiq hesabatlar dinlənilir. Professor-müəllim heyətinin yaradıcı və elmi-tədqiqat bacarıqlarının artırılmasına xüsusi diqqət göstərilir.

Nüfuzlu beynəlxalq bazalarda indekslənmiş elmi jurnallarda dərc edilən məqalələrin inkişaf dinamikası, elmi maarifçilik işində iştirak daim izlənilir.

Professor-müəllim heyətinin ixtisasartırma və peşəkarlıq səviyyəsinin artırılması üçün müvafiq tədbirlər görülür, onların 5 ildən bir ixtisasartırma kurslarında iştirakı təmin edilir. Əməkdaşlar həm BDU-da, həm də digər ali təhsil müəssisələrində və qurumlarda təşkil olunan ixtisasartırma, təkmilləşdirmə kurslarına, təlimlərə cəlb olunurlar.

Əməkdaşların, xüsusilə gənc tədqiqatçıların xarici dil biliklərinin artırılmasını təmin etmək məqsədilə "Dövlət-özəl tərəfdaşlığı" layihəsi çərçivəsində 2021-ci ildə BDU ilə "You vvill speak English" şirkəti ilə əməkdaşlıq müqaviləsi imzalanmışdır. Əməkdaşlıq müqaviləsi əsasında BDU-nun gənc tədqiqatçıları öz xarici dil biliklərini artırmaq üçün təlimlərdə iştirak etmişdir.

Hesabat dövründə BDU-nun 523 əməkdaşı təkmilləşdirmə kurslarında iştirak etmişdir.

BDU-da əməkdaşların fəaliyyətinin səmərəliyinin artırılması, kollektivçilik ruhunun formalaşdırılması, onların stimullaşdırılması məqsədilə mütəmadi olaraq sosial layihələr, mədəni-kütləvi tədbirlər həyata keçirilir. İşçilərin Universitetin və ölkənin ictimai həyatında yaxından iştirakı, professor-müəllim heyətinin elmi maarifçilik işində iştirakı təmin edilir.

Əməkdaşların ictimai fəallıqlarının artırılması məqsədilə konfranslar, dəyirmi masalar, müsabiqələr, ağacəkmə aksiyaları, iməciliklər və s. keçirilir, onların bu istiqamətdə keçirilən ölkəmiqyaslı sosial layihələrdə iştirakı təmin olunur. Bayram və əlamətdar günlərdə əməkdaş və tələbələr üçün mədəni-kütləvi tədbirlər təşkil edilir.

İşçilərin asudə vaxtlarının və istirahətlərinin səmərəli təşkili məqsədilə İdman-Sağlamlıq Mərkəzində və Mədəniyyət-Yaradıcılıq Mərkəzində mütəmadi olaraq idman və mədəni-kütləvi tədbirlər keçirilir.

İdman-Sağlamlıq Mərkəzində əməkdaşların bədən tərbiyəsi və müxtəlif idman növləri ilə məşğul olması üçün lazımi şərait yaradılmışdır. İşçilər idman növləri üzrə komandaların tərkibində Universitet və ölkə çempionat və yarışlarında iştirak edirlər.

Mədəniyyət-yaradıcılıq Mərkəzində əməkdaşların şəxsi yaradıcılıqlarının inkişaf etdirilməsi, Universitetin yaradıcı qrup və dərnəklərinin fəaliyyəti üçün zəruri şərait yaradılmışdır.

Əməkdaşların istirahətinin təşkili üçün BDU-nun Quba Tədris-Təcrübə və İstirahət Mərkəzinin imkanlarından mütəmadi istifadə olunur. Məzuniyyət dövründə Mərkəzdə əməkdaşların istirahəti təşkil olunur. Eləcə də BDU Həmkarlar İttifaqı Komitəsinin köməyi ilə ölkənin müxtəlif kurort-sanatoriya müəssisələrinə göndərişlər verilir.

Universitetdə inzibati, texniki və köməkçi heyətə işçi qəbulu müsahibə yolu ilə həyata keçirilir. Bu sahələrdə boş olan vəzifələrin tutulması haqqında müvafiq məlumat verilir, sənədlər qəbul olunur. Vakant yerlərə vəzifəyə qoyulan tələbləri ödəyən hər bir şəxs sənədlərini təqdim edə bilər. Qəbul olunmuş sənədlər əsasında namizədin vəzifəyə uyğunluğu yoxlanıldıqdan sonra işə qəbul üzrə komissiya onunla müsahibə aparır. Müsahibədən keçmiş namizəd ilə işəgötürən arasında müvafiq əmək müqaviləsi bağlanılır.

İnzibati, texniki və köməkçi heyət üzvlərinin illik iş planı tərtib olunur. Müvafiq struktur bölmənin iclasında əməkdaşın müəyyən olunmuş müddət üzrə hesabatı dinlənilir. Onun fəaliyyəti struktur bölmə tərəfindən qiymətləndirilir və müvafiq qərarlar qəbul olunur.

İşçilərlə əmək münasibətləri və mülki münasibətlər Azərbaycan Respublikası Əmək Məcəlləsinin tələbləri gözlənilməklə rəsmiləşdirilir, eləcə də bu münasibətlərə xitam verilir.

Əmək müqavilələri sərbəst bağlanılır. Azərbaycan Respublikasının Əmək Məcəlləsinin 7-ci maddəsinin 2-1-ci hissəsində nəzərdə əmək müqavilələri istisna olmaqla, digər vəzifələr üzrə işçilərlə bağlanılmış əmək müqavilələri, onlarda dəyişikliklər edilməsi və ya xitam verilməsi Universitet tərəfindən müvafiq əmək müqaviləsi bildirişi formasında elektron informasiya sisteminə gücləndirilmiş elektron imza vasitəsilə daxil edilir.

Əmək münasibətlərində ayrı-seçkiliyə yol verilmir.

### 5.3. Maliyyə resurslarının idarə edilməsi

Universitetin gəlir bazasının BDU-nun Nizamnaməsinin 5.2-ci bəndinə uyğun olaraq dövlət büdcəsindən ayrılan vəsait, fəaliyyətindən əldə olunan gəlir, o cümlədən, ödənişli təhsildən əldə edilən vəsait, ianələr, qrantlar, cəlb edilən investisiyalar və qanunla qadağan olunmayan digər vəsaitlər hesabına formalaşdırılması nəzərdə tutulur. Bununla bağlı proqnoz göstəriciləri BDU üzrə hər il üçün təsdiq edilən "Gəlir və xərclər smetası"nın gəlirlər hissəsində konkret olaraq öz əksini tapır:

- dövlət sifarişi (təhsil xərci və təqaüd) üzrə daxilolmalar;
- "SABAH" qrupları üzrə daxilolmalar;
- "Gələcəyin müəllimi" təqaüdü üzrə daxilolmalar;
- ödənişli kadr hazırlığı üzrə daxilolmalar;
- İslam Əməkdaşlıq Təşkilatına və Qoşulmama Hərəkatına üzv dövlətlərin vətəndaşlarına təhsil qrantlarının verilməsi üzrə daxilolmalar;

- sair daxilolmalar (elmi-tədqiqat işlərinin həyata keçirilməsi üzrə, qrantlar üzrə, təsərrüfat müqavilələri əsasında görülmüş işlər üzrə və qanunvericiliyə uyğun digər fəaliyyətlərdən daxilolmalar və s.).

Maliyyə-iqtisadi fəaliyyətin büdcə planı BDU-nun Strateji İnkişaf Planına uyğun olaraq tərtib edilir. Cari il üçün büdcənin formalaşdırılması büdcə tarazlığı prinsipinə əsaslanır və gəlir və xərclər bazasını müəyyən etməyə imkan verir.

BDU-da qısa və orta müddətli dövr üçün maliyyə resurslarının planlaşdırılması sistemi mövcuddur.

Belə ki, hər il ötən ilin faktiki göstəriciləri nəzərə alınmaqla, yeni büdcə ili və növbəti 3 il üçün fəaliyyət planına əsaslanan baza proqnoz göstəriciləri tərtib edilir və baxılması üçün BDU-nun Himayəçilər Şurasına və müvafiq dövlət qurumlarına təqdim edilir. Cari maliyyə planının məqsədi BDU-nun davamlı ödəmə qabiliyyətinin təmin edilməsidir. Maliyyə planlaşdırılmasının təşkili mərhələsində real planlaşdırmanın formalaşdırılması üçün görüləcək işlərin ardıcıllığı müəyyən edilir, uyğun göstəricilərin əsaslandırılması metodu seçilir.

Orta müddətli dövr üçün maliyyə planının məqsədi Universitetin dayanıqlı inkişaf dinamikasını müəyyən etməkdir.

Universitetdə maliyyə proqnozlaşdırılması və planlaşdırılması zamanı aşağıdakı yanaşmalar nəzərə alınır:

- keyfiyyətli təhsil xidmətinin göstərilməsi və maliyyə potensialının gücləndirilməsi;
- xarici və daxili maliyyə risklərinin təsirinin nəzərə alınması ilə planlaşdırılan məqsədlərə çatmanın real olması;
- əldə edilmiş nətcələrin göstəricilərinin maliyyə proqnozlaşdırılması və planlaşdırılması prosesində istifadə olunma imkanları;
- maliyyə planlaşdırılmasının əsaslandırılması.

Universitetin Strateji İnkişaf Planında yaxın və orta dövr üçün inkişafın istiqamətləri və hədəfləri müəyyən edilmişdir. Maliyyə resurslarının planlaşdırılması prinsipləri və vəzifələri bu inkişaf istiqamətləri və hədəflərinə uyğundur. Planlaşdırmanın əsas prinsipləri: fasiləsizlik, dəqiqlik, effektivlik, ödəmə qabiliyyətlilik, risklərin balanslaşdırılmasıdır. BDU-da SİP-ə uyğun maliyyə planlaşdırılmasının vəzifələri aşağıdakı kimi müəyyən olunur:

- keyfiyyətli təhsil xidmətləri göstərmək və maliyyə potensialını gücləndirmək məqsədilə maliyyə resurslarının akkumulyasiyası, bölüşdürülməsi və yenidən bölüşdürülməsi;
- təhsil fəaliyyətinin bütün istiqamətlərində struktur bölmələrinin maliyyə məsuliyyətlərini nəzərə almaqla maliyyə resurslarının bölüşdürülməsinin və yenidən bölüşdürülməsinin nisbətlərinin müəyyən edilməsi;
- Universitetin maliyyə-təsərrüfat və funksional fəaliyyətlərini yerinə yetirmək üçün maliyyə resurslarının həcminin kifayət qədər olmasının müəyyən edilməsi;
- nəticəyə istiqamətlənmiş daxili maliyyə nəzarətinin və monitorinqinin həyata keçirilməsi üçün maliyyə informasiyasının hazırlanması.

Müasir iqtisadi şəraitdə Universitetin gəlirlərinin formalaşdırılması təkcə təhsil fəaliyyətindən deyil, geniş xidmət spektri ilə müəyyən olunur. Bunların arasında elmi-tədqiqat fəaliyyəti və innovasiyaların tətbiqindən, elmi nəticələrin

kommersiyalaşdırılmasından, digər xidmətlərdən (elmi cihazlardan istifadə, istirahətin, qidalanmanın təşkili və yataqxanalardan gələn gəlir), maddi-texniki bazadan (icarə, nəqliyyat xidmətinin göstərilməsi, nəşriyyat xidmətləri və s.) gələn gəlirləri misal göstərmək olar. "Endowment" fondların formalaşdırılması, sponsor vəsaitlərinin, "dövlət-özəl tərəfdaşlığı" layihəsi çərçivəsində investisiyaların cəlb olunması istiqamətində də işlər görülür.

Universitet əlavə maliyyə resurslarının cəlb olunması və artırılması üzrə fəaliyyət istiqamətlərini daima diqqət mərkəzində saxlayır:

- elmi-tədqiqat işlərinin nəticələrinin kommersiyalaşdırılması hesabına gəlirlərin artırılması;
- faktiki maliyyə mənbəyi (büdcə və ödənişli təhsil xidmətlərindən daxilolmalar) ilə yanaşı maliyyələşmə mənbələrinin artırılması (şəxsi ianələr, xeyriyyə vəsaitləri və s.);
- bilavasitə təhsil xidmətlərinin istifadəçilərinin maliyyələşdirmə sferalarının genişləndirilməsi.

Universitet yaxın gələcəkdə öz tədris-təcrübə və istirahət mərkəzi, tələbə yataqxanaları, nəqliyyat vasitələri, yeməkxana, və s. xidmətlərindən gəlir götürmək imkanlarını (BDU tərəfindən yaradılmış BUİLD MMC vasitəsilə) müzakirə edir və planlaşdırır.

BDU-da hər il üçün "Gəlir və xərclər smetası" formalaşdırılır. Smetada əldə olunan maliyyə resursları: dövlət sifarişi (təhsil xərci və təqaüd) üzrə; "SABAH" qrupları üzrə; "Gələcəyin müəllimi" təqaüdü üzrə; ödənişlı kadr hazırlığı üzrə; İslam Əməkdaşlıq Təşkilatına və Qoşulmama Hərəkatına üzv dövlətlərin vətəndaşlarına təhsil qrantlarının verilməsi üzrə və digər mənbələrdən daxilolmalar üzrə göstəricilər ayrılıqda göstərilir. Maliyyə daxilolmaları haqqında məlumatlar daxili və xarici maraqlı tərəflər üçün şəffafdır. BDU-nun rektoru BDU Himayəçilər Şurasına Universitetin cari fəaliyyəti haqqında illik hesabat verir, qanunvericiliyə uyğun olaraq, mərkəzi icra hakimiyyəti orqanlarına da müvafiq hesabatlar təqdim olunur. Qeyd edək ki, zəruri ehtiyaclarla bağlı malların (iş və xidmətlərin) satınalınması "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun həyata keçirilir və hər büdcə ilinin yekunu üzrə Azərbaycan Respublikası Hesablama Palatasına hesabat verilir.

Universitetin fəaliyyətindən əldə etdiyi vəsait BDU Nizamnaməsinin 5.13-cü və 5.14-cü bəndlərinə uyğun olaraq yalnız təhsilin inkişafına, müəssisənin maddi-texniki bazasının inkişafına, təhsilalanların və təhsilverənlərin sosial müdafiəsinə, habelə Elm və Təhsil Nazirliyinin müəyyən etdiyi məbləğdə Təhsilin İnkişafı Fonduna yönəldilir və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 10 sentyabr tarixli 257 nömrəli Qərarı ilə təsdiq edilmiş "Dövlət orqanlarının strukturuna daxil olmayan tabeliyindəki qurumlar tərəfindən işlər görülməsindən və xidmətlər göstərilməsindən əldə edilən vəsaitdən (o cümlədən tutulan xidmət haqlarından) istifadə Qaydası"nın tələbləri gözlənilməklə xərclənilir.

Maliyyə resurslarının əldə olunması və istifadəsi üzrə büdcə smetasının hazırlanması və təsdiq edilməsi proseduru Azərbaycan Respublikasının "Büdcə sistemi haqqında" Qanununun tələbləri gözlənilməklə, öz Nizamnaməsinin 7.1-ci bəndində qeyd edildiyi kimi, "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanunu ilə publik hüquqi şəxslər üçün müəyyən edilmiş qaydada həyata keçirilir.

Belə ki, BDU üzrə hər büdcə ili üçün Elm və Təhsil Nazirliyi ilə razılaşdırılmaqla "Gəlir və xərclər smetası" təsdiq edilir. Bu sənəddə ilin əvvəlinə qalıq, gəlir mənbələri, il ərzində daxilolmalar və xərclərin iqtisadi təsnifatının paraqrafları səviyyəsində təyinatı göstərilir. Cari büdcə ili ərzində, adətən 9 aylıq hesabatın yekunu üzrə aparılmış təhlillərə əsasən maliyyə resurslarından daha səmərəli istifadə edilməsi, onların dövriliyinin sürətləndirilməsi məqsədilə dəqiqləşdirilmiş "Gəlir və xərclər smetası" təsdiq edilir.

Universitetin missiyasına əsaslanaraq, fiziki və texnoloji resursların daimi qiymətləndirilməsi, hazırkı dövr üçün tələblər və gələcək planlar büdcənin real planlaşdırılmasının və bölüşdürülməsinin əsasını təşkil edir. Maliyyə cəhətdən Universitetin fəaliyyətinin stabil və dayanıqlı olması tələbələrə göstərilən xidmət və verilən təhsilin keyfiyyətinin artırılmasını təmin edir. Universitetin maliyyə vəsaitləri əsasən akademik məqsəd və proqramlara ayrılır.

Universitetdə maliyyə vəsaitinin daxil olması və bölüşdürülməsiı üzrə qəbul olunmuş ciddi nəzarət sistemi mövcuddur. Belə ki, daxilolma və xərclər üzrə əməliyyatlar yalnız köçürmə yolu ilə və xüsusi proqram təminatına əsasən həyata keçirilir və hər günün sonu üçün kassa icrasını təmin edən həm Xəzinədarlıq idarəsi, həm də Agent-bank ilə gündəlik üzləşmələr aparılır. Bu da maliyyə vəsaitlərinin düzgün və dəqiq uçotunun aparılmasını şərtləndirir, digər tərəfdən isə təsdiq edilmiş "Gəlir və xərclər smetası"nın surətinin kassa icrasının təminatçılarında da olması, xərclərin iqtisadi təsnifatın paraqrafları səviyyəsində smetaya uyğun müvafiq təyinatlara, eləcə də təsdiq edilmiş rəqəmlər həddində köçürülməsinə qarşılıqlı nəzarəti təmin etmiş olur.

Bundan başqa, mühasibatlıq elektron bazasında formalaşdırılmış sistemlə təhsil haqlarının ödənilməsinin gündəlik hesabatı aparılır, təhsil borcları haqqında həftəlik məlumatlar təhlil olunur, rəhbərliyə məlumat verilir və fakültə üzrə məsul şəxslərin nəzərinə çatdırılır.

BDU üzrə zəruri malların (iş və xidmətlərin) alınmasına maliyyə vəsaitinin ayrılması Universitetin struktur bölmələrinin tələbnamələrinə əsasən formalaşdırılmış satınalma planına uyğun aparılır. Əmək haqlarının hesablanması təsdiq olunmuş ştat cədvəlinə və hər ay üçün tərtib edilmiş müvafiq tabellərə əsasən həyata keçirilir.

Ümumiyyətlə, maliyyə vəsaitlərinin daxilolması və bölüşdürülməsi üzrə Maliyyə və təminat Departamenti tərəfindən illik hesabat hazırlanır və Elmi Şuranın müzakirəsinə təqdim edilir.

Maliyyə hesabatı aşağıdakıları əhatə edir:

- uyğun hesabatların hazırlanması;
- plan üzrə göstəricilərin tərtib və təsdiq olunması;
- Universitetin texniki-iqtisadi göstəriciləri bazasının formalaşdırılması.

Maliyyə resurslarının istifadə olunmasının effektivliyinin qiymətləndirilməsi aşağıdakı meyarlar əsasında aparılır:

- tərtib olunmuş dövlət statistik forma hesabatlarının göstəriciləri;
- maliyyə hesabatlarının göstəriciləri;
- Universitetin təhsil prosesinin maddi-texniki bazasının, sosial sferasının maliyyə resursları ilə stabil təmin olunması, yəni, Universitetin təhsil, elm və innovasiya fəaliyyətinin inkişafı üçün maliyyə dayanıqlılığı.

BDU-da malların alınması, işlərin görülməsi və xidmətlərin göstərilməsi qanunvericiliyin tələbləri gözlənilməklə, 2001-ci il 27 dekabr tarixli 245-IIQ saylı "Dövlət

satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa (https://e-qanun.az/framework/1029) uyğun olaraq həyata keşirilir. Bu zaman BDU-nun illik "Gəlir və xərclər smetası"nda təsdiq edilmiş nəzarət rəqəmləri həddində (illik göstəricilərin mallar və müqavilələr üzrə bölünməsinə yol verməmək şərti ilə) tərtib edilmiş ehtimal qiymətlərinə əsasən müvafiq icra hakimiyyəti tərəfindən təsdiq edilmiş minimum göstəricilərdən asılı olaraq müvafiq satınalma metodundan istifadə edilir və tenderin nəticəsi üzrə lazımi tədbirlər həyata keçirilir.

Malların alınması, işlərin görülməsi və xidmətlərin göstərilməsi üzrə maliyyə və mühasibat əməliyyatları qanunvericiliyin tələblərinə uyğun təşkili olunur (https://e-qanun.az/framework/1029).

Malların alınması, işlərin görülməsi və xidmətlərin göstərilməsi mövcud qanunvericiliyin tələbləri gözlənilməklə (tender və s.), təsdiq edilmiş müqavilə əsasında və müqavilədə təsbit edilmiş "Qiymətlərin razılaşdırılması protokolu"na uyğun həyata keçirilir. Vəsaitlər elektron qaydada təqdim edilmiş təsdiqedici sənədlər əsasında köçürülür. Mallar anbara mədaxil edildikdən sonra müvafiq təhvil-təslim aktları mühasibatlıqda qeydə alınır və lazımi müxabirləşmələr yazılır.

BDU Nizamnaməsinin 7.1-ci bəndinə uyğun olaraq, "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanunu (https://e-qanun.az/framework/5458) ilə publik hüquqi şəxslər üçün müəyyən edilmiş qaydada mühasibat uçotu aparılır, maliyyə hesabatları tərtib, təqdim və dərc edilir. Universitet, həmçinin dövri olaraq müvafiq dövlət orqanlarına hesabatlar təqdim edir (Dövlət Vergi Xidməti, Dövlət Statistika Komitəsi, Elm və Təhsil Nazirliyi və s.).

"Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanununun (https://e-qanun.az/framework/5458) 12-1.6 bəndinə əsasən publik hüquqi şəxs olduğu üçün Universitetin hesabatları portala yerləşdirilir, dərc edilir.

BDU-da daxili audit bölməsi üzrə vəzifələr vakant olduğu üçün daxili audit Maliyyə və təminat Departamenti tərəfindən həyata keçirilir. Hər ayın yekunu üzrə əmək haqlarının, təqaüdlərin vaxtında ödənişləri üzləşdirilir.

Universitetin maliyyə resurslarının əldə olunması və istifadəsi üzrə fəaliyyəti mütəmadi olaraq müvafiq dövlət nəzarət orqanları tərəfindən audit edilir. Belə ki, növbəti kənar dövlət maliyyə nəzarəti tədbiri olaraq Azərbaycan Respublikası Hesablama Palatasının Kollegiya iclasının 15.01.2020-ci il tarixli Q-4 nömrəli və 05.03.2020-ci il tarixli Q-27 nömrəli qərarları ilə təsdiq edilmiş proqramlara və Hesablama Palatası tərəfindən verilmiş 17.01.2020-ci il tarixli 1/6/05-02 nömrəli vəsiqəyə əsasən müvafiq audit qrupu tərəfindən 2020-ci ilin 01 yanvar tarixinə BDU üzrə daxilolmaların və xərclərin proqnozlaşdırılması və icrasının uyğunluğunun auditi aparılmış və aşkar edilmiş nöqsan və çatışmazlıqların aradan qaldırılması üçün BDU tərəfindən lazımi tədbirlər görülərək (debitor borclarının bağlanılması, çatışmazlıq və dəyən zərərlərin ödənilməsi, artıq və əskik ödənişlər üzrə yenidən hesablamalara əsasən tutulma və ödənişlər və s.), nəticəsi barədə Hesablama Palatasına və Elm və Təhsil Nazirliyinə müvafiq hesabat (təsdiqedici sənədlər əlavə edilməklə) verilmişdir.

BDU özünümaliyyələşdirmə prinsipinə keçdikdən sonra maliyyə resurslarının əldə olunması mənbələrinin, onların istifadə istiqamətlərinin daima təkmilləşdirilməsi xüsusi əhəmiyyət kəsb edir və maliyyə resurslarının yeni mənbələrinin formalaşması, ondan səmərəli istifadə olunması Universitetin inkişafının əsas hədəflərindəndir. Bu istiqamətdə

Universitetin maliyyə resurslarının mövcud vəziyyəti, onların tərkibi və quruluşu (kreditor və debitor borclarının düzgün idarə olunması, onun ehtiyatlarının vəziyyəti), maliyyə resurslarının idarəedilməsi problemləri təhlil edilir, onların idarə edilməsinin səmərəliliyi qiymətləndirilir (maliyyə resurslarının istifadə olunmasının səmərəliliyi ilk növbədə onların məqsədli istifadəsini özündə ehtiva edir). Müdafiə olunan xərclər nəzərə alınmaqla investisiya qərarları da müəssisənin maliyyə resurslarının idarə edilməsi prosesinin olduqca əhəmiyyətli və eyni zamanda əsas tərkib hissəsini təşkil edir, çünki onların böyük hissəsinin uzun dövr ərzində dövriyyədən qaldırılmasına gətirib çıxarır. Məlum olduğu kimi, maliyyə resurslarının idarə edilməsinin səmərəliliyinin qiymətləndirilməsi əhəmiyyətli dərəcədə aktivlərə qoyulan investisiyaların səmərəliliyinin qiymətləndirilməsi ilə əlaqədardır.

## 5.4. İnformasiya idarəetmə sistemi

BDU-da bir neçə informasiya idarəetmə sistemindən istifadə olunur.

BDU-da 2020/2021-ci tədris ilinin yay semestrindən başlayaraq “Blackboard” – tədrisin elektron idarə edilməsi sistemi vasitəsilə təşkilinə start verilmişdir. ABŞ-ın təhsildə informasiya texnologiyalarının tətbiqi sahəsində dünya lideri “Blackboard” şirkətinin məhsulu olan platforma - tədrisin idarəedilməsi proqramından istifadə olunur. Sistem Universitetdə beynəlxalq təcrübənin tətbiqinə, e-təhsilin təkmilləşdirilməsinə və təhsil xidmətlərinin keyfiyyətinin artırılmasına şərait yaradır. “Blackboard EdTech” ekosisteminə daxil olan “bulud platforması” vasitəsilə tələbələrin və müəllimlərin elektron məlumat bazası yaradılmış, tədris prosesinin və təhsilin məzmununun elektron idarəedilməsi, elektron qiymətləndirmə və digər tədris proseslərinin elektronlaşdırılmış həllinə nail olunmuşdur.

Elektron idarəetmə sisteminin təkmilləşdirilməsi üçün “Blackboard Learn”, “Virtual Classroom Solution”, “Collaborate”, “Accessibility Solution” və “Blackboard Ally” kimi komponentlərdən istifadə edilir.

Avropanın IMC şirkətinin məhsulu olan CLIX (Learning Management Systems) tədrisin idarəetmə sistemi hazırda daha çox keyfiyyətin qiymətləndirilməsi istiqamətində ixtisaslaşmışdır. Sistemdə tədrisin bütün elementlərindən (tələbə və müəllimlərin şəxsi kabinetləri, dərs otaqları, tədris kontentləri, forumlar, xəbərlər, elanlar və s.) istifadə edilir. Müəllimlər şəxsi kabinetlərinə daxil olaraq kontentləri (sillabuslar, mühazirə mətnləri, test sualları, tapşırıqlar və s) formalaşdırır və tələbələrin də fərdi kabinetlərində bu kontentlər əlçatan olur. Test imtahanları sistem vasitəsilə təşkil olunur. Platformanın test bazasına 2500-dən çox fənn üzrə 1 460 000-dən çox test sualı yerləşdirilmişdir.

İnsan Resurslarını Vahid İdarəetmə Sistemi (AZIRVIS) Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən yaradılmışdır. Bu elektron sistemi tətbiq etməkdə məqsəd BDU-da insan resurslarının idarəedilməsi işini avtomatlaşdırmaq, vahid hesabatlılıq sistemini qurmaq, əməkdaşların şəxsi məlumatlarının təhlükəsizliyini qorumaq və s.-dir.

Elektron sənəd dövriyyəsi (AZDOC) informasiya idarəetmə sistemi vasitəsilə Universitetin sənəd dövriyyəsi, “SERP” idarəetmə sistemi vasitəsilə maliyyə-uçot fəaliyyəti, “IRBIS” platforması vasitəsilə elektron kitabxana xidməti avtomatlaşdırılmışdır.

İnformasiya idarəetmə sistemlərində idarəetmə funksiyaları bütün sahələri əhatə edir. İnformasiya edarəetmə sistemlərinin proqram təminatı müvafiq olaraq proqram

təminatçıları, verilənlər bazası Universitetin müvafiq məsul struktur bölmələri tərəfindən müntəzəm olaraq yenilənir.

Universitetdə informasiya idarəetmə sistemləri məsul struktur bölmələr tərəfindən idarə olunur:

"Blackboard" və CLIX – Tədrisin təşkili və idarə olunması Mərkəzi;

"SERP" – Maliyyə və təminat Departamenti;

"AZDOC" – Sənədlərlə və müraciətlərlə iş şöbəsi;

"AZIRVIS" – İnsan resursları və hüquq şöbəsi;

"IRBIS" – Elmi Kitabxana.

Təlim və tədris prosesinin rəqəmsallaşdırılması üçün hazırda "Blackboard" və CLIX platformasının imkanlarından istifadə olunur.

"Blackboard EdTech" ekosisteminə daxil olan "bulud platforması" vasitəsilə tələbələrin və müəllimlərin elektron məlumat bazası yaradılmış, tədris prosesinin və təhsilin məzmununun elektron idarəedilməsi, elektron qiymətləndirmə və digər tədris proseslərinin elektronlaşdırılmış həllinə nail olunmuşdur. Tədrisin təşkil olunmasında "Blackboard" təhsilin idarə edilməsi sistemindən istifadə davam etdirilir.

CLIX idarəetmə sistemindən hazırda daha çox keyfiyyətin qiymətləndirilməsi istiqamətində istifadə olunur, test imtahanları bu sistem vasitəsilə keçirilir.

İnformasiya idarəetmə sistemlərinin əməkdaş və tələbələr üçün əlçatanlığı təmin edilmişdir. Əməkdaş və təhsilalanların sistemlərə girişi təmin olunmuş, hər biri korporativ e-mail ünvanları (ad.soyad@bsu.edu.az) ilə təmin edilmişdir.

Universitetdə tədrisin keyfiyyətinin yüksəldilməsi, idarəetmənin təkmilləşdirilməsi məqsədilə müntəzəm olaraq keyfiyyətin qiymətləndirilməsi aparılır. Bu zaman zəruri müqayisələrin aparılması, təhlillərin, nəticələrin analizi məqsədilə informasiya idarəetmə sistemlərinin yaratdığı imkanlardan geniş istifadə edilir.

Keyfiyyətin idarə olunmasının pirinsiplərinin effektiv həyata keçirilməsi, işçilərin lazimi səviyyədə səriştəliliyinin, hazırlığının müəyyən edilməsi və qiymətləndirilməsi, eləcə də təhsilalanların müvəffəqiyyət göstəricilərinin, hazırlıq səviyyəsinin təhlili üçün informasiya idarəetmə sistemləri geniş imkanlar yaradır.

Universitetdə olan informasiya idarəetmə sistemlərinin təkmilləşdirilməsi, aidiyyəti mərkəzi icra hakimiyyəti orqanlarının informasiya idarəetmə sistemlərinə inteqrasiyası istiqamətində işlər aparılır.

Zəruri informasiyalar mütəmadi olaraq Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin Mərkəzləşdirilmiş İnformasiya Sisteminin Ali və Orta İxtisas Təhsili Alt Sistemi (ATIS), Tələbə Məzun Dövlət Elektron Məlumat Sistemi (TMMS), Diplom Təsdiq Sisteminə (DTS) daxil edilir.

İnformasiya idarəetmə sistemlərinin təhlükəsizliyi BDU-nun İnformasiya Texnologiyaları Mərkəzi tərəfindən təmin edilir.

İnformasiya idarəetmə sistemləri Universitetin serverlərində və AzCloud-da saxlanılır. Sistemlərin təhlükəsizliyi yüksək səviyyədə təşkil edilmişdir. Fortigate, Cisco avadanlıqları vasitəsilə Firewall sistemi aktiv edilmişdir. Şəbəkə təhlükəsizliyi (Firewall) avadanlıqları üzərindən Web Filter, IPS, Application filter, Spam Filter kimi təhlükəsizlik sistemləri tətbiq edilmişdir.

## 5.5. İctimaiyyətlə əlaqələr

BDU-nun rəsmi saytı – www.bsu.edu.az




Rəsmi sayt Universitetin tədris, elm və sosial həyatını, beynəlxalq əlaqələrini operativ işıqlandırır. Sayt BDU əməkdaş və tələbələrinin Universitet həyatı ilə bağlı əsas informasiya mənbəyidir.

Saytda Universitetin zəngin tarixi, missiyası, Strateji İnkişaf Proqramı, BDU-nun üzv olduğu beynəlxalq təşkilatlar, BDU-nun görkəmli məzunları, Fəxri doktorları, fakültələr, kafedralar, elmi-tədqiqat institutları, tədris olunan ixtisaslar, tələbə həyatı, sosial-məişət şəraiti və s. haqqında dolğun və müfəssəl məlumat verilir.

Sayt fakültələrin, elmi-tədqiqat institutlarının, Elmi Kitabxananın saytları ilə inteqrasiya olunmuşdur, göstərilən struktur bölmələrinin saytlarına keçid imkanı yaradılmışdır. Həmçinin sayt vasitəsilə BDU-nun elektron kitabxanasına daxil olmaq mümkündür.

Saytda "Tələbədən rektora" müraciət hissəsi fəaliyyət göstərir. Təhsilalanlar bu hissəyə daxil olaraq BDU-nun rektoruna öz şikayət və təkliflərini, təşəbbüslərini bildirirlər.


Əziz tələbələr,

Rektor Elçin Babayevə sualınız, təklifiniz yaxud şikayətiniz varsa, müraciət edə bilərsiniz. Müraciət üçün nəzərdə tutulmuş bütün boş xanalar doldurulmalı, mətndə yazılarınız aydın şəkildə ifadə edilməlidir.

Adınız*

Soyadınız*

Atanızın adı*

Fakültə*

Mexanika-riyaziyyat

Kurs

Qrup

E-poçt ünvanınız

Telefon nömrəniz*

+994 (__) ___-__-__

Müraciətinizin mövzusu*

Seçin

Müraciətinizin mətni*

Şəkildəki kodu bura yazın*

Kodu yenilə

Məktubu göndər

Saytda məlumatlar və xəbərlər 3 dildə – Azərbaycan, rus və ingilis dillərində təqdim olunur. Saytın texniki proqram təminatı İnformasiya Texnologiyaları Mərkəzi, idarəedilməsi isə İctimaiyyətlə əlaqələr və informasiya şöbəsi tərəfindən həyata keçirilir.

BDU-nun yeni dizaynda və daha çox imkanlara malik yeni saytı hazırlanmışdır və istifadəyə veriləcəkdir. Yeni saytda e-BDU vahid informasiya idarəetmə sistemi tətbiq olunacaqdır.




BDU-nun rəsmi saytında məlumatlar dəqiq, faktlar və mənbələr əsasında hazırlanır və mütəmadi olaraq yenilənir.

Verilən zəruri materiallar abituriyentlər, təhsilalanlar və ictimaiyyət üçün aktualdır.

Saytın xəbərlər bölməsində Universitetin elm, təhsil, sosial həyatı, beynəlxalq əlaqələri haqqında xəbərlər və elanlar operativ şəkildə işıqlandırılır. Bu prosesdə BDU TV və "Bakı Universiteti" qəzeti də fəal iştirak edir.

Universitetin İctimaiyyətlə əlaqələr və informasiya şöbəsi BDU-nun rəsmi saytı, sosial media hesabları ("Facebook", "Instagram", "Telegram", "Twitter", "YouTube") yenilikləri və xəbərləri dərc edir. Bundan başqa, press-relizlər yayaraq informasiya agentlikləri, kütləvi informasiya vasitələri ilə əlaqə yaradaraq onları informasiya ilə təmin edir; Mətbuat konfransları, mediaturlar, kütləvi informasiya vasitələrinin BDU-dan reportajlar hazırlamalarını, BDU-nun nüfuzlu alim, pedaqoq və mütəxəssislərindən müsahibələrin alınmasını təşkil edir; KİV-in sorğularını operativ cavablandırır.

BDU-nun İctimai Nəzarət Şurasının üzvlərinin iştirakı ilə mütəmadi olaraq KİV nümayəndələrinin BDU-ya mediaturları təşkil olunur.







BDU-da ictimaiyyətin məlumatlandırılması, ictimai təşkilat və birliklərlə qarşılıqlı əlaqələrin genişləndirilməsi, birgə layihələrin keçirilməsi məqsədilə ictimaiyyətlə iş planı hazırlanır. Plana müvafiq olaraq tədbirlər həyata keçirilir.

BDU-nun fəaliyyətinə ictimai nəzarətin həyata keçirilməsi məqsədilə yaradılan İctimai Nəzarət Şurası ilə birgə Universitet həyatı haqqında ictimaiyyətin daha dolğun və operativ məlumatlandırılması üçün tədbirlər görülür.

İctimai təşkilatlarla birgə təhsilalanların ictimai fəallığının artırılması, onların ölkəmiqyaslı sosial layihələrdə fəal iştirakının təmin edilməsi, Azərbaycançılıq ideyalarının, milli-mənəvi dəyərlərin, vətənpərvərlik ruhunun təbliği, onlara sağlam həyat tərzinin təşviq edilməsi, elmə, biliyə marağın artırılması və s. istiqamətində birgə layihələr həyata keçirilir.

BDU-nun mətbuat və ictimaiyyətlə əlaqələrini daha da təkmilləşdirmək üçün İctimaiyyətlə əlaqələr və informasiya şöbəsi tərəfindən müxtəlif KİV-lər və qurumlar arasında sorğu keçirilir. Sorğularda BDU-nun ictimaiyyətlə əlaqələrinin müsbət və mənfi tərəflərini, eyni zamanda təklifləri qeyd etmək xahiş olunur. Sözügedən sorğunun nəticələri təhlil olunaraq fəaliyyətin daha da təkmilləşdirilməsi üçün istifadə edilir.

Məsələn, 2022-ci il üçün ictimaiyyətlə və KİV-lə əlaqələrin qiymətləndirilməsi üçün Azərbaycan Vəkillər Kollegiyası, Dövlət Məşğulluq Agentliyi, İctimai Televiziya və Radio

Verilişləri Şirkəti, “Vətəndaş Cəmiyyətində Debat” İctimai Birliyi, APA və Report informasiya agentlikləri, Unibank, Modern.az, Tehsil.biz, Azedu.az xəbər satytlarına və s. sorğular göndərilmiş, maraqlı tərəflərin rəyləri öyrənilmişdir.

BDU-nun fəaliyyəti ilə bağlı verilən məlumatların davamlı monitorinqi sistemi yaradılmışdır. Verilən məlumat gündəlik olaraq toplanılır və aylıq hesabatlar şəklində hazırlanır. KİV-də və sosial mediada yayımlanan xəbərlərin inkişaf dinamikası izlənilir.

Monitorinqlərin nəticələri təhlil olunur, çatışmazlıqlar və üstünlüklər müəyyən edilir. Təhlillərin nəticələrindən Universitetin ictimaiyyəti məlumatlandırma fəaliyyətinin təkmilləşdirilməsində istifadə olunur.

Sistem müntəzəm olaraq yenilənir, informasiya bazası genişləndirilir.

**2022-ci ildə BDU-nun sosial media hesablarında baxış və paylaşımın dinamikası**
(“Facebook” və “Instagram” üzrə)




**2022-ci ildə BDU-nun sosial media hesablarında izləyici sayının dinamikası**
(“Facebook” və “Instagram” üzrə)



**2022-ci ildə BDU-nun sosial media hesablarının aktivlik dinamikası**
(“Facebook” və “Instagram” üzrə)




## 6. İNFRASTRUKTUR

### 6.1. Tədris infrastrukturu

Tədris infrastrukturu – dövlət təhsil standartlarına uyğun təhsil sisteminin mövcud olması üçün lazım olan resurslar kompleksidir. Bura kadr potensialı, material-texniki və informasiya metodiki təchizatlar, binalar və təhsil kommunikasiya sistemləri aiddir. Təhsil infrastrukturu keyfiyyətli və əlçatan təhsil almaq üçün mühüm şərtdir. Buna görə də təhsil sisteminin infrastrukturunun keyfiyyətinin hərtərəfli təhlili və qiymətləndirilməsi vacib parametrdir. Bu təhlil əsasında təkcə infrastrukturun inkişaf səviyyəsini fiksasiya etmək yox, həm də təhsil sistemini ümumiyyətlə təkmilləşdirmək üçün gələcək idarəetmə fəaliyyətinin prioritet istiqamətlərini müəyyən etmək olur.

Universitetdə tədris binalarının və tədris otaqlarının vəziyyəti Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 3 avqust tarixli 171 nömrəli Qərarı ilə təsdiq edilmiş “Təhsil müəssisələrinin tikintisinə, maddi-texniki təchizatına dair vahid normalar, ümumi sanitariya-gigiyena tələbləri, şagird yerləri ilə təminat normativləri”nə uyğundur. Tədris binaları nəqliyyat vasitələrinin hərəkət etdiyi yoldan 25 metrdən çox məsafədə yerləşir. Binaların önündə açıq meydanlar vardır.

BDU-nun ərazisində tələbələrin təhsil aldığı auditoriyalardan normaya uyğun məsafədə idman meydançaları, yaşıllıq zolağı, əhatəsində passiv istirahət üçün sahələr, idman kompleksi, oxu zalları və yeməkxanalar vardır. İxtisaslara uyğun təcrübə otaqları və tədris laboratoriyaları mövcuddur.

Tədris binalarının və tədris otaqlarının dövlət standartlarına uyğunluğu:

| № | Bina və tikililər | | Sayı | Ümumi sahə (m²) | Faydalı sahə (m²) |
|---|---|---|---|---|---|
| 1 | Tədris prosesinin təşkil olunduğu bina (binalar) | | 14 | 63500 | 48608 |
| 2 | Auditoriyalar: | Mühazirə | 147 | 7938 | 7938 |
| | | Məşğələ | 175 | 6300 | 6300 |
| 3 | Akt zalı | | 4 | 2200 | 2200 |

| | | | | |
|---|---|---|---|---|
| 4 | İdman zalı | 3 | 1650 | 1650 |
| 5 | Yeməkxana | 7 | 3280 | 2880 |
| 6 | Yataqxana | 4 | 21002 | 2400 |
| 7 | Tədris kabinetləri və emalatxanaları | 50 | 1080 | 1080 |
| 8 | Hər təhsilalana düşən faktiki sahə, $m^2$ | 24584 | 2,58 | 1,98 |
| 9 | Tibbi xidmət | 2 | 365 | 257 |
| 10 | İnzibati heyətin fəaliyyətini təmin edən zəruri otaq fondu | 202 | 5830 | 5830 |
| 11 | Akademik heyətin fəaliyyətini təmin edən zəruri otaq fondu | 228 | 4914 | 4914 |
| 12 | İstehsalat-təcrübə bazasının mövcudluğu | 3 | 13521 | 9465 |
| 13 | Elmi tədqiqatların aparılmasına imkan verən avadanlıqlarla təchiz olunmuş müasir və digər laboratoriyalar | 88 | 3294 | 3294 |
| 14 | İaşə xidməti | 7 | 3280 | 2800 |

Hər fakültə üçün nəzərdə tutlmuş 100 nəfərlik, 50 nəfərlik və 15-25 nəfərlik auditoriyalar, otaqlar, fakültə və struktur bölmələrinin tam fəaliyyət göstərməsi üçün inzibati otaqlar vardır.

BDU-nun Elmi Kitabxanası oxuculara xidmət işinin təşkili, oxucu tələbatının ödənilməsində ali məktəb kitabxanaları arasında ən böyük məlumat-biblioqrafiya aparatına və mükəmməl kataloq sisteminə malik olan kitabxanadır. Elmi Kitabxana Universitet əməkdaş və tələbələri ilə yanaşı, elmi-tədqiqat işi ilə məşğul olan bütün tədqiqatçılara xidmət göstərir.

BDU-nun Elmi Kitabxanası Təhsil Nazirliyinin 1971-ci il 7 may tarixli 161 saylı əmri ilə ali təhsil müəssisə kitabxanalarının metodik mərkəzi kimi müəyyənləşdirilmişdir. Kitabxana Respublikanın digər ali təhsil müəssisələrinin kitabxanaları ilə əməkdaşlıq, ədəbiyyat mübadiləsi edir və onlara metodiki dəstək göstərir. Eləcə də, 40 xarici ölkənin 50-yə yaxın aparıcı universitetləri və elmi-tədqiqat müəssisələrinin 2300-ə yaxın kitabxanası ilə kitab mübadilələrini həyata keçirir.

Elmi Kitabxananın nəzdində Azərbaycan Kitabxana İnformasiya Konsorsiumu (Az.KİK) fəaliyyət göstərir. Bu Konsorsiumun vasitəsi ilə BDU Elmi Kitabxanası dünyanın kitabxana işi sahəsində ən böyük iki beynəlxalq təşkilatından biri olan və dünyanın 53 ölkəsindən 3000-dən çox kitabxananın üzv olduğu “EIFL.net - Electronic Information for Libraries” (Kitabxanalar üçün Elektron İnformasiya) beynəlxalq konsorsiumuna üzv olmuşdur. Respublikanın 12 ali təhsil müəssisəsi (Azərbaycan Dillər Universiteti, Azərbaycan Dövlət İqtisad Universiteti, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti, Azərbaycan Tibb Universiteti, Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinin Akademiyası, Bakı Ali Neft Məktəbi, Azərbaycan Turizm və Menecment Universiteti, Azərbaycan Universiteti, Bakı Biznes Universiteti, Qərbi Kaspi Universiteti, Xəzər Universiteti) Az.KİK-in üzvüdür. BDU-nun Elmi Kitabxanası Az.KİK-ə üzv olan hər bir ali məktəb kitabxanasını EBSCO şirkətinin məlumat bazalarından istifadə imkanı ilə təmin edir, məlumat bazalarından istifadə haqqında təlimlər keçir.

Elmi Kitabxana “Erasmus+” proqramı çərçivəsində “ERASMUS-EDU-2022-CBHE “İnstitusional Repozitorlar vasitəsilə Tədqiqat İşinin İnkişafı”” (“Developing Research Capacity through İnstitutional Repositories” (DIRNA-101082124)) adlı üçillik layihədə benefisiar kimi qalib olmuşdur.

Elmi Kitabxananın fəaliyyətinin təkmilləşdirilməsi məqsədilə 2020-ci ildə struktur islahatı aparılmış, elekton kitabxana xidmətinin genişləndirilməsi məqsədilə Elektron kitabxana şöbəsi də yaradılmışdır:

Elmi Kitabxananın strukturu hazırda aşağıdakı kimidir:

1. Kitabxana-informasiya resurslarının idarə edilməsi və xidmətin təşkili şöbəsi:
   - İnformasiya resursları sektoru;
   - İnformasiya xidmətləri sektoru.
2. İnformasiyanın emalı və sənəd dövriyyəsinin təşkili şöbəsi:
   - Analitik informasiya sektoru.
3. Elektron kitabxana şöbəsi;
4. Metodiki iş və əməkdaşlıq şöbəsi.

Hazırda Elmi Kitabxanın fondunda 2 146 189 nüsxə ədəbiyyat saxlanılır. 11 oxu zalında oxuculara kitabxana xidməti göstərilir. Təhsilin fasiləsizliyini təmin etmək məqsədilə "Tələbə Evi"ndə də oxu zalı fəaliyyət göstərir.

Elmi Kitabxana oxuculara elektron kitabxana xidməti də göstərir. BDU ilə "BP-Azərbaycan" şirkəti arasında imzalanmış əməkdaşlıq müqaviləsi çərçivəsində şirkətin maliyyə dəstəyi ilə kitabxananın tam elektronlaşdırılması layihəsinə başlanılmışdır. Elektron kitabxana üçün proqram təminatı, informasiya idarəetmə sistemi, zəruri avadanlıqlar alınmışdır. Layihə yekunlaşmaq mərhələsindədir.

Elmi Kitabxananın daimi qeydiyyatda olan oxucularının sayı 10610 nəfərdir: bunlardan 2130 nəfəri akademik heyət, 8480 nəfəri isə təhsilalanlardır. Oxucular 655125 dəfə xidmətdən istifadə etmiş, onlara ədəbiyyat verilişi isə 954624 dəfə olmuşdur. Elektron resurslardan istifadə edən oxucuların sayı 10000 nəfərdən çoxdur.

2022-ci ildə Elmi Kitabxananın fonduna müxtəlif mənbələrdən 12000 nüsxədən çox sənəd (qəzetlər istisna olmaqla) daxil olmuşdur.

Elmi Kitabxana bir çox ali məktəb kitabxanalarında, məsələn, 2022-ci ildə Azərbaycan Dövlət İqtisad Universiteti, Azərbaycan Dillər Universiteti, Bakı Biznes Universiteti və Dövlət Gömrük Komitəsinin Akademiyasında professor-müəllim heyəti, magistr və tədqiqatçılar üçün "Akademik bazalardan istifadə və nəşr imkanları" adlı təlim-seminar keçirmişdir.

Elmi Kitabxana Mübadilə-ehtiyat fondundan bir çox ali məktəb kitabxanalarına kitab hədiyyələri edir. Son iki ildə Naxçıvan Dövlət Universitetinin, Lənkəran Dövlət Universitetinin, ADA Universitetinin, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin, Sumqayıt Dövlət Universitetinin, BDU-nun nəzdində İqtisadiyyat və Humanitar Kollecin kitabxanasına kitablar hədiyyə edilmişdir.

Elmi Kitabxananın beynəlxalq nəşriyyatlarla əməkdaşlığı sayəsində istifadəçilər üçün 13 000-dən çox elektron jurnal, 8 000-ə yaxın elektron kitab və müxtəlif məzmunlu məlumat bazalarından istifadə imkanı yaradılmışdır. 2022-ci ildə Elmi Kitabxananın oxucuları daha çox "Academic Search Premier", "MasterFILE", "GreenFILE", "Library", "İnformation Science & Technology Abstracts", "Business Source Premier", "eBooks" məlumat bazalarının elektron resurslarından istifadə etmişdir. Elmi Kitabxana tərəfindən EIFL.net Beynəlxalq konsorsiumu ilə əməkdaşlıq sayəsində "Brill" (333 jurnal), "Cambridge University" (387 jurnal), "Taylor and Francis" (127 jurnal), "Walter Kluwer Health" (2 jurnal) və s. nəşriyyatların 850-yə yaxın jurnallarında 50-60 % endirimli

qiymətlərlə (https://eifl.net/apcs) məqalə nəşri üçün Az.KİK çərçivəsində müqavilələr bağlanılmışdır.

Elmi Kitabxana tərəfindən BDU-nun professor-müəllim heyəti, gənc tədqiqatçıları və oxucularına 200 000-dən çox elektron kitabı əhatə edən "EBSCO eBook Akademik Kolleksiyası"ndan, "IEEE Xplore Rəqəmsal Kitabxana"sının resurslarından ödənişsiz istifadə imkanı təqdim edilmiş, Beynəlxalq nəşriyyatların resurslarından istifadə qaydalarına, o cümlədən "Sage" nəşriyyatında məqalə nəşrinə dair 6 aylıq silsilə onlayn təlim-seminarlar keçirilmişdir.

Kitabxananın "EBSCO Host" elektron nəşriyyatına 2022-ci il üçün abunə yazılışı və EIFL.net beynəlxalq konsorsiumuna üzvlüyü BDU ilə müqavilələr bağlanılmaqla təmin edilmişdir. "EBSCO Host" ödənişli nəşriyyatdır, abunə müddəti 2022-ci ilin aprel ayından 2023-cü ilin aprel ayına qədər olan dövrü əhatə etməklə, 8 516-sı resenziyalı olmaqla, cəmi 11 000 ictimai, humanitar, kompüter elmləri, mühəndislik (neft, qaz və s.), fizika, kimya, nəqliyyat və s. elm sahələrini əhatə edən jurnalların yerləşdiyi verilənlər bazasının və 2 700-dən artıq kitab və broşürlar, 510 adda qəzetin BDU oxucularının istifadəsinə verilməsini təmin etmişdir.

http://search.epnet.com linki vasitəsilə aşağıda adları çəkilən resurslara giriş əldə edilmişdir:

– Academic Search Premier
– Business Source Premier
– Regional Business News
– Master File Premier
– Library, Information Science & Technology Abstracts
– GreenFILE
– ERIC, the Education Resource Information Center
– Health Source - Consumer Edition
– Health Source: Nursing/Academic Edition
– MEDLINE
– Newspaper Source
– eBook Open Access (OA) Collection (EBSCO Host).

"EBSCOhost" şirkəti ilə əməkdaşlıq çərçivəsində nəşriyyatlarla danışıqlar aparılaraq, müqavilələr əsasında son illərdə BDU oxucularının aşağıda adları qeyd edilən digər məlumat bazalarından ödənişsiz istifadəsi təmin olunmuşdur:

– "Oxford University" - "Academic.oup.com/journals/pages/librarians"
– "IOP" – journals, iopscience.org/jpco, books – physicsworlddiscovery.org
– "Cambridge University" – "Cambridge International Law Journal";
– Beynəlxalq Valyuta Fondunun elektron kitabxanası, https://www.elibrary.imf.org/;
– "Duke University Press" jurnalları;
– "EBSCO Open Dissertations" – bu bazalardan Elmi Kitabxananın veb səhifəsindən istifadə imkanı təmin edilmişdir;
– "Polpred".

Elmi Kitabxana müqavilə əsasında "Polpred.com" - işgüzar kütləvi informasiya vasitələri elektron kitabxana sistemindən 2022-ci il üçün pulsuz istifadə imkanı qazanmışdır.

| |
|---|
| **2017**<br>EBSCO Host: Http://search.epnet.com<br>EBSCO DISSERTATIONS<br>BioOne<br>Edward Elgar Publishing<br>Edward Elgar Journals &Development Studies E-books<br>Academic.oup.com/journals/pages/librarians<br>Royal Society Journals and Archive<br>IOP-Open Access Journals<br>Duke University Press<br>Polpred |
| **2018**<br>EBSCO Host: Http://search.epnet.com<br>EBSCO DISSERTATIONS<br>BioOne<br>Edward Elgar Publishing<br>Edward Elgar Journals &Development Studies E-books<br>Academic.oup.com/journals/pages/librarians<br>Royal Society Journals and Archive<br>IOP-Open Access Journals<br>Duke University Press<br>Polpred |
| **2019**<br>EBSCO Host: Http://search.epnet.com<br>EBSCO DISSERTATIONS<br>BioOne<br>Edward Elgar Publishing<br>Edward Elgar Journals &Development Studies E-books<br>Academic.oup.com/journals/pages/librarians<br>Royal Society Journals and Archive<br>IOP-Open Access Journals<br>Duke University Press<br>Polpred |
| **2020**<br>Clarivate Analytics<br>EBSCO Host: Http://search.epnet.com<br>EBSCO DISSERTATIONS<br>BioOne<br>Edward Elgar Publishing<br>Edward Elgar Journals &Development Studies E-books<br>Academic.oup.com/journals/pages/librarians<br>Royal Society Journals and Archive<br>IOP-Open Access Journals<br>Duke University Press<br>Polpred |
| **2021**<br>Clarivate Analytics |

EBSCO Host:   Http://search.epnet.com
EBSCO DISSERTATIONS
BioOne
Edward Elgar Publishing
Academic.oup.com/journals/pages/librarians
Royal Society Journals and Archive
IOP-Open Access Journals
Duke University Press
Polpred

**2022**
Clarivate Analytics
http://search.epnet.com
EBSCO DISSERTATIONS
Oxford University  -  Academic.oup.com/journals/pages/librarians
Royal Society Publications
IOP – journals, iopscience.org/jpco, books – physicsworlddiscovery.org
IMF eLibrary
Cambridge University – Cambridge International Law Journal,
Duke University Press jurnalları
Polpred

Elmi Kitabxananın fondunda çox qiymətli, nadir elmi və milli əhəmiyyətə malik 2 143 463 nüsxə ədəbiyyat saxlanılır. Bunlardan:

| İllər | Ümumi Fond | İl ərzində daxilolmalar | Yenilənmə (faizlə) | Tədris fondu | Daxil-olma | Elmi fond | Daxil-olma | Mübadilə-ehtiyat fondu | Daxil-olma |
|---|---|---|---|---|---|---|---|---|---|
| 2017 | 2119776 | 11819 | 0,6% | 633662 | 2871 | 1099421 | 4464 | 47672 | 1555 |
| 2018 | 2115543 | 7529 | 0,4% | 634162 | 1092 | 1093857 | 2338 | 45777 | 1373 |
| 2019 | 2124877 | 10575 | 0,5% | 635532 | 1532 | 1100232 | 6445 | 45639 | 832 |
| 2020 | 2128853 | 5127 | 0,3% | 636719 | 1286 | 1101884 | 1682 | 45808 | 1191 |
| 2021 | 2137823 | 12431 | 0,6% | 637709 | 1627 | 1103897 | 2257 | 49208 | 3320 |
| 2022 | 2143463 | 12252 | 0,6% | 639796 | 2443 | 1107221 | 3442 | 53773 | 4565 |

Elmi Kitabxanada 1107221 nüsxə elmi, 639796 nüsxə tədris ədəbiyyatı qorunur, mübadilə-ehtiyat fondu isə 53773 nüsxə ədəbiyyatdan ibarətdir. Ümumi fondun 30%-ni tədris ədəbiyyatı, 52%-ni elmi ədəbiyyat, 2,5%-ni mübadilə-ehtiyat fondu, 15,5%-ni isə xüsusi növ ədəbiyyat (dissertasiya, avtoreferat və s.) təşkil edir. Çap şəklində olan kitab fondunun dillər üzrə bölgüsü:

| İllər | Ümumi fond | Azərbaycan | Daxil-olma | Rus | Daxil-olma | İngilis | Daxil-olma | Digərləri |
|---|---|---|---|---|---|---|---|---|
| 2017 | 2119776 | 341282 | 7901 | 1656647 | 824 | 22198 | 97 | 36759 |
| 2018 | 2115543 | 337772 | 4247 | 1653047 | 400 | 22309 | 111 | 36834 |
| 2019 | 2124877 | 345386 | 7776 | 1653608 | 671 | 22421 | 112 | 37406 |
| 2020 | 2128853 | 349173 | 3893 | 1653789 | 202 | 22478 | 57 | 37419 |
| 2021 | 2137823 | 354743 | 6236 | 1654100 | 524 | 22861 | 385 | 37513 |
| 2022 | 2143463 | 357483 | 6780 | 1655371 | 1798 | 22985 | 124 | 36706 |

Elmi Kitabxanada 357483 nüsxə Azərbaycan, 1655371 nüsxə rus, 22985 nüsxə ingilis, 36706 nüsxə isə digər xarici dillərdə olan ədəbiyyat saxlanılır. Kitabxananın ümumi fondunun 16,7%-i Azərbaycan dilində, 77,2%-i rus dilində, 2,5%-i ingilis dilində və 3,6%-i isə digər dillərdədir.

Ümumi kitabxananın fondunda nəşr növü və tipinə görə ədəbiyyatların statistik göstəricisi:

| İllər | Ümumi Fond | Kitab (çap və elektron) | Daxil olma | Bədii ədəbiy. | Daxil olma | İctimai-siyasi ədəbiy. | Daxil olma | Jurnallar | Daxil olma | Dissertasiya | Daxil olma | Avtoreferat | Daxil olma |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| 2017 | 2119776 | 1733082 | 8890 | 212593 | 373 | 859402 | 1508 | 226810 | 1868 | 5878 | 82 | 76961 | 266 |
| 2018 | 2115543 | 1728018 | 4803 | 212815 | 222 | 860682 | 1280 | 228341 | 1531 | 5974 | 96 | 77333 | 372 |
| 2019 | 2124877 | 1735764 | 8849 | 215068 | 2253 | 862777 | 2185 | 228689 | 348 | 5974 | - | 77333 | - |
| 2020 | 2128853 | 1738603 | 4159 | 215100 | 32 | 864958 | 2181 | 229131 | 442 | 5974 | - | 77348 | 15 |
| 2021 | 2137823 | 1741606 | 7204 | 215354 | 254 | 868772 | 3814 | 230962 | 3460 | 6000 | 26 | 77507 | 159 |
| 2022 | 2143463 | 1794162 | 8946 | 215459 | 105 | 871844 | 3072 | 231582 | 2665 | 6057 | 57 | 78034 | 527 |

Elmi Kitabxanada 1794162 nüsxə çap və elektron daşıyıcıda olan kitab, 215459 nüsxə bədii ədəbiyyat, 871844 nüsxə ictimai-siyasi ədəbiyyat, 231582 nüsxə jurnal, 6057 nüsxə dissertasiya, 78034 nüsxə avtoreferat qorunur. Kitabxananın ümumi fondunun 81,2%-i çap və elektron daşıyıcıda olan kitablardan, 11%-i jurnallardan, 0,3%-i dissertasiyalardan, 3,7%-i avtoreferatlardan və 3,8%-i isə digər nəşrlərdən ibarətdir.

Nadir kitablar və əlyazmalar fondunda Qafqaz və Şərq ölkələrinin ədəbiyyatına, tarixinə, mədəniyyətinə, incəsənətinə və coğrafiyasına aid Azərbaycan, rus, ərəb, fars, türk, ingilis, fransız, alman, urdu və s. dillərdə nadir nüsxə kitab, jurnal və XIII-XVIII əsrlərə aid 96 nüsxə qiymətli əlyazma saxlanılır. Fondda qorunan 287 adda nadir və qiymətli nəşr Azərbaycan Respublikasının milli-mədəni sərvətlər reyestrinə daxil edilmişdir.

Kadr hazırlığı aparılan ixtisasların spesifik xüsusiyyətlərinə uyğun təchiz olunmuş tədris və elmi-tədqiqat laboratoriyaları, linqafon kabinetləri, akt zalları, muzeylər və s. mövcuddur.

Kadr hazırlığının yüksək səviyyədə aparılması üçün zəruri əyani vəsaitlər, qurğu və avadanlıqlarla təchiz edilmiş tədris laboratoriyaları ilə yanaşı, elmi-tədqiqat laboratoriyalarının, Tədqiqat, İnkişaf və İnnovasiyalar üzrə Mükəmməllik Mərkəzinin Nanoaraşdırmalar, Rəqəmsal araşdırmalar, Sənaye kimyası, Mikrobiologiya və virusologiya, Biomühəndislik, Ekoloji kimya və ətraf mühitin mühafizəsi elmi-tədqiqat laboratoriyalarının, Tələbə elmi-texniki yaradıcılıq Mərkəzinin, elmi-tədqiqat mərkəzlərinin, tədris-təcrübə mərkəzlərinin maddi-texniki bazasından səmərəli istifadə olunur.

Faydalı qazıntılar Muzeyində tələbələrin geologiya ixtisasına dərindən yiyələnmələri üçün mineralogiya, petroqrafiya, faydalı qazıntılar üzrə zəngin kolleksiya toplanmışdır. Orijinal tematik strukturu olan Muzeydə tələbələrin geologiya və geologiya mühəndisliyi ixtisaslarını hərtərəfli mənimsəmələri üçün mineralogiya, kristalloqrafiya, petroqrafiya, faydalı qazıntılar və digər fənlər üzrə mütəmadi zəngin kolleksiyalar, tematik sərgilər və ekspozisiyalar təşkil edilir.

Biologiya fakültəsinin tələbələri Qafqazda ilk və yeganə muzey olan “Təkamül Muzeyi”ndə təkamül təliminə müvafiq olaraq təlimin dinamikasını 200-dən çox eksponatdan ibarət əyani vəsaitlər əsasında öyrənirlər.

Tarix fakültəsinin tələbələrinə Azərbaycanın qədim və orta əsrlər tarixi, arxeologiya və etnoqrafiya dərsləri Arxeologiya və etnoqrafiya Muzeyində maddi mədəniyyət nümunələri əsasında tədris etdirilir.

BDU-da yüksək ixtisaslı kadr hazırlığını həyata keçirmək üçün əyani vəsaitlərlə, müxtəlif ölçmə və tədqiqat avadanlıqları ilə təchiz edilmiş 54 tədris laboratoriyasından istifadə olunur. Təcrübi məşğələlər, laboratoriya işləri, bir qayda olaraq, tədris laboratoriyalarında keçirilir.

Universitetin Quba Tədris-Təcrübə və İstirahət Mərkəzi və Altıağac Tədris-Təcrübə Bazası fəaliyyət göstərir.

Quba rayonunun 2-ci Nügədi kəndində dağ və çayla əhatə olunmuş 9 ha sahədə 7500 kv.m. sahəni əhatə edən BDU-nun Quba Tədris-Təcrübə və İstirahət Mərkəzi 4 mərtəbəli bina və yardımçı binalara, stadion, tələbələrin təcrübə aparması üçün geniş əraziyə malikdir. Binada 136 otaq, 350 çarpayı vardır. Tələbələrin təcrübə dövründə yaşaması üçün bütün zəruri şərait yaradılmışdır. Mərkəzin 150 yerlik, müasir tələblərə cavab verən avadanlıqlarla və inventarla təchiz olunmuş yeməkxanası fəaliyyət göstərir.

Qeyd olunmalıdır ki, COVID-19 pandemiyası ilə əlaqədar elan olunmuş xüsusi karantin rejimi dövründə BDU “Biz birlikdə güclüyük!” şüarı ilə həyata keçirilən ölkəmiqyaslı sosial layihəyə qoşularaq Mərkəzin imkanlarını TƏBİB-in istifadəsinə vermiş, ölkəmizə daxil olan vətəndaşlar burada karantin nəzarətində saxlanılmış, onların sosial-məişət şəraiti, yaşayışı, qidalanması, istirahəti təmin olunmuşdur.

Xızı rayonunun Altıağac qəsəbəsində yerləşən BDU-nun Altıağac Tədris-Təcrübə Bazası 6 ha ərazini əhatə edir. Burada tələbələrin təcrübə dövründə yaşaması üçün 15 kottec, 1 bina, 1 akt zalı və yeməkxana vardır. Burada eyni vaxtda 90 tələbənin yaşaması və təcrübə keçməsi nəzərdə tutulmuşdur.

BDU-nun Biologiya, Ekologiya və torpaqşünaslıq, Coğrafiya, Geologiya fakültəsinin tələbələri bu tədris-təcrübə bazalarında təcrübə keçirlər. Tələbələrin təcrübələrinin təşkili, eləcə də istehsalat-təcrübə bazalarına çatdırılması, yaşaması, qidalanması, təhlükəsizliyinin təmin olunması Universitet tərəfindən təmin olunur.

BDU-da distant təhsilin təşkili üçün zəruri infrastruktur mövcuddur.

Universitet 2021-ci ilin may ayından etibarən ABŞ-ın təhsildə informasiya texnologiyalarının tətbiqi sahəsində dünya lideri olan “Blackboard” şirkəti ilə əməkdaşlığa başlamışdır. 2020/2021-ci tədris ilindən başlayaraq “Blackboard” – tədrisin idarə edilməsi sisteminin tətbiqinə başlanılmışdır. Elektron idarəetmə sisteminin təkmilləşdirilməsi üçün bu sistemin “Blackboard Learn”, “Virtual Classroom Solution”, “Collaborate”, “Accessibility Solution” və “Blackboard Ally” kimi komponentlərindən istifadə olunur. Qısa zaman ərzində keçirilmiş təlimlər, qazanılmış bacarıqlar nəticəsində bakalavriat və magistratura səviyyələri üzrə tədris materiallarının elektron qaydada sistemə yüklənməsi, tələbələrə operativ çatdırılması, “Blackboard Collaborate” platforması vasitəsilə tədris prosesinin onlayn qaydada təşkili həyata keçirilir. Tələbələr sistem üzərindən qiymətləndirilir, dərslərin videoyazılışı aparılır və tələbələrin davamiyyəti sistem tərəfindən avtomatik qaydada yoxlanılaraq şəxsi kabinetlərdə öz əksini tapır. Eyni zamanda, mobil tətbiq vasitəsilə məlumatların daha rahat əldə edilməsi təmin edilir. Gündəlik olaraq tələbə və

müəllimlərin aktivliyi təhlil olunur, sistemə giriş zamanı çətinlik yaşayan tələbələr üçün video təlimatlar hazırlanaraq təqdim edilir. Fərdi qaydada problemin həlli, "Qaynar xətt" vasitəsilə çətinliyin aradan qaldırılması istiqamətində işlər görülür. Bundan başqa, BDU-nun professor-müəllim heyətinə "Blackboard" - tədrisin idarəedilməsi sisteminin imkanları barədə təlimlər keçirilir.

Universitetdə təhsilalanların, əməkdaşların və struktur bölmələrinin istifadəsində 23 nəqliyyat vasitəsi vardır.

24, 15 və 8 nəfərlik avtobuslar əməkdaşlar və tələbələrin daşınması, böyük və kiçik qabaritli yük maşınlarından yüklərin nəqli üçün isitifadə olunur. Universitetin mülkiyyətində olan ekskavatorla müxtəlif kommunal, təmir-tikinti işləri görülür. Universitetin tədris-təcrübə bazaları da nəqliyyat vasitələri ilə təmin olunmuşdur.

Nəqliyyat xidmətlərinin təhlükəsizliyinin təmin edilməsi məqsədilə nəqliyyat vasitələrinin daim saz vəziyyətdə saxlanılması üçün ixtisaslaşmış təşkilat tərəfindən vaxtlı-vaxtında onlara texniki xidmətlərin göstərilməsi təmin edilir.

BDU-nun tədris infrastrukturundan təhsilalanlar və əməkdaşlar bərabərhüquqlu, heç bir məhdudiyyət olmadan istifadə edə bilərlər.

Tədris, təlim-tərbiyə prosesi ilə yanaşı, təhsilalanlar və əməkdaşlar elmi tədqiqatlar aparmaq üçün laboratoriyaların imkanlarından faydalana bilərlər. Eləcə də sosial layihələrin, ictimai təşəbbüslərin, mədəni-kütləvi, idman tədbirlərinin keçirilməsi üçün auditoriya, laboratoriya, idman zalı və qurğuları, akt zalı, muzeylər və s. istifadəyə sərbəst şərait yaradılmışdır.

Universitetdə sağlamlıq imkanları məhdud şəxslər üçün uyğunlaşdırılmış tədris infrastrukturu mövcuddur. Tələbələrin fərdi xüsusiyyətlərindən və hazırlıq səviyyəsindən asılı olaraq, onların maneəsiz təhsil almalarına imkan yaradılır.

Sağlamlıq imkanları məhdud tələbələr üçün xüsusi yanaşma tətbiq olunur:

- təhsilin bütün mərhələlərində mühazirə və məşğələlərdə qruplarda tələbələrlə birgə iştirak etməklə onların Universitet mühitinə inteqrasiyası;
- tədris infrastrukturunun onlar üçün əlçatanlığının təmin olunmsı;
- onların maneəsiz hərəkəti üçün lazımi şəraitin yaradılması;
- kollektivçilik ruhunun aşılanması.

Sağlamlıq imkanları məhdud tələbələr üçün:

- laboratoriyalarda fərdi və kollekiv istifadə üçün nəzərdə tutulan texniki vasitələrdən istifadə;
- texniki və psixoloji kömək göstərmək üçün könüllü tələbələrdən assistentlərin ayrılması;
- tədris korpuslarına maneəsiz daxil olma;
- yaradıcı kollektivlərdə və idman seksiyalarında iştirak;
- məhəccərlər, tutacaqlar, panduslar və s. təmin olunur

Əməkdaş və tələbələrə iaşə xidmətinin səviyyəsinin yüksəldilməsi məqsədilə BDU-nun yeməkxanaları 2019-cu ildə yenidən qurulmuş, tədris korpuslarında yerləşən yeməkxanalar əsaslı təmir edilərək müasir standartlara cavab verən iaşə avadanlıqları ilə təchiz edilmişdir. Tələbə kontingentinin sayını nəzərə alaraq bəzi mərtəbələrdə bufetlər istifadəyə verilmişdir. Yeməkxana və bufetlərdə sanitar-gigiyena normalarına və qida təhlükəsizliyi tələblərinə cavab verən şərait yaradılmışdır.

“Dövlət-özəl tərəfdaşlığı” çərçivəsində yenidən qurulan yeməkxanaların fəaliyyəti və təchizatı Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 3 avqust tarixli 171 nömrəli Qərarı ilə təsdiq edilmiş “Təhsil müəssisələrinin tikintisinə, maddi-texniki təchizatına dair vahid normalar, ümumi sanitariya-gigiyena tələbləri, şagird yerləri ilə təminat normativləri”nə (https://e-qanun.az/framework/24095)  uyğun təşkil edilmişdir.

Universitetin xammalla işləyən yeməkxanalarında normativ sənədlərə uyğun, isti bölüm, soyuq qəlyanaltı və salatların hazırlanması üçün sahə, ət, toyuq və balıq emalı sahəsi, qənnadı (şirniyyat) məhsullarının hazırlanması sahəsi, tərəvəzlərin ilkin emalı bölümü, yeməkxana və mətbəx qab-qacağının yuyulması sahəsi, ət və saxlama müddəti az olan (tez xarab olan) məhsulların saxlanılması üçün soyuducu kameralar, yeməkxananın personalı üçün nəzərdə tutulmuş nömrələnmiş dolabları olan paltardəyişmə otaqları (kişi və qadın),  personal üçün nəzərdə tutulmuş sanitar qovşaq, yük anbarı mövcuddur. Yeməkxana və bufetlərin bütün sahələri və avadanlıqları, havalandırma və isitmə sistemləri, sanitar-gigiyenik şərait mövcud normativ sənədlərə uyğundur.

Əsas binanın yeməkxanasında (19&19 kafesi) tələbələrin bir dəfəyə əyləşməsi üçün 350 nəfərlik masa və oturacaqlar mövcuddur. Əməkdaşlar üçün nəzərdə tutulmuş yeməkxana 140 nəfərlik masa və oturacaqlar ilə təmin olunmuşdur. Bundan əlavə 25-35 nəfərlik tədbirlərin keçirilməsi üçün ayılmış otaqlar da vardır. Tələbə və müəllimlər üçün nəzərdə tutulmuş, standartlara uyğun sanitar qovşaqlar (kişi-qadın) mövcuddur.

3 saylı tədris korpusunun yeməkxanasında (Alfa kafe) bir dəfəyə 135 nəfərin, 1 saylı tədris korpusunun yeməkxanasında (Beta kafe) bir dəfəyə 125 nəfərin və 2 saylı tədris korpusunun yeməkxanasında (Qamma kafe) bir dəfəyə 140 nəfərin əyləşməsi üçün  masa və oturacaqlar mövcuddur.

Bütün yeməkxanalarda zalların havalandırılması HVAG sistemlə təmin olunmuşdur. İşçilərin gündəlik iş prosesinin izlənilməsi üçün təhlükəsizlik kameraları quraşdırılmışdır. Soyuq qəlyanaltılar və  isti yeməklərin saxlanılması üçün temperatura uyğun soyuq və isti benmarinlər mövcuddur. Quru məhsulların saxlanılması üçün əlavə anbar, qabların yuyulması üçün qabyuma sahəsi mövcuddur.

Universitetin həyətində tələbələrin asudə vaxtları üçün nəzərdə tutulmuş kafe 35 nəfərlik masa, oturacaq və avadanlıqlarla təmin olunmuşdur.

BDU ilə Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin Azərbaycan Qida Təhlükəsizliyi İnstitutu arasında bağlanılmış müqaviləyə müvafiq olaraq BDU-nun yeməkxanasında hazırlanan yeməklərin, qida məhsullarının təhlükəsizliyinə, emalı, qablaşdırılması, saxlanması və s. ciddi nəzarət olunur. İnstitut tərəfindən həftəlik olaraq monitorinq (qidaların analizi və s.) işləri aparılır, ayda bir dəfə olmaqla yeməkxana işçilərinə təlimlər verilir.

BDU-nun balansında Bakı şəhəri, İsfəndiyar Zülalov küçəsi, 74 ünvanında 2 ədəd doqquz mərtəbəli (54 və 109 otaqlı), Bakı şəhəri, Mətbuat prospekti, 36 ünvanında yerləşən Tələbə şəhərciyində 5 ədəd beş mərtəbəli (ilkin layihə üzrə hər binada 130 otaq olmuşdur) yataqxana olmuşdur. Lakin Ermənistanın Azərbaycana təcavüzü nəticəsində oz doğma torpaqlarından didərgin düşmüş soydaşlarımız, məcburi köçkün ailələri (850 nəfər) 2014-cü ilədək hər iki ünvanda yerləşən yataqxanalarda məskunlaşmışdır. Uzun müddət ərzində yataqxanalar baxımsız vəziyyətdə qalmış, əsaslı təmir olunmamış, yataqxana otaqlarının konstruksiyalarında icazəsiz dəyişikliklər edilmiş, infrastruktura

ciddi ziyan dəymişdir. Beş mərtəbəli binalardan biri tamamilə sökülmüş, biri yarısökülü, digərləri isə tam təmirsiz vəziyyətə düşmüşdür. Hazırda onlar istifadə üçün yararsızdır.

2021-ci ildə BDU-nun tələbə şəhərciyinin 1 nömrəli tələbə yataqxanası ("Tələbə Evi") yenidən qurulmuş, əsaslı təmir olunaraq istifadəyə verilmişdir. 5 mərtəbəli, 216 yerlik "Tələbə Evi" həm əcnəbi, həm də yerli tələbələr üçün nəzərdə tutulmuşdur. Yataqxanada 104 standart tələbə otağı və BDU-ya qısa müddətə səfərə gəlmiş qonaqlar üçün 2 qonaq otağı vardır. Şəhərciyin giriş hissəsindən yataqxanaya qədər yeni pantuslu pilləkənlər tikilmiş, işıqlandırma sistemi quraşdırılmış, ətrafında suvarma sistemi ilə təmin edilmiş müxtəlif növ ağaclar əkilərək yaşıllıq zolağı salınmışdır.

"Tələbə Evi"ndə müasir standartlara cavab verən şərait yaradılıb, otaqlar zəruri mebel, məişət avadanlıqları, istilik sistemi ilə təmin olunub. Burada zəruri ədəbiyyat və əyani vəsaitlərlə təchiz edilmiş kitabxana – oxu zalı, iclas otağı, asudə vaxt otağı, mətbəx, camaşırxana, İlk tibbi yardım məntəqəsi, bütün zəruri avadanlıqlarla təchiz edilmiş, 64 nəfərlik tutumu olan yeməkxana fəaliyyət göstərir. Yataqxananın həyətində tələbələrin asudə vaxtlarının səmərəli keçirilməsi üçün idman avadanlıqları quraşdırılıb, istirahət guşəsi yaradılıb.

İlk tibbi yardım məntəqəsi zəruri tibbi avadanlıq və dərmanlarla təchiz olunmuşdur, yataqxananın təhlükəsizliyinə kameralarla tam nəzarət edilir.

3 mərtəbədə 24 ikinəfərlik və 2 üçnəfərlik otaq mövcuddur. Otaqlar hər bir tələbə üçün fərdi, xüsusi dizayna və rəngə malik stol, stul, müasir yataq mebeli və qarderobla təmin olunmuşdur. Hər mərtəbədə iki mətbəx və iki məişət otağı tələbələrin xidmətindədir. Mətbəxdə tələbələrin rahatlığının təmin olunması üçün soyuducular və digər zəruri məişət avadanlıqları yerləşdirilmişdir. Otaqlar yüksək sürətli internet şəbəkəsi ilə təchiz edilmişdir.

Mərkəzi istilik sistemi ilə təchiz edilmiş yataqxananın bütün mərtəbələrində və otaqlarda yanğın əleyhinə avadanlıqlar quraşdırılmışdır.

BDU-nun Tələbə şəhərciyinin ərazisində yeni yataqxanaların tikilərək istifadəyə verilməsi, "Dövlət-özəl tərəfdaşlığı haqqında" Azərbaycan Respublikasının 2022-ci il 9 dekabr tarixli Qanununa əsaslanaraq, Asiya Bankının dəstəyi ilə "Tik-idarə et-təhvil ver" modeli çərçivəsində investisiyaların cəlb olunması yolları haqqında müzakirələr aparılır. 2000-3000 yerlik yataqxana kompleksinin tikilməsi planlaşdırılır.

BDU-da 1990-cı ildən təhsilalanlara və professor-müəllim heyətinə tibbi xidmət göstərmək məqsədilə 30 nömrəli şəhər poliklinikası fəaliyyət göstərir. Poliklinikada 16 həkim və 13 tibb bacısı çalışır.

Poliklinikada laboratoriya, terapiya, oftalmologiya, fizioterapiya, cərrahiyyə, stomatologiya, nevrologiya, revmotologiya, otorinolorinqologiya, ultrasəs müayinəsi, kardiologiya kabinetləri fəaliyyət göstərir. Kabinetlər zəruri tibbi avadanlıqlarla təchiz edilmişdir. Laboratoriyada biokimyəvi və klinik analizlərin aparılması işi təşkil olunur. BDU-nun nəzdindəki Gənc İstedadlar Liseyində poliklinikanın tibbi kabineti mövcuddur. Tibbi kabinetdə fəaliyyət göstərən həkim və tibb bacısı şagirdlər arasında mütəmadi tibbi müayinə işini həyata keçirirlər. Poliklinika Bakı Baş Səhiyyə Mərkəzi tərəfindən dərman məhsulları və lazımi tibbi ləvazimatlarla təmin olunur.

Kabinetlər üzrə terapiya şöbəsində 3 həkim terapevt, USM kabinetində 2 şüa diaqnostika həkimi növbəli iş rejimində çalışır. Həmçinin 1 həkim oftalmoloq, 1 həkim stomatoloq, 1 həkim fizioterapevt, 1 həkim nevropatoloq, 1 həkim revmatoloq, 1 həkim

otorinolorinqoloq, 1 həkim kardiloq, 1 həkim cərrah və 1 laboratoriya həkimi xidmət göstərir. “Gənc İstedadlar” Litseyində 1 həkim terapevt və 1 tibb bacısı çalışır.

Poliklinika müasir aparatlarla təchiz olunmuşdur. Poliklinikanın oftalmologiya kabinetində “Avtorefraktometr” cihazı vasitəsilə gözün refreksiyasının və eynəklərin düzgün təyini, “Biomokroskop” (Silit lampası) vasitəsi ilə gözün ön şöbələrinin (buynuz qişa, büllur və s.) müayinəsi, “Oftalmoskop” vasitəsi ilə gözdibinin müayinəsi, ”Tanometr” vasitəsi ilə gözdaxili təzyiqin ölçülməsi,” Vizometriya” cihazının köməyi ilə görmə faizinin təyini, linzalar vasitəsi ilə eynəyin təyini kimi müayinələr aparılır.

Stomatoloji kabinetdə karieslərin, pulpitlərin, peridontitlərin, diş əti xəstəliklərinin (parodontoz, qinqivit) müalicəsi, dişdaşı ərplərin təmizlənməsi, dişlərin ağardılması, dişlərin rentgen müayinəsi aparılır. USM kabinetində qarın boşluğu, kiçik çanaq orqanları, qalxanvari və süd vəzilərnin müayinəsi aparılır. Kardioloji kabinetdə üçkanallı elektrokardioqraf aparatı ilə ürəyin elektrokardioqraması çıxarılır. Fizioterapiya kabinetində ultrasəs terapiya aparatı, yüksək tezlikli cərəyan (UVC) aparatı, darsonval aparatı vasitəsilə oynaq xəstəlikləri, artroz, artrit, bel fəqərələrinin radikuliti, varikoz damar genişlənməsi, haymorit, rinit, tonzillit, travmalar və bəzi cərrahi əməliyyatlardan sonraki bərpa üçün prosedurlar təyin edilir.

Universitetdə informasiya-kommunikasiya texnika və texnologiyalarına İnformasiya Texnologiyaları Mərkəzi xidmət göstərir. Mərkəzin strukturu aşağıdakı kimidir:

- internet texnologiyaları şöbəsi;
- informasiya sistemləri və şəbəkələrinin inzibatçılığı şöbəsi;
- informasiya təhlükəsizliyi şöbəsi;
- texniki və proqram təminatı şöbəsi.

Universitetdə akademik, inzibati və tədris otaqları da daxil olmaqla ümumilikdə 200-dən çox kompüter vardır. Onlardan 800-ə qədəri auditoriya və tədris laboratoriyalarında quraşdırılmışdır. Fakültələrdə 25 kompüter laboratoriyası fəaliyyət göstərir. Proyektorla təmin edilmiş auditoriyaların sayı 84, ağıllı lövhələrlə təmin edilmiş auditoriyaların sayı isə 53-dür. Universitetdə istifadə olunan internet şəbəkəsinin maksimum sürəti 500 mbit/san, orta sürəti isə 10 mbit/san-dir. Bütün kompüterlərin internetə çıxışı təmin olunmuşdur. İnternetə çıxışı olan kompüterlərin sayının ümumi təhsilalanların sayının 6,5%-ni təşkil edir.

Ümumi auditoriyaların 56 %-inin internetə çıxışı təmin olunmuşdur. Əksər auditoriya və laboratoriyalarda keçirilən mühazirə, məşğələ və laboratoriya dərslərinin gedişini mərkəzləşdirilmiş video sistemlə izləmək mümkündür.

Tədris infrastrukturunun istifadəsinin monitorinqi Universitetin uyğun struktur bölmələri və Keyfiyyətin təminatı və monitoriq şöbəsi tərəfindən aparılır. İnfrastrukturdan istifadənin monitorinqinin nəticələri analiz edilir. Monitorinq zamanı meydana çıxan çatışmazlıq və qüsurların aradan qaldırılması üçün müvafiq addımlar atılır. Ehtiyaclar müəyyənləşdirilir, infrastrukturun möhkəmləndirilməsi üçün təkliflər verilir.

# 7. BEYNƏLMİLƏLLƏŞMƏ

## 7.1. Beynəlmiləlləşmə siyasəti

“Baki Dövlət Universitetinin beynəlmiləlləşmə siyasəti” (bundan sonra - Siyasət) sənədi “Universitet-5.0” hədəfli ümumi inkişaf strategiyasına, BDU-nun 2021-2030-ci illəri əhatə edən Strateji İnkişaf Planının (SİP) Beynəlmiləlləşmə istiqaməti üzrə nəzərdə tutulmuş strateji hədəflərinə, “Bakı Dövlət Universitetinin 2014-2020-ci illər üzrə İnkişaf Proqramı”na uyğun olaraq hazırlanmışdır. Yenilənmiş Siyasət sənədi BDU-nun Elmi Şurasının 2021-ci il 28 dekabr tarixli iclasında müzakirə edilərək (Protokol №12) təsdiq edilmişdir.

Siyasətdə qarşıya qoyulmuş başlıca məqsədlərdən biri ölkədə lider universitet mövqeyini qoruyub saxlamaqla yanaşı regionda elm-təhsil üçün dünya səviyyəli bir platformaya çevrilməkdir. Siyasət sənədi SİP-də əksini tapan strateji hədəflərə çatmaq üçün həyata keçirilməsi nəzərdə tutulan müvafiq tədbirləri özündə əks etdirən “yol xəritəsi” olaraq aşağıdakı prioritetləri özündə əks etdirir:

- beynəlxalq fəaliyyət dairəsini genişləndirmək, dünyanın tanınmış aparıcı ali təhsil müəssisələri, beynəlxalq assosiasiyaları və təşkilatları ilə akademik, elmi-tədqiqat və sosial-mədəni əməkdaşlıq imkanlarını artırmaq və beynəlxalq reytinqlərdə ən aparıcı universitetlər sırasına daxil olmaq;
- regionda və dünyada BDU-ya olan etimadı daha da artırmaq;
- beynəlxalq mobillik proqramları üzrə tələbə və akademik-inzibati heyətin mübadiləsi və beynəlxalq ikili diplom proqramları portfelini genişləndirmək;
- keyfiyyət meyarlarına xüsusi diqqət yetirməklə, əcnəbi tələbə sayını artırmaq;
- beynəlxalq şirkətlərdə təhsilalanlar üçün müxtəlif sahələr üzrə müvafiq təcrübələri təşkil etmək;
- Elmi Kitabxana resurslarını rəqəmsal və müxtəlif xarici dillərdə dərc olunmuş ədəbiyyatlarla zənginləşdirmək;
- beynəlxalq tələblərə uyğunlaşdırılan və beynəlxalq akkreditasiyadan keçən ixtisasların, tədris proqramlarının sayını artırmaq;
- tədris və təlim prosesinə, elmi-tədqiqat fəaliyyətinə cəlb edilən əcnəbi müəllimlərin və tədqiqatçıların sayını artırmaq;
- xarici universitetlərlə ortaq elmi-tədqiqat işlərinə cəlb olunan alim və tədqiqatçılarının sayının artırılmasına maliyyə və inzibati dəstək vermək;
- əcnəbi məzunların assosiasiyasını yaratmaq.

Siyasətin qanunvericilik bazası ölkədə elm və təhsil siyasəti üzrə mövcud qanunvericiliyə, o cümlədən, SİP-də də sadalanan müvafiq qanunlara və normativ hüquqi aktlara, həmçinin, ikili diplom proqramlarının və beynəlxalq tələbə mübadiləsinin həyata keçirilməsi üzrə fəaliyyətdə və əcnəbi tələbələrin qəbulunda tətbiq edilən bir sıra qərarlara və qaydalara (https://e-qanun.az/framework/27030, https://e-qanun.az/framework/43666, https://e-qanun.az/framework/29964, https://e-qanun.az/framework/38336, https://e-qanun.az/framework/38102) əsaslanır.

2021-2030-cu illər üçün Beynəlmiləlləşmə istiqamətində əsas effektivlik göstəriciləri (Key Performance Indicators (KPI)) aşağıdakılardır:

- BDU-nun əməkdaşları və tələbələrin akademik mübadilə proqramlarında iştirak sayının daha da artırılması;
- Dünyanın nüfuzlu universitetləri ilə ikili diplom və ortaq layihələr istiqamətində əməkdaşlığın inkişaf etdirilməsi (hər il minimum 2-3 proqram olmaqla);
- Əcnəbi təhsilalanların sayının ümumi tələbə sayına nisbətinin artırılması;
- Əcnəbi müəllimlərin sayının akademik heyətin sayına nisbətinin artırılması;
- Beynəlxalq elmi-tədqiqat qrantlarının sayının artırılmasına nail olunması;
- 2030-cu ilə kimi ali təhsil müəssisələrinin THE, QS və digər reytinqlərinin müəyyən nominasiyaları üzrə BDU-nun 250-500-cü yerlərə yüksəldilməsinə nail olunması.

Siyasətin mühim tərkib hissələrindən biri olaraq BDU-da mübadilə proqramlarının sayının artırılması Siyasət sənədinin 3.1-ci maddəsində məqsəd olaraq qeyd olunmuş və 7-ci maddədə isə prioritet olaraq müəyyən olunmuşdur. Bu hədəf Erasmus+ proqramlarının təşviqini və sayının artırılması ilə bağlı Azərbaycanda Milli ERASMUS+ Ofisi ilə sıx əməkdaşlığı nəzərdə tutur. Bu baxımdan, 2021-ci il 21 aprel, 2021-ci il 15 dekabr, 2022-ci il 16 dekabr tarixlərində müxtəlif təlim və görüşlərdə iştirak təmin olunmuşdur. 2020-ci ilin 25 sentyabr tarixində maraqlı tərəflərin iştirakı ilə (prorektorlar, müşavirlər, dekanlar, tələbə təşkilatları və s.) iclas keçirilmiş və mübadilə proqramları ilə bağlı elanların Universitetin rəsmi saytında mövcud olan elanlar bölümündə verilməsi, sonra isə fakültələrin saytında və sosial şəbəkə hesablarında yerləşdirilməsi ilə bağlı qərar qəbul olunmuşdur. Tədris proqramının tərkib hissəsi olaraq tələbələrin, müəllimlərin, tədqiqatçıların tərəfdaş universitetlərə səfərlərinin stimullaşdırılılması məqsədilə Azərbaycanda Milli ERASMUS+ Ofisinin rəhbərinin, BDU-nun Beynəlxalq əlaqələr şöbəsinin mütəxəssislərinin Universitetdə keçirdiyi çoxsaylı təlimlər mübadilə proqramlarının təşviqi baxımından mühüm rola malikdir.

BDU rəhbərliyinin xarici ölkələrin Azərbaycandakı fövqəladə və səlahiyyətli səfirləri, diplomatik nümayəndələri, beynəlxalq təşkilatların rəsmiləri ilə mütəmadi görüşləri, onların Universitetdə təşkil edilən tədbirlərdə iştirakları mübadilə proqramlarının, müqavilələrin, əcnəbi təhsilalanların sayının artırılmasında təşviqi baxımından əhəmiyyətlidir.

Bəzi istinadlar aşağıda verilir:

- BDU ilə Ankara Universiteti arasında Akademik Əməkdaşlıq Protokolunun imzalanması;
- BDU əməkdaşlarının Eskişehir Texniki Universitetində “Erasmus+ Təlim İşçilərinin Mobillik Proqramı-KA107” təlimində iştirakı;
- BDU ilə Çex Respublikasının Karlova Universiteti arasında Erasmus mübadilə protokolunu imzalanması;
- BDU-nun “Erasmus+” mübadilə proqramında iştirak edən tələbəsinin təəssüratları;
- Rzeszow Universitetinin Erasmus+KA107-2020 proqramı üçün qəbul elanı

Hesabat dövründə BDU-da Avropa, Asiya, Afrika və Latın Amerikası ölkələrinin vətəndaşları təhsil almışlar. Hal-hazırda BDU-da 30 ölkədən olan tələbələr təhsil alır.

**Hesabat illəri üzrə BDU-nun hazırlıq kursları və təhsil səviyyələri üzrə əcnəbilərin qəbul dinamikası**




Hesabat dövrü ərzində BDU-da təhsil alan əcnəbilərin say göstəricisində izlənən dinamikanın təhlili müəyyən dövrdə azalmanın əsas səbəblərinin obyektiv kənar amillərə bağlı olduğunu göstərir. Belə ki, bu amillərdən 2020-ci ildən davam edən COVİD-19 pandemiyasını, beynəlxalq arenada mövcud olan qeyri-sabit siyasi-iqtisadi şəraiti və s. göstərmək olar. Digər tərəfdən, son illərdə qəbul prosesində namizədlərin keyfiyyət göstəricisinə xüsusi diqqət yetirilməsi də rəqəmlərə öz təsirini göstərmişdir. Göründüyü kimi, tədqiqat universiteti kimi formalaşmış BDU-da doktorantura təhsil səviyyəsi üzrə hazırlanan əcnəbi kadrların sayı artır. Hazırlıq yolu ilə qəbul olunan əcnəbilərin sayının artması isə  keyfiyyət üçün zəmin yaradır.

BDU-da təhsil alan əcnəbilərin tədris illəri üzrə statistikası aşağıdakı diaqramda verilmişdir.




BDU-ya əcnəbi təhsilalanların cəlbi istiqamətində aşağıdakı müvafiq tədbirlər həyata keçirilir:

- əcnəbilərə müasir standartlara cavab verən yataqxana xidmətləri təklif olunur (http://bsu.edu.az/az/news/bdunun_yeni_tlb_evi_masir_standartlara_cavab_verir);
- beynəlxalq əmək bazarının tələblərinə cavab verən yeni tədris proqramları yaradılır (http://bsu.edu.az/az/news/bduda_yeni_ixtisaslar_almas_nzrd_tutulur;

http://bsu.edu.az/az/news/bak_dvlt_universitetind_yeni_ixtisaslar_alb;
http://bsu.edu.az/az/news/bdu_elmi_urasnn_yeni_tdris_ilind_ilk_iclas);

- “Study in Azerbaijan” layihəsi çərçivəsində təbliğat-təşviqat işləri aparılır – məsələn, “Vətəndə təhsil” adlı görüşdə (https://edu.gov.az/az/announcements/16220-1) və Malayziya vətəndaşlarının Azərbaycan ali təhsil müəssisələri ilə tanışlığına həsr olunmuş tədbirdə (https://edu.gov.az/az/announcements/18915-1) BDU təqdimatlarla təmsil edilib;
- BDU beynəlxalq təhsil sərgilərində iştirak edir, məsələn, sonuncu olaraq BDU İstanbul Kent Universitetində keçirilən beynəlxalq təhsil sərgilsində təmsil olunub (http://bsu.edu.az/az/news/bdu_trkiyd_azrbaycan_universitetlrinin_srgisind_tmsil_olunur);
- Əcnəbi təhsilalanların məmnunluğunun müəyyən olunması məqsədilə Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin təşkil etdiyi sorğularda BDU-da təhsil alan əcnəbi tələbələrin iştirakı təşkil olunub (hesabatın 7.4.1-ci bəndində ətraflı şərh olunub);
- “Study in Azerbaijan” layihəsi çərçivəsində Azərbaycanda təhsilə təşviq edən videoçarxa BDU-dan olan əcnəbi tələbənin müsahibəsi də daxil edilmişdir (https://www.youtube.com/watch?v=fl-t2W_wePs).
- əcnəbi tələbələr üçün onlayn formatda müsahibələr, görüşlər və s. keçirilib.

BDU əcnəbilərin Azərbaycanda təhsili üçün imkanların genişləndirilməsi, eləcə də təşviqi istiqamətində aparılan işlərin davamı olaraq istifadəyə verilən və mərkəzləşmiş elektron müraciət xidməti təqdim edən “portal.edu.az” sisteminə qoşulub. BDU tərəfindən əcnəbilər üçün təklif edilən proqramlara dair məlumatlar sistemə daxil edilib. Universitet tərəfindən əcnəbilərin müraciəti dəyərləndirildikdən sonra elektron qaydada qəbulu həyata keçirilir.

Hesabat dövrü ərzində Universitetdə təhsil alan əcnəbi vətəndaşların 65,9%-i humanitar və sosial ixtisaslar qrupu üzrə, 17,1%-i təbiət ixtisasları qrupu, 8,5%-i təhsil ixtisasları qrupu, 6,9%-i iqtisadiyyat və idarəetmə ixtisasları qrupu, 1,5%-i isə texniki və texnoloji ixtisas qrupu üzrə BDU-ya qəbul olunub.

Əcnəbi təhsilalanların ixtisas qrupları üzrə bölgüsü diaqramda göstərilmişdir.



Hesabat dövrü ərzində qəbul olunan əcnəbilərin təhsil xətti üzrə bölgüsü aşağıda göstərilmişdir.




Qeyd olunmalıdır ki, Azərbaycan Respublikası Prezidentinin Sərəncamları ilə İslam Əməkdaşlıq Təşkilatına və “Qoşulmama Hərəkatı”na üzv dövlətlərin vətəndaşları üçün təsis edilən təhsil qrantı proqramı ilə Azərbaycanda təhsil hüququ qazanmış əcnəbilərin 13%-i BDU-da təhsil alır.

Hesabat dövrü ərzində əcnəbi tələbələrin təhsil səviyyələri, tədris dilləri statistikası və dinamikası aşağıdakı diaqramlarda verilmişdir:









Azərbaycandakı siyasi və iqtisadi sabitlik, təhlükəsizlik, tolerantlıq kimi mühüm faktorlar bütövlükdə ölkədə əcnəbi tələbələrin sayının artmasını şərtləndirən önəmli amillərdəndir. Digər tərəfdən, son illərin statistikasında müəyyən göstəricilər üzrə BDU-da müşahidə olunan müsbət dinamika Universitetə əcnəbi tələbə və müəllim cəlbinə diqqətin artırılmasının və təhsilin məzmununda beynəlxalq komponentlərin (tədris dili, ixtisas və s.) çoxalmasının nəticəsidir. Bu dinamika BDU-da göstərilən ali təhsil xidmətlərinin keyfiyyətinin artmasına birbaşa təsir edir və bu, qlobal əmək bazarına daxil olan əcnəbi BDU məzunlarının rəqabətqabiliyyətinin yüksəlməsini şərtləndirir.

Hesabat dövrü ərzində əcnəbi təhsilalanların statistik göstəricilərində qadınların üstünlük təşkil etməsi (~57%) də mühüm göstəricilərdəndir.

BDU rektorunun əcnəbi təhsilalanlarla mütəmadi görüşlərinin keçirilməsi, onları narahat edən məsələlərin operativ həlli istiqamətində müvafiq tədbirlərin görülməsi, əcnəbi tələbələrin elmi, mədəni-sosial tədbirlərdə, milli bayramlarda iştirakının təşkili, inzibati və professor-müəllim heyətinin xarici mətbuatda çıxışları, xarici ölkə səfirliklərinin, müxtəlif beynəlxalq təşkilatların BDU-da müxtəlif müsabiqələrinin (Yaponiya, Çin, Koreya və digər) və tədbirlərinin, təqdimatlarının (kitab, rəsm əsərləri, arxeoloji tapıntılar və s.),

görüşlərinin təşkili əcnəbi təhsilalanların cəlb olunmasının təşviqi baxımından əhəmiyyətlidir.

Beynəlxalq akademik heyətin BDU-da təlim-tədris prosesinə cəlb olunması, eyni zamanda da BDU-nun professor-müəllim heyətinin və tədqiqatçılarının xarici tərəfdaş universitetlərdəki həmkarları ilə ortaq elmi-tədqiqat işlərinə cəlb olunması daima diqqət mərkəzində saxlanılır. Əcnəbi müəllimlərin sayının ümumi akademik heyətin sayına nisbətdə artırılması Beynəlmiləlləşmə Siyasəti Sənədinin 7-ci maddəsində əsas prioritet məsələ olaraq nəzərdə tutulmuşdur.

Hesabat dövründə akademik mübadilə imkanlarının inkişafının təmin edilməsi məqsədilə imzalanan müqavilə sayının dinamikası aşağıdakı kimidir:




Hesabat dövründə akademik heyətin və tədqiqatçıların mübadiləsini nəzərdə tutan imzalanmış və yenilənmiş müqavilələrin sayı 137-dir. Bu müqavilələrin əhatə coğrafiyası (ölkələr, təşkilatlar) aşağıdakı kimidir:



Əcnəbi tədqiqatçıların BDU-da elmi-tədqiqat işlərinə cəlb olunması məsələsi da daima diqqət mərkəzində olan məsələ olmuşdur və Beynəlmiləlləşmə Siyasəti Sənədinin 7-ci maddəsində əcnəbi müəllim və tədqiqatçıların sayının ümumi akademik heyətin sayına nisbətən artırılması prioritet məsələ olaraq verilmişdir. Beynəlxalq tədqiqatçılarla bağlı məsələləri nəzərdə tutan müqavilələrin statistikası 7.1.4 bəndində verilmişdir.

Aparıcı beynəlxalq təşkilatlarla əməkdaşlığı genişləndirmək və Universitetin fəaliyyətini onların inkişaf meyarlarına uyğunlaşdırmaq məsələsi BDU-nun beynəlmiləlləşmə siyasətində əsas məqsədlərdən biri olaraq müəyyən olunmuşdur.




BDU hesabat dövrünə qədər 8, hesabat dövründə isə 3 beynəlxalq assosiasiyaya (Sosial İş Məktəblərinin Beynəlxalq Assosiasiyası, Avropa Universitetlər Assosiasiyası və İslam Dünyasının Universitetləri Federasiyası) üzv qəbul olunmuşdur.

Co-funded by the Erasmus+ Programme of the European Union

Avropa İttifaqının **Erasmus+ KA2** Proqramı çərçivəsində maliyyələşdirilən Ali təhsil sahəsində potensialın artırılması layihələri BDU-ya Avropanın müxtəlif universitetləri ilə eyni bir layihədə yer almaq və qarşılıqlı təcrübə mübadiləsi reallaşdırmaq imkanı verir.

MAGNUS

BDU-nun tərəfdaş kimi iştirak etdiyi, Avropa İttifaqının Erasmus+ KA2 Proqramı çərçivəsində maliyyələşdirilən "Tərəfdaş universitetlərdə mobil tətbiqlər və oyun dizaynı magistr proqramlarının hazırlanması (MAGnUS)" layihəsinin dəstəyi ilə Rəqəmsal Tədqiqatlar Laboratoriyası yaradılıb. Laboratoriya ilk növbədə beynəlxalq tədqiqat potensialının, tələbələrin elmi-tədqiqat imkanlarının artırılmasına və ümumilikdə təhsilin keyfiyyətinin yüksəldilməsinə xidmət edir.

BDU-da Azərbaycanda ekoloji xarakterli fövqəladə hallar üzrə 3-cü dövr yeni magistratura səviyyəsini dəstəkləyən İnnovativ Təlim Mərkəzi “ITACA” adlı qrant layihəsi həyata keçirilir. Layihə Xəzər dənizinin neft çıxarılan regionlarında durğun suların toplandığı və reabilitasiyası ilə məşğul olan yeni nəsil 3-cü dərəcə xüsusi ixtisaslaşmış magistr kadrlarının hazırlanması, təhsilinin təşkilinə həsr edilib.

BDU-nun Coğrafiya fakültəsinin əməkdaşları Avropa İttifaqının ERASMUS+ proqramı çərçivəsində “Sahil ekosistemlərinin iqlim dəyişikliyinə uyğunlaşması üçün geoməkan mühəndisliyi üzrə yeni kurslar” adlı GEOCLIC layihəsində (619011-EPP-1-2020-1-KZ-EPPKA2-CBHE-JP) iştirak edir.

BDU-nun Erasmus+ Jean Monnet fəaliyyətləri çərçivəsində modul səviyyəsində “Green oriented studies in EU” (Avropa Birliyində “Yaşıl Araşdırmalar”) layihəsinin məqsədi müasir dövrün ekoloji və iqtisadi çağırışlarına uyğun olaraq “yaşıl sahə”də əmək bazarının tələblərinə uyğun mütəxəssislərin yeni nəslinin hazırlanmasıdır. Layihə çərçivəsində BDU-nun Kimya və Biologiya fakültələrində 3 “yaşıl” fənn modulunun tətbiqi ilə yeni məzmunda təhsil proqramları hazırlanacaqdır.

Dünyanın nüfuzlu universitetləri ilə ikili diplom və ortaq layihələr istiqamətində əməkdaşlığı inkişaf etdirmək (hər il minimum 2-3 proqram) BDU-nun Beynəlmiləlləşmə Siyasəti Sənədində prioritet məsələ olaraq müəyyən edilmişdir və bu istiqamətdə davamlı addımlar atılır.

İkili diplom proqramlarında iştirak edən tələbələrin ingilis dili biliyinin qiymətləndirilməsi BDU ilə birgə əməkdaşlıq müqaviləsi çərçivəsində Britaniya Şurasının (British Council) vasitəçiliyilə Bakıda həyata keçirilir. Qiymətləndirmənin beynəlxalq təşkilata həvalə edilməsi ingilis dilində olan tədris prosesinə tələbə seçiminin keyfiyyəti, eyni zamanda BDU-nun beynəlxalq imicinin yaxşılaşması baxımından mühüm əhəmiyyət kəsb edir.

Hesabat dövrünə qədər yalnız 2011-ci ildə Almaniyanın Vürçburq Universiteti ilə magistratura səviyyəsinin “Avropa hüququ” ixtisaslaşması üzrə ikili diplom müqaviləsi imzalanıb və proqram 2019/20-ci tədris ilinə qədər davam edib.

Hesabat dövründə imzalanan ikili diplom proqramları isə aşağıdakılardır:

1. 2018-ci ildə Almaniyanın Martin Lüter adına Halle-Vittenberq Universiteti, doktarantura səviyyəsi – “Hüquqşünaslıq” ixtisası;
2. 2020-ci ildə Qazaxıstanın Əl-Fərabi adına Qazax Milli Universiteti, magistratura səviyyəsi – “Dəniz və enerji hüququ” ixtisaslaşması;
3. 2021-ci ildə Fransanın Lumière Lyon-2 Universiteti, magistratura səviyyəsi – “Əqli mülkiyyət hüququ” ixtisaslaşması;
4. 2021-ci ildə İsveçrənin Biznes və Beynəlxalq Tədqiqatlar Universiteti (UBİS), magistratura səviyyəsi – “Beynəlxalq münasibətlər və diplomatiya” ixtisaslaşması;

5. 2021-ci ildə ABŞ-nın Linkoln Universiteti, magistratura səviyyəsi – "MBA" ixtisası;
6. 2021-ci ildə İsrailin Holon Texnologiya İnstitutu, bakalavriat səviyyəsi – "Kompüter elmləri" ixtisası;
7. 2021-ci ildə Satbayev adına Qazax Milli Tədqiqat Texniki Universiteti, magistratura səviyyəsi – "Neft kimyası və kimya texnologiyası" ixtisaslaşması.

2022-ci ildə 3 ikili diplom müqaviləsi - Qazaxıstanın Ş.Yessenov adına Xəzər Dövlət Texnologiyalar və Mühəndislik Universiteti ilə "Beynəlxalq münasibətlər" ixtisası üzrə bakalavriat, Qazaxıstanın L.N. Qumilyov adına Avrasiya Milli Universiteti ilə "Tətbiqi biotexnologiya" ixtisaslaşması üzrə və İsveçrənin Biznes və Beynəlxalq Tədqiqatlar Universiteti (UBIS) ilə "MBA" ixtisaslaşması üzrə magistratura səviyyələrində ikili diplom proqramları imzalanıb. Bununla da BDU-da mövcud olan ikili diplom proqramlarının sayı 10-a çatıb.




Hal-hazırda İsrailin Hebrew Universiteti və ABŞ-nın Oklahoma Universiteti ilə ikili diplom proqramları razılaşdırılır.

2016-2021-ci illər ərzində BDU-da ikili diplom proqramlarında 92 tələbə təhsil alıb. 2022/23-cü tədris ilində 42 tələbə təhsilini davam etdirir. Rəqəmlər müsbət dinamikanı göstərir.

Beynəlmiləlləşmə Siyasəti Sənədinin 1-ci maddəsinin 1.8-ci bəndinə əsasən Beynəlmiləlləşmə siyasətinin icra vəziyyəti monitorinq olunur və zərurət yarandıqda yenilənir. Hər ilin sonunda görülən işlərin hesabatı hazırlanır, analiz olunur, regional və qlobal vəziyyət nəzərə alınmaqla növbəti ilin fəaliyyət planı hazırlanır və yeni çağırışlar nəzərə alınır.

## 7.2. Beynəlmiləlləşmə proseslərinin idarə edilməsi və təşkilatı strukturu

BDU-da beynəlmiləlləşmə fəaliyyətində də idarəetmənin optimallaşdırılması və təkmilləşdirilməsi, beynəlxalq əməkdaşlıq sahəsində effektivliyin artırılması, əcnəbi vətəndaşların Universitetdə təhsilinin təşviqi və tədrisin beynəlxalq standartlara uyğun təşkili məqsədi ilə struktur dəyişiklikləri edilmişdir: Beynəlxalq elm-təhsil proqramları, qrantlar və informasiya texnologiyaları şöbəsinin adı dəyişdirilərək Beynəlxalq əlaqələr

şöbəsi adlandırılmış və Xarici tələbələrlə iş dekanlığı ləğv edilərək onun bazası əsasında Xarici tələbələrlə iş şöbəsi yaradılmışdır.

Beynəlmiləlləşmə siyasətinin həyata keçirilməsi üzrə aşağıdakı iş bölgüsü müvafiq Sənədin 6-ci maddəsinə uyğun olaraq tənzimlənən və icrasına birbaşa cavabdeh olan inzibati struktur bölmələrinin əsasnamələrində və əməkdaşların vəzifə təlimatlarında öz əksini tapmışdır:

(i) Beynəlxalq əlaqələr şöbəsinin qarşısında duran vəzifələr Siyasətdə əksini tapan hədəflərə uyğunlaşdırılmışdır:
- BDU-da akademik heyət və tədqiqatçıların, habelə tələbə, magistrant və doktorantların inkişafına təkan verən mübadilə proqramlarının sayının artırılması;
- xarici ali təhsil müəssisələri ilə birgə ikili diplom proqramlarının həyata keçirilməsinə dəstək verilməsi;
- tələbələrin xarici tərəfdaş universitetlərə qısamüddətli (bir həftədən iki aya qədər) və uzunmüddətli (bir və ya iki semester) təhsil səfərinə getmələri üçün qarşılıqlı əməkdaşlıq müqavilələrinin sayının artırılması;
- tədris proqramlarının beynəlxalq məzmununun artırılması, beynəlxalq tələblərə uyğunlaşdırılması və beynəlxalq akkreditasiyadan keçirilməsi işinə dəstək verilməsi;
- əcnəbi müəllim heyətinin cəlb edilməsi yolu ilə tədris və təlim prosesinin beynəlmiləlləşdirilməsi;
- professor-müəllim heyətinin və tədqiqatçıların xarici tərəfdaş universitetlərdəki həmkarları ilə ortaq elmi-tədqiqat işlərinə cəlb olunmasının təşviq edilməsi;
- Beynəlxalq layihələrin və qrantların, ali təhsil sahəsində potensialın artırılmasına dair proqramların yazılmasına, müvafiq qurumlara çatdırılmasına, zəruri kommunikasiyasına və rəsmiləşdirilməsinə dəstək verilməsi.

(ii) Xarici tələbələrlə iş şöbəsinin qarşısında duran vəzifələr Siyasətdə əksini tapan hədəflərə uyğunlaşdırılmışdır:
- əcnəbilərin universitetdə təhsilə təşviqi və cəlb edilməsi ilə bağlı tədbirlərin həyata keçirilməsi;
- BDU-nun beynəlxalq rəqabət qabiliyyətini artırmaq məqsədilə əcnəbi təhsilalanların universitetdə tədris keyfiyyətinin yüksəlməsinə xidmət edən tolerant və səmimi mühitin formalaşdırılması;
- əcnəbi tələbələrin yataqxanaya yerləşdirilməsi və onların məişət şəraitinin yaxşılaşdılrılması üçün tədbirlərin görülməsi;
- əcnəbi tələbələrlə sosial yönümlü, mədəni-maarif xarakterli və idman-sağlamlıq işlərinin aparılması;
- əcnəbi təhsilalanların cari akademik göstəriciləri və dərslərə davamiyyəti ilə bağlı məlumatın təhlili;
- Universitetin məzunları olan əcnəbi vətəndaşlarla müntəzəm əlaqə saxlanılması;
- kurikulumun beynəlxalq məzmununun artırılması və beynəlxalq tələblərə uyğunlaşdırılması istiqamətində təkliflərin hazırlanması;

– əcnəbi tələbələrin ölkədə sürətli adaptasiya ehtiyaclarına cavab verən müxtəlif xidmətlərlə bağlı məsləhətlər verilməsi və müvafiq dəstək göstərilməsi.

Hər iki şöbədə calışan kadrların hazırlığı, yenidən hazırlığı və peşəkarlıq səviyyəsinin yüksəldilməsi işi diqqətdə saxlanır. Kadrların təhsil səviyyəsindən, iş təcrübəsindən, aparılan iş bölgüsündən asılı olaraq davamlı inkişaflarını təmin etmək üçün onların təlimlərdə, mübadilə proqramlarında iştiraklarına fərdi qaydada yanaşılır.

BDU-da təhsilalanların kreditlərinin tanınması məsələnin həllinə yanaşma daha çox tələbəyönümlüdür. Mübadilə proqramı üzrə müsabiqəyə sənədlərini təqdim edən təhsilalanlar mübadilə qaydalarına uyğun olarsa, seçim mərhələsini (təhsil nəticələrinin və ictimai fəaliyyətinin təhlili, dil biliklərinin yoxlanılması - iki pilləli müsahibə) uğurla keçdikdən sonra tərəfdaş universitetlə danışıqlar aparılır və tələbənin orada bir semestr ərzində götürəcəyi fənlər və kreditlər müzakirə olunur. Bu zaman fənlərin məzmununa və kredit sayına xüsusi önəm verilir. Növbəti mərhələ olaraq üçtərəfli (BDU, tərəfdaş universitet və tələbə) “Learning Agreement” sənədi imzalanır və tələbənin mübadilədə iştirakı haqqında BDU-nun rektoru tərəfindən müvafiq əmr verilir. Mübadilə proqramında iştirakını başa vuran tələbə tərəfdaş universitetdə təhsil aldığı dövrə aid akademik transkriptini və proqramda iştirak sertifikatını BDU-ya təqdim edir. Müvafiq sənədləşdirmə işləri (akademik məzuniyyətdən qayıtmasına, kreditlərin tanınmasına dair əmrlər) aparıldıqdan sonra tələbə yenidən BDU-da tədrisini davam etdirir.

Əcnəbi professor-müəllim heyətinin tədris prosesinə cəlb olunmasını əks etdirən məlumatlar müvafiq dövr üzrə aşağıdakı cədvəldə öz əksini tapmışdır. Təqdim olunan cədvəldən də göründüyü kimi, 2019/20 və 2020/21-ci tədris illərində əcnəbi professor-müəllim heyətinin sayında nəzərəçarpacaq azalma müşahidə olunur. 2021/22-ci tədris ilindən isə bu istiqamətdə nisbətən say artımı müşahidə olunur.

Əcnəbi professor-müəllim heyətinin tədris prosesinə cəlb edilməsi vəziyyəti (say)*

| 2016/17 | 2017/18 | 2018/19 | 2019/20 | 2020/21 | 2021/22 |
|---|---|---|---|---|---|
| 34 | 29 | 40 | 16 | 12 | 17 |

*Qeyd: Son illərdə sayda azalma əsasən COVID-19 pandemiyası ilə əlaqədardır.

BDU-da fəaliyyət göstərən beynəlxalq kafedra, institut və mərkəzlər əcnəbi müəllimlərin say dinamikasına müsbət təsir göstərən amillərdəndir. Hazırda BDU-da 2 beynəlxalq kafedra: İnsan hüquqları və informasiya hüququ UNESCO kafedrası və Biotibbi materiallar ICESCO kafedrası, 2 beynəlxalq institut: Konfutsi İnstitutu (Çin) və Bakı King Sejong İnstitutu (Koreya) və 3 beynəlxalq mərkəz: Abay Kunanbayev adına Qazax Mərkəzi (Qazaxıstan), Azərbaycan-Koreya İnformasiya Təminatı Mərkəzi (Koreya) və Rus Mərkəzi (Rusiya) fəaliyyət göstərir.

Biotibbi materiallar ICESCO kafedrasının yaradılmasına dair müqavilə imzalanması ilə əlaqədar olaraq təşkilatın Baş direktoru Salim bin Məhəmməd əl-Malik və onun rəhbərlik etdiyi nümayəndə heyəti BDU-da olmuşdur.

Aşağıdakı diaqramda tədris prosesinə və elmi-tədqiqatlara cəlb olunan əcnəbi professor-müəllim heyətinin statistikasının cari vəziyyəti öz əksini tapmışdır.







Beynəlmiləlləşmə siyasətinin idarəedilməsinin səmərəliliyinin monitorinqi məqsədi ilə 2020/21-ci tədris ilinə qədər olan müvafiq dövrdə ildə 1 dəfə olmaqla rəhbərliyə hesabatlar təqdim olunmuşdur. 2020/21-ci tədris ilindən etibarən isə bu hesabatlar yarımillik və illik olmaqla ildə iki dəfə təqdim olunur. Monitorinq fəaliyyəti məlumatın toplanılması və təhlili ilə başlayır. Hər ilin əvvəlində fəaliyyət planı hazırlanır və ilin sonunda fəaliyyət planına uyğun olaraq görülən işlər qiymətləndirilir. Plan üzrə məsələlər müzakirə olunur, rəhbərliyin müvafiq qeyd və tövsiyələri nəzərə alınmaqla növbəti ilin fəaliyyət planı hazırlanır. Siyasətin həyata keçirilməsində əhəmiyyətli rola malik olan məsələlər, istiqamət üzrə hesabat BDU-nun Elmi Şurasının müzakirəsinə çıxarılır və müvafiq qərarlar qəbul edilir.

Tədrisin məzmun və keyfiyyət göstəricilərinin beynəlxalq standartlara uyğunlaşdırılması və Universitetin beynəlxalq rəqabətliliyinin artırılması məsələsinə BDU-da xüsusi diqqət yetirilir və dünyanın bir sıra qabaqcıl universitetləri ilə beynəlxalq ikili diplom proqramlarının həyata keçirilməsi istiqamətində AKTTS-in və yerli qanunvericiliyin tələblərinə uyğun davamlı işlər görülür.

BDU-da ikili diplom proqramları üzrə tədris prosesi Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 20 noyabr tarixli 451 nömrəli Qərarı ilə təsdiq edilmiş "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı" çərçivəsində beynəlxalq ikili diplom proqramlarının həyata keçiriləcəyi xarici tərəfdaş ali təhsil müəssisələrinin, ixtisas proqramlarının və təhsil səviyyələrinin seçim Qaydaları (https://e-qanun.az/framework/43666), Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 24 dekabr tarixli 348 nömrəli qərarı ilə təsdiq edilmiş "Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində kredit sistemi ilə tədrisin təşkili Qaydaları" (https://e-qanun.az/framework/27030) nəzərə alınmaqla tənzimlənir.

BDU-nun bakalavriat və magistratura səviyyələrində kredit sistemi ilə tədrisin təşkili qaydaları Avropa Kredit Transfer Sisteminin tələblərinə uyğun həyata keçirilir (Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində kredit sistemi ilə tədrisin təşkili

.pdf (bsu.az) ). Tərəfdaş universitetlər ilə proqram uyğunlaşdırılması zamanı müvafiq ixtisasın dövlət standartı nəzərə alınır və proqram uyğunlaşdırılması prosesi bitdikdən sonra rəsmi qaydada Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinə uyğunlaşdırılmış proqrama münasibət bildirilməsi üçün rəsmi qaydada müraciət olunur. Nazirliyin rəsmi cavabı alındıqdan sonra müqavilə imzalanması prosesinə başlanılır. Hazırda mövcud olan proqramların, gələcəkdə isə imzalanacaq müqavilələr üzrə yeni proqramların tərəfdaş universitetin mövcud olduğu ölkədə akkreditasiyadan keçirilməsi məsələsi də gündəmdədir. Bu baxımdan BDU-da akkreditasiya və keyfiyyət təminatı üzrə beynəlxalq ekspert Achim Hopbach ilə görüşdə müvafiq müzakirələr aparılmışdır (BDU-da akkreditasiya və keyfiyyət təminatı üzrə beynəlxalq ekspert Achim Hopbachla görüş - http://bsu.edu.az/az/news/bduda_akkreditasiya_v_keyfiyyt_tminat_zr_beynlxalq_ekspert_achim_hopbachla_gr).




Hesabat dövründə akademik heyətin mübadiləsi proqramlarına əsasən Türkiyə universitetləri ilə həyata keçirilən Mövlanə (Mevlana) proqramı, Avropa ölkələri ilə həyata keçirilən və Avropa İttifaqı tərəfindən maliyyələşdirilən Erasmus+ proqramı daxildir. Akademik heyətin mübadilə dinamikası ilə bağlı təqdim olunmuş aşağıdakı cədvəldən (beynəlmiləlləşmə siyasətinin icrası sənədi) aydın görünür ki, 2019/20-ci ildən başlayaraq COVID-19 pandemiyası ilə əlaqədar olaraq saylarda azalma vardır. Lakin 2021/22-ci tədris ilindən başlayaraq artım müşahidə olunmaqdadır.

Beynəlmiləlləşmə proqramlarında iştirak edən akademik heyətin sayı*

| 2016/17 | 2017/18 | 2018/19 | 2019/20 | 2020/21 | 2021/22 |
|---|---|---|---|---|---|
| 178 | 219 | 206 | 190 | 11 | 55 |

*Qeyd: Sayda azalma əsasən COVID-19 pandemiyası ilə əlaqədardır.

BDU-da Beynəlmiləlləşmə siyasətinin formalaşması və icrası zamanı kollegiallıq (beynəlmiləlləşmə fəaliyyətinin əsas iştirakçılarını qarşılıqlı anlayış, səmimilik və etibarlılıq kimi dəyərlərə söykənən ortaq bir inkişaf məqsədi ətrafında cəmləşdirmək) və sosial məsuliyyət (ümumi məqsəd və vəzifələrə nail olmaq üçün öz üzərinə məsuliyyət götürmək) kimi dəyərlərə önəm verilir.

Mübadilə prosesinin şəffaf və hərkəsə əlçatanlıq prinsipləri əsasında təşkil olunması məqsədi ilə fakültələrin müvafiq qaydada məlumatlandırılması ilə yanaşı, bütün məlumatlar Universitetin rəsmi saytında elan şəklində yerləşdirilir və bununla da məlumatların əlçatanlığı və şəffaflıq təmin olunur.

Bəzi istinadlar aşağıda verilir:

- Sivas Universitetinin “Erasmus+KA107 2020” proqramı üçün qəbul elanı (http://bsu.edu.az/az/news/sivas_universiteti_erasmuska107_2020_proqram_n_qbul_elan_edib_);
- Rzeszow Universitetinin Erasmus+KA107-2020 proqramı üçün qəbul elanı (http://bsu.edu.az/az/news/tlblrin_nzrin);
- BDU-nun Türkiyənin Sivas Cumhuriyyət Universitetində təhsil almiş tələbələrinin öz təcrübələrini bölüşməsi (http://bsu.edu.az/az/news/bdunun_trkiynin_sivas_cumhuriyyt_universitetind_thsil_almi_tlblri_z_tcrblrini_blr);
- BDU-nun Rumıniyanın Babes-Bolyai Universiteti ilə Erasmus mübadilə protokolunu imzalaması (http://bsu.edu.az/az/news/bdu_rumniyann_babesbolyai_universiteti_il_erasmus_mbadil_protokolu_imzalayb);
- BDU-nun Muğla Sıtkı Koçman Universiteti ilə Mevlana mübadilə protokolu imzalaması (http://bsu.edu.az/az/news/_bdu_mula_stk_koman_universiteti_il_mevlana_mbadil_protokolu_imzalayb);
- BDU-nun İstanbul Universiteti ilə Mövlanə mübadilə protokolunu imzalaması (http://bsu.edu.az/az/news/bdu_il_stanbul_universiteti_arasnda_mvlan_mbadil_protokolu_imzalanb);
- BDU-nun tələbələri üçün Erasmus+ proqramı (http://bsu.edu.az/az/news/bdunun_tlblri_n_erasmus_proqram).

Sözügedən istiqamət üzrə beynəlmiləlləşmə siyasətinin icrası ilə bağlı olan forma 11 Excel sənədində müvafiq dövr üzrə bütün məlumatlar öz əksini tapmışdır. Mübadilə proqramı ilə gələn tələbələr BDU tələbələri ilə eyni hüquqa malikdirlər və müvafiq qaydada təlim-tədris prosesinə cəlb olunurlar. İştirakçılığın maksimum qaydada təmin olunması üçün mübadilə ilə bağlı bütün məlumatlar elan şəklində paylaşılır.




Qeyd: Sayda azalma əsasən COVID-19 pandemiyası ilə əlaqədardır.

Hesabat dövründə imzalanan və hazırda qüvvədə olan mübadilə proqramları üzrə iştirakçılılığın təmin olunmasına imkan verən müqavilə sayı Erasmus+ proqramı üzrə 10, Mövlanə proqram üzrə 16-dır. Bu müqavilələrin fəaliyyət istiqamətlərində nəzərdə tutulan fakültələr üzrə bölgüsü aşağıdakı kimidir:




BDU-da 2015-cü ildən Erasmus+KA107 beynəlxalq müəllim-tələbə mübadilə proqramı çərçivəsində müəllim-tələbə mübadiləsi həyata keçirilir və Erasmus+ proqramı çərçivəsində fərqli layihələr icra olunur. Hesabat dövründə BDU-nun 52 əməkdaşı və 42 tələbəsi, tərəfdaş universitetlərin isə 45 əməkdaşı və 26 tələbəsi mübadilə proqramında iştirak etmişdir.

Hesabat dövründə isə BDU Erasmus+ mübadilə proqramı çərçivəsində 21 ali təhsil müəssisəsi ilə əməkdaşlıq etmişdir. Hazırda BDU-nun Erasmus+ mübadilə proqramı çərçivəsində 9 ali təhsil müəssisəsi ilə əməkdaşlığı davam edir.




Mövlanə mübadilə proqramı Türkiyə universitetləri ilə dünyanın müxtəlif ölkələrində yerləşən universitetlər arasında müəllim-tələbə mübadiləsini həyata keçirən proqramdır. BDU tələbələri Mövlanə beynəlxalq mübadilə proqramı ilə Türkiyənin bir sıra universitetlərində təhsil almaq imkanlarına malikdirlər. Mövlanə proqramı çərçivəsində Türkiyə universitetlərində təhsil almaq hüququ qazanan tələbə təhsil müddətində hər ay müvafiq məbləğdə təqaüd alır. Yol xərci proqram çərçivəsində ödənilir. 2017-2021-ci illər ərzində BDU-nun 5 əməkdaşı və 5 tələbəsi sözügedən proqram çərçivəsində Türkiyənin müxtəlif universitetlərində dərs demiş və təhsil almışdır.

Hesabat dövründə BDU Mövlanə mübadilə proqramı çərçivəsində 19 ali təhsil müəssisəsi ilə əməkdaşlıq etmişdir. Hazırda BDU-nun Mövlanə mübadilə proqramı çərçivəsində 16 ali təhsil müəssisəsi ilə əməkdaşlığı davam edir.

Beynəlxalq reytinq cədvəllərində irəliləmək Siyasətdə mühüm hədəflərdən biri kimi öz əksini tapmışdır. Universitetdə bu istiqamətdə son illər davamlı və məqsədyönlü fəaliyyət təmin olunur. Xüsusən də "Quacquarelli Symonds" (QS) Məsləhət qrupu (QS Consulting Team) ilə davamlı onlayn və ənənəvi formada görüşlər keçirilir. QS reytinqi üzrə son 5 ilin dinamikası aşağıdakı cədvəldə əks olunmuşdur: (https://www.topuniversities.com/universities/baku-state-university).

| QS reytinqi üzrə son 5 ilin dinamikası | | | | | | |
|---|---|---|---|---|---|---|
| İllər | 2017 | 2018 | 2019 | 2020 | 2021 | 2022 |
| QS World University Rankings | 701+ | 801 - 1000 | 801 - 1000 | 801 - 1000 | 1001+ | 1001+ |
| QS University Ranking: Eastern Europe and Central Asia (EECA) | 88 | 95 | 142 | 201 - 210 | 211-220 | 250+ |

BDU-da diqqət yetirilən digər reytinq - Times Higher Education (THE) nümayəndələri ilə də mütəmadi görüşlər keçirilir və müvafiq tövsiyyələr nəzərə alınır. Hesabat dövrünün son iki ilində THE-WUR reytinqində Azərbaycandan yer alan yeganə ali təhsil müəssisəsi Bakı Dövlət Universitetidir.
(https://www.timeshighereducation.com/world-university-rankings/baku-state-university)

| THE reytinqi üzrə son 2 ilin dinamikası | | |
|---|---|---|
| İllər | 2021 | 2022 |
| Times Higher Education World University Ranking (THE-WUR) | 1201+ | 1501+ |
| Times Higher Education Impact Ranking | 1001+ | 1001+ |

BDU digər reytinqlərdə də təmsil olunur və hər ilin nəticələrinə uyğun olaraq zəif və güclü tərəflərin müqayisəsi aparılır və mövcud imkanlar və çətinliklər qiymətləndirilir:

- Round University Ranking (RUR) - https://roundranking.com/universities/baku-state-university.html?sort=O&year=2022&subject=SO
- University Ranking by Academic Performance (URAP) - https://urapcenter.org/Rankings/2022-2023/World_Ranking_2022-2023
- Webometrics Ranking of World Universities (WRWU) - https://www.webometrics.info/en/Europe/Azerbaijan
- Scimago İnstitutions Ranking - https://www.scimagoir.com/institution.php?idp=364

| Digər reytinqlər üzrə son 5 ilin dinamikası | | | | | | |
|---|---|---|---|---|---|---|
| İllər | 2017 | 2018 | 2019 | 2020 | 2021 | 2022 |
| Round University Ranking (RUR) | 728 | 686 | 667 | 702 | 650 | 744 |
| Scimago Institutions Ranking | 696 | 769 | 817 | 849 | 852 | 766 |
| Webometrics Ranking of World Universities (WRWU) | - | 3656 | 3573 | 3283 | 3395 | 3461 |
| University Ranking by Academic Performance (URAP) | - | 2367 | 2452 | - | 2650 | 2454 |

### 7.3. Beynəlmiləlləşmə siyasətinin icra edilməsinə ayrılan resurslar

Beynəlmiləlləşmə Siyasətinin icrası və bu istiqamətdə dayanıqlığın təmin olunması məqsədi ilə maliyə vəsaitinin ayrılması mühüm məqamlardan biridir. BDU-da bu bir neçə istiqaməti əhatə edir və aşağıda sadalanan xərclər nəzərə almaqla formalaşdırılır:

- akademik və inzibati heyətin təcrübə mübadiləsi məqsədi ilə xarici tərəfdaş universitetlərə ezam olunması;
- elmi-tədqiqat məqsədi ilə əməkdaşların xarici universitetlərə və elmi-tədqiqat müəssisələrinə ezam olunması;
- BDU-da beynəlxalq konfransların təşkili, o cümlədən bu konfranslara dəvət olunan nüfuzlu xarici alim və mütəxəssislərin xərclərinin tam olaraq qarşılanması;
- BDU-da fəaliyyət göstərən bəzi əcnəbi müəllimlərin və tədqiqatçıların xərclərinin qarşılanması;
- ikili diplom proqramlarında iştirak edən tələbələrin xərclərinin qarşılanması;
- beynəlxalq assosiasiya və təşkilatlara üzvlük haqqı ödənişləri;
- beynəlxalq təhsil və reytinq şirkətlərinin məsləhət xidmətləri üçün ödənişlər;
- əcnəbi təhsilalanların yataqxanada güzəştli şərtlərlə yaşamalarına BDU tərəfindən verilən dotasiya;
- əcnəbi təhsilalanların BDU-ya cəlb olunması və BDU-nun təbliği məqsədi ilə xarici ölkələrdə təşkil edilən sərgilərdə iştirak xərcləri;
- “Clarivate Analytics” şirkətinin təqdim etdiyi elmmetrik bazalara giriş xərcləri, InCites və Publons xidmətləri ilə bağlı xərclər;
- BDU rəhbərliyinin və inzibati heyətinin xarici ölkələrdə keçirilən beynəlxalq əhəmiyyətli tədbirlərdə iştirakı xərcləri;
- bir sıra beynəlxalq təşkilatların (məsələn, ICESCO) keçirdiyi birgə beynəlxalq tədbirlərə maliyyə dəstəyi.

Beynəlmiləlləşmə fəaliyyətin təşkili və həyata keçirilməsi BDU-nun Beynəlxalq əlaqələr şöbəsi və Xarici tələbələrlə iş şöbəsi tərəfindən icra olunur.

Beynəlmiləlləşmə siyasətinin icrasının təmin edilməsi üçün müvafiq şöbələr lazımi infrastruktur (inzibati otaqlar) ilə təmin olunmuş, hər bir əməkdaş kompüter, printer, skaner və digər zəruri avadanlıqla təmin olunmuşdur. İnternetə çıxış təmin olunmuşdur. Bu şöbələr fəaliyyətində BDU-nun bütün mövcud infrastrukturundan maneəsiz istifadə edə bilirlər.

Digər tərəfdən, beynəlmilləşmə siyasətinin icrası ilə əlaqədar olaraq BDU-nun yataqxanasında əcnəbi tələbələr üçün bütün zəruri şərait yaradılmışdır. Mübadilə yolu ilə gələn tələbələr də bu imkandan yararlana bilirlər.

Eyni zamanda beynəlmiləlləşmənin ayrılmaz tərkib hissəsi olan beynəlxalq mərkəzlər, institutlar və kafedraların fəaliyyətini təmin etmək üçün BDU-nun tədris binalarında müxtəlif otaqlar ayrılmışdır.

| № | Mərkəzin adı | Yerləşdiyi korpus | Otaq nömrəsi | Otaq sayı / sahəsi (kv.m.) |
|---|---|---|---|---|
| 1 | Bakı King Sejong İnstitutu | 2 saylı tədris binası (6-cı mərtəbə) | 601a, 601b, 601c | 3 / 90 kv.m. |
| 2 | Konfutsi İnstitutu | Əsas tədris binası (1-ci mərtəbə) | Konfutsi mərkəzi | 5 / 163.1 kv.m |
| 3 | Abay Kunanbayev adına Qazax Mərkəzi | 1 saylı tədris binası (3-cü mərtəbə) | 306a | 1 / 36 kv.m. |
| 4 | Rus Mərkəzi | Yeni tədris binası (1-ci mərtəbə) | 108 | 1 / 70.8 kv.m. |
| 5 | Azərbaycan-Koreya İnformasiya Təminatı Mərkəzi | Yeni tədris binası (3-cü mərtəbə) | 301a, 301b, 301c | 3 / 225.04 kv.m. |
| 6 | Hüquq fakültəsində İnsan hüquqları və informasiya hüququ UNESCO kafedrası | 1 saylı tədris binası (8-cı mərtəbə) | 805a, 805b | 2 / 60.14 kv.m. |
| 7 | Biologiya fakültəsində Biotibbi materillar ICESCO kafedrası | Əsas tədris binası (2-ci mərtəbə) | 270 | 1 / 19.8 kv.m. |
| 8 | MAGnUS layihəsinin dəstəyi ilə yaradılmış Rəqəmsal araşdırmalar laboratoriyası | Əsas tədris binası (3-cü mərtəbə) | Böyük akt zalı ilə üzbəüz | 3 / 108.5 kv.m. |
| | Cəmi | 17 otaq, 665.08 kv.m. | | |

Əcnəbi tələbələr və müəllimlər də Universitetin bütün məkanlarından (akt zalı, tədris mərkəzləri, laboratoriyalar, yeməkxanalar və s.) eyni hüquqla istifadə edirlər.

Təqvim ilinin sonunda hədəf indikatorların icra vəziyyətinin analizi və PDCA-təhlil (“Planlaşdır – Həyata keçir – Nəzarət et – Təkmilləşdir” (Plan-Do-Check-Act - PDCA)) əsasında beynəlmiləlləşmə siyasətinin icrasına tələb olunan resursların monitorinqi və qiymətləndirilməsi həyata keçirilir. Müvafiq qaydada ildə iki dəfə (yarımillik və illik olaraq) şöbələrin təqdim etdiyi hesabatlar da təhlil olunur və növbəti təqvim ili üçün hazırlanan fəaliyyət planında yeni resurs planlanması ilə bağlı məsələlər nəzərə alınır. Əhəmiyyət dərəcəsindən asılı olaraq struktur islahatları, maliyyələşmə və infrastrukturla bağlı məsələlər Elmi Şuranın müzakirəsinə çıxarılır və müvafiq qərarlar verilir.

## 7.4. Beynəlmiləlləşmə performansı

2021-ci il 25 may və 2022-ci il 27 aprel tarixlərində BDU-da fəaliyyət göstərən tələbə təşkilatlarının nümayəndələri və fakültə dekanları ilə görüşlər keçirilmişdir, maraqlı tərəflərin beynəlmiləlləşmə istiqaməti üzrə təklif və iradları dinlənilmişdir.

2021-ci ildən etibarən beynəlmiləlləşmə prosesi çərçivəsində əldə edilən nəticələrin dinamikasının izlənilməsi məqsədi ilə eyni zamanda Beynəlxalq reytinq təşkilatları ilə də əməkdaşlıq edilir və onların təqdim etdikləri illik hesabatlar təhlil olunur.

2021-ci ilin sonunda həyata keçirilən hədəf indikatorların icra vəziyyətinin analizi, SWOT-analiz və problemlərin həllində PDCA-təhlilinin nəticələri 2022-ci ilin fəaliyyət

planında nəzərə alınmışdır. Eyni qaydada 2022-ci ilin sonunda adıçəkilən analizlər həyata keçirilmiş və 2023-cü ilin fəaliyyət planına həllini gözləyən müxtəlif məsələlər salınmışdır.

Beynəlmiləlləşmə prosesi çərçivəsində əldə edilən nəticələrin dinamikasına nəzarət zamanı məmnuniyyətin ölçülməsində istifadə olunan anket-sorğularının nəticələri istifadə olunur:

- Keyfiyyətin təminatı və monitorinq şöbəsinin tələbələr arasında 2016/17, 2017/18-ci tədris illərində tələbələr arasında keçirdiyi sorğuların nəticəsi onu söyləməyə əsas verir ki, mübadilə proqramlarında iştirak edən akademik heyət də tədris prosesini keyfiyyətli şəkildə aparır;
- BDU-da təhsil alan əcnəbi tələbələrin məmnunluğunun ölçülməsidir ki, 2021/2022-ci tədris ilində bu istiqamətdə şöbə Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin müvafiq strukturu ilə əməkdaşlıq edərək “Əcnəbi tələbələrin məmnuniyyəti” ilə bağlı tədqiqat işinin aparılmasında iştirak etmişdir.

BDU-da beynəlmiləlləşmə prosesinin təkmilləşdirilməsi dedikdə SİP-də əksini tapan əlaqədar hədəflərə uyğun prosesin xüsusiyyətlərinin ehtiyacəsaslı və zəruri dəyişdirilməsi nəzərdə tutulur. Prosesin təkmilləşdirilməsi ilə bağlı hədəflərə planlaşdırılmış müddətdə nail olmaq üçün PDCA tsikli bir neçə dəfə tətbiq edilir. BDU-nun fəaliyyət istiqamətinə və onun strategiyasına uyğun olaraq prosesin idarə edilməsi və onun təkmilləşdirilməsi mərhələləri çərçivəsindəki fəaliyyət dövri xarakter daşıyır: tədris ilinin başlama-bitmə tarixləri, SİP-dəki Beynəlmiləlləşmə istiqaməti üzrə performans göstəricilərinin xüsusiyyətləri əsas götürülərək proseslərin yenidən planlaşdırılmasına, təminat sisteminin yenidən qurulmasına və/və ya idarə edilməsinə olan ehtiyac hər altı ayın sonunda yaranır. Bu baxımdan hesabatlılıq yarımillik və illik dövrləri əhatə etməklə rəhbərliyə təqdim olunur. Hesabata problem, onun əsaslandırılması və təklif olunan həll variantları, fəaliyyət planı və planlaşdırılmış təkmilləşdirmənin yerinə yetirilməsinin nəticələri daxil edilir. Şöbələrdə əməkdaş sayı prosesin yerinə yetirilməsi prosedurlarını icraçıların nəzərinə şifahi formada çatdırmağa da imkan verir.

Prosesin təkmilləşdirilməsi işinin həyata keçirilməsinə digər struktur bölmələrinin də əməkdaşları cəlb edilir. Adətən, bir proses müxtəlif struktur bölmələrinin fəaliyyəti ilə əlaqədə olur. Əsasən Tədrisin təşkili və idarə olunması Mərkəzi, Elmi fəaliyyətin təşkili və innovasiyalar Mərkəzi, İctimaiyyətlə əlaqələr və informasiya şöbəsi və Sənədlər və müraciətlərlə iş şöbəsindən əməkdaşlar cəlb edilir. Keyfiyyət sistemində proseslərin idarə edilməsi zamanı hansısa qrup fəaliyyətlərinin təşkili ilə bağlı məsələlər nəzərdən keçirilmir, lakin bununla yanaşı BDU-da müvafiq fəaliyyəti koordinasiya edən ayrıca əməkdaş olaraq Rektorun katibliyinin rəhbəri təyin edilmişdir.

## 6. Təşkilat komissiyasının gəldiyi nəticə və qeydlər

Akkreditasiya üzrə Təşkilat Komissiyası və İşçi qruplar tərəfindən aparılmış araşdırma və müqayisəli təhlillər əsasında müəyyən edilmişdir ki, Bakı Dövlət Universiteti aydın və dəqiq formalaşdırılmış, Universitetin inkişaf strategiyasını, məqsəd və vəzifələrini müəyyən edən, milli və regional prioritetlərə uyğun missiyaya malikdir. Missiya, məqsəd və vəzifələrə uyğun olaraq Universitet öz fəaliyyətini təhsil, elm, innovasiyaların tətbiqi, beynəlmiləlləşmə və sosiallıq istiqamətlərini ehtiva edən, elm və təhsil sahəsində dövlət siyasətinə əsaslanaraq müəyyən edilmiş strateji inkişaf prioritetləri çərçivəsində həyata keçirir. Qarşıya qoyulmuş bütün məsələləri həll etmək üçün təşkilati struktur və idarəetmə sistemi kifayət qədər səmərəli və effektiv işləyir.

Akkreditasiya üzrə Təşkilat Komissiyası Təhsildə Keyfiyyət Təminatı Agentliyi tərəfindən təqdim edilən "Ali təhsil müəssisəsinin institusional akkreditasiyası üzrə Özünütəhlil Hesabatının nümunəvi forması"nda müəyyən edilən istiqamətlər üzrə aşağıdakı məqamların xüsusi vurğulanmasını məqsədəuyğun hesab edir.

### 1. Strateji inkişaf istiqaməti üzrə

– Universitet öz fəaliyyətini onun məqsədini, missiyasını, gələcəyə baxışını, hədəflərini və əsas prioritetlərini, qısa, orta və uzunmüddətli dövr ərzində görüləcək işləri əks etdirən Strateji İnkişaf Planı (SİP) əsasında həyata keçirir;

– SIP varislik prinsipinə əsaslanır, uzun illər ərzində əldə edilmiş dəyərləri və tarixi olaraq formalaşmış ənənələri qoruyub saxlamaq və daha da inkişaf etdirmək, dövlətin elm və təhsil sahəsində siyasətinə və ali təhsilin beynəlxalq təcrübə və təmayüllərinə əsaslanmaqla Universitetin 2021-2030-cu illərdə davamlı və dinamik inkişafının təmin edilməsinə yönəlmişdir;

– Universitetin SİP-də müəyyən edilən missiyası onun fəaliyyətinin əsas məqsədinə və hədəflərinə, strateji baxışı isə ölkənin əmək bazarının, cəmiyyətin və iqtisadiyyatın inkişaf istiqamətlərinə uyğundur;

– Universitet SİP-də nəzərdə tutulmuş fəaliyyətləri icra etmək üçün kifayət qədər resurslara (insan, maliyyə və infrastruktur) malikdir;

– SİP-in icra vəziyyəti və bu işə məsul olan struktur bölmələrin fəaliyyəti dövrü (yarımillik, illik) olaraq aparılan monitorinqlər vasitəsilə nəzarətdə saxlanılır, monitorinq nəticələri maraqlı tərəflərin nümayəndələrinin iştirakı ilə kollektiv müzakirə və təhlil edilərək növbəti illər üzrə fəaliyyət planlarının hazırlanmasında və korrektə edilməsində nəzərə alınır;

– Universitet kollektivi, təhsilalanlar, işəgötürənlərin, digər maraqlı tərəflərin və ictimaiyyətin nümayəndələri Universitetin inkişaf strategiyası, fəaliyyət istiqamətləri, nailiyyətləri, monitorinq nəticələri və həyata keçirdiyi tədbirlər barədə müxtəlif vasitələrlə (KİV, media, radio-televiziya, Universitet saytı və s.) məlumatlandırılır və məlumatların əlçatanlığı təmin edilir.

Strateji inkişaf istiqaməti üzrə universitetin fəaliyyəti meyarlara uyğundur.

### 2. Keyfiyyət təminati istiqaməti üzrə

– Universitetdə keyfiyyətin daxili təminatı BDU-nun keyfiyyətin daxili təminatı üzrə siyasətini və standartları əks etdirən rəsmiləşdirilmiş sənəd əsasında həyata keçirilir. Sənəd

anlaşılan, sadə və icrası mümkün olan formada hazırlanmışdır və onun məzmunu Avropa ali təhsil məkanında keyfiyyətin təminatı üzrə Avropa Standartları və Qaydalarına (ESG) uyğundur;

– Keyfiyyətin daxili təminatı siyasəti kifayət qədər əhatəlidir, Universitetin bütün strateji fəaliyyət istiqamətlərini (təhsil, elmi-tədqiqat, innovasiyaların tətbiqi, beynəlliləşmə və sosiallıq) əhatə edir, bu prosesdə BDU-nun bütün struktur bölmələrinin, təhsilalanların və maraqlı tərəflərin iştirakını nəzərdə tutur və bunun üçün şərait yaradılmasını təmin edir;

– Universitet əməkdaşlarının böyük əksəriyyəti keyfiyyətin təminatı siyasətinin əsas müddəaları haqqında məlumatlıdır və onların reallaşdırılmasında öz səlahiyyətlərini və məsuliyyətlərini başa düşürlər;

– Universitetdə kifayət qədər işlək mexanizmlər əsasında fəaliyyət göstərən keyfiyyətin təminatı sistemi mövcuddur. Keyfiyyətin təminatı siyasətinin reallaşdırılması, bu sahədə fəaliyyətlərin planlaşdırılması, icrası və icra prosesinə nəzarətin təmin oluması, fəaliyyət planının hazırlanması və icra mexanizmlərinin müəyyən edilməsi, monitorinqlərin aparılması, nəticələrin təhlili, zəruri düzəlişlərin edilməsi və dövrü (illik) hesabatların hazırlanması keyfiyyətin təminatı sisteminə daxil olan Keyfiyyətin təminatı və monitorinq şöbəsi və Keyfiyyətin təminatı üzrə Komissiya tərəfindən həyata keçirilir;

– Keyfiyyətin təminatı üzrə fəaliyyət planı SİP-də nəzərdə tutulan müvafiq hədəflərə uyğundur və onlara nail olunması üçün lazımi şərait və zəmin yaradılmasını təmin edir.

– Keyfiyyətin təminatı sahəsində Universitetin struktur bölmələri bir-biri ilə əlaqəli və koordinasiya olunmuş şəkildə fəaliyyət göstərirlər. Rəhbərlik və daxili keyfiyyət təminatı sisteminə rəhbərliyi həyata keçirən məsul şəxslər bu sahədə kifayət qədər məlumatlıdırlar, akademik və inzibati heyətlə rəhbərlik arasında səmərəli kommunikasiya şəbəkəsi mövcuddur. Keyfiyyət təminatı üzrə fəaliyyət və keyfiyyət mədəniyyətinin inkişafı meyarlara uyğundur və rəhbərlik tərəfindən dəstəklənir.

### 3. Təlim və tədris istiqaməti üzrə

– BDU-da ali təhsilin səviyyələri üzrə Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq qərarları ilə təsdiq edilmiş ixtisas və ixtisaslaşmalara uyğun olaraq bakalavriat səviyyəsində 83 ixtisas, magistratura səviyyəsində 246 ixtisaslaşma və doktorantura səviyyəsində 123 ixtisas üzrə müvafiq olaraq tələbə, magistrant və doktorant (dissertant) qəbulu həyata keçirilir. Tələbə qəbulu üzrə sifarişlərin hazırlanması zamanı "Ali təhsil pilləsinin dövlət standartı və proqramı" əsasında formalaşdırılmış müvafiq ixtisaslar üzrə təhsil proqramlarında və təhsil standartlarında qeyd olunan tələblər ödənilir. Sifarişlər hazırlanan zaman əvvəlki illərin qəbul nəticələri, müvafiq ixtisaslar üzrə müsabiqələrin nəticələri, əmək bazarının tələbatı və qismən də işəgötürənlərin təklifləri təhlil olunaraq nəzərə alınır;

– Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 18 iyul tarixli 311 nömrəli qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının ömürboyu təhsil üzrə Milli kvalifikasiyalar Çərçivəsi"nə uyğun olaraq qəbul olunmuş və digər ali təhsil müəssisələrindən köçürülən təhsilalanların əvvəlki kvalifikasiyaları uyğun sənədlər əsasında tanınır;

– Bakalavriat və magistratura səviyyələrində tədris planları kredit sisteminin tələblərinə uyğun olaraq müvafiq təhsil proqramı əsasında formalaşdırılır. İxtisasın (ixtisaslaşmanın) tədris planında göstərilmiş fənlərin tədris illəri və semestrləri üzrə

bölgüsünü əks etdirən tədris qrafikləri tərtib olunaraq müvafiq qaydada təsdiq edilir. Fənlər üzrə gözlənilən təlim nəticələri müvafiq təhsil proqramının təlim nəticələrinə uyğunlaşdırılır. Tədris planlarında olan fənlərin və onların proqramlarının məzmunu dövlət təhsil standartlarının tələblərinə uyğundur;

– Tədris prosesi mövcud qanunvericiliyə və lokal normativ sənədlərə uyğun olaraq təşkil edilir. Tətbiq edilən normaların səmərəliliyi Universitet tərəfindən daim izlənilir və təkmilləşdirilməsi istiqamətində işlər görülür.

– BDU-da mühazirələrin elektron variantı internetdə yerləşdirilmişdir. Professor-müəllim heyəti mühazirə və məşğələləri PowerPoint formatında prezentasiyalar şəklində müasir avadanlıqlarla təchiz olunmuş auditoriyalarda tədris edirlər. İnnovativ bacarıqların inkişaf etdirilməsi üçün metod kimi İKT-nin tətbiqi istifadə olunur (Blackboard və s.). Multimedia xarakterli tədris vasitələrinin işlənilməsi, yayılması, təhsil prosesinə tətbiq olunması sürətləndirilir;

– BDU-da mühazirə və məşğələlərdə effektiv tələbəmərkəzli metodlardan istifadə edilir. Professor-müəllim heyəti başa düşür ki, tələbəmərkəzli öyrənmə tələbələrə əmək bazarında rəqabətə davamlı, aktiv və məsuliyyətli vətəndaşlar kimi formalaşmaq imkanı verir, müasir təhsil prosesi müəllimdən bilik və bacarıqların tələbəyə köçürülməsini deyil, tələbələrin davamlı özünüidarəetmə qabiliyyətini inkişaf etdirmək, analitik təhlil, sərbəst düşünmə, verilən məlumat və öz düşüncələri arasında əlaqələrin yaradılması, nəzəri bilikləri praktiki yollarla dərinləşdirmək və qazandığı bilik və bacarıqları gələcək peşə fəaliyyətlərində tətbiq etmək bacarıqlarının formalaşdırılmasını tələb edir;

– Tədris prosesinin təşkili və Keyfiyyətin təminatı və monitorinq şöbələri tərəfindən tədris metod və üsullarının dövrü monitorinqi və sistematik qiymətləndirilməsi aparılır, nəticələr analiz və təhlil olunur, preventiv tədbirlər həyata keçirilir və təkmilləşdirilmə istiqamətində işlər aparılır;

– Təlim nailiyyətlərinin qiymətləndirilməsində istifadə olunan üsullar aydın müəyyənləşdirilmiş meyarlara əsaslanmışdır və təhsil müddətində tələbənin əldə etdiyi bilik, bacarıq və vərdişlərin səviyyəsini düzgün və etibarlı şəkildə müəyyən etməyə imkan verir. Təlim nəticələrinin qiymətləndirilməsi zamanı müəllimlər şəffaflıq, qərəzsizlik, qarşılıqlı hörmət və hümanistlik prinsiplərini əsas tuturlar;

– Son beş ildə BDU-nun əməkdaşları tərəfindən kifayət qədər dərsliklər və tədris-metodiki vəsaitlər hazırlanmış və onların əksəriyyəti Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin qrifi və BDU-nun Elmi Şurasının qərarları ilə çap edilmişdir;

– BDU-da həm rəhbərlik, həm də fakültələr səviyyəsində təhsilalanlara şikayət etmək və təkliflər vermək üçün şərait yaradılmışdır. Universitetin rəsmi saytında “Tələbədən rektora” səhifəsinə (http://contact.bsu.edu.az/) girməklə təhsilalanlar şikayət və təkliflərini verə bilir və suallar ünvanlayırlar. Dəhlizlərdə hər gün Rektorun nəzarəti ilə açılan şikayət və təkliflər qutusundan da tələbələr sərbəst şəkildə istifadə edirlər;

– BDU-da mövcud təhsil proqramlarını həyata keçirmək üçün kifayət qədər səriştəli kadr potensialı mövcuddudr, müəllimlər əsasən hər beş ildə bir dəfədən az olmayaraq ixtisasartırma kurslarında iştirak edirlər və ya ixtisaslarına uyğun müəssisələrdə staj keçirlər, müəllimlərin yaş tərkibi son illər bir qədər cavanlaşdırılsa da, yaşlıların sayı hələ də nisbətən çoxdur.

Təlim və tədris istiqaməti üzrə Universitetin fəaliyyəti meyarlara uyğundur.

### 4. Elmi tədqiqat istiqaməti üzrə

“Bakı Dövlət Universitetinin 2021-2030-cu illər üzrə Elmi-tədqiqat Strategiyası” adlı rəsmiləşdirilmiş sənəd mövcuddur. Sənəd Universitetin missiyasına, məqsədinə, fəaliyyət istiqamətlərinə və hədəflərinə əsaslanaraq hazırlanmışdır, qarşıdakı illərdə elmi tədqiqatın təşkili, həyata keçirilməsi, elmi nəticələrin yayılması, təbliği, tədris prosesinə inteqrasiyası və tədqiqatçılıq sahəsində bacarıq və vərdişlərin fasiləsiz olaraq inkişaf etdirilməsinin ümumi yanaşmalarını, əsas prinsiplərini və mexanizmini əks etdirir.

– BDU-da fundamental, tətbiqi və eksperimental elmi tədqiqatların aparılması üçün müvafiq infrastruktur mövcuddur. Bu gün Universitetdə 16 fakültə, 120 kafedra, 2 elmi-tədqiqat institutu (ETİ), 7 elmi-tədqiqat mərkəzi (ETM), 21 elmi-tədqiqat laboratoriyası (ETL), və 2 tədris-təcrübə bazası fəaliyyət göstərir. Elmi tədqiqatlar elmi strukturlarla yanaşı kafedralarda, kafedraların Respublika elmi-tədqiqat institutlarında və digər qurumlarda fəaliyyət göstərən 12 filialı və Elm və tədris Mərkəzlərində də aparılır.

– Son 2 il ərzində Universitetdə Tədqiqat, İnkişaf və İnnovasiyalar üzrə Mükəmməllik Mərkəzi, “Sənaye kimyası”, “Rəqəmsal araşdırmalar”, “Mikrobiologiya və virusologiya”, “Biomühəndislik”, “Kompleks geoloji və geofiziki tədqiqatlar” və “Astrokosmik və atmosfer tədqiqatları” kimi yeni sənaye yönümlü ETL-lər yaradılmış, maddi-texniki baza müasirləşdirilmiş və elmtutumlu avadanlıqlarla zənginləşdirilmişdir.

– Hazırda Fizika Problemləri ETİ, bir sıra kafedralar, ETM və ETL-lər, o cümlədən Tədqiqat, İnkişaf və İnnovasiyalar üzrə Mükəmməllik Mərkəzi kollektiv istifadə mərkəzləri kimi fəaliyyət göstərirlər. Bu qurumlarda bəzi ali təhsil müəssisələri, Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin nəzdindəki bir sıra elmi təşkilatlarla birlikdə birgə elmi-tədqiqat işləri həyata keçirilir. Son 5 ildə tədqiqat sahəsində əməkdaşlıq edilən müxtəlif elmi müəssisə və təşkilatların sayında müsbət dinamika (48 faiz artım) müşahidə edilir.

– Universitetin infrastrukturunun maddi və texnoloji resursları, büdcəsindən ayrılan maliyə resursu onun elmi-tədqiqat məqsədlərinə və strategiyasına uyğundur.

– Aktiv elmi tədqiqatla məşğul olan professor-müəllim heyəti, elmi işçilər, xüsusilə gənc tədqiqatçılar üçün müxtəlif mövzularda beynəlxalq və Respublika əhəmiyyətli elmi konfranslar, elmi seminarlar və təlimlər keçirilir. Hər il 30-dək elmi-metodik və praktik konfranslar, o cümlədən tələbə konfransları keçirilir. BDU beynəlxalq və respublika müsabiqələrində, sərgilərdə iştirak edir.

– Professor-müəllim heyətinin, elmi işçilərin və təhsilalanların elmi-tədqiqat işlərində iştirakı kifayət qədər yüksəkdir.

– Nəticə yönümlü elmi-tədqiqat işlərinin davamlılığının təmin olunması üçün stimullaşdırıcı mexanizmlər mövcuddur. Hər il “İlin alimi” və “İlin gənc alimi” müsabiqəsi keçirilir. Qaliblər pul mükafatları ilə təltif olunur.

– Tədqiqatçıların müxtəlif istiqamətlər üzrə beynəlxalq elmi məlumat bazalarına çıxış imkanları təmin olunmuşdur. BDU-da “Clarivate Analitics” şirkətinin Web of Scince bazasına və InCites qiymətləndirmə sisteminə, EBSCO, IOP, BIONE, OED (Oxford Universitetinin nəşrləri), ALL-RUSSİAN MATEMATICAL PORTAL, Cambridge University Press Journal və s. elektron bazalarına çıxış mövcuddur.

– Elmi-tədqiqat işləri mütəxəssis hazırlığının profilinə əsasən uyğundur, aparılan elmi tədqiqat işlərinin səmərəliliyi qənaətbəxşdir.

– Elmi-tədqiqatların nəticələri qismən tədris prosesində istifadə edilir. Universitetin professor-müəllim heyəti və elmi işçiləri yerinə yetirdikləri elmi-tədqiqat işlərini nəşr

etdirdikləri monoqrafiya, dərslik, dərs vəsaiti, metodik vəsaitlərdə geniş istifadə edirlər.

– BDU-nun rəhbərliyi professor-müəllim heyətinin və elmi işçilərin elmi-tədqiqat materiallarının ölkədə və xaricdə dərc etdirilməsinə geniş imkanlar yaradır.

– Son illərdə BDU-da 23 ixtisas üzrə 8 daimi və 12 ixtisas üzrə 10 birdəfəlik dissertasiya şurası fəaliyyət göstərmişdir.

– Elmi-tədqiqat işləri əsasən daxili büdcə hesabına və qismən qrantlar hesabına maliyyələşdirilir. Son 5 il ərzində Universitet əməkdaşları tərəfindən yerli və beynəlxalq donorlardan elm sahəsində 100-dən çox qrant alınmışdır. Təkcə 2021-ci ildə Universitetin əməkdaşları 22 (9 beynəlxalq və 13 respublikadaxili) elmi layihə həyata keçirmişlər. Bu layihələr Avropa Birliyinin Horizon-2020 və TEMPUS proqramları, TÜBİTAK, Elmin İnkişafı Fondu (Azərbaycan Elm Fondu), AMEA, Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi, Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Azneft İstehsalat Birliyi, BP-Azerbaijan və digər yerli və xarici donor təşkilatlar tərəfindən maliyyələşdirilmişdir.

– 2017-ci ildə BDU ilə Polşanın Plagiat.pl Məhdud Məsuliyyətli Cəmiyyət arasında antiplagiat sisteminin tətbiqi ilə bağlı müqavilə imzalanmış və 2018-ci ildən başlayaraq Universitetin www.plagiat.pl saytına əlçatanlığı təmin edilmişdir. Hal-hazırda BDU-da Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən də qəbul edilən və beynəlxalq səviyyədə tanınan StrikePlagiarism anti-plagiat sistemi tətbiq edilir.

Elmi tədqiqat istiqaməti üzrə Universitetin fəaliyyəti meyarlara uyğundur.

### 5. İdarəetmə sistemi istiqaməti üzrə

– Universitetin idarə edilməsi Azərbaycan Respublikası qanunvericiliyinə, BDU-nun Nizamnaməsinə, Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin müvafiq əmr və təlimatlarına və lokal normativ sənədlərə, informasiya aşkarlığı, resurslara əlçatanlığın bərabərhüquqluluğu, qarşılıqlı məsuliyyət, bir nəfərin idarəçiliyi ilə kollegiallığın uzlaşdırılması prinsiplərinə əsaslanaraq həyata keçirilir. İnformasiya aşkarlğı Universitetin rəsmi saytı, qəzet, BDU TV və digər çap olunmuş materiallar, respublika kütləvi informasiya vasitələri ilə təmin edilir.

– Əməkdaşların, təhsilalanların, işəgötürənlərin, ictimaiyyətin və digər maraqlı tərəflərin nümayəndələrinin kollegial idarəetmə orqanlarında iştiraka cəlb edilmə vəziyyəti qənaətbəxşdir.

– Universitetdə fəaliyyət göstərən kollegial idarəetmə orqanları (Himayəçilər Şurası, Elmi Şura, fakültələrin Elmi Şuraları, İctimai Nəzarət Şurası, Həmkarlar İttifaqı Komitəsi, Gənc Alimlər Şurası, Tələbə Gənclər Təşkilatı, Tələbə Həmkarlar İttifaqı Komitəsi və s.) və aidiyyatı üzrə digər struktur bölmələri öz fəaliyyətlərini BDU-nun Nizamnaməsinə, missiyasına, fəaliyyət istiqamətlərinə və inkişaf strategiyasına uyğunlaşdırılmış əsasnamələri və kollegial idarəetmə prinsipi üzrə formalaşdırılmış iş planları əsasında həyata keçirirlər. İdarəetmə orqanları tərəfindən qəbul edilmiş qərarlar müvafiq qanunvericiliyə, universitetdaxili normativ sənədlərə əsaslanır, qanunvericiliyin tələblərinə uyğundur.

– Universitetdə şəffaf və əlçatan formada işə qəbul prosedurları mövcuddur, seçkili vəzifələrin tutulması prosedurları qanunvericiliyin tələblərinə uyğundur. Akademik və inzibati heyətin kəmiyyət və keyfiyyət göstəriciləri strateji inkişaf proqramına və maliyyə resurslarına uyğundur.

– İşçilərin sosial vəziyyətinin yaxşılaşdırılması prioritetini və BDU-nun mövcud maliyyə imkanlarını əsas tutaraq Elmi Şuranın müvafiq qərarlarına əsasən Universitetin bütün işçilərinin aylıq əməkhaqqları mütəmadi olaraq artırılır, bir sıra əlamətdar və bayram günləri ilə əlaqədar onlara eyni həcmdə mükafatlar verilir. Bununla yanaşı əmək funksiyasının yüksək peşəkarlıq səviyyəsində yerinə yetirilməsində, müəssisədaxili intizam qaydalarına əməl edilməsində, Web of Science bazasında indekslənən dərgilərdə nəşr edilən əsərlərə görə fərqlənmiş əməkdaşlara fərdi qaydada həvəsləndirici mükafatlar verilir, yubileyi olan işçilərə pul mükafatı yazılır və ya qiymətli əşyalar hədiyyə edilir. BDU və HİK arasında bağlanılmış kollektiv müqaviləyə və BDU-nun Nizamnaməsinə əsasən yeni ailə qurmuş işçilərə 5 təqvim günü ödənişli məzuniyyət verilir.

– BDU-da hər il üçün dəqiqləşdirilmiş Gəlir və xərclər smetası formalaşdırılır. Malların alınması, işlərin görülməsi və xidmətlərin göstərilməsi üzrə maliyyə və mühasibat əməliyyatları qanunvericiliyin tələblərinə uyğun təşkili olunur. Maliyyə daxilolmalarının bütün növləri daxili və xarici maraqlı tərəflər üçün şəffafdır və Universitetin rəsmi saytında yerləşdirilir.

– BDU-nun rəsmi saytı Universitetin fəaliyyətinin bütün aspektlərini Azərbaycan, rus və ingilis dillərində dəqiq, operativ və dolğun işıqlandıran əsas platformadır. BDU-nun tədris, elmi fəaliyyəti, sosial həyatı, beynəlxalq əlaqələri, keçirilən konfrans, seminar, ustad dərsləri, alimlərin elmi tədqiqatları və s. ilə bağlı xəbərlər gündəlik olaraq rəsmi saytda yerləşdirilir. İctimaiyyətin BDU-nun fəaliyyəti ilə bağlı dolğun və operativ məlumatlandırılması Universitetin rəsmi saytı ilə yanaşı, sosial şəbəkə hesablarında (“Facebook”, “Instagram”, “Telegram”, “Twitter”) da həyata keçirilir.

– BDU-nun fəaliyyəti ilə bağlı verilən məlumatların davamlı monitorinqi sistemi yaradılmışdır. Verilən məlumatlar gündəlik olaraq toplanılır və aylıq hesabatlar şəklində təqdim edilir. Monitorinqlərin nəticələri təhlil olunur və növbəti fəaliyyət dönəmində nəzərə alınır.

İdarəetmə sistemi istiqaməti üzrə BDU-nun fəaliyyəti meyarlara uyğundur.

### 6. İnfrastruktur istiqaməti üzrə

– Universitetdə tədris binalarının və tədris otaqlarının vəziyyəti Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 3 avqust tarixli 171 nömrəli Qərarı ilə təsdiq edilmiş “Təhsil müəssisələrinin tikintisinə, maddi-texniki təchizatına dair vahid normalar, ümumi sanitariya- gigiyena tələbləri, şagird yerləri ilə təminat normativləri”nə uyğundur.

– BDU-nun elektron xidmətlər də daxil olmaqla tədris və elmi fəaliyyətin informasiya təminatını həyata keçirən müasir standartlara uyğun Elmi Kitabxanası vardır. Elmi Kitabxana Azərbaycan Respublikası Təhsil Nazirliyinin 1971-ci il tarixli 7 may 131 nömrəli əmri ilə ali təhsil müəssisə kitabxanalarının metodik mərkəzidir. Elmi Kitabxananın nəzdində Respublikanın 12 ali təhsil müəssisəsinin üzv olduğu Azərbaycan Kitabxana İnformasiya Konsorsiumu (Az.KİK) fəaliyyət göstərir. Kitabxananın fondunda çox qiymətli, nadir elmi və milli əhəmiyyətə malik olan inventarlar də daxil olmaqla, 2 milyondan çox nüsxə ədəbiyyat saxlanılır.

– Kadr hazırlığı aparılan ixtisasların spesifik xüsusiyyətlərinə uyğun yüksək səviyyədə təchiz olunmuş təlim və tədris bazası (laboratoriyalar, linqafon kabinetləri, muzeylər və s.) mövcuddur.

– BDU-da təhsilalanların istifadəsində kifayət qədər tədris, tədris-elmi və elmi-tədqiqat laboratoriyaları mövcuddur. Bu laboratoriyalar müasir avadanlıqlar, ləvazimatlar və reaktivlərlə təchiz edilmişdir. Universitetin həmçinin Qubada və Altıağacda yüksək səviyyədə təchiz olunmuş tədris-təcrübə və istirahət bazaları vardır.

– BDU ABŞ-nın təhsildə informasiya texnologiyalarının tətbiqi sahəsində dünya lideri olan "Blackboard" şirkəti ilə əməkdaşlıq edir. 2021-ci ildən başlayaraq "Blackboard" – tədrisin idarə edilməsi sistemi tətbiq edilir və bu sistemin "Blackboard Learn", "Virtual Classroom Solution", "Collaborate", "Accessibility Solution" və "Blackboard Ally" kimi komponentlərindən aktiv istifadə olunur. Universitetdə həmçinin digər, "Microsoft Teams", "Zoom" platformalarından istifadə və mühazirələrin "Youtube" kanalına yüklənməsi ilə məsafədən təhsil həyata keçirilir.

– Universitetdə sağlamlıq imkanları məhdud şəxslər üçün uyğunlaşdırılmış tədris infrastrukturu mövcuddur. Sağlamlıq imkanları məhdud şəxslərə texniki və psixoloji kömək göstərmək üçün tələbə könüllülərdən ibarət assistentlər ayrılmışdır.

– Universitetdə müasir standartlara cavab verən bir neçə yeməkxana və kafe fəaliyyət göstərir.

– Universitetin Tələbə şəhərciyində 220 nəfərə yaxın tələbə üçün nəzərdə tutulmuş "Tələbə Evi" fəaliyyət göstərir. Yataqxanada ilkin tibbi yardım otağı, müasir tipli kitabxana-oxu zalı, asudə vaxt otağı, camaşırxana, duş otağı və hər cür zəruri avadanlıqlarla təmin edilmiş mətbəx mövcuddur.

– BDU-nun nəzdində tələbə və müəllim heyətinə tibbi xidmət göstərmək məqsədi ilə 30 nömrəli Şəhər poliklinikası fəaliyyət göstərir. Poliklinikada terapiya, oftalmologiya, fizioterapiya, cərrahiyyə, stomatologiya, nevrologiya, revmatologiya, otorinolorinqologiya (LOR), laboratoriya, USM (ultra-səs müayinəsi), kardiologiya kabinetləri fəaliyyət göstərir və onlar müayinə və müalicə üzrə müasir cihaz və avadanlıqlarla təchiz olumuşdur.

– Universitetdə İnformasiya Texnologiyaları Mərkəzi, çoxsaylı kompüter laboratoriyaları fəaliyyət göstərir. Akademik, inzibati və tədris otaqlarında yüksək sürətli internetə qoşulmiş kifayət sayda kompüter mövcuddur. Ümumi auditoriyaların böyük əksəriyyəti "ağıllı lövhələr", proyektorlar və internetə çıxışla təmin olunmuşdur. Əksər auditoriya və laboratoriyalarda keçirilən mühazirə, məşğələ və laboratoriya dərslərinin gedişini mərkəzləşdirilmiş sistemlə izləmək mümkündür.

– Yeməkxanalar, yataqxana, tibbi və İT xidməti Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 3 avqust tarixli 171 nömrəli Qərarı ilə təsdiq edilmiş "Təhsil müəssisələrinin tikintisinə, maddi-texniki təchizatına dair vahid normalar, ümumi sanitariya-gigiyena tələbləri, şagird yerləri ilə təminat normativləri"nə uyğundur.

– BDU-nun elmi-tədqiqat infrastrukturuna müasir cihaz və avadanlıqlarla təchiz olunmuş Tədqiqat, İnkişaf və İnnovasiyalar üzrə Mükəmməllik Mərkəzi, elmi-tədqiqat institutları, mərkəzləri və laboratoriyaları daxildir. Bu qurumlardan bir neçəsi eyni zamanda ölkə üzrə kollektiv istifadə mərkəzləri kimi fəaliyyət göstərir.

– Dövrü olaraq Keyfiyyətin təminatı və monitoriq şöbəsi və uyğun struktur bölmələri tərəfindən tədris və elmi-tədqiqat infrastrukturunun istifadəsinin monitorinqi aparılır, nəticələr təhlil olunaraq rəhbərlik qarşısında müvafiq məsələlər qaldırılır.

– BDU-nun əməkdaşları və təhsilalanları tədris və elmi-tədqiqat infrastrukturunun bütün növlərindən heç bir məhdudiyyət olmadan istifadə edirlər.

BDU-nun tədris və elmi-tədqiqat infrastrukturu meyarların tələbinə uyğundur.

**7. Beynəlmiləlləşmə istiqaməti üzrə**

– Universitetin SİP-ə uyğunlaşdırılmış beynəlmiləlləşmə siyasətini və bu siyasətin reallaşdırılması üzrə strategiyasını və icra mexanizmlərini əks etdirən rəsmiləşdirilmiş sənəd mövcuddur. Siyasətin hazırlanmasında və müzakirəsində əlaqədar struktur bölmələrinin və digər maraqlı tərəflərin iştirakı kifayət dərəcədə təmin olunmuşdur.

– Beynəlmiləlləşmə sahəsində fəaliyyətlər Beynəlxalq əlaqələr şöbəsi və Xarici tələbələrlə iş şöbəsi tərəfindən planlaşdırılır və digər struktur bölmələrlə qarşılıqlı əlaqədə həyata keçirilir.

– Beynəmiləlləşmə sahəsində siyasət inkişaf etmiş xarici dövlətlərin qabaqcıl elm və təhsil müəssisələri ilə mübadilə proqramlarının, birgə elmi-tədqiqatların, ikili diplom proqramlarının, beynəlxalq təcrübənin öyrənilməsi və tətbiqi üzrə ixtisasartırmanın, stajkeçmənin və qarşılıqlı səfərlərin təşviq olunmasına yönəlmişdir və bu sahələrdə əldə edilən nəticələr qənaətbəxşdir.

– BDU-nun təhsilalanlarının başqa ölkələrdə təhsil alması istiqamətində aparılan işlər və verdiyi diplomların başqa ölkələrdə tanınması səviyyəsi qənaətbəxşdir.

– BDU-da başqa ölkə vətəndaşlarının təhsil alması üçün lazımı şərait yaradılmışdır və əcnəbi təhsilalanların cəlb edilməsi istiqamətində görülən işlər qənaətbəxşdir.

– BDU ilə bir sıra xarici ölkələrin qabaqcıl təhsil müəssisələri arasında ali təhsilin bakalavriat, magistratura və doktorantura səviyyələrində 10 ikili diplom proqramı qurulmuşdur və bu sahədə fəaliyyət davam etdirilir.

– BDU 11 beynəlxalq təşkilatın üzvüdür. Beynəlxalq təşkilat və qurumlara üzvlük BDU-nun akademik və inzibati imkanlarının genişləndirilməsinə, elmi tədqiqatların inkişafına və təcrübə mübadiləsinin reallaşmasına şərait yaradır.

– BDU-da Avropa hüququ və informasiya hüququ UNESCO kafedrası və Biotibbi materiallar üzrə İCESCO kafedrası fəaliyyət göstərir.

– BDU əməkdaşlarının və təhsilalanlarının beynəlxalq proqramlarda iştirakı kifayət qədər əhatəlidir, elmi-pedaqoji kadrların xarici ölkələrdə ixtisaslarını artırması və müəllimlərin xarici ölkələrdə tədris və elmi tədqiqat fəaliyyətləri ilə məşğul olması üçün aparılan işlər qənaətbəxşdir.

– BDU əməkdaşlarının və təhsilalanlarının dünyanın tanınmış informasiya agentlikləri tərəfindən indekslənən dərgilərdə (yüksək impakt faktorlu jurnallar da daxil olmaqla) nəşr etdirdikləri elmi əsərlərin sayı kifayət qədər yüksəkdir və respublika üzrə bu dərgilərdə nəşr olunmuş əsərlərin əhəmiyyətli hissəsini təşkil edir.

– BDU-nun beynəlxalq reytinqlərdə təmsil olunma səviyyəsi qənatbəxşdir və daha da yaxşılaşdırılmalıdır. BDU-nun, professor-müəllim heyətinin və elmi işçilərin böyük əksəriyyətinin Hirş indeksi kifayət qədər yüksəkdir (BDU-üzrə 54-dür).

Beynəlmiləlləşmə istiqaməti üzrə BDU-nun fəaliyyəti meyarlara uyğundur.

**Yuxarıda qeyd edilənlərlə yanaşı Təşkilat Komissiyası aşağıdakı tövsiyyələrin də verilməsini məqsədəuyğun hesab edir:**

– Məzunlarla əlaqələr daha da gücləndirilməlidir. Yaxşı olar ki, Universitetin “Endowment” fondu yaradılsın, xeyriyyəçi məzunların, iş adamlarının və maraqlı tərəflərin bu fonda vəsait köçürmələri təşviq olunsun;

– Universitet əlavə gəlir əldə etmək məqsədilə Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Təhsil müəssisəsinin əlavə gəlir əldə etmək məqsədilə məşğul olmasına yol verilən sahibkarlıq fəaliyyəti növlərinin müəyyən edilməsi haqqında" 2010-cu il 19 yanvar

tarixli 10 nömrəli Qərarı ilə müəyyən edilən sahibkarlıq fəaliyyəti növləri (məsləhət-konsaltinq xidmətlərinin göstərilməsi; təhsil məhsulunun (təhsil sahəsində innovasiyalar, orijinal təhsil və fənn proqramları, təlim metodları sistemi, təhsil modulları, təhsil layihələri) və tədris prosesində əldə olunan məhsulun satışı; elmi-tədqiqat və təcrübi-konstruktor işləri; elmi-praktiki tədbirlərin təşkili; nəşriyyat-poliqrafiya işləri; təhsil müəssisələrinin idman zalları və meydançalarından dərsdənkənar və təhsilalanların istifadəsində olmadığı vaxtlarda təyinatı üzrə digər tədbirlərin həyata keçirilməsi üçün istifadə edilməsi; təhsil müəssisəsinin profilinə və fəaliyyət istiqamətlərinə ziddiyyət təşkil etməyən iş və xidmətlərin göstərilməsi və s.) ilə məşğul olmaq üçün təşəbbüs göstərməlidir;

– Universitet əməkdaşlarının və təhsilalanlarının Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin, digər komitə və nazirliklərin nəzdində və tabeliyində olan elmi müəssisə, təşkilat və qurumlarında mövcud olan elmi tədqiqat infrastrukturundan, müasir cihaz və avadanlıqlardan kollektiv istifadə imkanlarının artırılması üçün müvafiq tədbirlər həyata keçirilməlidir;

– elmi tədqiqatların, xüsusilə tətbiqi xarakterli tədqiqatların ödənişli sifarişlər əsasında, o cümlədən dövlət sifarişi əsasında aparılması təcrübəsi genişləndirilməlidir;

– Universitetdə elmi tədqiqatların əlavə olaraq maliyyələşdirilməsinə nail olunmalıdır.

– elmi tədqiqatların kommersiyalaşdırılması istiqamətində müvafiq tədbirlər görülməlidir, elmi tədqiqatların nəticələrinin sənayedə və biznesdə tətbiqini geniişləndirmək məqsədilə sənaye müəssisələri və biznes strukturları ilə əlaqələr daha da gücləndirilməlidir, bu qurumların nümayəndələrinin BDU-da tədris, tədqiqat və idarəetmə proseslərinə cəlb edilməsi təcrübəsi daha da genişləndirilməlidir;

– Universitetin regional və beynəlxalq nüfuzunun daha da artırılması, əcnəbi təhsilalanların, tədqiqatçıların və müəllimlərin prosesə cəlb edilməsi və beynəlxalq reytinq siyahılarında irəliləmək məqsədilə tanıtma materiallarının (elektron, kağız formatda) hazırlanaraq nümayiş etdirilməsi, Universitetin fəaliyyət istiqamətlərini, uğurlarını əks etdirən reklam vasitələrinin və s. hazırlanaraq yayılması təcrübəsi genişləndirilməlidir;

– beynəlxalq ikili diplom proqramları vasitəsilə əcnəbi professor-müəllim heyətinin Universitetdə əmək fəaliyyətinə cəlb olunmasına səy göstərilməlidir, nəzərə almaq lazımdır ki, əcnəbi mütəxəssislərin yerli təhsilverənlərlə birgə davamlı fəaliyyətinin qurulması onların ölkəni tərk etdikdən sonra da təhsil sisteminə töhfə vermələrini təmin edər, nəticədə Universitetin beynəlxalq səviyyədə müasir elmi-tədqiqat və innovasiya mərkəzinə çevrilməsi prosesini sürətləndirər və onun dünya reytinqində irəliləməsi təmin olunar;

– yaşlıların təcrübəsindən istifadə edilməsi və uzun illər ərzində əldə edilmiş dəyərlərin və müsbət təcrübələrin nəsillərdən nəsillərə ötürülməsi məqsədilə gənc müəllimlərin yaşlı müəllimlərin dərslərində iştirakı imkanları yaradılmalıdır;

– keyfiyyətli tələbə kontingentinin formalaşdırılması məqsədilə ümumtəhsil məktəbləri ilə əlaqələr daha da gücləndirilməli, yuxarı sinif şagirdlərini peşəyönümü sahəsində istiqamətləndirmək məqsədilə müvafiq tədbirlər həyata keçirilməlidir;

– auditoriya çatışmazlığı sahəsindəki çətinlikləri qismən aradan qaldırmaq və audoriya fondunu geniləndirmək üçün tədris binalarındakı bütün otaqların təyinatı üzrə istifadə vəziyyətini müəyyənləşdirmək məqsədilə monitorinq keçirilməli, təyinatı üzrə istifadə edilməyən və ya hazırkı təyinatı üzrə istifadəsinə o qədər də ciddi ehtiyac hiss edilməyən otaqlar müəyyən edilək auditoriya fonduna köçürülməlidir;

– xarici dillərdə qəbul aparılan tədris proqramlarının sayı daha da artırılmalıdır;

– fakültələr tərəfindən tədris planlarının ciddi monitorinqi aparılmalı, tədris planlarına

daxil edilən fənlərin (xüsusilə seçmə fənlərin) təhsil proqramında nəzərdə tutulan təlim nəticələrinə uyğunluğu, fənlərin tədris edilmə ardıcıllığı, təlim nəticələrinə müvafiq olaraq fənlərin tədrisinə ayrılan saatlar və kreditlər təhlil olunaraq lazımi düzəlişlər edilməlidir;

– Universitetin baş planında nəzərdə tutulmuş yeni tədris binasının və yataqxana kompleksinin tikintisi üçün müvafiq qurumlar qarşısında vəsatət qaldırılmalı və investorların axtarışı istiqamətində göstərilən səylər artırılmalıdır.

Bakı Dövlət Universitetinin Akkreditasiya üzrə Təşkilat Komissiyası qeyd edilənlərə əsasən aşağıdakı **nəticəyə gəlir:**

Bakı Dövlət Universitetinin fəaliyyəti mövcud qanunvericiliyə, BDU-nun Nizamnaməsinə, Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi tərəfindən təsdiq edilmiş normativ-hüquqi sənədlərin və Təhsildə Keyfiyyət Təminatı Agentliyinin ali təhsil müəssisələrinin institusional akkreditasiyası üzrə müəyyən etdiyi tələb və meyarlarına uyğundur.

**III. Özünütəhlil Hesabatına əlavə olunan sənədlər**

**Əlavə 1**

**Sertifikatın surəti**



AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ

AKKREDİTASİYA HAQQINDA

SERTİFİKAT

BAKI DÖVLƏT UNİVERSİTETİ

Azərbaycan Respublikası Təhsil Nazirliyinin Akkreditasiya Şurasının qərarına əsasən, Nazirliyin 26 may 2017-ci il tarixli, 77 nömrəli əmri ilə dövlət ali təhsil müəssisəsi kimi 5 (beş) il müddətinə akkreditə olunmuşdur. Bakı Dövlət Universiteti öz məzunlarına həmin əmrdə göstərilmiş ixtisaslar üzrə dövlət nümunəli sənəd(diplom) vermək hüququna malikdir.

AZƏRBAYCAN RESPUBLİKASININ TƏHSİL NAZİRİ, AKKREDİTASİYA ŞURASININ SƏDRİ

MİKAYIL CABBAROV

QEYDİYYAT № 010

7 - iyul 2017-ci il

**Əlavə 2**

## Bakalavriat üzrə ixtisasların siyahısı

| № | İxtisasın kodu | İxtisasın adı | Fakültə |
|---|---|---|---|
| 1. | 050201 | Beynəlxalq münasibətlər | Beynəlxalq münasibətlər və iqtisadiyyat |
| 2. | 050401 | Beynəlxalq ticarət və logistika | Beynəlxalq münasibətlər və iqtisadiyyat |
| 3. | 050402 | Biznesin idarə edilməsi | Beynəlxalq münasibətlər və iqtisadiyyat |
| 4. | 050203 | Dövlət və ictimai münasibətlər | Beynəlxalq münasibətlər və iqtisadiyyat |
| 5. | 050401 | Dünya iqtisadiyyatı | Beynəlxalq münasibətlər və iqtisadiyyat |
| 6. | 050405 | İqtisadiyyat | Beynəlxalq münasibətlər və iqtisadiyyat |
| 7. | 050406 | Maliyyə | Beynəlxalq münasibətlər və iqtisadiyyat |
| 8. | 050408 | Menecment | Beynəlxalq münasibətlər və iqtisadiyyat |
| 9. | 050210 | Politologiya | Beynəlxalq münasibətlər və iqtisadiyyat |
| 10. | 050501 | Biologiya | Biologiya |
| 11. | 050102 | Biologiya müəllimliyi | Biologiya |
| 12. | 050502 | Biotexnologiya | Biologiya |
| 13. | 050705 | Bitki mühafizəsi | Biologiya |
| 14. | 050635 | Qida mühəndisliyi | Biologiya |
| 15. | 050709 | Su bioehtiyatları və akvabitkilər | Biologiya |
| 16. | 050708 | Su bioehtiyatları və akvakultura | Biologiya |
| 17. | 050503 | Coğrafiya | Coğrafiya |
| 18. | 050103 | Coğrafiya müəllimliyi | Coğrafiya |
| 19. | 050403 | Davamlı inkişafın idarə edilməsi | Coğrafiya |
| 20. | 050640 | Geodeziya və xəritəçilik mühəndisliyi | Coğrafiya |
| 21. | 050612 | Geomatika və geodeziya mühəndisliyi | Coğrafiya |
| 22. | 050507 | Hidrometeorologiya | Coğrafiya |
| 23. | 050810 | Turizm işinin təşkili | Coğrafiya |
| 24. | 050810 | Turizm və otelçilik | Coğrafiya |
| 25. | 050504 | Ekologiya | Ekologiya və torpaqşünaslıq |
| 26. | 050709 | Torpaqşünaslıq və aqrokimya | Ekologiya və torpaqşünaslıq |
| 27. | 050710 | Yerquruluşu və daşınmaz əmlakın kadastrı | Ekologiya və torpaqşünaslıq |
| 28. | 050705 | Yerquruluşu, torpaq və şəhər kadastrı | Ekologiya və torpaqşünaslıq |
| 29. | 050101 | Azərbaycan dili və ədəbiyyatı müəllimliyi | Filologiya |
| 30. | 050104 | Dil və ədəbiyyat müəllimliyi (rus dili və ədəbiyyatı) | Filologiya |
| 31. | 050205 | Filologiya (alman dili və ədəbiyyatı) | Filologiya |

| | | | |
|---|---|---|---|
| 32. | 050205 | Filologiya (Azərbaycan dili və ədəbiyyatı) | Filologiya |
| 33. | 050205 | Filologiya (fransız dili və ədəbiyyatı) | Filologiya |
| 34. | 050205 | Filologiya (ingilis dili və ədəbiyyatı) | Filologiya |
| 35. | 050205 | Filologiya (rus dili və ədəbiyyatı) | Filologiya |
| 36. | 050505 | Fizika | Fizika |
| 37. | 050105 | Fizika müəllimliyi | Fizika |
| 38. | 050630 | Mühəndis fizikası | Fizika |
| 39. | 050604 | Geofizika mühəndisliyi | Geologiya |
| 40. | 050506 | Geologiya | Geologiya |
| 41. | 050602 | Geologiya mühəndisliyi | Geologiya |
| 42. | 050611 | Geologiya və geofizika mühəndisliyi | Geologiya |
| 43. | 050603 | Hidrogeologiya mühəndisliyi | Geologiya |
| 44. | 050624 | Mədən mühəndisliyi | Geologiya |
| 45. | 050206 | Hüquqşünaslıq | Hüquq |
| 46. | 050208 | Jurnalistika | Jurnalistika |
| 47. | 050508 | Kimya | Kimya |
| 48. | 050109 | Kimya müəllimliyi | Kimya |
| 49. | 050618 | Kimya mühəndisliyi | Kimya |
| 50. | 050215 | Kitabxanaçılıq və informasiya | Kitabxanaçılıq-informasiya |
| 51. | 050209 | Kitabxanaçılıq və informasiya fəaliyyəti | Kitabxanaçılıq-informasiya |
| 52. | 050205 | Kitabşünaslıq | Kitabxanaçılıq-informasiya |
| 53. | 050510 | Mexanika | Mexanika-riyaziyyat |
| 54. | 050511 | Riyaziyyat | Mexanika-riyaziyyat |
| 55. | 050114 | Riyaziyyat müəllimliyi | Mexanika-riyaziyyat |
| 56. | 050204 | Fəlsəfə | Sosial elmlər və psixologiya |
| 57. | 050111 | Korreksiyaedici təlim | Sosial elmlər və psixologiya |
| 58. | 050211 | Psixologiya | Sosial elmlər və psixologiya |
| 59. | 050807 | Sosial iş | Sosial elmlər və psixologiya |
| 60. | 050213 | Sosiologiya | Sosial elmlər və psixologiya |
| 61. | 050118 | Təhsildə sosial-psixoloji xidmət | Sosial elmlər və psixologiya |
| 62. | 050205 | Filologiya (çin dili və ədəbiyyatı) | Şərqşünaslıq |
| 63. | 050205 | Filologiya (ərəb dili və ədəbiyyatı) | Şərqşünaslıq |
| 64. | 050205 | Filologiya (fars dili və ədəbiyyatı) | Şərqşünaslıq |
| 65. | 050205 | Filologiya (türk dili və ədəbiyyatı) | Şərqşünaslıq |
| 66. | 050212 | Regionşünaslıq (Çin üzrə) | Şərqşünaslıq |
| 67. | 050212 | Regionşünaslıq (ərəb ölkələri üzrə) | Şərqşünaslıq |
| 68. | 050212 | Regionşünaslıq (İran üzrə) | Şərqşünaslıq |
| 69. | 050212 | Regionşünaslıq (İsrail üzrə) | Şərqşünaslıq |
| 70. | 050212 | Regionşünaslıq (Koreya üzrə) | Şərqşünaslıq |
| 71. | 050212 | Regionşünaslıq (Pakistan üzrə) | Şərqşünaslıq |
| 72. | 050212 | Regionşünaslıq (Türkiyə üzrə) | Şərqşünaslıq |
| 73. | 050212 | Regionşünaslıq (Yaponiya üzrə) | Şərqşünaslıq |
| 74. | 050215 | Tərcümə (ərəb dili üzrə) | Şərqşünaslıq |

| | | | |
|---|---|---|---|
| 75. | 050215 | Tərcümə (fars dili üzrə) | Şərqşünaslıq |
| 76. | 050207 | Antropologiya | Tarix |
| 77. | 050212 | Regionşünaslıq (Amerika üzrə) | Tarix |
| 78. | 050212 | Regionşünaslıq (Qafqaz üzrə) | Tarix |
| 79. | 050214 | Tarix | Tarix |
| 80. | 050116 | Tarix müəllimliyi | Tarix |
| 81. | 050615 | İnformasiya təhlükəsizliyi | Tətbiqi riyaziyyat və kibernetika |
| 82. | 050108 | İnformatika müəllimliyi | Tətbiqi riyaziyyat və kibernetika |
| 83. | 050509 | Kompüter elmləri | Tətbiqi riyaziyyat və kibernetika |

**SABAH Qrupları üzrə ixtisaslar:**

| | | | |
|---|---|---|---|
| 1. | 050102 | Biologiya müəllimliyi | SABAH qrupları |
| 2. | 050103 | Coğrafiya müəllimliyi | SABAH qrupları |
| 3. | 050105 | Fizika müəllimliyi | SABAH qrupları |
| 4. | 050206 | Hüquqşünaslıq | SABAH qrupları |
| 5. | 050109 | Kimya müəllimliyi | SABAH qrupları |
| 6. | 050509 | Kompüter elmləri | SABAH qrupları |
| 7. | 050211 | Psixologiya | SABAH qrupları |
| 8. | 050114 | Riyaziyyat müəllimliyi | SABAH qrupları |
| 9. | 050116 | Tarix müəllimliyi | SABAH qrupları |

Əlavə 3

## Pedaqoji kadr hazırlığı üzrə ixtisasların siyahısı

| № | İxtisasın kodu | İxtisasın adı | Fakültə |
|---|---|---|---|
| 1. | 050102 | Biologiya müəllimliyi | Biologiya |
| 2. | 050103 | Coğrafiya müəllimliyi | Coğrafiya |
| 3. | 050101 | Azərbaycan dili və ədəbiyyatı müəllimliyi | Filologiya |
| 4. | 050104 | Dil və ədəbiyyat müəllimliyi (rus dili və ədəbiyyatı) | Filologiya |
| 5. | 050105 | Fizika müəllimliyi | Fizika |
| 6. | 050109 | Kimya müəllimliyi | Kimya |
| 7. | 050114 | Riyaziyyat müəllimliyi | Mexanika-riyaziyyat |
| 8. | 050102 | Biologiya müəllimliyi | SABAH qrupları |
| 9. | 050103 | Coğrafiya müəllimliyi | SABAH qrupları |
| 10. | 050105 | Fizika müəllimliyi | SABAH qrupları |
| 11. | 050109 | Kimya müəllimliyi | SABAH qrupları |
| 12. | 050114 | Riyaziyyat müəllimliyi | SABAH qrupları |
| 13. | 050116 | Tarix müəllimliyi | SABAH qrupları |
| 14. | 050116 | Tarix müəllimliyi | Tarix |
| 15. | 050108 | İnformatika müəllimliyi | Tətbiqi riyaziyyat və kibernetika |

**Əlavə 4**

## Magistratura səviyyəsində ixtisaslaşmaların siyahısı

| № | İxtisaslaşmanın kodu | Elm sahəsi | İxtisaslaşmanın adı | Fakültə |
|---|---|---|---|---|
| 1. | 060101 | Azərbaycan dili və ədəbiyyatı müəllimliyi | Azərbaycan dili və ədəbiyyatının tədrisi metodikası və metodologiyası | Filologiya |
| 2. | 060104 | Fizika müəllimliyi | Fizika fənninin tədrisi metodikası və metodologiyası | Fizika |
| 3. | 060105 | Riyaziyyat müəllimliyi | Riyaziyyatın tədrisi metodikası və metodologiyası | Mexanika-riyaziyyat |
| 4. | 060110 | Kimya müəllimliyi | Kimya fənninin tədrisi metodikası və metodologiyası | Kimya |
| 5. | 060111 | Tarix müəllimliyi | Tarix fənninin tədrisi metodikası və metodologiyası | Tarix |
| 6. | 060112 | Coğrafiya müəllimliyi | Coğrafiya fənninin tədrisi metodikası və metodologiyası | Coğrafiya |
| 7. | 060118 | Təhsildə sosial-psixoloji xidmət | Təhsildə sosial-psixoloji xidmət | Sosial elmlər və psixologiya |
| 8. | 060119 | Pedaqogika | Pedaqogika nəzəriyyəsi və tarixi | Sosial elmlər və psixologiya |
| 9. | | | Təhsildə qiymətləndirmə və monitorinq | Sosial elmlər və psixologiya |
| 10. | | | Sosial pedaqogika | Sosial elmlər və psixologiya |
| 11. | 060201 | Filologiya | Azərbaycan dili | Filologiya |
| 12. | | | Azərbaycan ədəbiyyatı | Filologiya |
| 13. | | | Ədəbiyyatşünaslıq (dünya ədəbiyyatı) | Filologiya |
| 14. | | | Ədəbiyyatşünaslıq (Türk xalqları ədəbiyyatı) | Filologiya |
| 15. | | | Ədəbiyyatşünaslıq (Rus ədəbiyyatı) | Filologiya |
| 16. | | | Ədəbiyyatşünaslıq (Ərəb ədəbiyyatı) | Filologiya |
| 17. | | | Ədəbiyyatşünaslıq (Fars ədəbiyyatı) | Filologiya |
| 18. | | | Ədəbiyyatşünaslıq (Türk ədəbiyyatı) | Filologiya |
| 19. | | | Ədəbiyyatşünaslıq (Yəhudi ədəbiyyatı) | Filologiya |
| 20. | | | Ədəbiyyatşünaslıq (ədəbiyyat nəzəriyyəsi) | Filologiya |

| | | | | |
|---|---|---|---|---|
| 21. | | | Ədəbiyyatşünaslıq (Folklorşünaslıq və mifologiya) | Filologiya |
| 22. | | | Ədəbiyyatşünaslıq (Ədəbi tənqidin nəzəriyyəsi və tarixi) | Filologiya |
| 23. | | | Dilşünaslıq (türkologiya) | Filologiya |
| 24. | | | Dilşünaslıq (ümumi dilçilik üzrə) | Filologiya |
| 25. | | | Dilşünaslıq (fransız dili üzrə) | Filologiya |
| 26. | | | Dilşünaslıq (alman dili üzrə) | Filologiya |
| 27. | | | Dilşünaslıq (Rus dili üzrə) | Filologiya |
| 28. | | | Dilşünaslıq (Ərəb dili üzrə) | Filologiya |
| 29. | | | Dilşünaslıq (Fars dili üzrə) | Filologiya |
| 30. | | | Dilşünaslıq (Türk dili üzrə) | Filologiya |
| 31. | | | Dilşünaslıq (Ibri dili üzrə) | Filologiya |
| 32. | | | Dilşünaslıq (Yapon dili) | Filologiya |
| 33. | | | Təbiətşünaslığın fəlsəfəsi | Sosial elmlər və psixologiya |
| 34. | | | Sosial fəlsəfə | Sosial elmlər və psixologiya |
| 35. | 060202 | Fəlsəfə | Fəlsəfə tarixi | Sosial elmlər və psixologiya |
| 36. | 060203 | Tərcümə | Tərcümə (ərəb dili üzrə) | Şərqşünaslıq |
| 37. | | | Radiotelejurnalistika | Jurnalistika |
| 38. | | | Beynəlxalq jurnalistika | Jurnalistika |
| 39. | | | İdman jurnalistikası | Jurnalistika |
| 40. | | | Jurnalistika nəzəriyyəsi | Jurnalistika |
| 41. | | | Mətbuat tarixi | Jurnalistika |
| 42. | | | Radio-televiziya yayımları menecmenti | Jurnalistika |
| 43. | | | Publisistik jurnalistika | Jurnalistika |
| 44. | | | Media və kommunikasiya sistemləri | Jurnalistika |
| 45. | 060204 | Jurnalistika | Jurnalistika (Sabah) | Jurnalistika |
| 46. | 060205 | Kitabşünaslıq | Nəşriyyat işi və redaktəetmə | Kitabxanaçılıq-informasiya |
| 47. | | | Azərbaycanın qədim və orta əsrlər tarixi | Tarix |
| 48. | | | Asiya və Afrika ölkələrinin tarixi | Tarix |
| 49. | | | Qədim dünya tarixi | Tarix |
| 50. | | | Arxeologiya və etnoqrafiya | Tarix |
| 51. | 060206 | Tarix | Etnologiya | Tarix |

| | | | | |
|---|---|---|---|---|
| 52. | | | Avropa və Amerikanın yeni və ən yeni tarixi | Tarix |
| 53. | | | Türk dünyası tarixi | Tarix |
| 54. | | | Yaxın və Orta Şərqin tarixi | Tarix |
| 55. | | | Orta əsrlər tarixi | Tarix |
| 56. | | | Azərbaycanın yeni və ən yeni tarixi | Tarix |
| 57. | | | Azərbaycan tarixinin mənbəşünaslığı və tarixşünaslığı | Tarix |
| 58. | | | Slavyan ölkələri tarixi | Tarix |
| 59. | | | Qafqaz xalqlarının tarixi | Tarix |
| 60. | | | Antropologiya | Tarix |
| 61. | 060207 | Antropologiya | Mədəni antropologiya | Tarix |
| 62. | 060208 | Politologiya | Milli təhlükəsizlik və siyasi strategiya | Beynəlxalq münasibətlər və iqtisadiyyat |
| 63. | | | Azərbaycanda siyasi proseslər | Beynəlxalq münasibətlər və iqtisadiyyat |
| 64. | | | Konfliktologiya | Beynəlxalq münasibətlər və iqtisadiyyat |
| 65. | | | Uşaq və yaş psixologiyası | Sosial elmlər və psixologiya |
| 66. | | | Klinik psixologiya | Sosial elmlər və psixologiya |
| 67. | 060209 | Psixologiya | Hüquqi psixologiya | Sosial elmlər və psixologiya |
| 68. | | | Sosial psixologiya | Sosial elmlər və psixologiya |
| 69. | | | Pedaqoji psixologiya | Sosial elmlər və psixologiya |
| 70. | | | İnkişaf psixologiyası | Sosial elmlər və psixologiya |
| 71. | | | Ümumi psixologiya | Sosial elmlər və psixologiya |
| 72. | | | Sosioloji tədqiqatların metodikası və metodologiyası | Sosial elmlər və psixologiya |
| 73. | | | Siyasətin sosiologiyası | Sosial elmlər və psixologiya |
| 74. | 060210 | Sosiologiya | İdarəetmənin sosiologiyası | Sosial elmlər və psixologiya |
| 75. | | | Ölkəşünaslıq (Ermənistan üzrə) | Tarix |
| 76. | | | Regionşünaslıq (Amerika üzrə) | Tarix |
| 77. | | | Regionşünaslıq (Qafqaz üzrə) | Tarix |

| | | | | |
|---|---|---|---|---|
| 78. | 060211 | Regionşünaslıq | Ölkəşünaslıq (Türkiyə üzrə) | Tarix |
| 79. | | | Ölkəşünaslıq (Azərbaycan üzrə) | Tarix |
| 80. | | | Ölkəşünaslıq (İtaliya üzrə) | Tarix |
| 81. | | | Ölkəşünaslıq ( Rusiya üzrə) | Tarix |
| 82. | | | Ölkəşünaslıq (Polşa üzrə) | Tarix |
| 83. | | | Ölkəşünaslıq (Yunanıstan üzrə) | Tarix |
| 84. | | | Ölkəşünaslıq (Gürcüstan üzrə) | Tarix |
| 85. | 060212 | Hüquqşünaslıq | Dövlət və hüquq nəzəriyyəsi və tarixi | Hüquq |
| 86. | | | Dövlət hüququ | Hüquq |
| 87. | | | Cinayət hüququ, cinayət prosesi, kriminalistika və məhkəmə ekspertizası | Hüquq |
| 88. | | | Mülki və təsərrüfat hüququ | Hüquq |
| 89. | | | Beynəlxalq hüquq | Hüquq |
| 90. | | | Transmilli cinayət hüququ | Hüquq |
| 91. | | | Kommersiya hüququ | Hüquq |
| 92. | | | Dəniz və enerji hüququ* | Hüquq |
| 93. | | | Avropa hüququ* | Hüquq |
| 94. | | | İnsan hüquqları | Hüquq |
| 95. | | | İnformasiya hüququ | Hüquq |
| 96. | | | İdman hüququ | Hüquq |
| 97. | | | Turizm hüququ | Hüquq |
| 98. | | | Tibbi hüquq | Hüquq |
| 99. | | | İnzibati hüquq, inzibati proses, iqtisadi və maliyyə hüququ | Hüquq |
| 100. | | | Əmək hüququ;sosial təminat hüquq | Hüquq |
| 101. | | | Beynəlxalq iqtisadi hüquq | Hüquq |
| 102. | | | Vergi hüququ | Hüquq |
| 103. | | | Ekologiya hüququ | Hüquq |
| 104. | 060213 | Beynəlxalq münasibətlər | Beynəlxalq münasibətlər və diplomatiya | Beynəlxalq münasibətlər və iqtisadiyyat |
| 105. | | | Müasir dövrdə Yaxın və Orta Şərq ölkələrinin xarici siyasəti | Beynəlxalq münasibətlər və iqtisadiyyat |
| 106. | | | Dünya siyasəti | Beynəlxalq münasibətlər və iqtisadiyyat |

| | | | | |
|---|---|---|---|---|
| 107. | | | Müasir danışıqlar təcrübəsi | Beynəlxalq münasibətlər və iqtisadiyyat |
| 108. | 060215 | Kitabxanaçılıq və informasiya | Kitabxanaşünaslıq | Kitabxanaçılıq - informasiya |
| 109. | | | Kitabxana-informasiya texnologiyası | Kitabxanaçılıq - informasiya |
| 110. | | | Biblioqrafiyaşünaslıq | Kitabxanaçılıq - informasiya |
| 111. | | | Biblioqrafik ehtiyatların yaradılması və istifadəsi | Kitabxanaçılıq - informasiya |
| 112. | | | Sənəd resursları və informasiya-axtarış sistemləri | Kitabxanaçılıq - informasiya |
| 113. | 060216 | Dövlət və ictimai münasibətlər | İctimai siyasət | Beynəlxalq münasibətlər və iqtisadiyyat |
| 114. | 060401 | Dünya iqtisadiyyatı | Beynəlxalq iqtisadi münasibətlər | Beynəlxalq münasibətlər və iqtisadiyyat |
| 115. | | | Gömrük işi | Beynəlxalq münasibətlər və iqtisadiyyat |
| 116. | 060404 | İqtisadiyyat | İqtisadi-riyazi modelləşdirmə | Beynəlxalq münasibətlər və iqtisadiyyat |
| 117. | | | İqtisadiyyatın tənzimlənməsi | Beynəlxalq münasibətlər və iqtisadiyyat |
| 118. | | | Makroiqtisadi siyasət | Beynəlxalq münasibətlər və iqtisadiyyat |
| 119. | | | Turizmin iqtisadiyyatı | Beynəlxalq münasibətlər və iqtisadiyyat |
| 120. | | | Ekonometriya | Beynəlxalq münasibətlər və iqtisadiyyat |
| 121. | | | İqtisadiyyatın hüquqi tənzimlənməsi | Beynəlxalq münasibətlər və iqtisadiyyat |
| 122. | 060407 | Menecment | Menecment(sahələr üzrə) | Beynəlxalq münasibətlər və iqtisadiyyat |
| 123. | 060409 | Biznesin idarə edilməsi (MBA proqramı üzrə) | Biznesin təşkili və idarə edilməsi(maliyyə üzrə) | Beynəlxalq münasibətlər və iqtisadiyyat |
| 124. | 060412 | Davamlı inkişaflın idarə edilməsi | Davamlı inkişafda təbii ehtiyatların idarə edilməsi | Coğrafiya |
| 125. | | | Riyazi analiz | Mexanika-riyaziyyat |

| | | | | |
|---|---|---|---|---|
| 126. | | | Funksional analiz | Mexanika-riyaziyyat |
| 127. | | | Diferensial tənliklər | Mexanika-riyaziyyat |
| 128. | | | Həndəsə | Mexanika-riyaziyyat |
| 129. | | | Cəbr və topologiya | Mexanika-riyaziyyat |
| 130. | | | Hesablama riyaziyyatı | Mexanika-riyaziyyat |
| 131. | | | Optimal proseslərin riyazi nəzəriyyəsi | Mexanika-riyaziyyat |
| 132. | | | Ehtimal nəzəriyyəsi və riyazi statistika | Mexanika-riyaziyyat |
| 133. | | | Əməliyyatlar tədqiqi və sistemli təhlil | Mexanika-riyaziyyat |
| 134. | | | Riyazi kibernetika | Mexanika-riyaziyyat |
| 135. | | | Optimallaşdırma və optimal idarəetmə | Mexanika-riyaziyyat |
| 136. | | | Hesablama diaqnostikası | Mexanika-riyaziyyat |
| 137. | 060501 | Riyaziyyat | Riyazi fizika | Mexanika-riyaziyyat |
| 138. | | | Diskret sistemlər | Mexanika-riyaziyyat |
| 139. | | | Mürəkkəb sistemlərin ehtimal və statistik metodlarla təhlili | Mexanika-riyaziyyat |
| 140. | | | Aktuar riyaziyyat | Mexanika-riyaziyyat |
| 141. | | | Deformasiya olunan bərk cisim mexanikası | Mexanika-riyaziyyat |
| 142. | 060502 | Mexanika | Maye, qaz və plazma mexanikası | Mexanika-riyaziyyat |
| 143. | | | Yüksək enerjilər fizikası | Fizika |
| 144. | | | Nəzəri və riyazi fizika | Fizika |
| 145. | | | | |
| 146. | | | Bərk cismlər fizikası | Fizika |
| 147. | | | Yarımkeçiricilər fizikası | Fizika |
| 148. | | | Yarımkeçirici cihazlar və mikroelektronika | Fizika |
| 149. | 060503 | | İstilik fizikası və molekulyar fizika | Fizika |
| 150. | | | Kvant elektronikası | Fizika |
| 151. | | | Astrofizika | Fizika |
| 152. | | | Bioloji sistemlər fizikası | Fizika |
| 153. | | | Atom və nüvə fizikası | Fizika |
| 154. | | | Radiasiya materialşünaslığı | Fizika |
| 155. | | Fizika | Nanohissəciklər fizikası | Fizika |

| | | | | |
|---|---|---|---|---|
| 156. | | | Bərk cism elektronikası | Fizika |
| 157. | | | Optoelektronika | Fizika |
| 158. | | | Qaz və plazma elektronikası | Fizika |
| 159. | | | Atom və molekul fizikası | Fizika |
| 160. | | | Kimyəvi kinetika və kataliz | Kimya |
| 161. | | | Qeyri-üzvi kimya | Kimya |
| 162. | | | Bərk cisimlər kimyası | Kimya |
| 163. | | | Üzvi kimya | Kimya |
| 164. | | | Fiziki kimya | Kimya |
| 165. | | | Kolloid kimya | Kimya |
| 166. | | | Elektrokimya | Kimya |
| 167. | | | Analitik kimya | Kimya |
| 168. | | | Yüksək molekullu birləşmələr kimyası | Kimya |
| 169. | | | Kompozisiya materialları kimyası | Kimya |
| 170. | | | Ətraf mühit kimyası | Kimya |
| 171. | | | Təbii və fizioloji fəal maddələr kimyası | Kimya |
| 172. | | | Neft kimyası | Kimya |
| 173. | | | Nanomateriallar kimyası | Kimya |
| 174. | | | Ekoloji kimya | Kimya |
| 175. | | | Ekoloji kimyəvi monitorinq | Kimya |
| 176. | 060504 | Kimya | Kimyəvi ekspertiza | Kimya |
| 177. | | | Molekulyar biologiya | Biologiya |
| 178. | | | Biokimya | Biologiya |
| 179. | | | | |
| 180. | | | Biotexnologiya | Biologiya |
| 181. | | | İnsan və heyvan fiziologiyası | Biologiya |
| 182. | | | Bitki fiziologiyası | Biologiya |
| 183. | | | Mikrobiologiya | Biologiya |
| 184. | | | Sənayə mikrobiologiyası | Biologiya |
| 185. | | | Botanika | Biologiya |
| 186. | | | Mikologiya | Biologiya |
| 187. | | | Biofizika | Biologiya |
| 188. | 060505 | Biologiya | Genetika | Biologiya |
| 189. | | | Bitkilərin genetikası və seleksiyası | Biologiya |
| 190. | | | Onurğasızlar zoologiyası | Biologiya |
| 191. | | | Entomologiya | Biologiya |
| 192. | | | Onurğalılar zoologiyası | Biologiya |
| 193. | | | Nanobiotexnologiya | Biologiya |

| | | | | |
|---|---|---|---|---|
| 194. | | | İxtiologiya | Biologiya |
| 195. | | | Ətraf mühitin idarə edilməsi və bioloji monitorinq | Biologiya |
| 196. | 060709 | Su bioehtiyatları və akvabitkilər | Akvabitkilər | Biologiya |
| 197. | | | Su bioehtiyatları | Biologiya |
| 198. | 060506 | Coğrafiya | Landşaftşünaslıq | Coğrafiya |
| 199. | | | Geomorfologiya | Coğrafiya |
| 200. | | | Azərbaycanın və onunla qonşu olan ölkələrin iqtisadi və sosial coğrafiyası | Coğrafiya |
| 201. | | | Dünyanın iqtisadi və sosial coğrafiyası | Coğrafiya |
| 202. | | | İqtisadi və sosial coğrafiya | Coğrafiya |
| 203. | 060507 | Hidrometeorologiya | Fiziki okeanologiya | Coğrafiya |
| 204. | | | Hidrologiya | Coğrafiya |
| 205. | | | İqlimşünaslıq | Coğrafiya |
| 206. | | | Su ehtiyatlarının inteqrasiyalı idarə olunması | Coğrafiya |
| 207. | 060508 | Geologiya | Geokimya | Geologiya |
| 208. | | | Petrologiya | Geologiya |
| 209. | | | Dəniz və okean dibinin geologiyası | Geologiya |
| 210. | | | Regional geologiya | Geologiya |
| 211. | | | Kristallografiya və kristallokimya | Geologiya |
| 212. | | | Paleontologiya və stratiqrafiya | Geologiya |
| 213. | | | Mineralogiya | Geologiya |
| 214. | 060509 | Kompyuter elmləri | Kompüter sistemlərinin və şəbəkələrinin proqram təminatı | Tətbiqi riyaziyyat və kibernetika |
| 215. | | | İqtisadi fəaliyyətin riyazi və informasiya təminatı | Tətbiqi riyaziyyat və kibernetika |
| 216. | | | Optimal idarəetmənin riyazi iqtisadi üsulları | Tətbiqi riyaziyyat və kibernetika |
| 217. | | | İnformatika | Tətbiqi riyaziyyat və kibernetika |
| 218. | | | İnformasiya sistemləri | Tətbiqi riyaziyyat və kibernetika |
| 219. | | | Riyazi modelləşdirmə | Tətbiqi riyaziyyat və kibernetika |
| 220. | | | Mobil tətbiqlərin hazırlanması və oyun dizaynı* | Tətbiqi riyaziyyat və kibernetika |
| 221. | | | Tətbiqi riyaziyyat | Tətbiqi riyaziyyat və kibernetika |

| | | | | |
|---|---|---|---|---|
| 222. | | | İqtisadi informasiya sistemləri | Tətbiqi riyaziyyat və kibernetika |
| 223. | | | Kompüter elmləri və texnologiyalar (SABAH) | Tətbiqi riyaziyyat və kibernetika |
| 224. | | | Ətraf mühitin mühafizə metodları və bərpası | Ekologiya və torpaqşünaslıq |
| 225. | | | Aqrar sahədə ətraf mühitin mühafizəsi | Ekologiya və torpaqşünaslıq |
| 226. | | | Biomüxtəliflik və təbiətin mühafizəsi | Ekologiya və torpaqşünaslıq |
| 227. | 060510 | Ekologiya | Bioekologiya | Ekologiya və torpaqşünaslıq |
| 228. | 060602 | Geologiya mühəndisliyi | Filiz və qeyri-filiz faydalı qazıntı yataqlarının geologiyası | Geologiya |
| 229. | | | Hidrogeologiya | Geologiya |
| 230. | | Hidrogeologiya mühəndisliyi | Hidrogeoekologiya | Geologiya |
| 231. | 060603 | | Mühəndis geologiyası | Geologiya |
| 232. | | | Neft-qaz yataqlarının axtarışı və kəşfiyyatının geofiziki üsulları | Geologiya |
| 233. | 060604 | Geofizika mühəndisliyi | Seysmologiya və seysmometriya | Geologiya |
| 234. | | | Xəritəçilik | Coğrafiya |
| 235. | 060640 | Geodeziya və xəritəçilik mühəndisliyi | Tətbiqi geodeziya | Coğrafiya |
| 236. | | | Geomatika | Coğrafiya |
| 237. | 060641 | Kimya mühəndisliyi | Neft emalı texnologiyası | Kimya |
| 238. | | | Torpağın ekoloji monitorinqi və qorunması | Ekologiya və torpaqşünaslıq |
| 239. | | | Torpaqşünaslıq | Ekologiya və torpaqşünaslıq |
| 240. | 060701 | Torpaqşünaslıq və aqrokimya | Aqrokimya | Ekologiya və torpaqşünaslıq |
| 241. | | | Yer quruluşu və torpaq müfəttişliyi | Ekologiya və torpaqşünaslıq |
| 242. | 060705 | Yer quruluşu, torpaq və şəhər kadastrı | Torpaq kadastrı | Ekologiya və torpaqşünaslıq |
| 243. | | | Beynəlxalq turizm və ölkəşünaslıq | Coğrafiya |
| 244. | 060803 | Turizm və otelçilik | Turizm işi | Coğrafiya |
| 245. | | | Həyat fəaliyyətinin müxtəlif sahələrində sosial iş | Sosial elmlər və psixologiya |
| 246. | 060805 | Sosial iş | Gənclərlə iş | Sosial elmlər və psixologiya |

**Əlavə 5**

## Doktorantura səviyyəsində ixtisasların siyahısı

| № | Elm sahəsi | İxtisasın kodu | İxtisasın adı | Fakültə |
|---|---|---|---|---|
| 1. | Riyaziyyat | 1202.01 | Analiz və funksional analiz | Mexanika riyaziyyat |
| 2. | Riyaziyyat | 1203.01 | Kompüter elmləri | Mexanika riyaziyyat |
| 3. | Riyaziyyat | 1204.01 | Həndəsə | Mexanika riyaziyyat |
| 4. | Riyaziyyat | 1206.01 | Ədədi analiz | Mexanika riyaziyyat |
| 5. | Riyaziyyat | 1207.01 | Əməliyyatlat tədqiqi | Mexanika riyaziyyat |
| 6. | Riyaziyyat | 1208.01 | Ehtimal nəzəriyyəsi | Mexanika riyaziyyat |
| 7. | Riyaziyyat | 1210.01 | Topologiya | Mexanika riyaziyyat |
| 8. | Riyaziyyat | 1211.01 | Differensial tənliklər | Mexanika riyaziyyat |
| 9. | Riyaziyyat | 1214.01 | Dinamik sistemlər və optimal idarəetmə | Mexanika riyaziyyat |
| 10. | Mexanika | 2002.01 | Deformasiya olunan bərk cism mexanikası | Mexanika riyaziyyat |
| 11. | Mexanika | 2003.01 | Maye, qaz və plazma mexanikası | Mexanika riyaziyyat |
| 12. | Astronomiya | 2108.01 | Astrofizika və ulduz astronomiyası | Fizika |
| 13. | Fizika | 2202.01 | Elektromaqnetizm | Fizika |
| 14. | Fizika | 2206.01 | Molekulyar fizika | Fizika |
| 15. | Fizika | 2211.01 | Bərk cismlər fizikası | Fizika |
| 16. | Fizika | 2212.01 | Nəzəri fizika | Fizika |
| 17. | Fizika | 2220.01 | Yarımkeçiricilər fizikası | Fizika |
| 18. | Fizika | 2222.01 | Nanoquruluşluların fizikası və texnologiyası | Fizika |
| 19. | Kimya | 2301.01 | Analitik kimya | Kimya |
| 20. | Kimya | 2303.01 | Qeyri-üzvi kimya | Kimya |
| 21. | Kimya | 2304.01 | Makromalekullar kimyası | Kimya |
| 22. | Kimya | 2306.01 | Üzvi kimya | Kimya |
| 23. | Kimya | 2307.01 | Fiziki kimya | Kimya |
| 24. | Kimya | 2314.01 | Neft kimyası | Kimya |
| 25. | Kimya | 2316.01 | Kimyəvi kinetika və kataliz | Kimya |
| 26. | Kimya | 2317.01 | Nanokimya və nanomateriallar | Kimya |
| 27. | Kimya | 2318.01 | Kompozit materiallar kimyası | Kimya |
| 28. | Kimya | 2391.01 | Ekoloji kimya | Ekologiya və torpaqşünaslıq |
| 29. | Biologiya elmləri | 2401.01 | Zoologiya | Biologiya |

| | | | | |
|---|---|---|---|---|
| 30. | Biologiya elmləri | 2406.01 | Biofizika | Biologiya |
| 31. | Biologiya elmləri | 2406.02 | Biokimya | Biologiya |
| 32. | Biologiya elmləri | 2409.01 | Genetika | Biologiya |
| 33. | Biologiya elmləri | 2411.01 | İnsan və heyvan fiziologiyası | Biologiya |
| 34. | Biologiya elmləri | 2413.01 | Entomologiya | Biologiya |
| 35. | Biologiya elmləri | 2414.01 | Mikrobiologiya | Biologiya |
| 36. | Biologiya elmləri | 2417.01 | Botanika | Biologiya |
| 37. | Biologiya elmləri | 2422.01 | Biotexnologiya (o cümlədən bionanotexnologiyalar) | Biologiya |
| 38. | Biologiya elmləri | 2426.01 | Ekologiya (elm sahələri üzrə) | Ekologiya və torpaqşünaslıq |
| 39. | Yer elmləri | 2504.01 | Geodeziya | Geologiya |
| 40. | Yer elmləri | 2507.01 | Geofizika, faydalı qazıntıla-rın geofiziki axtarış üsulları | Geologiya |
| 41. | Yer elmləri | 2508.01 | Geoekologiya | Geologiya |
| 42. | Yer elmləri | 2511.01 | Torpaqşünaslıq | Ekologiya və torpaqşünaslıq |
| 43. | Yer elmləri | 2515.01 | Petrologiya, vulkonologiya | Geologiya |
| 44. | Yer elmləri | 2520.01 | Bərk faydalı qazıntıların geologiyası, axtarışı və kəşfiyyatı, minerageniya | Geologiya |
| 45. | Yer elmləri | 2528.01 | Yer quruluşu, torpaq kadastrı və monitorinqi | Ekologiya və torpaqşünaslıq |
| 46. | Yer elmləri | 2529.01 | Xəritəşünaslıq, geoinformatika | Geologiya |
| 47. | Texnika elmləri | 3338.01 | Sistemli analiz, idarəetmə və informasiyanın işlənməsi (sahələr üzrə) | Tətbiqi riyaziyyat və kibernetika |
| 48. | Texnika elmləri | 3356.01 | Kitabxanaşünaslıq, biblioq-rafiyaşunaslıq və kitabşü-naslıq | Kitabxanaçılıq-İnformasiya |
| 49. | Antropologiya | 5101.01 | Mədəni antropologiya | Tarix |
| 50. | Antropologiya | 5102.01 | Etnoqrafiya və etnologiya | Tarix |
| 51. | İqtisad elmləri | 5301.01 | Daxili fiskal siyasət və dövlət maliyyəsi | Beynəlxalq münasi-bətlər və iqtisadiyyat |
| 52. | İqtisad elmləri | 5302.01 | Ekonometriya, iqtisadi statistika | Beynəlxalq münasi-bətlər və iqtisadiyyat |
| 53. | İqtisad elmləri | 5304.01 | İqtisadi fəaliyyətin növləri | Beynəlxalq münasi-bətlər və iqtisadiyyat |
| 54. | İqtisad elmləri | 5307.01 | İqtisadi nəzəriyyə | Beynəlxalq münasi-bətlər və iqtisadiyyat |
| 55. | İqtisad elmləri | 5308.01 | Ümumi iqtisadiyyat | Beynəlxalq münasi-bətlər və iqtisadiyyat |
| 56. | İqtisad elmləri | 5310.01 | Dünya iqtisadiyyatı | Beynəlxalq münasi-bətlər və iqtisadiyyat |

| | | | | |
|---|---|---|---|---|
| 57. | İqtisad elmləri | 5311.01 | Müəssisələrin təşkili və idarə olunması | Beynəlxalq münasibətlər və iqtisadiyyat |
| 58. | İqtisad elmləri | 5312.01 | Sahə iqtisadiyyatı | Beynəlxalq münasibətlər və iqtisadiyyat |
| 59. | Coğrafiya | 5401.01 | İqtisadi coğrafiya | Coğrafiya |
| 60. | Coğrafiya | 5402.01 | Tarixi coğrafiya, siyasi və rekreasiya coğrafiyası | Coğrafiya |
| 61. | Coğrafiya | 5406.01 | Hidrologiya | Coğrafiya |
| 62. | Coğrafiya | 5408.01 | Fiziki coğrafiya və biocoğrafiya, torpaq coğrafiyası, landşaftların geofizikası və geokimyası | Coğrafiya |
| 63. | Coğrafiya | 5411.01 | Meteorologiya | Coğrafiya |
| 64. | Tarix | 5502.01 | Ümumi tarix | Tarix |
| 65. | Tarix | 5503.01 | Ölkələr tarixi | Tarix |
| 66. | Tarix | 5503.02 | Vətən tarixi | Tarix |
| 67. | Tarix | 5507.01 | Beynəlxalq münasibətlər tarixi | Tarix |
| 68. | Tarix | 5508.01 | Tarixi coğrafiya | Tarix |
| 69. | Tarix | 5509.01 | Tarixşünaslıq, mənbəşünaslıq və tarixi tədqiqat üsulları | Tarix |
| | Hüquq elmləri | 5603.01 | Beynəlxalq hüquq; insan hüquqları | Hüquq |
| 70. | Hüquq elmləri | 5606.01 | Dövlət və hüquq nəzəriyyəsi və tarixi; hüquq və dövlət haqqında təlimlər tarixi | Hüquq |
| 71. | Hüquq elmləri | 5607.01 | Konstitusiya hüququ; bələdiyyə hüququ | Hüquq |
| 72. | Hüquq elmləri | 5608.01 | Mülki hüquq, sahibkarlıq hüququ, ailə hüququ, beynəlxalq xüsusi hüquq | Hüquq |
| 73. | Hüquq elmləri | 5609.01 | Əmək hüququ, sosial təminat hüququ | Hüquq |
| 74. | Hüquq elmləri | 5610.01 | Təbii ehtiyatlar hüququ; aqrar hüquq; ekologiya hüququ | Hüquq |
| 75. | Hüquq elmləri | 5611.01 | Cinayət hüququ və kriminologiya, cəza -icra hüququ | Hüquq |
| 76. | Hüquq elmləri | 5612.01 | Cinayət prosesi, kriminalistika və məhkəmə ekspertizası; əməliyyat-axtarış fəaliyyəti | Hüquq |
| 77. | Hüquq elmləri | 5614.01 | İnzibati hüquq; maliyyə hüququ; informasiya hüququ | Hüquq |
| 78. | Hüquq elmləri | 5615.01 | Mülki proses | Hüquq |
| 79. | Filologiya elmləri | 5704.01 | Dil nəzəriyyəsi | Filologiya |
| 80. | Filologiya elmləri | 5706.01 | Azərbaycan dili | Filologiya |

| | | | | |
|---|---|---|---|---|
| 81. | Filologiya elmləri | 5707.01 | Slavyan dilləri | Filologiya |
| 82. | Filologiya elmləri | 5710.01 | Türk dilləri | Filologiya |
| 83. | Filologiya elmləri | 5711.01 | Iran dili | Filologiya |
| 84. | Filologiya elmləri | 5713.01 | Sami dilləri | Filologiya |
| 85. | Filologiya elmləri | 5714.01 | Müqayisəli- tarixi və müqayisəli tipoloji dilcilik | Filologiya |
| 86. | Filologiya elmləri | 5715.01 | Ədəbiyyat nəzəriyyəsi, ədəbi tənqid və təhlil | Filologiya |
| 87. | Filologiya elmləri | 5716.01 | Azərbaycan ədəbiyyatı | Filologiya |
| 88. | Filologiya elmləri | 5717.01 | Türk xalqları ədəbiyyatı | Filologiya |
| 89. | Filologiya elmləri | 5718.01 | Dünya ədəbiyyatı | Filologiya |
| 90. | Filologiya elmləri | 5719.01 | Folklorşünaslıq | Filologiya |
| 91. | Filologiya elmləri | 5720.01 | Jurnalistika | Jurnalistika |
| 92. | Pedaqogika | 5801.01 | Təlim və tərbiyənin nəzəriyyəsi və metodikası (təhsilin sahələri və səviyyələri üzrə ) | Sosial elmlər və psixologiya |
| 93. | Pedaqogika | 5802.01 | Təhsilin təşkili və planlaşdırılması | Sosial elmlər və psixologiya |
| 94. | Pedaqogika | 5803.01 | Müəllim hazırlığı fəaliyyəti | Sosial elmlər və psixologiya |
| 95. | Pedaqogika | 5804.01 | Ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi | Sosial elmlər və psixologiya |
| 96. | Pedaqogika | 5805.01 | Korreksiya pedaqogikası | Sosial elmlər və psixologiya |
| 97. | Siyasi elmlər | 5901.01 | Beynəlxalq münasibətlər | Beynəlxalq münasibətlər və iqtisadiyyat |
| 98. | Siyasi elmlər | 5904.01 | Siyasi institutlar və sistemlər | Beynəlxalq münasibətlər və iqtisadiyyat |
| 99. | Siyasi elmlər | 5908.01 | Siyasi nəzəriyyə | Beynəlxalq münasibətlər və iqtisadiyyat |
| 100. | Psixologiya | 6102.01 | Yeniyetmə və uşaq psixologiyası | Sosial elmlər və psixologiya |
| 101. | Psixologiya | 6103.01 | Tövsiyə və rəhbərlik | Sosial elmlər və psixologiya |
| 102. | Psixologiya | 6104.01 | Pedaqoji psixologiya | Sosial elmlər və psixologiya |
| 103. | Psixologiya | 6105.01 | Psixologiyada qiymətləndirmə və ölçmə | Sosial elmlər və psixologiya |
| 104. | Psixologiya | 6106.01 | Eksperimental psixologiya | Sosial elmlər və psixologiya |
| 105. | Psixologiya | 6107.01 | Ümumi psixologiya | Sosial elmlər və psixologiya |
| 106. | Psixologiya | 6108.01 | Geriatrik psixologiya | Sosial elmlər və psixologiya |
| 107. | Psixologiya | 6110.01 | Parapsixologiya | Sosial elmlər və psixologiya |

| | | | | |
|---|---|---|---|---|
| 108. | Psixologiya | 6111.01 | Şəxsiyyətin psixologiyası | Sosial elmlər və psixologiya |
| 109. | Psixologiya | 6114.01 | Sosial psixologiya | Sosial elmlər və psixologiya |
| 110. | Psixologiya | 6116.01 | Tibbi psixologiya | Sosial elmlər və psixologiya |
| 111. | Psixologiya | 6117.01 | Hüquqi psixologiya | Sosial elmlər və psixologiya |
| 112. | Sosiologiya | 6301.01 | Mədəni sosiologiya | Sosial elmlər və psixologiya |
| 113. | Sosiologiya | 6303.01 | Ümumi sosiologiya | Sosial elmlər və psixologiya |
| 114. | Sosiologiya | 6307.01 | Sosial dəyişikliklər və inkişaf | Sosial elmlər və psixologiya |
| 115. | Sosiologiya | 6310.01 | Sosial problemlər | Sosial elmlər və psixologiya |
| 116. | Sosiologiya | 6312.01 | Sosiologiyanın nəzəriyyəsi, metodologiyası  və tarixi | Sosial elmlər və psixologiya |
| 117. | Sosiologiya | 6313.01 | Sosial strukturlar,  sosial institutlar və proseslər | Sosial elmlər və psixologiya |
| 118. | Sosiologiya | 6314.01 | Sosial iş | Sosial elmlər və psixologiya |
| 119. | Fəlsəfə | 7203.01 | Ümumi fəlsəfə | Sosial elmlər və psixologiya |
| 120. | Fəlsəfə | 7206.01 | Təbiətşünaslığın fəlsəfəsi | Sosial elmlər və psixologiya |
| 121. | Fəlsəfə | 7207.01 | Sosial fəlsəfə | Sosial elmlər və psixologiya |
| 122. | Fəlsəfə | 7210.01 | Fəlsəfə tarixi | Sosial elmlər və psixologiya |
| 123. | Fəlsəfə | 7214.01 | Dinin tarixi və fəlsəfəsi | Sosial elmlər və psixologiya |

**Əlavə 6**

## Qazax filialında bakalavriat səviyyəsi üzrə ixtisasların siyahısı

| № | İxtisasın kodu | İxtisasın adı | Fakültə |
|---|---|---|---|
| 1. | 050101 | Azərbaycan dili və ədəbiyyatı müəllimliyi | Pedaqoji |
| 2. | 050103 | Coğrafiya müəllimliyi | Pedaqoji |
| 3. | 050205 | Filologiya (Azərbaycan dili və ədəbiyyatı) | Pedaqoji |
| 4. | 050105 | Fizika müəllimliyi | Pedaqoji |
| 5. | 050106 | Fiziki tərbiyə və çağrışaqədərki hazırlıq müəllimliyi | Pedaqoji |
| 6. | 050107 | İbtidai sinif müəllimliyi | Pedaqoji |
| 7. | 050108 | İnformatika müəllimyi | Pedaqoji |
| 8. | 050110 | Kimya və biologiya müəllimliyi | Pedaqoji |
| 9. | 050112 | Məktəbəqədər təhsil | Pedaqoji |
| 10. | 050114 | Riyaziyyat müəllimliyi | Pedaqoji |
| 11. | 050115 | Riyaziyyat və informatika müəllimliyi | Pedaqoji |
| 12. | 050807 | Sosial iş | Pedaqoji |
| 13. | 050214 | Tarix | Pedaqoji |
| 14. | 050116 | Tarix müəllimliyi | Pedaqoji |
| 15. | 050117 | Tarix və coğrafiya müəllimliyi | Pedaqoji |
| 16. | 050118 | Təhsildə sosial-psixoloji xidmət | Pedaqoji |
| 17. | 050810 | Turizim işinin təşkili | Pedaqoji |
| 18. | 050810 | Turizm və otelçilik | Pedaqoji |

## Qazax filialında magistratura səviyyəsi üzrə ixtisasların siyahısı

| № | İxtisasın kodu | İxtisasın adı | Fakültə |
|---|---|---|---|
| 1. | 060101 | Azərbaycan dili və ədəbiyyatı müəllimliyi | Pedaqoji |
| 2. | 060115 | İbtidai sinif müəllimliyi | Pedaqoji |
| 3. | 060113 | İnformatika müəllimyi | Pedaqoji |
| 4. | 060117 | Məktəbəqədər təlim və tərbiyə | Pedaqoji |
| 5. | 060805 | Sosial iş | Pedaqoji |
| 6. | 060206 | Tarix | Pedaqoji |
| 7. | 060803 | Turizm və otelçilik | Pedaqoji |

**Əlavə 7**

**BDU kafedralarının elmi-tədqiqat institutları və digər təşkilatlarda yaradılmış filialları**

| № | Kafedranın adı | Filialın açıldığı təşkilat | Filialın açıldığı tarix (əmr, müqavilə) |
|---|---|---|---|
| 1 | Neft kimyası və kimya texnologiyası kafedrası | Akademik Ə.Quliyev adına Aşqarlar Kimyası İnstitutu | 22.12.2013-cü il tarixli, R-132 saylı əmr |
| 2 | Fiziki və kolloid kimya | M.F.Nağıyev adına Kataliz və Qeyri-Üzvi Kimya İnstitutu | 16.12.2013-cü il tarixli müqavilə |
| 3 | Astrofizika | Şamaxı Astrofizika Rəsədxanası | 02.12.2019-cu il tarixli R-153 nömrəli əmr |
| 4 | Coğrafiya fakültəsinin filialı | H.Ə.Əliyev adına Coğrafiya İnstitutu | 25.12.2013-cü il tarixli R-148 nömrəli əmr |
| 5 | Hidrometeorologiya | "Azərsu" Açıq Səhmdar Cəmiyyəti | 13.02.2017-ci il tarixli R-06 nömrəli əmr |
| 6 | Torpaqşünaslıq | Torpaqşünaslıq və Aqrokimya İnstitutu | 07.05.2018-ci il tarixli R-47 nömrəli əmr |
| 7 | Seysmologiya və Yer təkinin fizikası | Geologiya və Geofizika İnstitutu | 08.04.2013-cü il tarixli R-37 nömrəli əmr |
| 8 | Botanika | Dendrologiya İnstitutu | 01.09.2015-ci il tarixli R-77 nömrəli əmr |
| 9 | | Botanika İnstitutu | 30.03.2015-ci il tarixli R-27 nömrəli əmr |
| 10 | | Mərkəzi Nəbatat Bağı | 01.12.2017-ci il tarixli müqavilə |
| 11 | Genetika və təkamül tarixi | Genetik Ehtiyatlar İnstitutu | 27.05.2014-cü il tarixli müqavilə |
| 12 | İnsan və heyvan fiziologiyası | Akademik A.İ.Qarayev adına Fiziologiya İnstitutu | 22.12.2017-ci il tarixli müqavilə |
| 13 | Əqli mülkiyyət hüququ | Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyi | 08.07.2022-ci il tarixli müqavilə |